كتاب
بطال غازى

ЮН СЮЗ

Türk millətinin tarixində İslamiyyətin qəbulu ən önəmli dönüş nöqtəsi olmuşdur desək, yanılmarıq. Müsəlman mədəniyyətinin türk elminə və təhsilinə təsiri danılmaz həqiqətdir. Prof. dr. Əbdülqadir Karahanın dili ilə desək "İslamiyyet Türk milleti için yeni ileriye götürücü, eski dinlerinden çok daha inandırıcı ve gerçek bir kuvvet kaynağı olmuştur" (12, s.59). Bu yeniliklərlərin, türk dili və ədəbiyyatının inkişafına güclü təsiri də məlumdur. XII-XIII yüzilliklərdə Anadoluda təsəvvüf və qəhrəmanlıq mövzusunda, xalq ədəbiyyatı üslubunda müqəddəs kitabımız Qurani-kərimin əlifbası ilə əsərlər yazan mütəfəkkir yazıçılarla yanaşı, müəllifsiz, xalq tərəfindən dini mövzular altında yaranan dastanlar yazılı ədəbiyyata gətirilirdı (**12**, 128). Bu dastanlar türk mədəniyyəti tarixində çox önəmli yer tutmuşlar. Şahlardan, sultanlardan, müharibələrin gedişindən bəhs edən dastanlar, şifahi variantlarda gəzərək sinədəftər adamlar tərəfindən məclislərdə söylənmiş, ağızdan-ağıza keçərək təkmilləşmiş, yazılı ədəbiyyat üçün xam mənbə rolunu oynamış və nəticədə müəllifi bəlli olmayan dini, tarixi, qəhrəmanlıq dastanları meydana gəlmişdir. Dastanların müdrük adamlar tərəfindən qorunub saxlanılması bunların toplanıb yazıya köçürülməsi yuxarıda göstərdiyimiz kimi belə abidələrin özündən sonra yaranan yazılı ədəbiyyatın inkişafına da böyük təsiri olmuşdur. Yazılı abidələr tarixi həqiqətləri, baş vermiş hadisələri, coğrafi yer adlarını tarixi şəxsiyyətləri gələcək nəslə tanıtmış, həmçinin yazı dili və danışıq dili üçün bir qaynaq olmaqdadır (**1**, 40-50). Bu abidələrdən biri, bəlkə də birincisi türk xalqının əsrlər boyunca sevərək oxuduğu, maraqla dinlədiyi "Battal Qazi" dastanıdır. Dini, tarixi qəhrəmanlıq dastanı olan "Battal Qazi"nin əsasında Əməvilərin Bizansa yürüşlərində orduya başçılıq etmiş, ərəbcə "bahadır", "igid", "qəhrəman" bəzi türk mənbələrində isə "vaz keçdi", "çaydı" mənası daşıyan "Battal" ləqəbli bir şəxsin bu torpaqlarda İslamı yay-

maq uğrunda şücaətlə mübarizə aparmasından bəhs edilir. Mənbələrin məlumatına əsasən, Əməvi ordusunun komandanı olmuş bu müstəsna savaşçı tarixi şəxsiyyət olaraq Malatyada doğulmuş, Anadolu torpaqlarında "Əskişəhər" yaxınlığındakı "Seyyid Qazi" qəsəbəsində əbədiyyətə qovuşmuşdur. Onun şəhadətindən yüz il keçdikdən sonra mənqəbələrini türk xalqı xəyalında formalaşdıraraq, XII-XIII yüzilliklərdən başlayaraq məclislərdə, meydanlarda oxumuşlar. Əsrlərdən bəri türk xalqı arasında geniş yayılan "Battal Qazi" dastanının istər əlyazma, istərsə də mətbu nüsxələri bu çağa qədər hər bir türk kəndlisinin evində qorunub saxlanılmaqdadır (22,s.159-166).

Dünyanın bir çox ölkələrinin, o cümlədən İngiltərə, Fransa, İtaliya, Almaniya, Sankt Peterburq kimi şəhərlərin məhşur kitabxanalarında dastanın nüsxələrinin varlığı haqqında müasir şərq əlyazma kataloqları xəbər verir. "Battal Qazi" və ya "Battal-namə" nüsxələrinin istər həcm, istərsə də məzmun cəhətdən fərqli olması və bir mənzum şəklinin də mövcudluğu barədə türk alimlərinin yazılarında tanış oluruq.

7000 beytdən ibarət olan mənzum "Battal Qazi" dastanı III Mustafanın dövründə dastanın nəsr variantı əsasında Darəndəli Bəqai (1757-1774) tərəfindən bir qədər qısaldılmış şəkildə qələmə alınmışdır. Dastanın nüsxələri Türkiyənin xaricində yaşayan digər türk xalqları arasında da geniş yayılmışdır. Bunun səbəbi əlbəttə ki, türk xalqlarının dil, din birliyi və dərin tarixi köklərlə bir-birinə bağlılığıdır. Mötəbər mənbələrə əsaslanaraq yuxarıda qeyd etdiyimiz kimi, türk xalqlarının yaşadığı Türküstan və Tatarıstan respublikalarında da bu dastan çox məşhurdur. "Mənaqibi-qəzavəti-Seyyid-Battal Qazi" adı ilə dəfələrlə təkrar nəşr edilmiş, dastanın dili də bu ölkələrdə doğma danışıq şivələrinə uyğunlaşdırılmış, hətta bu xalqlar dastanın qəhrəmanlarını öz torpaqlarının övladı kimi qəbul etmişlər (**14**, 344-351).

Türkiyə və Azərbaycan respublikaları arasında din və dil birliyindən başqa mədəni-ədəbi əlaqələr də uzun əsrlərdir ki,

davam edir. Bunun bariz nümunələrindən biri milli mənəvi dəyərlər ocağı olan Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun xəzinəsində çoxsaylı türk əlyazmalarının qorunaraq saxlanılmasıdır. Bu zəngin abidələr arasında yuxarıda haqqında danışdığımız "Battal Qazi" dastanının dörd nüsxəsi saxlanılmaqdadır. Nüsxələrin üçü V-86, XVI-165, X-1080 şifri altında mühafizə olunan və Türkiyə mətbəəsinin əski daşbasma çapı, biri isə B-7698 şifrli əlyazma nüsxəsidir. Uzun illər boyu Azərbaycan türkləri türk-İslam mədəniyyətinə doğru can atmış olsalar da, Sovet rejimi dövründə bu mövzu ilə bağlı çalışmalara qadağa qoyulduğundan insanların bilik dairəsi də məhdud idi. Lakin son illər müstəqillik əldə edən ölkəmizdə, türkçülük və İslamla bağlı bir çox işlərlə yanaşı, əlyazma abidələrinin tədqiqi və nəşri də sürətlə artmaqdadır. Çox təəssüf ki, XII-XIII əsrlərdə yazıya alınması təxmin edilən, müsəlman və Avropa alimlərinin tədqiqat obyektinə çevrilmiş "Kitabi-Seyyid Battal Qazi" dastanının Bakı nüsxəsi, uzun zamanlar diqqətdən kənarda qaldığına görə nəşr olunmamış və lazımi qədər tədqiq edilməmişdir. Xatırladaq ki, Battal Qazi dastanı ən çox Türkiyə ərazisində istər əlyazma, istərsə də çap nüsxələri şəklində tədqiq olunmuş türk xalqının sevimli ədəbi mövzularından biri kimi onunla bağlı filmlər belə çəkilmişdir. Yeri gəlmişkən dastanın tədqiqi və nəşri tarixinin bəzi məqamlarına nəzər yetirməyi lazım bilirik. "Battal Qazi" dastanının mətnşünaslıq baxımından tədqiqinə ilk dəfə 1871-ci ildə Alman alimləri H.Fleişer, H.Etye tərəfindən başlanmışdır. Alimlər bir neçə əlyazmanın müqayisəsi əsasında hazırladıqları mətni alman dilinə tərcümə edərək zəngin nəşrlərə nail olmuşlar. Türkiyədə isə ilk dəfə "Battal Qazi"ni tədqiq edən şərqşünas alim, prof. M.F.Köprülüzadə, 1918-ci ildə nəşr etdirdiyi "Türk ədəbiyyatında ilk mütəsəvvüflər" əsərində Battalın nəsil-nəcabətindən söhbət açmış, onu əfsanəvi türk qəhrəmanı kimi qiymətləndirmişdir. M.F.Köprülüzadə 1928-ci ildə nəşr edilən "Türk ədəbiyyatı tarixində" də

(18, s. 295-303); (19, s. 28) adı kecən dastanın elm aləmində tədqiq olunan bütün nəticələri və Battal mənqəbələri haqqında geniş izahatlar vermişdir. Bu tədqiqatiardan sonra Seyyid Battal və onunla əlaqəli məsələlər üzərində çalışan, Bizans və İslam filologiyası ilə məşğul olan bir sıra alimlər tərəfindən araşdırmalar aparılmış və mükəmməl nəticələrə nail olmuşlar. Daha sonralar 1929-30-cu illərdə M.Henri Qreqoire tərəfindən Bizanslıların məşhur "Akritas" dastanı ilə "Seyyid Battal" arasındakı əlaqələr müəyyənləşdirilmişdir. M.Qanard, R.Qoossens, P.Kuruakides kimi alimlər tərəfindən ərəblərin məşhur "Dəlhimmə" ("Zatül-himmə", "Zül-himmə") dastanı ilə türk dastanı "Battalnamə" arasındakı oxşar cəhətlərə aydınlıq gətirən tədqiqatların müəlliflərinin adlarını qeyd etməmək mümkün deyildir (13, s. 206). Türkiyədə "Seyyid Battal" dastanını tədqiq edən B.M. Qocatürk, P. Boratov, Ə. Kabaklı, H. Köksal, N. Demir, İ. Məlikovanın, Azərbaycanda isə dastanın Bakı nüsxələri haqqında ilk məlumatı verən A. Musabəyli kimi alimlərin işləri təqdirə layiqdir.

Qaynaqlara söykənərək İslam ensiklopediyasındakı yazılarında P. Boratav "Battalnamə" haqqında əhatəli təhlil vermişdir. Battalın tarixi-mənqəbəvi şəxsiyyəti, ədəbiyyatda Battal adı, türkcə Battal romanı, mənzum Battal romanı, xalq şairləri və Battal kimi məsələlərdən bəhs etmişdir. Fransadakı Strasburq Universitetinin tanınmış türkoloq alimi İ. Məlikova 1988-ci ildə "Ədəbiyyat və İncəsənət" qəzetində "Babək Xürrəmi və Seyyid Battal" məqaləsi ilə çıxış edərək "Seyyid Battal" dastanlarında epizodik hadisələrdən birini, Babək üsyanını IX əsr Abbasi xəlifələrindən olan Mötəsim zamanında olduğunu nəzərə çatdırır. Alim dastandakı Battal obrazını gerçəkdən tarixi ünsür hesab edir, Babəklə Battal arasında müqayisələr aparır (**10**).

Peterburq Şərqşünaslıq İnstitutunun elmi işçisi V.S. Qarbuzovanın 1959-cu ildə nəşr etdirdiyi "Məlik Əhməd Danişmənd" dastanının "tarixi filoloji tədqiqi" adlı monoqrafiyasını

yazarkən adı keçən dastandan bir əsr əvvəl yazılmış, eyni stilli "Battalnamə" dastanına da toxunmuş, onu tədqiq edən türk alimləri M.F. Köprülünün, H.Ə. Yücelen, xüsusilə Rusiya alimi V.O. Smirnovun əsərlərinə müraciət edərək bu qaynaqlardan bəhrələnmişdir (**22**, 85-92).

2004-cü ildə Bakı şəhərində "Türk xalqlarının ədəbi keçmişi: türk dastanları" adı altında keçirilmiş simpoziumda Türkiyə Fatih Universitetinin müəllimi Dr. Əli Yıldız "Battal Qazi" dastanında "Tasavvuf və Sembolizm" məqaləsi ilə çıxış etmişdir. Məqalədə müəllif "Türklerin İslami kabulünden sonra teşekkül etmege başlayan "Battal Qazi" dastanı, benzerlərini kölgədə bırakarak niçin bu kadar tutulmuş, benimsenilmişdir?". Qarşısına çıxan problemə cavab tapmaq üçün müəllif təsəvvüfü əsas tutaraq dastanı təhlil etmiş və bunsuz "Battal Qazi" dastanına yaxınlaşmanın mümkünsüzlüyünü izah etmişdir. "Battal Qazi Allahın yaratdığı bir nurdur" deyən müəllif onun Hz. Məhəmmədin (s) soyundan olmasını vurğulamış, Peyğəmbərin vəfatından sonra Əhli-beytin (ə) Battal Qaziyə qədərki nəslinin ardıcıl, sistemli şəkildə vermiş və birbaşa Peyğəmbərin varisi olması haqqındakı fikrini açıqlamışdır. Həcmcə iri olan bu məqalədə müəllif dastanın məzmununu əvvəldən sona qədər şərh etmiş və Şeyxül-əkbər Mühyiddin ibn Ərəbinin "Tədbirati-İlahiyyə" Yunus Əmrənin "Risalətün-Nushiyyə" adlı məsnəvisindən nümunələr gətirərək qarşılıqlı müqayisələr aparmışdır. (**21**, 159-166)

"Battal Qazi" dastanının Bakı nüsxələrinin varlığı haqqında ilk məlumatı 1998-ci ildə ardıcıl iki məqalə dərc etdirməklə mətnşünas alim, f.e.d. Azadə Musabəyli vermişdir. Alim "Battal Qazi dastanının Bakı əlyazması" məqaləsində dastanın Əlyazmalar İnstitutunda qorunan daşbasma nüsxələri barədə məlumat vermiş, onların paleoqrafik təsviri zamanı V-86 şifrli daşbasma kitabının N. Nərimanova məxsus olduğunu müəyyən etmişdir (**9**). O, həmçinin həmin ildə nəşr etdirmiş "Battal Qazi" dastanının sözügedən B-7698 şifrəli əlyazmanın, tanın-

mış dilçi alim, prof. Əbdüləzəl Dəmirçizadənin Əlyazmalar İnstitunun arxivində saxlanılmasını aşkarlamış və elmi-paleoqrafik təsvirini vermişdir. Bu məqalələr təkcə abidənin əlyazma və çap nüsxələri haqqında deyil, ümumiyyətlə dastan haqqında Azərbaycanda ilk və yeganə tədqiqatlar sayıla bilər (**8**). “Battal Qazi” tədqiqi və nəşri bununla bitmir. Bunları nəzərdən keçirdikcə dastan ətrafındakı tədqiqatların əksəriyyətinin məqalə xarakterli olmasını müşahidə edirik. Əlbəttə ki, bu əsərlər türk elmində və Azərbaycanda ilk tədqiqatlar baxımından çox dəyərlidir. Dastanın tədqiqi üçün geniş təsəvvür və dəqiq faktlar verir. Lakin Türkiyədə yaranan ilk yazılı abidə kimi daha geniş tədqiqatlara layiq olma prinsipi ilə apardığımız axtarışlar zamanı qarşımıza yard. doç. dr. Həsən Köksalın tərtibatı ilə “Battal Qazi” dastanının 2003-cü il nəşri çıxır. Kitabın giriş hissəsindən məlum olur ki, Həsən Köksal 1981-1983-cü illər “Battalnamələrdə tip və motiv yapısı” adlı doktorluq işini tamamlamış, alimlik dərəcəsi almışdır. Bu fikirdən məlum olur ki, H.Köksal “Battalnamə”lər ətrafındakı tədqiqatlarından sonra ”Battal Qazi”nin nəşrinə qərar vermişdir. Kitabın “Sözbaşı” deyilən hissəsində isə dastan haqqında ümumi bilgilər verilmişdir. 327 səhifəlik bu əsərin sonunda, 1206 (h) tarixi qeyd olunmuşdur ki, bu da kitabın qədim əlyazma əsasında nəşr olunduğunu güman etməyə əsas verir. Lakin nəşr olunmuş dastanı nəzərdən keçirdikcə aydın olur ki, Hasan Köksalın tərtib etdiyi mətn çağdaş türk dilinə uyğunlaşdırılmış çətin anlaşılan ərəb və fars sözləri alınma Avropa sözləri ilə əvəz edilmişdir. Həmin mətndəki kontrol (yoxlama), banyo (hamam), panik (qül-qülə), risk (təhlükə) kimi yabançı sözlər qədim tarixə malik olan abidənin dilinə xələl gətirəcək dərəcədə müasirlik vermiş və onu orijinaldan uzaqlaşdırmışdır (**20**,1-14). Prof. dr. Nəcati Dəmir bu nəşri təqdirəlayiq bir iş kimi qiymətləndirərək yazır: “Türkiyede “Battal Qazi” dastanı konusunda yapılmış üç çalışma dikkati çekmektedir. Bunların ilki ve hiç şüphesiz en önemlisi Hasan Köksal tarafından hazırlanan

“Battalnamelerde Tip ve Motif Yapısı” adlı çalışmadır. Diger çalışma da Köksala aitdir”

Son zamanlar isə “Battal Qazi” dastanı haqqında bilgilərimizi daha da genişləndirmək imkanı yaradan, diqqətə layiq iki yeni Türkiyə nəşri ilə tanış olmuşuq. Bu kitabların müəllifi gənc yaşlarından yaradıcılığını Türk xalq ədəbiyyatına, xüsusilə dastanların tədqiqi və nəşrinə həsr etmiş və bu istiqamətdə yüksək elmi nailiyyətlər qazanmış məhsuldar alim, Prof. dr. Nəcati Dəmirdir. “Battal-name” və “Battal Qazi” başlıqları altında dastanı iki variantda Prof. dr. N.Dəmir, yrd. doç. dr. Mehmed Dursun Ərdəm ilə birlikdə 2006-cı ildə “Hece” yayımları mətbəəsində öz şəxsi vəsaitləri hesabına nəşr etdirmişlər. N.Dəmir “Battalnamə”dən qaynaqlanan digər türk dastanları “Danişmənd-namə” və “Saltıq-namə” abidələrinə də biganə qalmamış, elə həmin ildə hər iki dastanı nəşr etdirmişdir (**16**, 9-11). Alim “Battal-namə” dastanının tənqidi mətnini qurarkən bütün nüsxələrindən istifadə etmiş, əskik, naqis nüsxələri tutuşdurmuş, XIII yüzilliyin sonu və ya XIV əsrin birinci yarısı basılmış daşbasma çapına əsaslanaraq mətni nəşrə hazırlamışdır. Nüsxənin həqiqətən 1800-cü ilə aid olmasını dil özəlliklərinin təhlili vasitəsilə sübuta yetirmişdir. Kitab “Ön söz”, ”Giriş”, 62 səhifədən ibarət tədqiqat işindən, “Battal-namə”nin əski Türkiyə türkcəsi ilə mətnindən və özəl adların izahatından ibarətdir. (**15**, 19-26) Yuxarıda qeyd etdiyimiz “Battal-namə” ilə eyni tarixdə nəşr olunmuş digər kitab “Battal Qazi” dastanıdır. Bunları fərqləndirən cəhət “Battal Qazi” dastanının müasir Türkiyə türkcəsi ilə olmasıdır. Müəlliflər bu kitabı ədəbiyyat dərsləri üçün hazırlamışlar. Bu kitaba qədərki nəşrlərin arasında tələbələrin tam aydınlığı ilə oxuya biləcəkləri və yararlanacaqları yetərli bir qaynağın olmamasını müəllif özü göstərmişdir (**16**, 9-11).

Əsərin bizim tərəfimizdən çapa hazırlanan nüsxəsi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnsitutunda B-7698 şifri altında mühafizə olunan və “Kitabi-Seyyid Battal Qazi” adla-

nan əlyazmasına əsaslanır. Ancaq mətni tərtib etdiyimiz zaman biz əsərin Əlyazmalar İnstitunda saxlanılan digər daşbasma nüsxələri ilə də tanış olmuşuq. Bu səbəbdən aşağıda onların qısa poleoqrafik təsvirini verməyi məqsədə uyğun saydıq.

1. V-86/1692 şifri altında saxlanılan kitab üzərində sarı çilləri olan qara rəngli karton cilddə tutulmuşdur. Ölçüsü 24x 14sm olub, 122 vərəqdən ibarətdir. Nəşr edildiyi tarix h.1287-1870-71. 1-ci səhifəsi naxışlı çərçivəyə alınmış üzərində "Qəzavəti Sultan Seyid Battal Qazi" sözləri yazılmışdır. Hərəkəli nəsx xətti ilə yazılmış kitab, daşbasma üsulu ilə "Şirkəti-Xeyriyyeyi Səhhafiyyə"də çap olunmuşdur. (**6**)

2. X-1080 şifri altında saxlanılan kitab qara cildlidir. Tarixi h. 1298/m. 1881. Ölçüsü : 24x16sm. Həcmi 175 vərəqdən ibarətdir. Hərəkəli nəsxlə "Şirkəti-Xeyriyyeyi Səhhafiyyə" nəşriyyatında çap olunmuşdur. Mətn nəsrlədir, lakin aralarına şeir parçaları girmişdir. (**5**)

3. Şifri-XVI-165. Həcmi 154 vərəq, boz rəngli karton cilddə tutulmuşdur. Ölçüsü 24x14sm. Tarixi:h. 1329/m. 1911. Xətti hərəkəli nəsx. "Şirkəti-Xeyriyyeyi Səhhafiyyə" nəşriyyatında çap olunmuşdur. Hər üç kitab eyni cür başlıqla başlanır: "Hər sözün əvvəli bismillahdır. Məxluqin içün hər sözü Allahdır".

Eyni şəkildə: Haqqın ismini yad etməkdir ərkan
Bir ərkan ucunu tutduqda insan,
Rəvadur ismini yad etmək anın – misraları ilə bitir. (**7**)

B-7698 şifri altında qorunan və bizim nəşrə hazırladığımız əlyazma nüsxəsinin həcmi 198 vərəq, ölçüsü 17,5x22-11,5x 16sm-dır. (**4**) Cildi mavi-boz rənglidir. Karton cildin iç tərəfində rus dilində kitabın Məhəmməd Rəfiyyə mənsub olmasına dair qeydlər vardır. Dastanın mətni ağ saya vərəqlərə qara mürəkkəblə 12 sətir olmaqla nəstəliq xətti ilə yazılmış, qissələrin başlanğıcı isə qırmızı mürəkkəblə göstərilmişdir. Kitabın birinci səhifəsində bəsmələdən əvvəl dastanın məzmununa uy-

ğun, bir səhifə həcmində naqis yazı parçası vardır. Yalnız bundan sonra, dastanın mətni başlanır. 105[a] səhifəsi boşdur, lakin bu boşluq mətnə heç bir qüsur gətirmir. Əlyazmanın sonunda adətən dövrünə görə Azərbaycanda üzü köçürülən dastan abidələrinin katiblərinin standart qeydləri olduğu kimi burada da "təmmət-ül-kitab, be oun-il-lillah-ül-mülk-əl-vəhhab" qeydi ilə bitmişdir. Bundan sonra "Kitabi-Seyyid Battal", Əbdülvəhhab vələdi- Mirzə Cəlil təmam şod. Mərhum Nuxəvi sahibi-kitab" – kimi farsca qeydlər və sənə 1255(1839) tarixi verilmişdir. Yuxarıdakı qeyd bizdə kitabın Mirzə Cəlil tərəfindən köçürülməsini və XIX yüzilliyin tanınmış mətnşünas alimi, pedoqoqu və kitabşünası Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kolleksiyasından olması ehtimalını yaradır. Əlyazma nüsxəsinin mətni ilə daşbasma çapı arasında bəzi fərqli cəhətlər diqqətə çarpır. Çap nüsxələrində mətnin başında yer alan mənzum girişə əlyazmada təsadüf olunmur.

Dastanın qısa məzmunu belədir : Hz. Peyğəmbər (s) bir neçə gündür ki, Cəbrail əleyhissəlam gəlmədiyinə görə pərişandır. Səhabələrindən könül açan, gözəl bir hekayə danışmalarını istəyir. Əbdülvəhhab isimli bir səhabi Rum vilayətinin böyüklüyündən, onun gözəlliklərindən bəhs edir. Əbdülvəhhab bu söhbəti ilə Peyğəmbərin (s) könlündə Bizans diyarına bir həsrət yaradır. Bu zaman Cəbrail əleyhissəlam bu diyarların fəth olunacağına və Hz. Peyğəmbərin (s) vəfatından 200 il sonra onun soyundan olan Cəfər isimli bir qəhrəmanın Rumu fəth edəcəyinə dair bir xəbər gətirir. "O haqq yolunda qılınc çalıb işlər edəcəkdir kim, dünyada Rüstəmi-Zal eyləməmiş ola" – deyə davam edir. Hz. Rəsul (s) Cəbrailə: - "Bəs mənim səhabələrimdən o zəmanə kimsə qalacaqmı?" sualına Cəbrail (ə) Həqqi-təala cənablarından xəbər alıb, "Ya Məhəmməd, o zəmanə Əbdülvəhhab adlı səhabın qalacaqdır" cavabını verir. Bu zaman Hz. Rəsul (s) Əbdülvəhhabı yanına çağırır və "ağzını aç" deyib mübarək ağzının suyundan onun ağzına tökür. Mübarək dəhanının suyu Əbdülvəhhabın boğazında durur. Hz.

Rəsul (s) bu əmanəti Cəfərə təslim etməyi və onun yazıb möhürlədiyi məktubu ilə bərabər salamını da ona çatdırmağı tapşırır. Beləliklə, buradakı Battal Qazi Hz. Peyğəmbərin (s) seçilmiş varisi İmam Hüseynin (ə) törəmələrindən biridir. Cəfər Malatyada məşhur bir sərkərdənin ailəsində dünyaya göz açmış, atası Mehri Babilin başçılıq etdiyi ordu Rum qeysəri ilə təkbaşına döyüşərkən şəhid olmuşdur. Oğlu Cəfər "Dədə Qorqud" qəhrəmanlarına məxsus qeyri adi istedada və əfsanəvi gücə, qüvvətə malikdir. On üç yaşında ikən dörd kitabı xətm etmiş, bütün elmlərə yiyələnmişdir. Silah təlimində çox bacarıqlıdır. Göstərdiyi igidliklərə və hünərə görə tərəfdarları onu atasının yerinə orduya başçı təyin etmək istəyirlər. Lakin Cəfər atasının qanını almayana qədər buna razılıq vermir. Anasının xeyir-duasını aldıqdan sonra atını təkbaşına döyüş meydanına sürür və qələbə ilə Malatyaya dönür. Yalnız uğurlu qələbədən sonra "Battal" adını qazanır və ömrünün sonuna qədər bu adı şərəflə daşıyır. Əsər cin, pəri, sehrbaz, div kimi mifoloji obrazlarla, mübaliğəli hadisələrlə zəngindir. Belə motivlərə Azərbaycanda yaranan dastanlarımızda da rast gəlirik. Azərbaycan dastanlarında olduğu kimi, burada da əfsanəvi və mifoloji obrazlara, dünyəvi surətlərə, müqəddəs şəxsiyyətlərin adlarına, sehirkar tarixi obrazlara və ümumi sənətkarlıq əlaqələrinə təsadüf edirik. Bu və ya digər oxşar cəhətləri Azərbaycanda yaranan ilk yazılı abidə "Kitabi-Dədə Qorqud" boylarında da onun təsiri ilə yaranmış "Koroğlu" dastanında da hadisələrin oxşar cəhətlərin olması paralellər və müqayisələr aparmaq üçün zəmin yaradır. Misal üçün, Battal Qazinin ətrafındakı tərəfkeşlərinin olmasına baxmayaraq o, döyüş meydanlarında təkdir. Biz bunu "Dədə Qorqud" dastanında Qazan xanın, "Koroğlu"da isə Koroğlunun simasında görürük. Ən qorxulu döyüşə belə təkbətək atılırlar. Yaxud "Dədə Qorqud" dastanında Salur Qazan ildə bir dəfə öz varını yoxsullara paylayır. Ac qarınları doydurur, çılpaqları geyindirir. Battal da əldə etdiyi qəniməti xalqa paylayır, özü heç nə götürmür. Bir başqa oxşar cəhət Sa-

lur Qazanın "Qonur" atı, Battalın "Aşqarı", Koroğlunun isə "Qırat və Dürat"ı məsələsidir. Hər üç qəhrəmanın özünəməxsus qılıncları və döyüş alətlərinin oxşarlıqlarını hətta süjet xətlərini təşkil edən hadisələrin də biri-birinə bənzərliyini görürük. Battalın döyüş meydanlarında düşmənin bağrını yaran nərəsi, Koroğlunun yeri-göyü titrədən nərəsini xatırladır və s. Onlarca belə oxşar cəhətləri göstərmək üçün nümunələr gətirmək mümkündür.(**3**) Göründüyü kimi geniş müqayisəli təhlil aparmaq həcmcə kiçik olan yazıda mümkün deyildir. Düşünürük ki, əsərin əlimizdə olan bütün nüsxələri qarşılaşdırılmalı və bundan sonra Azərbaycan dastanları arasında müqayisəli şəkildə öyrənilməlidir. Ümumiyyətlə dini, tarixi və qəhrəmanlıq məzmununa malik olan "Seyyid Battal Qazi" dastanının bizim üçün tədqiqat əhəmiyyəti Azərbaycan xalq dastanları ilə, xüsusən "Kitabi Dədə Qorqud" boyları ilə müqayisəsindən ibarətdir. Bunu da qeyd etmək lazımdır ki, "Kitabi Dədə Qorqud" dastanı özündən sonra yaranan Azərbaycan dastanların inkişafında, formalaşmasında tükənməz mənbə olduğu kimi, "Battal Qazi"nin təsiri ilə yaranan, tarixi hadisələri əks etdirən daha iki böyük əsərin "Danışmənd-namə" və "Saltıq-namə" kimi Türk yazılı abidələrinin yaranmasına qaynaqlıq etmişdir. Türklərin mədəniyyət tarixində mühüm və həlledici rolu olan bu üç əsərin aralarındakı zaman fərqlərinə baxmayaraq eyni ideya və süjet xətti ilə biri-birinə zəncirvari bağlıdırlar.

"Battal Qazi" dastanında səksənə yaxın şəxs adları vardır. Battal Qazinin dostları, qohumları, övladları, övrətləri, döyüş yoldaşları və düşmənləri bunlardan əlavə peyğəmbərlər, ölkə padşahları, qeysərlər, vəzirlər, ordu komandanları, əsgərlər, keşişlər, xətiblər və s. şəxslərin adlarıdır.

Hadisələr əsasən Malatya şəhərində və onun ətrafında cərəyan edir. Deyilənlərə görə "Battal Qazi" dastanı elə burada da qələmə alınmışdır. Dastanın qəhrəmanının ata və anası da Malatyalıdır. Əsərdə İstanbul, Bağdad, Şam (Dəməşq), Hindistan, Çin, İraq, Rum, Misir, Yəmən, Xəcaz, Türkistan, Gürcüstan,

Bolqarıstan, müqəddəs İslam torpaqları Mədinə, Məkkə və s. ölkə və şəhərlərin adı çəkilir.

Əsərin qəhrəmanı çox güclüdür, qüvvətlidir, elm, savad yiyəsidir, yeri gələndə hiyləgərdir, döyüşkəndir, Allaha sığınandır, digər tərəfdən özünə güvənəndir. Məhəmməd Peyğəmbəri (s) yuxusunda görür. Hz. Xızırla (ə) birgə hərəkət edir. Pərilərlə dostluq edir. Əjdaha və cadularla mübarizə aparır. Vəhşi heyvanlar ona xidmət edir. Tez-tez "Qaf dağı"na qalxır, Hindistana gedir. Bir göz qırpımında ağıla gəlməz uzaq yerlərə səfər edir. Qeysər onu "çahi-cəhənnəm" quyusuna salır, salamat çıxır. Əqba zəhər verir, ölmür. Təryun oda atır, yanmır və s. Qəhrəman müqəddəslər tərəfindən himayə olunur. Allahın qüdrəti, peyğəmbərlərin möcüzatı və digər qüvvələrin yardımı ilə sağ qalır. Dastanda bugünki gün bizə qaranlıq qalan Cəmşidiyyə, Haluq, Heylan, Qəndəbad, Xürrəmabad, Miştəran, Təntaniyə, Zəngibaran kimi bəzi yer adları mövcuddur.

Mənbələrdən məlum olur ki, "Battal Qazi" dastanı XI-XIII yüzillər arasında təşəkkül etmiş, XIII əsrdə qələmə alınmışdır. Yazılışı əsasən qısa, sadə, axıcı cümlələrdən ibarərdir. Əsərin yazıya alındığı dövr, Anadolunun mərkəz şəhərlərində İslam mədəniyyətinin inkişaf edib gücləndiyi, hökmdarların sifarişləri ilə ərəb və fars dillərində əsərlər yazıldığı, hətta türkcə yazılan yazı nümunələrində də ərəb və fars kəlmələri doğmalaşaraq yazıya alınması məlumdur. Elə bu səbəbdəndir ki, dastanın dilində ərəb və fars kəlmələri yer almaqdadır. Bununla yanaşı Anadoluda qələmə alınan ilk oğuz türkcəsinin önəmli nümunəsi hesab olunur. Əsərin mətni əsrlərin süzgəcindən keçərək, nüsxədən-nüsxəyə köçürülmüş, zəmanəmizə çatana qədər şübhəsiz ki, müəyyən təhriflərə məruz qalmışdır. Buna baxmayaraq "Dədə Dorqud" dastanı ilə müqayisəyə gələ biləcək dərəcədə arxaikliyini dil və üslub özəlliklərini xeyli dərəcədə saxlamaqdadır. Biz bunu dr. N. Dəmirin tərtib etdiyi XIII-XIV əsrə aid olan "Battal-namə" dastanı ilə əlimizdə olan "Seyyid Battal Qazi" dastanının müqayisəsi zamanı daha çox müşahidə

edirik və düşünürük ki, Bakı əlyazma nüsxəsi Necati nəşrindən nisbətən fərqlənir. Həcmi 232 səhifəni əhatə edən N.Dəmirin tərtib etdiyi "Battal-Namədə" hekayələrin sayı nisbətən artıq rəvayətlər ətraflı və dolğun təsvir olunmuşdur. Əsərin girişində və müxtəlif bölmələrində ara-sıra şeir parçaları görünməkdədir. Bakı əlyazma nüsxəsində isə qeyd etdiyimiz kimi müəllif (katib) hekayələri yığcam, döyüş səhnələrini qısa hətta mükalimələri konkret şəkildə ifadə etmişdir. Nüsxənin bu xüsusiyyətləri N. Dəmirin "Battal-Namə" çapından həcmcə az (198 v.) olmasına gətirib çıxarmışdır. N.Dəmirin "Battal-namə" çapının mətni Əlyazmalar İnstitutunda saxlanılan daş-basma nüsxələrinin mətninə daha yaxındır. Onlar həm də eyni quruluşda olub, hərəkəli nəstəliq xətti ilə yazılmışdır. Dr. N.Dəmir Battal-naməyə aid tədqiqatlarında yazır: "Battal-Name" nesr olaraq kaleme alınmıştır. Sonradan eserin girişine ve muhtelif bölmelerine çeşitli saylarda beytler yerleştirilmiştir". Yuxarıda təsvir etdiyimiz kimi, Bakı əlyazma nüsxəsinin nə girişində nə də digər bölmələrində şeir parçalarına rast gəlmirik. Dr. N. Demirin söylədiyi bu fikirlə əlimizdə olan əlyazmanın daha qədim nüsxədən köçürüldüyünü güman edə bilərik. Xalq tərəfindən yaranan dastanın dili sadə, bəsit, qısa cümlələrdən ibarət olub şübhəsiz ki, oxunaqlı və anlaşıqlıdır. Bununla yanaşı, sözü gedən nüsxədə ərəb və fars kəlmələrinə N. Demirin "Battal-namə" nəşrinə nisbətən daha çox təsadüf olunur. Aşağıdakı hər iki variantın nümunəsində bunu görmək mümkündür.

"Yezidi-ləin bu gəlmək ilə yetmiş dörd il xəlifəlik eylədi. Xütbədə Əli adını bəd uğur eylədi. ("Kitabi-Seyyid Battal" s. 2/33).

Hilafeti qasb ilə Yezid tutdu. Yetmiş dört yıl ihanet eyledi. Hutbede Ali adını anmaz oldular. (N.Demir, M. Dursun "Battal-Name" səh. 71) və yaxud "Geyik qaçdı, geldi bir mağaraya girdi. Belürsiz oldı". (N. Demir, M. Dursun "Battal- Name" s.72)

“Geyik qaçıb bir mağaraya girdi, nabud oldı”. (Seyyid-Battal Qazi əly. s. 2a/34)

“Şöyle maslahat gördüler ki, Cafer büyüyünce Abdüs-Selami ser-asker kıldılar”. On yıl bunun üzerine geçdi. (N. Demir, M.Dursun “Battal- Name”)

“Elə məsləhət olundu ki, Abdüs-Səlam Cəfər yetişincə bəd əzan on il bunun üzrə keçdi. (“Seyyid-Battal Qazi” əly. s. 5/36)

Əsrlərin süzgəcindən keçən dastan zaman-zaman katib qələmlərinin təsiri ilə şübhəsiz ki, müəyyən dərəcədə dəyişərək bizə çatmışdır. Elə yuxarıda göstərdiyimiz misallar da buna canlı sübutdur. Əlimizdə olan Seyyid Battal Qazi dastanında olan fars və ərəb sözləri bəd uğur, nabud, bəd əzan sözləri, “Battal-namə”də türk mənşəli anmaz, belürsiz və s. ilə əvəz olunmuşdur. N. Demirin “Battal-Namə”sində cümlə quruluşu və cümlələrin sayı baxımından da bizim əlyazmadan fərqlənir. Mətnlər arasında belə fərqi dövrün tələbi ilə yaranan yazı ənənələrinə tabe olan katiblərin qələmi ilə bağlıdır. Bütün bu deyilənlərlə yanaşı abidə özünəməxsus dil özəlliklərini tam olmasa da xeyli dərəcədə saxlamaqdadır. Dastanın mətninin imla şəklinə və qrammatik xüsusiyyətlərinə görə Azərbaycanda köçürüldüyünü asanlıqla müəyyən etmək olur. “Kitabi-Seyyid Battal Qazi” dastanının əlimizdə olan nüsxəsinin qrafik və orfoqrafik əlamətləri dövrünə uyğun olaraq arxaikliyini saxlamışdır. Misal olaraq mətndə müasir dilimizdə işlənən e səsinin i səsi kimi, (dedi<didi 166/225, verdi<virdi 115)

Sağır nunun müxtəlif ک,گ ,ڴ şəkillərindən istifadə olunmuşdur. Klassik Azərbaycan mətnlərinə xas olan sağır nunun işlənməsi nüsxənin Azərbaycanda köçürülməsini bir daha yada salır.

d-t səs dəyişməsinə (turdu-durdu 93, tuymaq-duymaq 67.) m-b hərflərinin əvəzlənməsinə (kibi-kimi 7a/13, min-bin 19/61) (mənim-bənim 185a) və s. Cümlədə eyni sözlərin müxtəlif

qrafik variantlarına məs: Qamusu-həpsi-hamusu (141/3a) rast gəlirik.

Qaf hərfinin həm “k” həm “q” həm də “n” qrafik şəkillərinə təsadüf edirik. (kişi, 164[a], gəldi 164[a], bəg 51 və s.) Bir-birindən səslərlə fərqlənən qrafik variantlarda saysız nümunələr çəkmək mümkündür: Çok-çox (108, 4), qamu-hamu (18[a]) (**2**)

Şəxs əvəzliyi iki qrafik variantda mən-bən, bunda-munda şəkilində işlənməsi müşahidə olunur. Türk mənşəli arxaik sözlərin dəyişməsinə don-ton, bunu-munu, çıkub-çıxub 164[a]) və s. Mətndə söz dəyişmələrinə də sıx-sıx təsadüf olunur. Misal olaraq türk mənşəli arxaik söz olan ağu həm də zəhər şəklində işlənilir.(99) Bizim qədim yazılı abidələrimizdə geniş təmsil olunmuş qədimliyini saxlayan nüq-nuq, lum-lüm şəkilçilərlə bitən: bilmənüq, almanuq, qoyalum, edəlüm (87,88, 18[a]), arxaik fellərə mətn boyunca qonmaq, ayıtmaq, qopmaq, ilətmək, irişmək, dəgdirmək və sairəyə sıx-sıx rast gəlirik. Bundan əlavə lıq-luq, nüq-nuq, lüm-lum şəkilçiləri ilə bitən dil xüsusiyyətlərilə bağlı faktlar mövcuddur. Mətnlərdə az-az təsadüf olunan türk mənşəli hegbə (heybə-kiçik qutu R.A) 3/s.34; buncələyin, muncələyin kimi arxaik sözlərə də sıx-sıx təsadüf olunur.

Dastanda dövrünün yazı qaydalarına əsasən cümlənin əvvəlində, ortasında çün, çünki, çünkim, pəs, dəxi, nagah və s. ədatlardan istifadə olunmuşdur. Nümunə olaraq : “Çünki Seyyid bu xəbəri işitdi filə doğru dönüb çağırdı. (115/168)

Pəs növbə Cəfərə yetüşdi. (13,45) Nagah Seyyid çıqub gəldi.(160[a]) nümunə olaraq göstərmək olar. Battal Qazi dastanının sadə, axıcı dili bədii ifadə vasitələrilə zəngindir. Bənzətmələr, deyimlər, atalar sözlərindən yerində çox məharətlə istifadə olunmuşdur. Mis: “Bir qarı div çıqub gəldi. Başı donuz başı kibi, qulaqları fil qulağı kibi, pəncələri aslan pəncəsi kibi, quyruğu əjdaha quyruğu kibi”(112).

Seyyid boğazından dutub saqqalın bir-bir yoldu. Burnun kəsüb əlinə verdi. (74/117)

Seyyid qoltuğunun altından tiği-səxxak ilə elə çaldı ki, təzə xiyar kibi iki parə eylədi.(112[a]/165). Canı başına qaçdı. (16/50) Canına titrətmə düşdü. (98[a]/147) Qeysərin içinə od düşdü.(142/200). O, məlunun gözləri qana döndü. (141/199) Əski bez kibi iki parə eylədi. (91[a]/139) "Atın ayaqları yerə dəgməz, uca quş kibi yavuk gəlcək, yüzündən nüqabın götürdü". (18) "Qulağının tüzünə bir yumruq vurdu, yeddi addım mayallaq aşdı" (112[a]) və s. Dastanın üslubunda bədii ifadə vasitələri əsərin bədii təsir gücünü, gözəlliyini və sözün məna incəliyini artırır. Katibin diqqətsizliyindən irəli gələn bəzi sözlərin və ifadələrin təkrar olaraq iki dəfə yazılması (onı, 112), edüb-dönüm kimi, axşam-axş (83) şad-şa (90[a]) və s. bu kimi hərfi düşmüş səslərin yerinə qoymaqla, biz tərəfdən mətnə cüzi müdaxilə edilmişdir. Belə xırda əlavələr nəzərə alınmasa demək olar ki, biz mətnşünaslıq qaydalarına riayət edərək mətnə müdaxilə etməmiş, "Seyyid-Battal Qazi" dastanını oxuculara əlyazma nüsxəsində olduğu kimi təqdim edirik. Ümid edirik ki, bizim təqdim etdiyimiz mətn alimlərimizin dilçilik, ədəbiyyatşünaslıq, tarix və coğrafi baxımdan qaynaqlana bilməsinə imkan verəcəkdir. Gözdən qaçırdığımız hər bir xətamıza, tənqidi yanaşan və qüsurlarımıza düzəliş verənlərə qabaqcadan təşəkkürümüzü bildirir və "Kitabi-Seyyid Battal Qazi" dastanını nəşrə hazırlamaq işini bizə tapşıran hörmətli mətnşünas alim, türkdilli abidələrin mahir bilicisi f.e.d. Azadə xanım Musabəyliyə və bu işdə zəhməti olan hər bir kəsə dərin minnətdarlıq hissi ilə təşəkkürümüzü bildiririk.

F.e.n. Aybəniz Mustafa qızı Rəhimova

Qaynaqlar və ədəbiyyat

1. Cəmşidov Ş. " Azərbaycan yazılı dastan abidələrinin tədqiqi". Bakı. Nurlan, 2002. s. 40-50.

2. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. 1hissə. Bakı. “Maarif”, 1978.
3. “Kitabi-Dədə Qorqud”. Bakı. 1962.
4. “Kitabi-Seyyid Battal Qazi”, Azərbaycan MEAƏİ, B-7698.
5. “Qəzavəti-Sultan Seyyid Battal, Azərbaycan MEAƏİ, X-1080 daşbasma çapı. h. 1298/18-81.
6. “Qəzavəti-Sultan Seyyid Battal, Əİ, V86-1692, daşbasma h.1287/1871.
7. “Qəzavəti-Sultan Seyyid Battal”, MEAƏİ, XVI-165 daşbasma h.1329/m1911.
8. Musayeva A. “Battal Qazi dastanının prof. Əbdüləzəl Dəmirçizadəyə məxsus olmuş əlyazma nüsxəsi haqqında” “Elm” qəzeti №4.1998.
9. Musayeva A. “Battal Qazi dastanının Bakı əlyazması”. “Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri, VI elmi-nəzəri konfransının materialları”. Bakı, 1998.
10. Musayeva A. “Kitabi-Dədə Qorqud” dan sonra yaranmiş oğuz türk abidəsi. Elmi araşdırmalar, elmi-nəzəri məqalələr məcmuəsi, 1-4, Bakı, 2002.
11. Məlikova İ. “Babək Xürrəmi və Seyyid Battal”, Ədəbiyyat və incəsənət”, qəzeti, 25. XII. 1988.
12. Abdulkadir Karahan. “Battal Qazi” dastanı , “Türk kültürü və edebiyyatı”, İstanbul 1992, s.128
13. Barthold V. “Battal Qazi Menkıbeleri”73, “İslam Medeniyyeti tarihi”, Ankara 1963, s.206.
14. Boratov P.N. “Battal”, İA.II s.344-351.
15. Demir N.Erdem M.D. “Battal-Name”, HECE yayımları /Destan, 2006,s.19-26
16. Demir N.Erdem M.D. “Battal-Qazi Destanı,” HECE yayımları / Destan, 2006,s. 9-11
17. Demir N. “Danişmend Qazi Destanı”, HECE yayımları /Destan, 2006,s. 9-11

18. Köprülü M.F. “Türk Edebiyyatı tarihi”, İstanbul 1926, s.295-303.
19. Köprülü M.F. “Türk edebiyyatında ilk mutasavvufler”, “Diyanet işleri Başkanlığı yayımları”, Ankara 1928, s.28.
20. Köksal H. “Battal Qazi dastanı”. Ankara. “Akcaq Başer matbaasi”, baskı 2003. s.1.
21. Yıldız A.”Battal Qazi” dastanında Tasavvüf ve Sembolizim”,Türk halklerinin edebi keçmişi; Türk destanları. Uluslar arası sempozium 2004, s. 159-166. 21.
22. Гарбузова В.С. “Сказание о Melике Данишменде”. Издатель “Восточной литературы” Москва, 1959, с. 85-92.

Kitabi-Battal Qazi

Bisimillahir-rəhmanir-rəhim və bihi nəstəin

[1] Əlhəmdüli'llahi rəbbi'l-aləmin vəssələvat vəs-səlam bər əla Məhəmmədin Seyyidil-mürsəlin Seyyid Battal Qazi rəhmətüllahi əleyhi qissəsindən belə rəvayət eyləyirlər kim, bir gün Həzrət Rəsuli-Risalət Səllə'llahu əleyhi-və sølləm oturmuşdı əshabələr dəxi yanunda cəm olmuşdı və Cəbrayıl əleyhis-səlam üç gün idi gəlməmişdi. Həzrətinin ol tərəfdən xatiri məlul idi. Pəs Həzrət səhabələrə didi ki, «hər kəs bir hekayət və ya bir sərgüzəşt bilursə söyləsin ki, məlalət xatirimdən bər tərəf ola. Şayəd qərındaşım Cəbrayıl dəxi gələ».

İmhal səhabələrün biri ayağə durub Rum vilayətinin çoqluğunu və xubluğunu Həzrətə ərz eylədi. Həzrət Rəsul ol vilayətə, ğayətdə müştaq olub didi: - Ya, Həqqi Sübhanəllah təala həzrətləri bana tovfiq verə, ölmüyəm ol vilayət müsəlman ola.

Bu göftü gudə ikən filhal Cəbrayıl Əleyhissəlam gəlüb Haqq-təalanın səlamını yetürdi. Ayıtdı: - Ya Rəsulallah, ol Rum vilayəti müsəlman olacaqdur, amma sənün dövründə olmayacaqdur. Sən dünyadan gedəndən sonra Malatiya şəhərindən pəhləvan zühur edəcəkdir, Cəfər adlı. [1ª] Hüseyin Ğazının oğlu. Əmirəl-Mömünin Əli İbn Abu Talibin övladı ola. Cəfərün əlində ol vilayət fəth ola, gərək. Ol Cəfər dünyada Haqq yolunda qlıc çalub işlər edəcəkdür kim dünyada Rüstəm Zal eləməmiş ola. Həzrət Rəsul didi: – Ya qərındaşım Cəbrayıl, bu mənim səhabələrimdən ol zəmana kimsə qalacaqmı? Ol Cəbrayıl didi: - Varub həqqi-təala cənəbından xəbər bilüb gəlüm. Dərhal qeyb oldı. Bir saatdan sonra gəlüb didi: – Ya Məhəmməd, həqqi-təala həzrətləri buyurdu ki, ol zamana Abdülvəhhab adlu səhabənin biri qalacaqdur. Anunla coq qəzavətlər edəcəkdür, didi. Anda Həzrət Rəsul Abdülvəhhabı yanına çağurdı, didi. Ağzını açdı mübarək ağzunun suyundan onun ağzına tökdi. Ol mübarək dəhanın suyu vardı Abdülvəhhabın boğazında durdı.

Həzrət buyurdu bu əmanətdur. Varanda Cəfərə məlaqət olasan. Bu suyu ona təslim edəsən və bir xətt yazub, möhürlədi. Abdülvəhhaba tapşurdı didi: - Ol Cəfərə vasil olanda mənim səlamımı ona yetürəsən və bu naməni ona təslim edəsən.

Pəs Abdülvəhhab xətti aldı, yüz yerə urdı. Rəsul Həzrəti dari-fənadan bəqayə rehlət eylədi. Andan sonra Həzrət Şahi-Mərdan Mürtəza Əli şəhid oldı [2]. Andan sonra Yezid xuruc eylədi, İmam Həsən və İmam Hüseyini şəhid eylədilər. Övladi-Əli pərakəndə oldular. Yezid ləin bu gəlmək iylə yetmiş dörd il xəlifəlik eylədi. Xütbədə Əli adını bəd uğur eylədi.

Pəs Mədinədə Əli övladından bir kimsənə var idi. Adı Əli idi. Bir gecə yerindən çıxub qaçdı. Bəğdada vardı. Bir il anda durdu. Andan sonra Malatiya vardı. Malatiyanın bir bəgi var idi, Ziyad derlərdi. Mömün kimsə idi. Əli onun yanına gəldi. Ol dəxi Əlini inayətdə xoş gördü. Şəhərinin xətibligun Əliyə verdi. Dörd il ondə durdı, bu də vəfat eylədi. Əlinin bir oğlu qaldı adınə Rəbiyə derlərdi. Ğayətdə elmi var idi. Ol dəxi otuz il xətiblüg eylədi. O də vəfat etdi. Anın iki oğlu qaldı. Biri Həsən, biri Hüseyin. Həsən ğayətdə xoş avaz idi və Həsən elmli idi. Amma Hüseyin ğayətdə pəhləvan oldu. Qeysərdən xərac aldı altı parə. Şəhərin on iki qələsin fəth eylədi. Andan sonra Ziyad dəxi vəfat eylədi. [2a] Yerinə oğlu Nüman bəg oldı. Xətiblugu Həsənə verdi və sərləşgərlügi Hüseyin ğaziyə verdi. Qeysər Rum Hüseyinin qorqusundan yeddi mil yan dururdı və dəxi Hüseyin ilə iqrar eylədigi ol millərdən keçməməyə və hər il o məqamlar da Hüseyinə xərac verirlərdi. Hüseyin dəxi ol tərəflərə gitməz idi və həmişə şikar edirdi.

Və bir gün Malatyanin bəgləri bir yerdə otururkən Nümanın həşirçisi gəldiki, oğlun oldı və adını Əmir qoydular. Buna görə yeddi gün toy-dügün eylədülər. Şadyanalıq tamam oldı.

Bir gün Hüseyin Şam tərəfinə şikarə getdi. Gəzirlərkən

gördü ki, bir tərəfdən münəqqəş geyik xub gəldi. Amma atlas çulı ilə bəzənmiş. Hüseyin atı başına qoydu, geyik qaçdı, dalısınca qovdu. Didi: - Mən səni qoymanam ta ki, ələ gətürüb Nüman oğlu Əmirə ərməğan eyləməyincə. Və geyik qaçub bir mağarıya girdi nabud oldı. Və Hüseyin atından aşağıya enüb mağarayə girdi. Gördü kim, bir saru at durur. Yəhəri-yügənlü və bir hegbə *(heybə – A.R.)* də anda, buraxıb getmişlər. Bir cida önündə yerə sancılmış və bir əzəmətlü gürz dəxi yanındə asmışlar. Hüseyin anı gördü heyran qaldı didi: – Aya, bunun [3] kibi at və yaraq munda neylər? İrəlü yeridi ki, atı duta, at topuq çaldı özünü dutmaqa qoymadı. Hüseyin gerü sıçradı, nə qədər səy eylədi, atı duta bilmədi. Naəlac qaldı. Dərhal mağaranun bir guşəsindən bir avaz gəldi ki, «Əşqar müta ol gəl, dəxi. Hünər vəqti degil sən qaçasan. Həqqi-təala Cəfəri arizanə eylədi, kim yer üzündə gəzalar edüb, aləmi küfr zülmətdən qurtara». At bunu ki, eşitdi dərhal sakit oldı və Hüseyin dört canibə baxdı. Kimsə görmədi. Sonra atı dutdu və əsbabları götürüb çıqdı. Hegbəni açub gördü ki adəm başının iki bölük saçı, pəhləvanın yarağı. Hüseyin bunları görüb şad oldu. Atına minüb Əşqarı çəküb gedirkən bu fikri edirdi ki, «Ya Rəb, Cəfər kim ola? ki, bunun kibi atı və yarağı ona təslim edərüm». Bu fikir iylə gedirkən bunca yuxu gəldi. Düşüb atları fərağat edüb yatdı. Vaqeəsində gördü ki, bir pir gəlüb didi: – Ya Hüseyin! Bəşarət olsun sana kim Cəfər sənin oğlundur ya ol qədər vücudə gələ, tamam Rumı müsəlman eyləyə və ol işlər edə kim heç pəhləvan eyləməmiş ola» [3a]. Hüseyin uyqudan oyanub Həqqi-təalayə şükür eylədi. Atına süvar olub şəhərə gəldi. Bir nihan belə keçdi. Nüman Ziyad oğlu vəfat etdi və oğlu Ömər təxtə çıxub padşah oldı və şadyanalıq eylədilər. Bu əsnada cəng bir qul var idi, adınə Təvabil derlərdi. Gəlüb Hüseyinə məhrəmanə bir söz didi. Hüseyin şad oldı. Ömər sordu kim o pəhləvan, o nə xəbərdur? Bizə də bildur. Hüseyin didi ki, bu gün bir oğlu olubdur və Ömər Usturlab

əlinə alub talehinə nəzər eylədi. Talehin ğayətdə qutlu gördü. Buyurdu ki: «Ya Hüseyin, bu oğlun ğayətdə pəhləvan ola, dünyada işlər edə kim həç bir qul əlindən gəlməmiş ola və bunun adı Cəfər olsun» didi. Bir neçə dualar yazdı. Buyurdu başına bağlasunlar.

Hüseyin dəxi toy eylədi. Üç gün üç gecə eyş-işrət eylədilər. Ta ki, varub üç yaşına yetişdi. Hər kim görsə yeddi yaşında verirlər idi. Eylə qəddi-qamət bağladı ki, aləmdə nəziri yoq idı. Hər kim əlinə alsa gerü qoymurdu.

Hüseyin bir gün şikara çıqdı Məmuriyə tərəfinə. Üç gün sonra nagah bir geyik çıqdı atlas culuyla. Hüseyin ayıdır: «Mən bunu dutub Cəfərə ərməğan aparayum». Bir kəmənd atdı geyik qaçdı bir dağdan aşdı. Hüseyin [4] ardınca dağa çıxdı. Gördü ki, bir qələ var başı həvayə bərabər olmuş və yanında bir əzim şəhər var çoq qalubəluqdur. Qırq binə qədər ləşkər qonmuş oturur. Yaşıl, atlas və qızıl atlas çadırlar qurulmuş atların kişnəməsindən zəhrələr çak olur. Bu şəhər Məmuriyə imiş. Şəhərin bəginə Mehriyayil deyirlər idi. Qeysər övrətinin qardaşı idi. Bunlar da üç qardaş idilər. Əvvəl Mehrail, ortancılı Mehrcan, kiçisi Şaməsəb. Ol geyik Mehrailin imiş. Hər yerdə istər gəzər idi, kimsənin həddi yox idi ki, o geyiki ura. Pəs geyik gəldi. Mehrailin gözü sataşdı ahunı bu halda gördü. Qəzəbə gəlüb didi: – Görün mənim geyikümü kim qovdu. Aman verməyüb, başını kəsün, didi. Qullar atlanub gəlüb gördülər bir şəxs dağın başında durur. Qullar didilər sən kimisən bu padşahın geyikini quvarsın? Hüseyin didi: – Mən Hüseyinəm, varun Mehraılə deyün ol geyik mənim könlümə xoş gəldi anı bana versün yoxsa özü bilur, dünyanı ona dar eylərəm. Bullar varub Mehrailə xəbər verdilər. Mehrail buyurdı, cümlə ləşkər atlandılar. Hüseyin ğazını ortaya aldılar. Amma Hüseyinin yarağı yoxuydı. Özü özünə didi: – Gördüz ki, [4a] qafil yaraq yoq. Allaha təvəkkül edüb, didi: – Təqdirə təfir yoxdur. Edvar nərə urub, gələn ləşkərə həmlə qıldı. Gah süngü və gah qılınc, gah gürz iylə kafirlərün qanın çay kimi

axıtdı. Axşama dəkin bu nöbəylə cəng eylədi və gecə sabah olunca dəxi cəng eylədi. Və özü dəxi zəxmli oldu. Qanı çoq axdı, süst oldı. Taqəti qalmadı ki, ləşkərədək gedə. Kafirlər qələbə edüb yerbəyerdən kəmənd atub, Hüseyin ğazını şəhid etdilər. Nə qədər cəhd eylədilər, atı duta bilmədilər. At qaçdı qızıl qana qərq olmuş, Malatiya şəhərinə gəldi.

Nagah qazılar Abdüssələm və Cəfər, Əli bin Haşım və Yəhya bin Mənsur və Əmir Ömər və Abdülvəhhab otururkən gördülər kim Hüseyin ğazının atı qana ğərq olmuş gəldi. Yaranlar fəryad eylədilər ki, bu işi kim eyləmiş ola. Bu halda Yəhya bin Mənsur çıqub gəldi bunların bəgiydi. Bunca işdür ol xəbər verdi ki, mən Məmuriyyə şəhərinə vardum, gördüm ki Hüseyini Mehriyayıl qırq bin ləşkər iylə araya aldılar. Andan sonra şəhid eylədilər. Onı eşidənlər yeddi gün ğəzasın dutdular. Andan xəlifəyə ərz eylədilər. Ol nihanda [5] xəlifə də üç gün ğəzasın dutdı və Əmirə məktub yazub göndərdi ki, «Zinhar ğafil olmayun, məbadə ki, qeysər hərəkət edə. Bir iş olsa bizə məlum edün. Biz dəxi igidlər göndərəlüm». Əmirə və əyanlara xələtlər göndərdi istimalət verdi ki, «qurxmayun allaha sıqınun».

Çün namə Malatiyaya gəldi. Pəhləvanlar qamusı şad oldular. Bir yerə cəm olub məşvərət eylədilər. Əmir didi: – Bizə sərləşkər gərək. Cəfər məhzun uşaqdır. Atasının yerin dutmaz. Hələ sərləşkərlik bilməz. Elə məsləhət olundu ki, Abdüssələm sərləşkər ola. Cəfər yetüşüncə bədazan *(bundan sonra – A.R.)* on il bunun üzrə keçdi. Cəfər çün on yaşına gəldi, Əzim qəddi-qamət bağladı. Dört kitab üzərinə oqudu elm təfsir də nəziri yox idi. Qazbana Cəfəri verdilər. Hərgah Cəfər xütbə oxurdı. Anın xoş avazından və fəsahətindən eşidənlər cuşə gəlüb fəqan edirdilər. Andan sonra silahşorluqa həvəs eylədi. Qazban adlu bir silahşoru var idi. Ğayətdə hünərmənd idi. Cəfər andan silahşorluğı ögrəndi və ğayətdə qəddü-qamət bağladı. Eylə tamam-kamal oldı ki, nəziri yoq idi. At minməkdə, qılıncda, oxda və cəmi aləm hərbidə [5a] çox üstəl oldı və igirmi üç arş qəddi-

qamət bağladı.

Bir gün dost məshəblərilə birligdə təfərrücə çıqdılar. Namaz qıldılar elm təfsrün və hədisi bəhs eylədilər. Elimləri məlzəm eylədi. Əlləmas eylədilər kim Cəfər bir silahşorluq eyləsin. Bəzilər təfərric edərək. Bir at gətürdilər. Cəfər atlandı. Bir müddət silahşorluq göstərdi ki, hər kim gördüsə afərin və əhsən didilər. Pəs gəlüb qərar dutdular. Yaranlar didilər ki, belə hünərlər ki, səndə var, neçün atanın mənsəbin almazsın?

Cəfər cavab verdi ki, hələ vəqti degil, tək mən bir yaxşı hünər göstərüm sonra mənsəb tələb edim. Yaranlar didilər kim, bu hünərlər ki, sən göstərdün yetməzmi? Bu sözlərə görə Cəfərin kölnünə mənsəb tələb etmək düşdi. Axşam oldı, evə döndülər. Cəfər evinə gəldi, anası Səidə xatun qarşu gəldi. İki gözündən öpdü evə girdilər. Yemək təam gətürdülər, heç bir şey yemədi. Anası gördü kim zarınır, ah eylədi didi: – Ay cigər guşəm, halın nədür kim zarıyırsan, ağlarsın? Cəfər didi kim, anacan necə ağlamayım, anlar kim mənim atamın yanındə xidmətkardılar, mənsəb sahibi olmuşlar. Mən üç onlarca artmuşam. Və anası dəxi ağlayub didi: – Ay cigər guşəm, sənin atan [6] İslambuldan xərrac alurdı, qorxusundan qeysər təxtində oturmaz idi. İndi halımuz gör kim nə yerə yetüşdi. Cəfər didi: – Ay anacan heç ağlama inşallah bən atamın mənsəbin alacağam. Anası didi: - oğul Abdüsəlamdən mənsəbi almaq olmaz. Çünki qohum-əqrəbası çoqdur və məmləkət yiyəsidir. Cəfər cavab vermədi, döndü. Mehralı sordu ki, nə sifətlü kişidür? Didilər qara ağız, uzun boylu, çoq heybətlüdür kim, nəziri yoxdur. Qeysər övrətinin qardaşıdır. Çoq məlundur. Zinhar bu sözdən gördü kim neçə müsəlmanları həlak etmişdür. Nə qədər nəsihət eylədilər qəbul eyləmədi.

Cəfər yarım gecə də durdu. Varub atasının atın yəhərlədi, qılıncın qurşadı gürzünü çəkti. Saldı cidasın əlinə. Rumilər şivəsində özün arastə qıldı və anası nə qədər ağladı didi: – Oğul bu vəqtlə nərəyə gedirsən? Yalquz getmə. Çarə

olmadı. Həman saat ana, himətin bənim ilə olsun deyüb, rəvan oldu.

Bu canubdən. Çün sabah oldu xalq məscidə cəm oldı Cəfər gəlmədi. Varub anasından sordular kim hanı Cəfər necə oldı? Anası cavab verdi ki, [6[a]] Cəfər yarım gecə atlandı nə tərəfə rəvanə oldusa, mən bilmədim.

Bu cəvabı, varub Əmirə bildirdilər. Əmir buyurdu ki, namazı tez qılun, ardınca varun. Məbadəki, Cəfər həlak ola, Hüseyin ğazının yadigarıdur. Ol dəmdə iki yüz atlu əsbab əsilcəlü süvar olub ardınca vardılar. Dağı, daşı aradılar. Cəfəri bulmadılar yenə qayıdub şəhərə gəldilər. Cəfər üçün ğayətdə pərişan oldular.

Bu canibdən Cəfər sabah olunca yeriyüb bir yerə yetüşdü. Yeri mərmərdən yapılmış bir qələ gördü, dürüst nəzər salub gördü ki, bir keşiş dam üstə çıqub dururkən Cəfər yavuq gəldi. Ruhban qapudan tışra çıqub Cəfərə qarşu gəlüb salam verdi və xoş səfa eylədi. Və didi ki, bu gecə atanı duşumda gördüm. Bana demiş kim sabah oğlum Cəfər gəlir bənim qanımu istəməkə gedir. Ona bir neçə nəsihət eylə, didi. Cəfər bunun sözünə heyran qaldı. Pəs atından enüb Ruhban ilə görüşdilər və bu Ruhbanın adı Şəmas idi. Cəfərün əlin dutdı, gəlib damına girdilər və bu damın içində [7] bir qapu var idi yerdən. Həman qapunı açdılar piləkanlar ilə enüb içəri düşdülər. Cəfər gördü kim yerin altında bir məscid və məhrab düzəltmişlər, Qəndallar asmışlar və bir məshəf məhrabda qoymuşlardurlar, amma öz atasının dəsti-xətti ilə yazmış. Cəfər məshəfi alub, yüzünə, gözünə sürtdü. Şəmas dəxi ruhban əsvabını çıqardub, sufiyanə donlar geydi və dəxi əzan verdi. Cəfər imamlıq eylədi. Namaz qıldılar və namazdan fariğ oldular. Cəfər məshəfi açdı bir neçə ayət quran oqudu. Elə təfsir eylədi kim Şəmas heyran qaldı. Bundan sonra Şəmas başladı Rumun hekayətlərin və Mehrıyayilin Qissəsin təqrir eylədi və çoq nəsihətlər eylədi. Ol gün ol gecə söhbət eylədilər və sabah namazların qıldılar. Cəfər Şəmas iylə dua edüb, atına suvar olub təvəkkül

allaha qılub, rəvanə oldu və Haqq-təaladan inayət dilədilər didi: – «Ey xaliqulqəni bu biçarə miskin qula lütf ehsan edüb, nüsrət verəsən! Rum vilayətinin müsəlman qılasan. Kilsələrin yığıb yerinə məscidlər yapım, didi.

Nagah qarşudan bir atlu peyda oldu [7a]. Tamam saz və səllahı qızıl altuna ğərq olmuş. Çünkim Cəfəri gördü didi ki, sən kimsən, gəlüşün nə yerdəndür və bu cənubdə neylərsin? Cəfər didi: – Hüseyin vilayətindən gəlürüm, atama Qənatus Nərgər derlər. Bən dəxi silahşorluqa həvəs etdim və eşitdim ki, bu vilayətlərdə pəhləvan çoqdur. Anın üçün bu tərəfə əzm etdüm. Bu məlun çünki Cəfərə nəzər eylədi. Gördü ki, bir məhbub oğlandır, misli yoxdur. Həman dəm aşıq oldu, didi: – Ey oğlan, dövlətin yar oldu kim bəna yetüşdünki, bən Mehrailin qarındaşıyım, adım Şamasebdir. Rumda, Şamda bənim kibi silahşor yoqdur. Çün bənim yanımda dursaydın səni elə silahşor eylərim kim aləmdə nazirin olmıya. Cəfər didi: – Mən dəxi cida aləmindən az-çoq bilirum. Gəl bir-birimizilən bir qədər oynaşaq. Şamaseb didi: – Cida ələ al. Cəfər cidasın aldı və Şamaseb cidanı çəküb həvalə eylədi. Cəfər mane eylədi və dəxi gürz həvalə eylədi. Gürz başına enirkən Cəfər kafirün gürzün dutdu. Kafir nəqədər çəkdi, kürzi ala bilmədi, acıqundan gözləri qan ilə doldu. Cəfər qüvvət eylədi. Kafirin gürzin çəküb, əlindən aldı. Allahı yad edüb, dalusunun arasından gürzü elə urdu kim iki ayağı üzrə məallaq yıkıldı. [8] Cəfər dərhal atından enüb, sinəsi üstündə oturdı, xəncərin çıqarub didi: – Müsəlman ol! Qəbul eyləmədi dərsaat başın kəsdi. Yenə atına süvar olub, rəvanə oldı. Ol gün və ol gecə sabah olunca yeridi. Sabah namazı vəqtində bir dağa çıqdı. Gördi kim bir qəleyi-müəzzəm yer böyük şəhərdir. Çoq ləşkər yıxılıb və çadırlar taqi-taqidən keçmiş ortasında bir qızıl şaban qurulmuş, Cəfər didi: – Aya, bu nə ləşkər ola. Nagah gördi bir kişi gəlür qarşu varub, sordu ki bu nə şəhərdür? Ol kişi didi: - Bunə şəhər Məmuriyə derlər. Mehrailindur. Hüseyin ğazını bundə şəhid eylədilər. Şimdi qəsdləri oldur kim gedib

Malatiya şəhərin xərab edüb, andan varub, Kəbəni yandurալar. Belə deyüb o kişi getdi və Cəfər baxub bir böyük bağçə gördü və bağın qapusunə gəlüb, atından düşdü və içərü girüb, gördü ki, cənnətə bənzər. Və təfərrüc edüb gördü ki bağın ortasında bir böyük ağacın dibində bir təxt qurulmuş, atını bir yerdə fərağat edib özü gəlüb təxt üstünə çıqdı didi: – Bir az yatub rahət olum sonra Allaha təvəkkül edib, özümi bu ləşkərə vurum. Bu bağ da Mehriyayılın təfərrücgahı imiş. Nagah Mehrail bəgləri ilə bu bağa gəzməgə gəldi, [8[a]] gördü ki, təxt üstündə bir məhbub oğlan yatur. Bəglər didilər kim cəvan qəribdür, yoxsə belə küstahlıq kimsə eyləməzdirlər. Bunların avazlarunun qalbəsindən Cəfər oyanub durdu. Dərhal təxtdən aşağə enüb, bunların qarşularında əl bağlayub durdu. Mehrail bunu görüb qəhqəhə çəküb güldü. Sonra keçüb öz yerində oturdu və bəglər yerlü yerlərində qərar dutdular. Təam gətürüb yedilər sonra Mehrail Cəfərə didi: - Sən nə kişisən və nə yerdən gəlürsən? – Cəfər didi: - Cin vilayətindən gəlürüm. Atama Sərcayıl Nərgər derlər, silahşurluqa həvəs etdim. Anın üçün bu tərəfə gəldim. Mehrail didi: – Talehın yar oldu ki mənim yanıma gəldün. Bana Mehrail derlər. Qeysər Rumun sərləşkəriyəm. Cahan pəhləvanları mənim qorqumdan yatmazlar və dəxi yüz qulum vardur. Cümləsi silahşurdur. Hər birisi bin adama ğənimdür. Səni cümləsindən böyük edərim, didi. Cəfər dəxi hizmət eylədi. Təam gətürdilər. Mehrail Cəfəri irəlu çağurub, şərab verdi, Cəfər didi: – Mən qəsəm etmişəm ki, saqqalum gəlməyincə şərab içmənim. Andan saqiluq eylədi, bir neçə piyalə içdilər məst oldular. [9] O ləyin Cəfərin yüzünə nəzər eylədi, gördü ki, xub, bihub oğlandur. İstədü kim bir qaç səxtakarluq edə. Durdu təxtindən Cəfərin əlin dutub, bağın bir bucaqına bir xəlvət yerə apardı. İstədi ki, Cəfərin boynuna əl sala. Cəfər dört yanına baxdı, gördü kimsə yoqdur didi: – Ay kafir, sən mənim atamın qanlusı degilmisən? Bir yumruq təpəsinə eylə vurdi ki, kafir məallaq yıxıldı. Dərhal sinəsi üstə oturdu. Saqqalını

əlinə dolayub, döyüb xəncəri boğazına qoydu. Mehrail didi: – Ay oğlan, neylərsən? Cəfər didi: - Məlun bilurmisən, mən Hüseyin ğazının oğluyam, adım Cəfərdir. Atamın qanın səndən istəyüb, gəldim tez müsəlman ol, didi. Kafir bir neçə hərzə söylədi. Cəfər dərhal başını kəsdi, canını cəhənnəmə vasil eylədi. Andan gəldi bəglərin ikisini çağurdı didi: - Gəlün, sizləri Mehrail çağırır aparub onların dəxi başların kəsdi. Dərhal on dörd adı bəlli bəglərin cümləsinin başların kəsdi. Mehrailin bir qulu var idi, Əfləhun adlu. Onu aparub ol başları göstərdi, didi: - Buları görürsün? Mən Hüseyin ğazının oğluyam adım Cəfərdür, tez müsəlman ol yoxsa səni də öldürrəm. [9[a]] Əfləhun tez başın yerə qoydu, müsəlman oldu. Sonra həman başları hegbəyə qoydular. Atların donların və yaraqların aldılar. Gecənin bir nəzsfi keçmiş, çıqdılar, ol yerə gəldilər kim oradə Şamasəbi öldürmüşdi. Və onundə başın alub rəvanə oldular, Malatiya gəldilər.

O canibdən kafirlər ləşkəri Mehrailin halından xəbərdar oldılar. Fəryad-fəğan eylədilər. Amma bilmədilər bu işi kim böylə edüb. Qeysərə ərz eylədilər. Qeysərün adına Araqıl qeysər dirlər idi.

Qeysər xəbərdar oldu, tacın yerə urdi. Zar-zar ağladı. Təmami Rum əhli yas dutdular. Cəfər Malatiya gəldi. Hüseyin ğazının yeddi bağı var idi, hər birinin bir köşki var idi. Cəfər gəldi, o bağların birisinə girdi. Əfləhunu o başlar ilə evində qoydu. Özü tənha şəhərə gəldi.

Sübhə yaxun idi öz evinə girdi. Anası biçarə dərdi fəraq ilə ağladı. O halda anasına səlam verdi, anası çün Cəfəri gördü. Ah edüb didi: Ay canım, oğul, sən handa idün məni fəraq iylə qoyub getdün deyüb, Cəfərün yüzün və gözün öpdü. Cəfər hekayətin anasına didi. Anası şükür səcdəsini qıldı.

Təvabilə xəbər oldu. Ol dəxi gəlüb görüşdü, didi: – [10] Ya cigər guşəm, handa idün? Cəfər didi: – Vardum, atamun qanlusunı öldürüm və başları nişanə gətürdim. Təvabil şad oldu və Cəfəri götürüb, Əmir yanina gətirdilər. Ol

Cəfərə qarşu gəldi yüzün görüb şad oldilar. Əmir didi: - Ey Cəfər, eşitdim Ruma gedüb, atanın qanını almışsın? Əhvalatı bizə bildür. Cəfər didi: - Bəli sayənizdə vardım. Mehrail və qarındaşı Şamasəbi neçə bəgləri iylə öldürdüm və birin müsəlman eylədim. Başların sultanə ərməğan gətürdüm. Abdüssələm bu xəbəri eşitdi, qəh-qəh çəküb güldi. Önündə qamusu gülüşdülər. Abdüssələm didi: - Hərgah, Mehrail ölsə sən kibi yüz kişi onu yerdən qaldırmaz, bu yalan sözdür. Bu necə hərzə sözdür. Cəfər didi: – Yalan söyləmək ər nər işi degildir. Əgər inanmazsınız ol başlar donlar və atlar bizim bağdadur. Təvabilə didi, varub on dörd müsəlmanı və başları alub, gətirün. Təvabil vardı. On dörd müsəlmanı və başları götürdü, ortayə saldı. Mehrail və Şamasibin başlarını tanıdılar. Qamusı Cəfərə təhsin eylədilər, şad oldular. Amma [10[a]] Abdüssələm ğayətdə qorqdu və başları çıqardılar çidəyə, asub qoydular.

Əhvəlatdan xəlifəyə namə yazdılar. Namə xəlifəyə yetişdi. Ğayətdə şad oldular. Cəfərə, Əmirə xələt göndərdi və namə yazdı kim «zınhar ğafil olmayun, məbadə kim Qeysərin hərəkətindən heç qorqmayun, Allaha sığınun didi».

Namə Əmirə gəldi, şad oldu. Bunlar bu şadlıqda idilər.

Bu canibdən Qeysər cəsuslar göndərdi. Xəbər gətürdülər kim «Hüseyin ğazının bir oğlu qopmuş, Mehrailı öldürmüş. Hənuz on dört yaşına yetmiş». Naməni Qeysərə göndərdilər. Hekayət bülundu məşvərət eylədilər.

Qeysərin dört oğlu var idi. Ol böyükün adı Şəmun idi və biri Səmaş idi, üçüncü Qonstantin, və biri Rabi idi. Şəmun Rabi yezid soyundan idi. Gəldi Qeysərə didi: – Ey şah, eşitdüm dayımı öldürən bir oğlan imiş. Buyur, varub dayımın qanın alayım. Məsləhət bilub Qeysər buyurdu [11].

Qırq min kişi yaraq arastə qılub rəvanə oldı. Qeysər buyurdu, zinhar ol oğlanı öldürməyib bana diri gətirün. Ta kim dərisin çıxarub tamam Rumu gəzdürüm didi. Və dəxi iki pəhləvanı var idi. Biri Ebriyanus və biri Kebriyanus ğayətdə bəllü pəhləvanlar idi. Bunları dəxi oğlana qoşdi. Qırq

bin adam, qırq cüft nəfər ilə rəvanə oldular.

Günlərdə bir gün Malatiya şəhərinə yaxun gəldilər və namə yazdılar ki, «Sən ki, Əmirsən, biləsənki Qeysərin oğlu Rabi gəldi. Hüseyin, ğazının oğlunı bana verəsin və dəxi yeddi almalıq xərrac verəsin, yoxsa tamam islam diyarın xərab edərüm». Naməni təmam edüb, bir bəgə verüb göndərdi.

Nagah əmir müsəlmanlar iylə oturarkən götürüb naməni əmir önündə qoydular. Naməni açub, oxuyub əbsəm oldular.

Abdüssələm didi: - Sərxoş adamı öldürmək hünər degil, imdi bu işi və bu fiti başlayan oğlan cavabın versün. Yatmış əjdəhanın quyruqunı basmaq yaxşı degil, didi.

Bu ğalibdən Cəfər naməni alub, parə-parə eyləyib atdı. Cavab yazdı kim, «Bu işləri mən işlədim kimsə ilə danışmadım. Yenə tənha gəlürüm. Əlindən nə gəlürsə işləyün».

Bəg gəlüb Rabiyə xəbər verdi. Rabi bu xəbəri eşidüb, buyurdı atlandılar Cəfər dəxi evünə varub atın yəhərlədi, götürdi ol otuz altı yarasın silib, Əmir Ərəb Həmzə pəhləvan yıraqına girdi, tiği-səxxakı həmayıl eylədi. Cıdaşın əlinə aldı. Anası didi: - Ay canım oğul, kimə, nərəyə gedirsən? – [11[a]] Cəfər didi: - Ey madər mehriban, himmətin bənimlə olsun deyüb, qapuya gəldi və qapu qulunun adı İbrahim, bin Məsud idi. Didi: - qapunu aç. İbrahim didi: – Ey Cəfər, ginə nərəyə gidirsən? Didi: - Kafirə qarşu gedürəm. Ya baş verərəm ya baş alaram. İbrahim didi: - Cəfər, səbr eylə çünki ləşkər çoqdur. Sabah olsun müsəlmanlar ilə birgə çıqarsan. Nə qədər hay eylədi çarə olmadı. Qapunı açdırıb rəvanə oldı. Ol gecə sabaha kimi sabah vəqti bir çeşmənin başına yetüşdü. Tez atundan endi abu dəst aldı. Namaz qıldı yenə atlanub, rəvanə oldu.

Bu canibdə müsəlmanlar məscidə cəm oldular. Cəfər gəlmədi. Xəbər aldılar. Qapuçu didi: - Yarım gecə qapunu açdırıb kafirə «qarşu gedürəm», deyüb getdi. Əmir didi: Məbadə ki, yetüşə bir çarə edün. Abdüssələm didi: - Ol or-

taya bir fitnə buraqdı özü qorxub, qaçdı. Cəfərün lələsi Təvabil didi kim «haşa kim ol yağıdan qaça, onun nəslində kimsə qənimindən yüz çevirməz», didi. Sizün əlünüzdən bir şey gəlməz. Oturub ona tənə edürsiz. Cəfərün atasının qılıncının sədəqəsini yeyirsən. Siz evdə oturub, qorxacaqsuz. Təvabil didi: - Çünki o getdi, mən də gedürəm. Dərhal rəvanə oldı. Orada bir Cüdə adlu [12] ğazının dört oğlu var idi. Birinin adı Süleyman, biri Vahid, biri Məhəmməd və biri Musa. Bunlar Cəfərə təllüq idilər. Bunlar da Təvabilə qoşulub rəvanə oldular.

Bu Cəfər Şəmas dirinə gəldi. Şəmas qarşu çıqub Cəfər ilə görüşdülər və Mehrailin öldürməsindən Cəfərə təhsin eylədi və önünə təam gətürüb yedilər. Abdəst alub, namaz qıldılar. Şəmas didi: – Ey cigər guşəm, kimə gidirsən? Cəfər didi: - Qeysərin oğlu Rabi gəlmiş, qırq bin kişi ilə Mehrailin qanın istəyir, yaranlar işidüb peşman oldular. Bən allaha sığınub, qarşu gedirüm. Şəmas didi: - ləşkər çoqdur, necə yalquz gedirsin? Cəfər didi: - Hərçi bad-abad. Bunlar bu sözdə ikən qarşudan koslar nəgarələr çalındı və toz qopdu. Cəfər tez atına süvar olub didi: – Ya pir sən, bu dam üstündən təmaşa eylə Allah təalanın inayəti ilə və həzrət Peyğəmbərin möcüzatı ilə gör mən bu kafirlərə nələr eylərüm və bir az irəlü çıqub durdu.

Toz yarulub, qırq bin ər çıqub, gəldi. Gördülər kim Cəfər qarşuda durmuş varub, Rabiyə xəbər verdilər. Bir kafiri göndərüb didi: - Görün ol nə kişidür? Ol gələn varub didi: - Sən nə, kişisən ki, burada tənha durmuşsan? Didi: - Mən [12[a]] Cəfərəm, Mehraili, Şəmasibi on dört bəglər ilə öldürən, bənəm Hüseyin ğazının oğluyum və ol didi: - Sən Qeysərdən qorkmadun ki bu işi eylədün? Cəfər didi: - Ey kafir, sən nə deyirsən, bən istərüm təmam Rumu müsəlman edəm. Qeysəri öldürüm, kilsələrin yıqub, yerinə məscidlər yapam. Eylə ki, məlun bunu eşidüb, qalxdı didi: - Bana Tunisi Rumi dirlər. İmdi səni qılıncım ilə iki parə edərüm deyüb, qılıncın rəvan eylədi. Cəfər dərhal tiğı-səhhak ilə be-

lindən elə urdu ki, tazə xiyar kibi iki parə eylədi. Başın iki əliylə həvayə atdı. Damdan Şəmas «Əleyk ovnu İllah», didi. Kafir ləşkərindən fəryad qopdu.

Bir kafir var idi. Adına Cumhur dirlər idi. Bəllü pəhləvan idi. Onı da göndərdilər. Aman verməyüb onu dəxi öldürdi, Rabi qalxub Kəbriyanusə didi: - Tez var, onı öldür. Ol məlun süvar olub meydana girdi. Bir dağa bənzər idi beş batman bir gürzü var idi. Bu heybətli gürzü Cəfərə həvalə qıldı, Cəfər qılıncın qalxanın bərabər verdi. Gürz qalxanə toquşdu, Cəfərə zərrə ələm dəgmədi. Qalxub yerdə həvalə eylədi. Gürz enirkən Cəfər ayəsin qarşu verdi. Gürz avazından meydan lərziyə gəldi. Cəfər gürzi bərk dutdı. Əlindən alub biyabana atdı. Pəs növbət Cəfərə yetüşdü. Bir gürz urdı. Kəbriyanus qalxanı bərabər dutdu. Qalxanın xurd edib, başına doqundı. Dərbədağın oldu. Kəffar ləşkərindən fəryad qopub, qardaşı Əbrəyanus meydana girdi gürz həvalə eylədi.

Bunlar bu cəngdə ikən Malatiya canibindən avaz qopdu. Cəfərün lələsi Təvabil çıxub gəldi gördü kim, Cəfər Kəbiryanus ilə cəng edir. Ləyin qılınc həvalə eylədi. Cəfər məni eylədi. Gürz həvalə edildi gürzə də məni eylədi. Nöbət Cəfərə yetüşüb Kəbiryanusun qurşaqundan dutub qüvvət edüb, ol dağ kibi kafiri bir alma kibi atından qapdı. Ol dəmdə Cudə qazının dört oğlu var idi. Dördü də gəlüb gördü kim ol dərya kibi ləşkər durmuş. Cəfər meydandə bir neçə kafiri öldürmüş və birin dəxi atından götrürmüş. Bunlar anı görüb heyran qaldılar. Cəfər Əbriyanusu həvayə atdı. Aşağa enirkən iki parə eylədi. Süleyman, Vahid, Musa, Məhəmməd və Təvabil təhsin eylədilər [13]. Cəfər meydana girdi. Kimsənin ürəgi olmadı ki, meydana girə. Gördü ki, kimsə meydana girməz. Atından enüb, yəhər qulanını möhkəm edib, atlandı hünərlə var nərə urdu. Allahı yad edüb, ol dərya kibi ləşkərə özün urdı.

Bu canibdən Abdülvəhhab gördü ki, Cudə oğlanları və Təvabil getdilər. Varub Əmirə didi ki, «müsəlmanlıq belə-

mi olur kim üstünə kafir ləşkəri gələ, bir neçə qarındaşımız keçələr kafirə qarşu, biz onların qeyrətin çəkməyüb evdə oturaq. Əmir didi: – Ey pir mübarək, xub dirsən. Nəqarə çaldılar beş min müsəlman ləşkəri cəm oldu. Qasım oğlu Əlini ər ilə göndərdi.

Andan sonra Abdülvəhhab iki min ər ilə rəvanə oldu. Ol Əli yetüşdi dalınca Abdülvəhhab yetüşdü. Andan Abdüssələm həmlə qıldı. Rabi bin Qeysər gördü kim Cəfər onündə kimsə durmaz. Ah edüb didi: «Kim Lat Minatın yüzünün suyun tökdünüz». Qoymayın bu halda Əmir iki min kişi iylə yetüşdü, təkbir gətürüb həmlə qıldılar. Cəfər gördü kim müsəlman ləşkəri gəldi. Qeyrət edüb, öylə nərə urdu kim neçə kafirlərün əqli getdi. Zira ki, bunun kibi heybətli nərə eşitdükləri yox idi [13a]. Cəfər Əjdərha kimi qılınc çalub, ləşkərün sağından soluna və solundan sağina çıxur idi. Hər tərəfə uğrardı tarimar edirdi və at başı Rabi üstə saldı. Rabi fəryad edüb qapayun! didi. Tirəndazlar ox tökdülər, çarə edə bilmədilər. Cəfər adam qanından lalə rəngi almuşdı. Pələng qabağında düşmənə yüz heybət ilə qılınc çalub, ələmdarı öldürdü. Rabini atından qapub yerə urdı, istədi ki, bağlaya qarşudan Əfləhun və Tuapıl çıxub gəldi. Buyurdu Rabini bağladılar. Kafir ləşkəri sındı. Müsəlmanlar ardınca qovdular dağıdıb, gerü döndülər. Rabinin çadrına gəldilər. Əmir və Cudə oğlanları, Abdülvəhhab, Təvabil, Abdüssələm, cəmi yaranlar oturdular. Cəfər didi: - Qeysərin oğlun gətirsinlər. Bir xub surət oğlan idi. Cəfər Rabiyə gəl müsəlman ol, didi. Allah tala hidayət verüb, müsəlman oldı. Cəfər xələt verib Rabinin çadrına girüb oturdular. Və gördülər kim ğazıların iki yüz kişisi şəhid olmuş. Baqisi Cəfər önünə gəlüb, başın yerə qoydular və yeri öpdülər. Həsən, Şəmas damdan aşağa enüb, gəlürkən Cəfərə xəbər eylədilər. Cəfər qarşu gəlüb [14] Şəmas ilə görüşdülər və Cəfər anın oldığın Əmirə və cümlə bəglərə söylədi və cəmi durub, Şəmas ilə görüşdülər və şükür şərbətin içdilər. Bundan sonra Cüdə oğlu Haşım, Əhməd və Musa yerlərin-

dən durub, Cəfərə dua qıldılar və didilər, bundan sonra cümləmiz Cəfərin qullarıyuq və dəxi Abdülvəhhab yerindən durub gəldi didi: - Ey yaranlar, mənim dəxi bir sözüm vardur, buyurarsuz, deyərəm. Bəglər didilər: – Söylə eşidəlüm. Abdülvəhhab didi: - Mən bu canibə fəxr ələm Məhəmməd Əl-Mustafanun buyruğu ilə gəlmişəm. Cəbrayıl gəlüb bu igidün vəsfin bəyan eylədi və dəxi didi: - Təmam Rumi bu igid müsəlman edər. Kilsələrin yıkub, yerinə məscid-mədrəsələr yapar. Ol peyğəmbərə vəsf eylədigim igid budur, didi. Və dəxi ol Rəsulun naməsi budur. Çıqardı öpdü başına qoydu. Çün ol ğazilər Rəsulun naməsini gördülər. Cümlə ayağa durub təkbir və salavat gətürdilər. Ol naməni hər yerdən açdılar. Müşki-ənbər qoqusundan qamusunun damağı doldu. Açdılar gördülər kim yazılmış olan binam Xudavənddən zikr edilmiş kim. «Ay bənim, ümmətlərim! Sizə məlum olə kim Haqq-təala buyurubdur hicrət tarixindən iki yüz ildən sonra Malatiya şəhərindən bir oğlan qopa sənin nəslindən ola, adı Cəfər ola, yüzünün sağ yanında bir xalı ola qızıl yüzlü, uzun boylu ola, tamam Rumi aça xaliqi küfr xəlalətdən qurtara. Kilsələrin [14a] yıqub yerinə məscid mədrəsələr yapa. Hər kim ol zəmaniyə qalsa, ol igidə tabe olsun. Hökmündən çıqmasun, hər nə kim ol buyursə anı eyləsünlər kim mənim hökmümdür. Allah talanın əmr ilə Abdülvəhhabı ol tərəfə göndərdim və ağzımın suyundan ona verdim. Abdülvəhhab irəlü vardı didi: - Bunu görürmüsüz? - Didilər. Biz anı çoqdan görürük, didilər. Ol ayıtdı: – Ol Rəsulun mübarək ağzunun suyudur, bana əmanət verdi ki, ol igidə verəsən. Dərhal Cəfərə qarşu varub ağzın açdı. Ol mübarək ağzın açub su çıqub Cəfərin ağzına girdi. Ol dəm Cəfər yetmış, iki dil bildi. On iki elm və dört kəlam gögdən enmiş idi kəmalat ilə ögrəndi. Bunu görüb yaranların iti qatları ziyadə oldı. Cəfər naməni aldı, yüzünə və gözünə sürtdü sonra bazubənd edib, qolunə bağladı. Abdüssələm dəxi xoah na xoah təhsin eylədi. Andan Malatiya şəhərinə

gəldilər. Xaliq qarşu gəlüb, şadluq eylədilər, qənimət malından yeddi yük altun Rabiyə verib, Bağdada Xəlifəyə göndərdilər. Çün fəthi-namə Xəlifiyə yetüşdü. Məşhurnamə yazdılar. Atasının sərləşkərligi Cəfərə verildi. Əmir Əl-mömünün İmam sancağın və Məhəmməd [15] Hənifənin qılıncın, Ləndühənin gürzin Cəfərə göndərdi və dəxi adlı, bəlli pəhləvanlara, vəzirlərə və bəglərə xələtlər göndərdi. Çün Xəlifənin naməsi yetüşdi oxudular şad oldular. Abdüssələm dəxi məlul oldı.

Hekayət ol canibdən sınan ləşkər varub, qeysərə xəbər verdilər oğlunun hekayətin bildirdilər, götürüb tacın, yerə urdu. Fəryad-fəğan eylədi. Yeddi gün təxtə oturmadı. Kimsənin yüzün görmədi. Vəzirlər gəlüb didilər: «Ey şah, ağlamaq fayda verməz. Yaraq və ləşkər bərhəm eyliyəlum. Varub Məhəmmədiləri qılıncdan keçirəlüm.

Qeysəri təxtə keçürdilər. Namələr pərakəndə oldı. Qeysərin bir əmisi oğlu var idi. Adına Əhməd derlər idi. Ğayətdə pəhləvan idi. Onu götürüb yüz bin ər ilə rəvanə qıldı. Özü tacı peykər ələmin verüb didi: - Gərək ol vilayəti xərab edəsüz. Pəs Şəmas çağurdı ona dəxi əlli min kişi verdi. Mehran və Firudin Sərçayıl Kəbir ilə qoşdu. Bunlar Qeysərün vəziri azimləri idi. Gəldilər Əhməd ilə buluşdular. Andan rəvanə oldular və dəxi Məhəmmədin qəsiri-islam ləşkərinin cəsusu idi.

Əmirə xəbər gətürdi kim Qeysərün oğlu Şəmun və Şəmmas, Əhməd iki yüz min ləşkəri ilə filan yerdə qonmuşlar. Malatiya bəgləri bu xəbəri eşidüb, tədbir eylədilər. On iki min atlu və yaraqlı üç min piyada [15a] cəm olub, Ab Fərat yanına gəldilər. Cəfər atına minüb irəli getdi, bir təpə üstə çıxub bunları nəzər eylədi. Gördü kim bir əzim ləşkər qonmuş. Cəfər atın başın çəküb burdy təfərrüc eylədi. Haqq-təalayla minacat eylədi.

Bu dəmdə Cüdə oğluyla çıxub gəldi didi: – Ya Cəfər, neylərsən, bu ləşkər əvvəlki ləşkərə nisbət degil. Buna çoqluq ilə varmaq gərək. Bu halda kafirin qarolu bunları gör-

dilər xəbər göndərdilər. İki yüz min kişi bir-birinə toquşdu. Cəfər didi: - Yaranlar siz bir dəm təfərrüc edün görün mən bunda bunlara neylərim. Cəfər atından endı. Atın belin çəkdi durdı, düşündü, dilədi kim həmlə qıla. Ləlsi Təvabil gəldi didi: – Ey cigər güşəm, səbr eylə ləşkər gəlsun məşvərət eyliyəlüm. Bu dəmdə Əmir on iki atlu, üç min piyada iylə yetüşdü. Cəfəri qoymadılar. Didilər, «vəqt dardur». Bir qopacaq yer görəlüm. Cəfər döndü məşvərət eylədilər. Abdülvəhhab didi: – Gəlin ol dağa qonalım. Cevrəsində xəndək qazub, iki yerdə qapu qoyub, çıxub cəng edəlüm. Bu sözü məsləhət görüb şöylə eylədilər. Amma qeysərün oğlu [16] Şəmun buyurdu, naməni yazdılar. Bulqas adlu bir pəhləvan var idi, ona verüb və qırq kişi qoşub rəvanə qıldılar.

Bu canibdə əmir yaranlar iylə oturmuşkən dərhal elçilər gəldi. Uzun rüsxət alub içərü girdilər. Naməni əmirün qabağında qoydular. Vəzirlər yürüyüb naməni oxudular. Yazmış kim «Mən ki Qeysərün oğluyam, siz bilün ki, ya Əmir və bəglər, əvvəl Hüseyin ğazinin oğlunu və zavallı qocanı ki, «Məhəmmədi gördüm» deyirmiş bağlayub bana verəsüz və yeddi illik də xərac verəsüz və Möhsüm xəlifə dəxi kəfənin boğazına taqub qeysərə doğru gəlsün, yoxsa siz bilürsiz ta gecəyə varunca cümlə vilayətinizi xərabə edərüm.

Çünki Cəfər bu xəbəri eşitdi. Yerindən durdu. Bulqasın burnun və iki qulağın kəsib əlinə verdi və qırq adamı dəxi bir-bir nişanə eylədi. Didi: - Varun, Şəmuna deyün, mən gəlmişəm. Onları təmam müsəlman edüb kilsələrin yıqub, yerinə məscid yapım, Qeysər Rumini buğazından asum. İslambulı xərab edüm.

Allah əmri ilə çünki Bulqas gəldi, Şəmuna bu xəbəri gətürdi, can başına qaçdı. Ol gecə sabah olunca gözünə yuxu gəlmədi. Çün sabah oldı. Şəmun buyurdu nəqarələr dögdülər. Kəffar ləşkəri atına minüb səf bağladılar [16a].

Bu tərəfdən müsəlman ləşkəri dəxi atına minüb, xəndəkdən çıxub, səf baqladılar. Ol Cüdə meydana girdi, ər di-

lədi bir kafir müqabilə gəldi. Dərhal cəhənnəmə vasil eylədi.

Əlqissə, igirmi kafiri cəhənnəmə vasil eylədi. Müsəlmanlar şad oldular.

Şəmun bir pəhləvan meydana göndərdi. Əblibun derlərdi. Xeyli cəng eylədi. Gün ortayadək pəs məlun bir qılınc həvalə eylədi. Cüdənin qalxanından xəta qıldı. Cüdə başın qaçurdı. Atının boynuna toxunub, at yıxıldı. Tez bir at yetirdilər. Minüb meydandan çıqdı. Oğlu Süleyman meydana girdi. Həmlə qılub kafirə bir qılınc urdu. Kafirin qalxanı iki parə olub başına toxundu. Bir qarış yarıldı. O məlun qaçdı. Müsəlmanlar şad oldular.

Günorta namazının vəqti idi. Namaz qılub meydana göz yetürdülər. Kafirin fəryadına Acəmi meydana girdi. Süleymanə bərabər gəldi. Bir gürz həvalə eylədi. Qalxan iki parə olub, Süleyman yıxıldı. Qardaşları və Vahid, Musa meydana girdilər. Həmlə edüb Süleymanı qurtardılar. Əli min səd həmlə eylədi. Firidun ləyin qılıncı həvalə eylədi. Həman qılınc mane edüb, çəküb qılıncı ilə kafirin qoltuğunun altından elə urdu kim, tazə xiyar kibi iki parə eylədi. Kafir cəhənnəmə vasil olub, müsəlmanlar şad oldular və arxayın oturdular. Andan sonra Əlli yeddi kafiri cəhənnəmə vasil eylədi. Kafirlər qeyrət edüb, Əhmədi meydana göndərdilər. Əhməd meydana girüb, acuğundan Əliyə bir gürz urdu ki, qalxanı iki parə oldu. Başın qaçırub atına toxundı. Atla özü yıxıldı. Abdüssələm meydana girdi. Əhməd müqabil oldu. Bir neçə həmlə xətayə keçdi. Əhməd acığlanub, bir gürz urdu Abdüssələmin qaxanı dörd dikə oldı. Həman Abdüssələmin qalxanı dərbədağın olub atından yıxıldı. Qulları Abdüsəlləmı qapub, meydandan çıxardılar.

O gün Əhməd meydanı dutdı. Qırq müsəlmanı zəbun eylədi. Yenə dönüb, Əhməd ər dilədi. Kimsə meydana girmədi. Əhməd sağ canibə həmlə eylədi. Xeyli adam yıqdı və sol canibin tar-mar edüb, dəxi meydandan gerü gəldi. Kafir ləşkəri şad oldular. Şəmun Əhmədə düa eylədi. Buyurdu

xələt qaftan verdilər, döndü çadrına gəlüb yemək içməglə məşğul oldular. Əhməd didi: - Səbah, Cəfəri və dəxi ol qoca «Məhəmmədi gördüm» deyən kişini dutub əllərin bağlayub, sultanımın yanına gətirərüm, na-nurun dövlətindən Şəmun genə Əhmədə düa eylədi.

Bu tərəfdən müsəlmanlar məlul oldular abdəst alub, namaz qılub sabahadək təhidü təkbir eylədilər. Çün sabah oldu, kafirlər səf bağladılar. Abdülvəhhab meydana girdi. Çağırub didi: – «Mənəm, Abdülvəhhab ki, Məhəmmədi gördüm, onündə çoq ğəzavətlər eylədim, hər kim ölum arzu edirsə, gəlsin».

Əhməd [17[a]] bunu eşidüb, meydana girdi. Bir heybətli cida həvalə qıldı. Abdülvəhhab məni eylədi və dəxi cida həvalə qıldı. Əhməd dəxi məni eylədi. Arada on iki həmlə xətayə keçdi. Əhməd acıqlanub bir gürz urdu. Abdülvəhhabın qallxanı daqulub, bağrına dəgdi nəfəsi bağlanub, ağzından, burnundan qan gəldi, atından yıxıldı. Əmir atın meydana sürüb Əhmədün önün dutdu. Əhməd gördü ki, bir padişahanə donlar geymiş, bir şəxs, bir igit ilə meydanda durmuş.

Əhməd didi: - Sən nə kişisən? - Əmir didi: - Mən müsəlmanlar sərdarıyam. Əhməd didi: – Mən dəxi səni istərəm. Cənglə məşğul Abdüssələm oldular.

Bu canibdə, Abdüssələm Cəfərin yanınə gəlüb, didi: - «Ay şum, sənin şumlığundan müsəlmanlar həlak oldu. Əmirə Əhməd nə hərif olacaqdur, nə durmusan? Aləm fənayə vardı». Və dəxi çoq yaramaz sözlər də söylədi. Cəfər heç dinmədi. Əhməd Əmirün gürzün və qılıncın rədd eylədi. Növbət Əhmədə gəldi. Bir gürz urdı. Əmir qalxanı bərabər gətürdi. Qalxan payidar oldı. Başın qaçurdı, gürz at başına toqundu, at yıxıldı. Cəfər anı gördü durdığı yerdən rədvar bir nərə urdu. Müsəlmanlar və kafirdə nə qədər adam var isə cümlə sərasimə oldular [18]. Əhməd gəldü, özün duruşdurdı. Gördü kim bir atlu qıtlı heybətlü gəlür. Atın ayaqları yerə dəgməz. Uca quş kibi, yavuq gələcək.

Yüzündən nüqabın götürdü. Əhməd gördü kim bir cavan oğlandır. Əhməd didi: – Ay oğlan, dəxi adam yoqmudur səni göndərdilər? Cəfər didi: – Oğlanluquma baxma, mənəm Mehraili öldürən. Əhməd didi: – Hey, mən dəxi səni istəyirəm, deyüb cida həvalə qıldı. Cəfər Əhmədün cidasın qamçıynan çırpdı cida para-para oldu. Əhməd acıqlanub, gürz həvalə gıldi. Cəfər Əhmədün gürzünə sinəsin bərabər gətürdü. Sinəsinə toqundu, bir qılına xəta gəlmədi. Müsəlmanların təkpir avazı gögə çıqdı. Abdülvəhhabı çaqırdı. Aleykə Əvnullah ya pəhləvanzadə, pəs Şəmun və Şəmas gördi, dönüb didilər: «Bu kimdir ki, Əhməd kibi pəhləvanın gürzün sinəsinə dutdu. Çoxu heybət edüb nəfəsləri bağlandı. Əhməd acığlanub ginə bir gürz həvalə eylədi. Gürz atarkən Cəfər qapdı. Gürzün alıb, həvayə atdı [18[a]]. Atub gəlirkən Məhəmmədə səlavat gətürüb, gürzü dutub «hazır ol, ya Əhməd» deyüb, bir gürz ilə urdu ki, Əhməd qalxanı bərabər dutdu. Qalxan payidar olub endi, qətfinə toqundu. Əhmədün nəfəsi bağlanub ağzından burnundan qan gəlüb tərazbətəraz məallaq yıxıldı.

Müsəlmanlar şad xürrəm oldular. Cəfər atın başını çəküb durdu. Əhmədə at yetürdülər. Əhməd süvar olub, yenə bərabər durdular.

Əhməd didi: – Ya Cəfər, axşam oldu var, bu gecə rahat ol. Bən dəxi ğafil idim. Sabah meydana gələlüm. İkisi dəxi döndülər.

Müsəlmanlar Cəfərə qarşu varub şadluq edüb, qamu müsəlmanlar Cəfərə təhsin eylədilər.

Kəffar ləşkəri dönüb pərişan oldular. Xeymələrinə gəldilər. Şəvun və Şəmas təxtlərinə keçüb oturdular. Əhməd altun kürsü üzərində oturub, dəmbədəm Cəfərün pəhləvanlığın yad edirdi. Ol qədər Cəfərün ərlüğün və pəhləvanlığın söylədi kim Şəmun və Şəmas didilər: – Ya Əhməd! Cəfər handa, sən handa. Əhməd didi: – Ömrümdə çoq pəhləvanlar gördüm, amma munca pəhləvan görməmişəm.

Bu tərəfdən mömünlər abdəst alub axşam namazın qıl-

dılar. Cəfər öz dərgahına gəlüb möhkəm geyinüb atına süvar olub [19], kəffar ləşkərinə getdi. Yolda lələsi Təvabil rast gəldi qaraqolda idi, didi: - Ya Cəfər, ginə nərəyə gedirsən? Cəfər didi: – Himmətin ilə kim Rum ləşkərinə gedirəm. Təvabil getmə kim nagah bilərlər. Cəfər didikim, allaha sığınırım. Hər nə kim yazılubdur, onu görəcəyəm. Gedüb, ləşkərə yetüşdü. Yaxın bir yerdə pünhan edüb, Şəmas cadrına gəldi. Gördü kim bəglər və maəliklər otururlar. Əhməd dəxi bir altun kürsü üzərinə əgləşüb dəmbədəm Cəfərün pəhləvanluğun yad edüb ol qədər Cəfərün ərliğün və pəhləvanlığın sevdi kim cümlə heyran oldular. Ginə Şəmun və Səmas didilər kim, ya Əhməd ol handa, sən handa. Əhməd ol hunərliginin eşqinə piyalə içirdü. Və Cəfər durub təfərrüc edirdi. Əhməd durub, həman məclisdən çıxub getdi və bir neçə qullarə dəstur verüb Əhməd rəvanə oldu.

Cəfər didi: «Görəyim bu nə tərəfə gidir». Dalusunca rəvanə oldu.

Əhməd gedüb, bir səhrayə çıqdı kim, səhranın ortasında bağça göründü. Arəstə ol bağın qapusına gəlüb, atından enüb, içəri girdi. Atın qoyub qapunı bərkitdi. Məbadə kim Məhəmmədilər gələlər, didi. Amma Cəfər ardınca girmişdi. Gördi bir nərduban bir təxtə söykənmişdir və dəxi təfərrüc edüb gördü. Əhməd bu bağı dolanır. Məbadə kim Məhəmmədilərdən kimsə gəlüb, orada gizlənməsin [19a]. Cəfər didi: - Nərəyə getsə əlbəttə ol buraya gələr deyüb, dayandı və yuxarı nəzər edüb gördü ki, bir təxt qurulmuş. Bir məhbub qız təxt üstündə oturur, yüzü ayə bənzər. Alatı qurulmuş qızıl şamdanlar yanır. Əhməd dəxi gəlcək qız qarşu varub, əlin boynuna salub təxtə keçürdi, əgləşdilər. Qız didi: - Nə gec gəldün? Şəmun və Şəmas qatında idim. Bir neçə piyalə şərab içdilər. Qız bir quzu, biryan olmuş gətirdü. Bir neçə loqma yeyüb və həm içdilər. Əhməd süst oldı. Bir neçə piyalədən sonra dəxi bir piyalə alub didi: - Bunı ol igidün eşqinə içirəm ki, dun məni meydandə zəbun eylədi. Qız sordı ki, səni kim zəbun eylədi. Əhməd didi ki,

Cəfər kibi bir pəhləvan. İgidligin ol qədər söylədi kim qız heyran oldu. Cəfər didi: – Məhzur ki, bu igid müsəlman ola.

Əhməd hər piyalə ki içirdi, həman oğlanun eşqinə içirəm, derdi və Cəfər qulaq asub aşağı endi. Və hüsn Cəfər ahəstə təxtə çıxub didi: - Səhhət nuş ya Əhməd. Əhmədün içinə qorqu düşdü, didi: – Sən kimsən? Didi: – Cəfərəm, ol piyaləni kimin eşqinə içdügün. Dun səninlə müharibə eylədi. Səni mən düşmən bilürəm. [20] Sən xud dost imişsən. Mənim eşqim şərabını içirsən, gəl imdi sən müsəlman ol bana yar, qardaş ol. Canını cəhənnəmdən xilas eylə. Əhməd didi: – Hey sən munda neylərsən? Cəfər didi: – Hər yerdə kim məni yad etsələr mən anda hazıram. Əhməd didi: – Hələ sən xoş gəldun. İmdi səninlə güşti dutaram. Əgər sən məni basarsın müsəlman oluram. Əgər bən səni basdum, sən dəxi bənim dinimə girərsən. Cəfər didi: - Xoş ola. Əhməd bir xoştuman giyüb Cəfər yanına gəldi. didi: - Qurşaqını bənə ver. Dəxi qurşaqımı sana verürüm. Birbirinin qurşaqın dutdular. Əhməd üç kərə qüvvət eylədi. Cəfəri ala bilmədi. Qız da təfərrüc edirdi. Bunca ikisi bir-biri ilə çəkişdi. Əhməd Cəfəri ala bilmədi, acıqlanub istədü ki, bir yumruq ura, Cəfər bir nərə urdu kim, Əhmədin və qızın əqli getdi. Cəfər qüvvət edüb, Əhmədi götürüb, ahəstə yerə urdu. Sıçrayub şahin kibi köksündə oturdu didi: – Necəsən? Mən şərti yerinə gətürdüm. Sən nə dersən? Ər odur kim sözündən dönməyə. Didi: - Dönmənəm. Cəfər köksündən durdı. Cəfərün önündə yüz yerə qoyub didi: – Nə deyəlüm ki, müsəlman olum. Cəfər Kəlime-i Şəhadəti ögrətdi. [20a] İman ərz qıldı və qız dəxi müsəlman oldu. Əhməd bir piyalə doldurdu. Cəfərə verdi Cəfər didi: - Bizim dinimizdə şərab içmək yoxdur, haramdır çünki qız bu sözü eşidüb, şərab alatın bağladı. Quzı biryanını ortaya gətürdi. Əhməd didi kim, ya Cəfər, istərim sana bir ləqəb qoyam. Cəfər didi: - Xoş ola. Didi: - Sənin adun Bəttal olsun. Cəfər didi: – Mən dəxi səna bir ləqəb qoyuram. Əhməd didi: - Xuş ola. Didi: -

Sənin adun Əhməd Tarran olsun. Pəs bunlar şad-xürrəm oturdular. Bəttal çox şükürlər eylədi. Əhməd Tarran didi: – Ya pəhləvan, dur imdi sən öz ləşkərinə, bən öz ləşkərimə varaq. Sabah meydana gəl və mən də gələrəm. Bir-birimizlə cəng edək. Sən məni al, sana meydan içində iman ərz edüb, müsəlman olum. Andan sonra görsünlər kı mən kafirlərə neylərim. Battal didi: - Xoş ola. Durdular hər kəs öz ləşkərinə vardılar. Sabah olub yenə iki ləşkər səf bağladılar. Seyyid Battal meydana girdi, çağırdı: – Hanı Əhməd, gəlsün, didi. Əhməd dəxi gəldi. Battal gördü kim Əhməd əhdindən dönmüş. didi: - Ya Əhməd, Sözündən dönmüşsün. Əhməd didi: - Sərxoşluqdakı əqrar dürüst olmaz [21] deyüb, cida həvalə qıldı. Seyyid Bəttal qıçı ilən rədd eylədi. Gəldi kim gecə dəxi kim bir yumruq köksünə eylə urdu ki, iki ayaği üzəngüdən çıxub, başı üstə məallağ yıxıldı. İslam ləşkəri şadluq qurdı. Qamu bəglər afərin oxudular. Battal şahin kibi köksünə çıxub xəncər boğazına qoydu didi: – Ya Əhməd, gecə ki, tövlədür məni yoxsa sən bilürsən. Dərhal Əhməd iman ərz eylədi. Seyyid Battal durdı. Əhməd dəxi başın Battalın ayağına qoydu və dəxi yüzün kafirin tərəfinə çevirüb didi: – «Əşhədu Ənlailahə illəllah və Əşhədü Ənla Məhəmmədən-Əbduhu və Rəsulullahu». Didi: – Ya pəhləvan, pəs bir dəm təfərrüc eylə gör mən bu kafirlərə nə eylərəm. Atın sürüb didi: – Ey kafirlər sizdən bezaram. Sizün dininüzdən dönüb Məhəmmədiyə dininə girdüm. Canumı tamu odundan qurtardum. Şimdi adım Əhməd Tarrandır, didi. Kafirlər bu cavabı çün eşitdilər, Şəmunun bir vəziri var idi ona göndərdilər, gəlüb, didi: - Ey Əhməd, sana nə oldu ki, döndün. Əhməd didi: - Gəl səndə müsəlman ol, bu yaxşı dindi. Vəzir didi: - Gəl səni Şəmunə aparım. Əhməd Tarran acıqlanıb didi: - Gəl sən dəxi müsəlman ol, yoxsa başını kəsərəm. Vəzir acuqlandı [21a]. Əhməd Tarran irəli gəldi. Vəziri atından qapdı, çəkdi. Meydan içində başın üzüb, kəffarə doğru. Şəmun fəryad eylədi. Kəffar ləşkərünün yüzlərində qan qaçdı. Bir kafir dəxi Mitran adlu mey-

dana girdi didi: - Əhməd, sana nə oldu ki, babalarunun dinini tərk eylədün. Əhməd Tarran anı dəxi dinə dəvət eylədi. O, kafir çoq yalan söylədi. Əhməd Tarran anı dəxi həlak eylədi. Əmsal, qırq kafiri öldürdü və dəxi kimsə meydana girmədi. Əhməd Tarran irəli gəlüb Seyyid Battal önündə yüz yerə qoydu didi: - Ey pəhləvan, dilərəm ki, azan verəsən özümü bu ləşkərə uram. Battal dəxi dəstur verdi. Əhməd Tarran dəxi atından yerə enüb atının qolanın bərkitdi. Özünün ləşkərə verdi. Andan Abdülvəhhab həmlə qıldı. Andan Seyyid Battal öndən Abdüssələm və dəxi ol üç min kişi iylə Əmir həmlə qıldı. Bir gün bir gecə qatı cəng oldu. Qan sel kibi axdı. Az qaldı müsəlmanlar səktə ola. Bəttal yüzün gögə tutub didi: - Xudavənda, bu cəngün səbəbi mən oldum. Məni şərmsar etmə. Həman dəm yerə yüz qoyub toprağı savurdı. Göglərün yüzün görməz oldular. Seyyid Battal səfləri sökə-sökə ələm dibnə gəldi. [22] Ələmdarı öldürdü, ələm taxtı. Kafir ləşkəri sınub, qaçmağa yüz qoydular. Müsəlmanlar dalusunca kafirləri üç gün qırdılar. Üç gündən sonra gəlüb həman səhraya qondular. Şəmunun çadrın Əhməd Tarrana verdilər. Yetmiş min kafiri qılıncdan keçirdilər və yeddi min əsir götürdilər. Cümləsi müsəlman oldılar. Cümləsinə Seyyid Battal xələtlər verdi atlar və donlar bağışladı.

Yeni müsəlmanlari Qeysər oğlu Rabinin üzərinə göndərdilər və daxili maldan qazılər təqsim eylədilər. Bəttal bir pencin çıxarub xəlifəyə göndərdilər. Məbadə, bir həbbə qəbul eyləmədi.

Andan köçdülər, Malatiya gəldilər. Xəlifəyə namə göndərdilər. Çün namə xəlifəyə gəldi. Oxudular Seyyidin fəthinə şad-xürrəm oldular. Yeddi gün şadlıq eylədilər və dəxi xəlifə buyurdı. Cüdə və Seyyid Battala və cümlə adlu bəglərə xələtlər göndərdi. Cüdə gəlüb ol xələtləri Seyyid Battala Əmirə və bəglərə yetişdürdi. Şad-xürrəm oldular. Bunlar burada yeməkdə içməkdə. Bu qissə burada təmam oldu.

Hekayət digər belə rəvayət olunur ki, bir gün Əmir və

Seyyid Battal atlanub bir su kənarına gəlüb, düşdülər. Seyyid Bəttal orada ayıldı kim, suya girüb. Atına [22a] minub, suyu keçdi. Bir məxfi yerdə gəlüb suya girdi və çıxub tonun geydi. Nagah baxub gördü bir böyük bağ. Və bağın içində bir qəsr içərudə dürlü yemişlər. Seyyid didi: - Bu nə xub məqamdur. Əcəb, bu bağ kimin olə, deyüb atına minüb bağın qapusına gəldi. Bir dəm təfərrüc iylə bir nəzər edüb gördü ki, bir məhbub Simu zər içində. Qız nurə qərq olmuş qəsrdən tışra çıxmuş təmaşa edir. Bin Yusif Misri Züleyxanin Yusufu yanında yalan olur. Həman ol baxışda yüz min canikönüldən qıza aşiq oldu və qız dəxi bunu görüb, divanə oldu. Dayəsinə didi: – Ay dayə, ol igid kimdür, heç bilürmüsən? Dayə didi: - Bəli, bilirəm. Qız sirrini dayəsinə didi. Dayə didi: - Bu Seyyid Battaldur, sənün əmün oğludur. Bəlli pəhləvandur. Qız didi: - Sirrimi bilməsün, səbr edüb görəlüm Allah-təalanı nə qılır, Seyyid Battal döndü rüxsari ziyadə olmuş məhəbbət əsir eyləmiş. Əmirün yanına gəldi. Atlanub şəhərə gəldilər. Seyyid Battal Əmirdən xəbər aldı ki, şol filan bağıqəsr kimindür? [23] Əmir didi: – Sənin əmin Həsənindür və dəxi bir qızı vardur. Adına Zeynəb derlər. Gözəllikdə nəziri yoqdur. Seyyid Battalın eşqi dəxi ziyadə oldu. Qərarı qalmadı. Qız dəxi bundan betər oldu.

Bunun üzərinə qırq gün keçdi. Bir gecə Əmir Həzrət Rəsul Əliyə Əlsəlləti duşunda gördü didi: – Ya Əmir, sabah olsun, adam göndər. Həsəni çağur allahın əmri ilə qızın Seyyid Battala versün. Çün sabah oldu. Əmir adam göndərdi. Həsəni çağırdı, hekayəti bildürdi. O dəxi şad oldu tez toy edüb, qızı Seyyid Battala verdilər.

Bunun üzərinə bir ay keçdi. Bir gün oturmuşdular. Bir cəsus içərü girüb didi: - İbrahim cəsus gəldi. Dəstur varmı, içərü girməgə. İzzin alub, içərü girdi, düa qıldılar, sonra əhval xəbər aldılar. Cəsus didi: - Mən Məmuriyyədən gəlürim. Şəmun Qeysərün oğlu yüz min ərz qıldı munda gəlməgə Mehranı qoymadı, Qeysərə bildurdilər. Mehran Qeysərə didi: - Sən Battalı necə qoydun? Oğlunu dustaq eylədi. Din-

dən [23a] çıqarub öz dininə döndərdi. Əhməd kibi pəhləvanı müsəlman etdi aləmi xərabə verdi. İki kərrə sənin ləşkərini sındurdı deyüb, zar-zar ağladı. Qeysər didi: – Dört oğlum var. Belə varsunlar. Tamam müsəlmanları qılıncdan keçürsünlər, oda yaqsunlar və Battalın dəxi dərisin çıqarsunlar. Və hər kim Battalı öldürsə təmam təxtim onundur, didi. Şəmun bu xəbəri gətirdü ki, hazır olun, didi. Əmir buyurdu ləşkər cəm eylədilər. İgirmi min əsr cəm oldular. Pəs bəglər Battal yanına gəlüb, cəmi ləşkər ilə bir yerdə rəvanə olub, əvvəlki yerə gəldilər. Arxaların dağa verib çevrələrin xəndək qazub, iki qapu qoydular.

Günlərdə bir gün xəbər gəldi kim, Zeynəb xatun gəldi. Gəlüb Seyyidin əlin öpdü. Battal didi: - Neçün gəldün? Didi: - Fəraqə tab gətürməyüb, gəldüm. Battal buyurdu Zeynəb xatunu tışra çıxardub, bir çadır verdilər oturdı, sabah oldu. Kafir ləşkəri gəlüb gördülər Seyyid Battal, Əhməd Tarran, Cüdə və Həbbab, Təvabil, Əflahun cümləsi doqsan ər ilə kafirə qarşu gitdilər.

Şəmasın bir pəhləvanı var idi. Adına Yemelyan nam derlərdi. Min [24] adam ilə onu göndərdi, var gör ol gələnlər nə qövimdur, gəlüb. Gördülər kim müsəlmanlardır. Həman dəm həmlə eylədilər kişi dəxi min kişiyə özlərin verdilər. Əhməd Tarran nərə urub, həmlə qıldı və dəxi Abdülvəhhab hər biri bir tərəfdən həmlə qıldıLar. Bir saətdə üç yüz kişini qılıncdan keçürdilər. Qalanı məcruh olub qaçdılar. Müsəlmanlarun heç birinə zərər olmadı. Şad-xürrəm dönüb, Battal yanına gəlub, hekayəti bildurdilər. Şəmas acuğlanub sögdi, didi: – lənət sənin kibi pəhləvana kim, min kişi ilə yüz kişiyə dözməyib qaçdun, didi: Əhmədi sən bilürsən necə pəhləvandur. Anın qılıncına kim dözər? Şəmas dəxi gəlüb qondular. Şərab gətürüb, içüb dəm oldular. Şəmas və Şəmun buyurdu, qırq kişi gətürdülər.

Bir Səbuh adlu vəziri var idi. Namə yazub həman dəm keşişlər ilə rəvanə qaldılar. Səbuhə tapşurdular ki, var ol qövmə degin. Bəttalı bana versünlər və hər ildə xərracı bo-

yunlarına alsunlar kim hər il özləri götürələr, bən dəxi bundan gerü qayıdım. Yoxsa, Narınur haqqıçün nə qədər islam vilayəti varsa xərab edüb oda yakaram. Bunu deyüb, qırq keşiş ilə vəzirləri göndərdi. [24a]

Çün namə yetüşdi. Açub oxudular. Bəttal acığlanub naməni para-para eylədi didi: - Var Şəmuna və Şəmasa, söylə. Müsəlman olsunlar. Mənim niyyətim oldur kim təmam Rumi müsəlman edim. İslambulu təmam xərab edəm, kilsələrin yıqub yerinə məscidü mədrəsələr yapım, didi və keşişləri dinə dəvət eylədi. Qəbul etmədilər. Cümləsinin boynunu urdu. Səbuhun burnun və iki qulağın kəcdilər. Şəmasa göndərdilər. Çün Səbuh, Şəmasa gəlüb, hekayətin didi. Şəmasın və Şəmunun yüzlərində qan qaçdı, didilər. Bu neçə yavuz qövmüdür? Şəmas didi: – Məbadə, namusun gedə, yaxşısı budur kim burdan dönəlüm. Şəmun acuğlanub, didi kim, bu nə sözdür deyirsən. Əvvəl səni öldürrəm, andan Rum ləşkəri ilə o ləşkərə varram. didi: – Qeyrətsizlikdən, ölmək igidlikdir deyüb, tez buyurdu. Ləşkər atlandı. Bu tərəfdən müsəlman ləşkəri atlanub xəndəqdən çıxub səf bağladılar. Şəmun gördü kim müsəlmanlar bir yerdə səf bağlamuşlar.

Bir kafir var idi, Sərcayıl Şəmunu yetmiş min kişi ilə dağın sağ yanına göndərdi. Özü nəqaralar tököb müsəlmanlara qarşu durdu. Dört tərəfdən həmlə eylədilər. Axşam vəqti olunca qatı cəng eylədilər. Çün axşam arayə gəldi, [26] hər kəs öz mənzilinə dönüb, sakin oldular. Sərcayıl Şəmas yanında çoq laf eylədi.

Sabah oldı, genə iki tərəfdən nəqarələr döküb səf bağlayub durdular. Müsəlman tərəfindən Cüdə oğlu Musa meydana girib, qırq kafirı cəhənnəmə vasil eylədi. Kafir tərəfindən Sinbat meydana girdi. Bir neçə həmlə ortada xətayə keçüb, Sinbatı da zəbun eylədi. Sinbat didi: – Ya Musa, mənim xatirimdir kim müsəlman olam. Musa didi: - Xoş ola. Sinbat bu söz ilə dönüb, Şəmuna gəldi, didi: – üzürüm var yoxsa, mənim yanımda ol nə kişidir, dərhal Təryun ad-

lu bir kafir meydana girüb, Musaya cida həvalə eylədi. Musanın cidasın və qürzün məni edüb, növbət Musaya gəldi bir qılınc urdu. Kafir qalxanı bərabər dutdu. Qalxan elə köksünə dəgdi iki parə eylədi. Dəxi kafirlərdən kimsə meydana girmədi. Musa dönüb Battal yanına gəlüb düa edüb, tez namazın qıldılar.

Musanın bir əmisi oğlu var idi. Muhamməd bin Əli derlər idi. Ol meydana girdi. Şəmas Sinbata Nəmrud yüzün suyunu tökdün, didi. Ləyin Sinbat ğeyrətləndi. Xov ha xov əzm meydan edüb, Məhəmmədə bərabər gəldi. Qırq həmlə xətayə keçdi. Sinbat yenə zəbun olub didi: – «Ey cavan! Musaya dimişdim ki, müsəlman olayım. Məhəmməd [25a] didi: – Mən dəxi istərim müsəlman olasın necə ki, Qeysər oğlu Rabi oldı. Məhəmməd didi: – Gəl imdi müsəlman ol. Sinbat didi: – Əvvəl sən var, Battala söylə. Pəs, Məhəmməd gəlüb hekayəti Battala bildürdi. Seyyid Battal didi: - Ol özü zəbun olduğundan hiylə edüb, səni buraya göndərüb özi dönüb ləşkərə getdi.

Pəs ginə axşam oldu, iki ləşkər döndülər bu tərəfdən müsəlmanlar sabah olunca namaza məşğul oldular. Sabah oldı, yenə hər iki ləşkər atlanub səf bağladılar. Ol Məhəmməd meydana girüb, çağurdı. Hanı Sinbat dün gün bəni aldadub, qaçdı. Əgər ər isə, meydana gəlsün. Şəmun didi: – Ey bi ğeyrət, neçün hərifdən yüz döndərdün. Sinbat didi: - Şəmun yalan söylər, özü zəbun oldı.

Əzmaq adlu bir kafir meydana girüb gürz həvalə eylədi. Məhəmməd məni eylədi. Məhəmməd yetüşüb bir gürz urdu ki, atı ilə özü yerə yıxıldı. Şəmas acuğlandı. Sinbat naçar meydana gəldi. Bir qılınc həvalə eylədi. Məhəmməd rədd eylədi. Nöbət Məhəmmədə yetüşdü. Bir qılınc urdu qalxanın kəsüb başına toqundu. İki para oldı. Sinbat ləyin Məhəmmədin önündən getdi.

Müsəlmanlardan tək bir avaz qopdı. Şəmas buyurdu, Məhəmmədin üstə at saldılar.

Battal nərə urub həmlə qıldı. Əhməd Tarran və [26]

Abdülvəhhab və cümlə pəhləvanlar qatı cəng eylədilər və dəxi kafir ləşkəri pərişan oldular.

Axşam olub, ləşkər ayrıldı. Şəmun didi: - görün Nəmrud bizə neçə xarluq edir. Pəs iki tərəfdən qaraul atlanub ləşkəri saxladılar ta kim sabah oldı, meydanı arəstə eylədilər. Ol Şəmun meydana girdi. Bayraq sancağ iki yüz altun kəmərli bəstə qollarü iki yüz rumi bedavi cövlanə gətürdilər. Əhməd Tarranı görüb meydana gəldi. Şəmun Əhmədi gördükdə atın başını çevirib öz ləşgərinə rəvanə oldı. Müsəlman ləşkəri şad oldular. Şəmun biçarə öz ləşkərinə gəldi. Şəmas acığlanub, yüzünə tüpürdi. Azad eylədi ki, özü gedə Sərcayıl qoymayıb özü meydana girdi.

Müsəlmanlar bunun qəd-qamətin görüb heyran qaldılar və bu də Firəng padşahı idi. Əhmədə qarşu gəldi didi: – Ya Əhməd, rəvamudur sən Qeysər kibi padşahın pəhləvanı olasan. Babaların dinin tərg edüb, varub bu aclara uyasın. Gəl səni alarum didi, ginə nar-ı nur yanındə mükərrəm olasın. Əhməd eşidüb, acuğlandı. Əlində ki, cidanı həvalə eylədi. Sərcayıl ləyin çoq cəng eylədi. Əhməd zəbun oldu. Sərcayıl acuğlanub Əhmədə bir gürz urdu. Əhməd qalxanı [26a] bərabər verdi, qalxan payidar olub dağıldı. Başını qaçurdı, enüb atına toqunub yıxıldı. Təvabil meydana girdi, andə kafir yıxıldı. Hər mömün kəs zəbun oldı. Seyyid Battal at meydana salub, eylə nərə çəkdi ki, Sərcayıl sərələnə oldu. Az qaldı ki, atından yıxıla, özüni saxladı didi: - Nə kişisən? didi: - Battalam, kafirlərə qəttalam. Kafir didi: – Ancaq bən səni istərdim. Bir cida həvalə eylədi. Seyyid məni eylədi. Növbət Seyyidə yetüşüb bir cida urdu kim, cida qalxandan keçüb köksünə toxundu bağrından çıxdı. Canı cəhənnəmə vasil oldı. Seyyid atından enüb meydan içində kükrədi. Müsəlmanlar təkbir gətürüb, təhsin eylədilər.

Səmaş anı görüb zarlıq eylədi. Dərhal Nəmrud bir pəhləvan var idi, ol dəxi həmlə qıldı, həlak oldı. Altımış kafiri cəhənnəmə göndərdi.

İslambulun bir bəgi var idi. Adı Təkfur şah idi. Ol dəxi

meydana girdi. Atı dəxi öldürdü. Səmaş fəryad eylədi özü meydana girdi. Barı bunların öldügün görməyim, didi. Məlikanə donlar geydi, altun içrə ğərq olub, Seyyidə bərabər gəldi. Seyyid sordu [27] kim, sən kimsən? didi: – Qeysərün oğluyam. Ol didi: – Sən kimsən, bu gün munca adamlar öldürdün ki, hər birin yanında neçə sən kibi qullar əl-əl üstə qoyub durarlar idi. Seyyidün acuqı dutub, səni də onların yanına göndərrəm, didi. Şəmas cida həvalə eylədi, Seyyid məni eylədi. Atın sagırtdi ki, geçə Seyyid bir yumruq urdu kim at şağrusundan aşurulub məallaq yıxıldı. Seyyid əsardən enüb durunca, əllərini bağladı Əflahuna verdi. Ələm dibinə apardı anı görüb, qardeşı Şəmun fəryad eylədi. Buyurdu: Yer bə yerdən at saldılar. Oxlar yağdurdılar. Seyyid Battal özüni qalabalığa urdu. Ol xaçı olan böyük ələmi axdardı, tapub Ələmdarı öldürdü.

Bu canibdə Şəması Seyyüdün çadrına gətürdülər. Bir neçə kişi muvəkkil eylədilər. Onlar dəxi ləşkərə tamaşa edirkən, Şəmas özünü xəlvət görüb əlin açub şükür içində çadırdan çıxub, qaçdı.

Zeynəb xatun onu [27[a]] gördü, «qoymuyun» - diyincə, dağa çıxub rəvanə oldu. Xadimlər gəlib, Seyyidə xəbər verdilər kim, Səmaş qaçdı.

Hekayət bu canibdən, kafir ləşkəri sındı. İslam ləşkəri üç qurub döndülər. Cəmi pəhləvanlar gəlüb oturdular. Amma Seyyid bulunmadı. Dört canibə pərakəndə oldular. Heç əsri məlum olmadı. Pərişan oldılar.

Çün ləşkər ki, sındı, Bəttal Şəması aramağa getmişdi. Gəzirkən bir su kənarına gəlüb, atından enüb, donlarin çıqardı. Kafirlərin qanından pak yudu. Namaz qılub oturur-kən gördü kim qarşudan bir atlu gəlür. Bildi kim Şəmasdur. Tez atına minüb qarşu vardı. Şəmas dəxi Seyyidi gördü, canına titrətmə düşdü. Naçar qarşu gəlüb qılıncı həvalə eylədi. Seyyid irəlü yeridi. Şəması atından qapdı yerə urdu bağladı. Alub rəvanə oldu.

Bu canibdə möminlər qüssədə ikən, Seyid Battal gəldi.

Qamu yaranlar şad oldular. Qənim malın eylədilər. Seyyid Battal buyurdu, pencik çıqarub xəlifəyə göndərdilər. Qalanını ğazilərə qismət eylədilər. Battal ğazi [28] bir həbbə almadı.

Bu tərəfdə Şəmas məlun yenə fürsət bulub, xilas olub Seyyidün çadırına gəldi. Gördü kim Seyyid bunda yoq. Zeynəb yatmış. Yağlığun Zeynəbin ağzına bağlayub və iki əlin bağladı alub rəvanə oldu.

Çün sabah oldı, müvəkkillər Şəması bulmadılar. Seyyidə xəbər eylədilər kim, Şəmas qaçdı. Dərhal Seyyid durub rumiyanə donlar geyüb, gəlüb atına mindi. Gedüb üç gündən sonra bir yerə yetüşdi. Ol yerin yeddi rəhbanı var idi. Seyyiddən sual eylədilər kim nə kişisən? Seyyid didi: - Şəmas qullarındanam. Battal xəbər aldı ki, siz anı gördünüzmi nə tərəfə getdi. Didilər, «Məmuriyyə tərəfinə getdi». Seyyid dəxi ardınca rəvanə olub gedürkən yolda şikar edüb, bir su kənarinda düşüb namaz qıldı və od yaqdı. Şikarın bişürüb yedi. Gördü kim bir rəhban çıqub gəldi, nəzər edüb gördü kim müsəlmanlarun cəsusu Münzirdir. Battal didi: – Ya Munzir, handa idün? didi: – Səni axdarurdum. didi: – Şəması gördünmü? didi: – Gördüm bir ata minmüş və bir adam dəxi bu at üstə bağlu idi. Məmuriyə tərəfinə getdi. Durdu, atına minüb rəvan oldı.

Bir gündən sonra iki kişiyə rast gəldi. [28[a]] Onlardan xəbər sordu. Didilər, Qeysər Rum Xarçındə idi. Şəmas dəxi anda getdi.

Seyyid dəxi atlanub rəvanə oldı bir gündə şəhərə vasil oldı. Bir məğarada atın pünhan eylədi. Özi şəhərə girdi çünki Şəmas Xarçınə gəldi Qeysər şad olub, bəglər yanına gəldi. Şəması Qeysər yanına gətürdilər. Səmaş atasının əlin öpdü didi: – Əsir olmuşdum, yenə İsa məni xilas etdi. Bən dəxi Battala qəsd eyləyə bilmədüm. Övrətin buldum alub gəldim. Bilürəm, ardımca gəlür. Nar-ı Nur haqqı əlimə girə, başın kəsüb aləmi xilas edəm, didi.

Və Qeysərün üç qızı var idi. Böyügünün adı Kitayun

idi. Ortancunun adı Himayun, kiçisinin adı Mahpəryüz. Zeynəb xatunı Mahpəryüzə tapşırdılar. Ol gün Zeynəbi hamama apardılar, dürlü xələtlər geydirdilər, yanında oturdular.

Bu canibdə Seyyid Battal gəzirkən gördü kim bir kişi bir qarpuz satır. Bir aqça verüb qarpuzı alub, yeməgə başladı. Bir kişi gəlüb sual eylədi ki, Ay igit, nə yeyirsən? Ol didi: – Şəmas qulundanam, müsəlmanlar bizi tarimar eylədi, bu hala saldı. Ol kişi didi ki, dün gün Şəmas [29] gəlüb, Battalın xatununu da gətürdü, əzim xublardan imiş. Qeysər dəxi and içdi ki, bu dəfə özü vara ta Kəbə qapusuna kibi, yandura. Kəbə qapusunda durub, adamların qıra. Seyyid Battalın dərsin çıqarub, aləmdə gəzdirə. Sabahı keçüb Məmuriyəyə varacaqdur. O, gecə Seyyidi aldı evinə aparıb, mehman eylədi. Döşək salub, yatdılar.

Çünki bu yuxuya vardı, Seyyid durub gəldi, kəmənd atub yuxarı çıxdı. Sarayın damında durdu bir pəncərəyə rast olub, baxdı gördü ki, Qeysər taxtında oturmuş. Dört oğlu dövrəsində oturub, şamlar yanır. Seyyidün ərligün və pəhləvanlığını söylərlər. Andan getdi bir pəncərəyə baxıb gördü ki, anda şamlar yanır. Kitayun və Himayun oturur. Bunlar da Seyyidi söləyirlər. Andan dəxi getdi o biri pəncərəyə. Gördü kim bir taxt qurulmuş üstündə Mahpəryüz oturur. Mahi-tabanə bənzər. Zeynəb xatun dəxi onuyla oturub yeməkdə-içməkdə. Mahpəryüz Zeynəbdən sordu ki, adun nədür? Didi: - Zeynəb. Seyyid qulaq asurdı. Həman dəxi Mahpəryüz yanından bir vərəq çıxardı, ol vərəqin üstündə Seyyidün və yaranların surəti yazılı idi. [29a] Zeynəbə göstərdi. Zeynəb didi: - Sən bunları nə yerdə görmusən kim, surətlərin yazmışsan. Mahpəryüz didi: – Rəsul Həzrəti duşumda gördüm. Bu qırq pəhləvanları, onun yanında gördüm. Rəsul Həzrət buyurdu, «bunları bilürmüsən?». Mən didim, ya Rəsul allah, sən bəni bunların birisinə ver. Ol bana didi: - Qırq gündən sonra rovzəndən aşağa kim enərsə səni ona verdim. İmdi bən dəxi günü saydım bu gecə, qırq

gecədir kim Rəsul Həzrəti bana buyurmuş. Ol yalan söyləməz. Haqq peyğəmbərdirsə yuxarıda kim varsa aşağa enər, didi. Seyyid ki bu sözü eşitdi, «amənna və səddəqna» deyü nərdübandan aşağa endi. Zeynəb didi: – Bu gələn Battaldur. Dərhalal ikisi də qarşu gəlüb, yüz yerə qoydular.

Mahpəryüz nəzər eylədi. Seyyidün cəmalın görüb eşqi dəxi ziyadə oldu. Tez bir quzu biryanı gətürüb yedilər, şükürin qıldılar. Battal didi: - Tez getmək gərək, durub atasının, özünün nə qədər yaxşı şeyləri var isə yığıb cəm edüb, bürcə gəldilər. Kəmənd atub, sarayın damundan aşağa endilər. Atları alub, gəmiyə yaxın gəldilər. Malları gəmiyə qoyub, Seyyid önlərinə düşüb rəvan oldular. Bu canibdən çün sabah oldı. Dayələr halı bilüb Qeysərə ərz eylədilər. Qeysər məlul olub, oğlanlarını cəm eylədi. Bir ulu oğlanı, bəglər ilə otuz min qoşun ilə Seyyid ardınca rəvanə qıldı.

Qeysər didi: - Hər kim Battalı öldürsə, tacı-təxtim onun olsun.

Bu [30] canibdə Seyyid sabah olunca yeridi bir çeşməyə yetişüb, atından enüb abdəst alub, namaz qıldı. Çün namazdan fariğ oldular. Nagah, bir toz göründü. Seyyid dəxi silahına qurşandı. Nagah Şəmas çıqub gəldi. Çağırdı: - Ey Seyyid, bu nə işdür eylədün, hazır ol ki, yetişürüm. Mahpəryüz didi: – Ya Seyyid, sən bir dəm təfərrüc eylə, gör mən bunlara neylərəm deyüb, Şəmasa qarşu vardı. Şəmasa bir cida urdu ki, atın götürüb atdı. Şəmas hünər möhnət ilə xilas oldu. Kiçük qarındaşı var idi. Ramini adlu. Mahpəryüzün ana bir qarındaşı var idi. Gəlüb didi: – Ey Mahpəryüz, bu nə işdür kim sən eylədün. Mahpəryüz ol vərəqi çıxartdı didi ki, duşumda gördüm. Hekayətin kəmakan şərh eylədi. Çün Ramini ki, bu hekayəti bildi, İman nuru yüzünə urdi, barmağın gətürüb iman ərz qıldı. Müsəlman oldı. Ramini gəlüb Seyyidün [30a] önündə yüzün yerə qoydu. Seyyid Ramininin iki gözündən öpdü. Şəmas anı görüb dəm nəfsi bağlandı. Buyurdı, ləşkərə təmam yerbəyerdən at saldılar. Mahpəryüz, Zeynəb və Raminini həmlə qıldılar. Seyyid bir

kərə urdu ləşkəri tarimar eylədi. Ələmdarı öldürdi. Ləşkər sınub, qaçdılar. Çoxlu mal cəm eylədilər. Bin at, bin kişi əsbaplar Malatiya şəhərinə gəldilər.

Müsəlmanlar Seyyidün bu fəthindən şad olub, yeddi gün toy-dügün eylədilər. Mahpəryüzı Seyyidə nigah eylədilər. Ol qənim malından pəncik xəlifəyə çıqdılar. Yüz at, yüz qılıncı Abdülvəhhab Raminini də alub xəlifəyə apardı.

Çün namə xəlifəyə gəldi. Şad oldılar. Xəlifə də dəxi yaxşı atlar və xələtlər göndərdi. Gətürüb Seyyidün önündə qoydular. Cümlə yaranlar görüb şad oldular.

Bu canibdə çünki bu işləri Abdüssələm görüb didi: - Neçün mən dəxi bir ad çıqarmayım. Qamu ulu keçmişindən yüz döndərdi. Xor oldım.

Bir gecə Abdüssələm ğəzəb ilə xub Tərsusa getdi.

Ol vəqt Tərsus müsəlman şəhəri idi. Hüseyin oğlu Məhəmməd anda padşah idi. On bin ləşkəri var idi. Çün eşitdilər Abdüssələm gəlür qarşu çıqdılar. Alub şəhərə gəldilər. Hüseyin [31] oğlu Məhəmmədin bir ulu qulu qulluq eylədi. Həmid, Həbbab və Əziz Nəsr anda hazır oldular.

O məclisdə Abdüssələm Seyyiddən çox şikayət eylədi. Yəni mənim mənsəbim aldı. Nəsr didi: – Sən dəxi bir hünər göstər. Qeysərün bir qızı Xarcındadir. Var, al gətür ya İslambulda Sərapil keşişi öldür, Rumda andan qəddar keşiş yoxdur. Ya ol qızılı İsa zəmanından bəri yanır onu gətür ya ol səbət kim qızıl altundan içi müşk-ənbər və ya büt-ənbər və müşk zəfəran içi doludur. Oğurla gətür. Abı məbudiyəyi yerə tök. Biz xəlifəyə ərz edəlüm, səna mənsəbi gerü versün, didilər.

Abdüssələm bu sözləri eşidüb, rumiyanə donlar geyüb, Rumə əzm-i oldu. Günlərdə bir gün İslambula gəldi qəsd eylədi kim, bir iş duta. Tuydular, Qeysərə gətürdülər. İşi məlum oldı. Qeysər buyurdu, bir xam gön gətürdilər. Abdüssələmi ol xam gönə qoydular. Bir zəncir götürdilər. Həman zəncirə möhkəmliyib, zəncirün bir ucun qələnün üzəri-

nə bir ucu kilsənün qapusuna bağladılar. Havaya qoydular. Abdüssələm havada asalu qalldı. Qırq keşiş müvəkkil eylədilər. Günün [31a] istisindən yaş gön qurudu. Abdüssələm gecə-gündüz fəryad-fəğanə başladı. Pəs İslambulda bir nalbənd var idi, Muhəng hindu idi müsəlman idi. Daim nə iş olsa idi, müsəlmanlara xəbər eylərdi. Çünki Abdüssələmin bu işi aşkar oldı. Muhəng Malatiyaya rəvan oldı. Çün yaranlar oturub, Abdüssələmdən söylər ikən, Muhəng hindu yetüşdü. Abdüssələmin əhvalını bildirdi cümləsi ağladılar. Seyyid didi: - Yaranlar, hidmətiniz bənimlə olsun, dəxi mən gedirəm.

Ol zaman Seyyid yaranlar ilə vida edüb, caməsin mübəddəl edüb Muhəng hindu ilə rəvanə oldular. Şəmasın dırinə gəldilər. Abdüssələmin hekayətin Şəmasa ərz qıldılar. İnşaallah varub xilas edərəm, didi. Şəmas didi: - Ğayət, müşkül haldır. Haqq-təala mənimlə olsun, didi. Ol gecə evində qaldılar.

Sabah oldı durub rəvanə oldılar. Seyyid nəzir eylədiki, pərvərdigara bana inayətin olsun, hər gah Abdüssələmi qurtarsam min fəqirə xələt verrəm və min acı toyuram.

Atın sürüb ta İslambula gəldilər. Muhəng hinduni [32] evinə göndərdi. Atını dəxi bir mağarada gizləyüb, silahın və yarağın anda qoydu. Özü şəhərə gəlüb, gördü kim, bir şəhər muəzzəm var. Arasında bir kilsə var qələyə bənzər və dört yüz keşiş var, hər birisi bir iqlimdən gəlüb anda ibadət edürlər və Seyyid ruhbanə donlar geyüb keşişlərə qarşu gəldi. Görüşdilər. Məftül yanına apardılar. Cümlə keşişlərün başı idi. Oda, görüb qarşu gəlüb görüşdülər. Ol gecə anda qonaq oldı. Məftul sordu, nə yerdən gəlürsən? Seyyid Battal didi: – Beytül Əl Müqəddəsdən gəlürəm. didi:- Adun nədir? didi: - Adım Şamildir. Məftul didi: - Anda bənim bir qarındaşım var idi. Sərabıl keşiş derlər. Anın bir oğlu var idi. İmdi igirmi ildur anda elim-təhsil edir. Seyyid didi: - Bən ol Sərabılın oğluyam. Elmim tamam. - Bildüm. Təkrar görüşdü, iki gözündən öpüb, bağrına basdı. Ol gecə, söhbət

eylədilər. İslambul içində nə qədər ulu ruhbanlar var isə cəm oldular. Sabah olunca söhbət eylədilər. Cümləsin məram eylədi. [32a]

Çün sabah oldı. Eraqıl Qeysərə xəbər verdilər Rəhban gəldi kim Nar-ı nur (İsa) özüdür didilər. Nə qədər keşiş var isə məlzəm oldular. Qeysər didi: - Arakilə ayıdun cəm olalım. Din ulusun ziyarət edəlüm. Hüsün-nəsihət eşidəlim didi.

Sabah oldı, Qeysər, Şəmun, Şəmas, Mətran, İlyun ulu kafirdən idilər. Hazır oldılar ol keşişlər Seyyidi alub, irəli vardılar. Qeysərə qarşu yeridilər. Çün Qeysər Seyyidi gördü, titrətmə düşdü. Yaxun oldular, bihuş oldı. Yanında olanlar dutdular. Qeysər özünə gəldi, Seyyidi ziyarət eylədi. Seyyid əlin vermədi. «Səndə dünya məhəbbəti vardır», deyüb əlin çəkdi. Qeysər Seyyidün ətəgin alub, yüzünə gözünə sürtdi. Bəglər dəxi gəlüb Seyyidi ziyarət eylədilər. Seyyidi minbərə təklif eylədilər. Minbərə çıxub sanki İsanın aynası idi. Nəsihətlər eylədi. Qeysərü nə qədər bəglər var isə cümlə Seyyidə məhəbbət eylədilər və Qeysər irəlü gəlüb didi: - Ey din ulusu, məsihin qulları, bu zəman Malatiyada bir oğlan peyda olmuş. Çoq ulu kişilərimizi öldürdü, neçələrimizi dindən çıqardı. İmdi himmətin belə olsun ki, gedirəm. Ol oğlanı ələ gətürüm təmam islam ləşkərin qılıncdan [33] keçürüb, Kəbələrin yıxam, xəlifələrin dutam. Seyyid didi: - İmdi qəm çəkmə Nar-ı Nur (İsa) imdi sana yar edürəm, didi. Qeysər gəlüb Seyyidin əlin öpdü, önüncə yüriyüb öz məqamına apardı.

Yarım gecədə Seyyid o yerə gəldi kim, Abdüssələm dara çəkmişdilər. Gəlüb gördü kim, miskin Abdüssələm ol zəncirün ortasında asılmış, ol gön qurumuş bir az səs çıqarır. Qaranlıq yerdədür. Ol didi: - Bu necə işdür. Bu məkri Allah tala inayət edə, qurtaram.

Bu fikirdə idi, gördü bir kişi gəlüb Seyyidün əyağına düşdü didi: - Kimsən? Didi: - Qulunam. Muhəng hinduyam. Seyyid didi: - Məni nə bildin? Didi: - Səndən ayrıldu-

ğuma məlul olmuşdum, gecə Həzrət Rəsulu duşumda gördüm. Didi: - Dur var, Battal filan yerdədur. Sən dəxi ona yardım ol. Dərhal gəldüm əmrün nədir? buyur, ona binayi-tədbir eyləyəlüm.

Seyyid buyurdu: - Qırq uzun ağaclar gətirüb bir-birinə bağladılar. Ucuna bir sim təraş almasdan raptetilər. Seyyid xəncərin çıxarub, ol beş yüz kişilərin başını kəsdi. Andan sonra, ağacları Muhəng Hinduya verdi. Uş alub zəncirün bir ucundan kəsdi. Zəncir həva yüzülə pərtov oldı. Seyyid irəlü yeriyüb Abdüssələmi qapub Muhəngün evinə gəldilər. [33a] Gördülər gön qurumuş, Abdüssələmin nəfəsi mənğubə olmuş. Muhəngun evində bir mərmərdən hovuz var idi. Adam miqdarınca. Abdüssəlləmi ol hovuza qoydular, tapşurdular ki, muğayad olsunlar. Genə bən gələrüm. Seyyid çıxub getdi. Ta kim gedüb öz yerində yatdı.

Sabah oldı, ğəlğələ düşdü kim, bu gecə, Battal gəlüb Abdüssələmi qurtarmış və beş yüz kişiləri öldürmüş. Qeysərə xəbər oldı xanə-xanə aradılar bulunmadı. Sərabil keşiş dört yüz rəhban ilə anu aradılar bulmayıb, məğmun oldular. Məftul və Sərabil Seyyidin yanına gəldilər. Seyyiddən şikayət eylədilər. Seyyid didi: - Yahın belə bilürəm ki, ol Seyyid Battal bu Rum vilayətin fəth edə, kilsələri xərab edüb yerinə məscidlər yapalar. Sərabil dəxi didi: - Ey can əmim dəxi şöylə görürüm. Hey-hey deyüb, ağladılar. Çün Abdüssələm bir həftə ol hovuz içində qaldı. Bir az yumuşaldı. Dəmbədəm Seyyid gəlür idi.

Amma bir gün gəlüb, Abdüssələmi gündən çıxardı. Bir az nəfəsi qalmışdı. Seyyid badam yağı çıxarub pıçaq ilə Abdüssələmin ağzın açdı, bir-iki qaşıq Abdüssələmin ağzına tökdü. Üç günədək gözün açdı. Seyyid şərbət hazır edüb, içirdi və hər gecə Seyyid gəlüb baxır idi. Çün [34] Abdüssələm azacuq yaxşı oldı, Seyyidün ayağına düşdü, çoq qədürkərd eylədi, didi: - Ya pəhləvan, mənim yamanluğum qalmadı. Nəvazlıq eylədi. Abdüssələmin qəlbündən ədavət çıqdı və saf oldı.

Bir gecə Seyyid Sərabil keşiş üzərinə gəldi, gördü kim xur-xur yuxlar. Boğazından dutdu. Sərabil gözün açdı didi: - Kimsən? didi: - Battalam, tez iman ərz eylə, yoxsa sən bilürsən. Sərabil didi: - Sən mənim qardeşım oğlu degilsən? Seyyid didi: - Çoq söyləmə. Battalam, kafirlərə qəttalam, gəldim Abdüssələmi qurtaram. Tez müsəlman ol. İman gətür məlun, hərzə söyləmə, didi. Dərhal Seyyid başın kəsdi. Ol beş yüz keşişlərün cümləsin cəhənnəmə göndərdi. Ol qandalı sındırdı. Ab məbədiyyəyi tökdü. Ol büt kim altundan idi, qırdı və altun gümüşdən məqdur olduqca alub, Muhəng Hindunun evinə gəldi. Və andan bir qədər Muhəng Hinduyə verdi. Abdüssələm və Seyyid Muhəngdən vida edüb bürcə gəlüb kəmənd atdılar. Aşağa enüb Seyyidün atına gəldilər. Bir iki at dəxi bəhəm yetirüb birin Abdüssəlləm mindi və birinə xaçı bağlayub rəvanə oldular.

Bu canibdə çün sabah oldı. Qeysərə xəbər verdilər. Qeysər ol dırə gəlüb gördülər Məftul öldürülmüş, cümlə keşişləri qırılmış, qandalı sındırılmış ab məbudi [34[a]] dağıtmış. Kilsənin içi qan ilə dolmuş. Fəryad-fəğan edüb tacın yerə urdu. Yaxasın çak edüb, zar-zar ağladı. Əqli gah gedüb, gah gəlürdi. Qeysəri götürüb sarayına apardılar. Yeddi gün dəxi su da içmədi.

Rum əhli tamam yas dutdular. Və bu tərəfdən Seyyid Abdüssələmi alub gedirikən iki ağaclar arasına uğradılar. Yolları itdi. Abdüssələmin gözü yaşla doldu, didi: - Ya Əmir, yolda mənim bir qulum qalıbdur. Bu yol bir qələyə gedir bir bəg vardur adına Sərabil derlər idi. Onun bir qızı vardur Novruzbanu. Onu bir kəz gördüm. İmdi xəyalı gözümdən getməz. Seyyid didi: - İmdi sən burada dur, mən gəlincə.

Özü rumuyanə donlar geyüb keşiş surətində rəvanə oldı. Bir dəmdən sonra bir təpəyə çıxdı gördü ki, bir qələ var başı asimanə yetmiş, önündə bir xoş çeşmə çəmənlər bitmiş, altı bin qədər ləşkər qonmuş. Qələnin bəginin adı Təfanuş idi. Qırq rəhban ilə qonmuş, otururlar. Bir adam gəlür. Hə-

man Seyyidə qarşu getdilər, sordular kim sənin adın nədür və handan gəlürsən? [35] Seyyid didi: - Bən Raz keşişin oğluyam, adım Akanuşdur. Didilər: - Yəqin Battal olmıyasan? Seyyid ağladı ki, məni siz kimə bənzədirsuz? Deyüb, mübarək ağzın açub bir neçə ayət incil oqudu, dəxi küsüb getdi. Ol rəhbanlar fəryad edirdilər: - Bu şəhər bina olalı bunun kibi soltan buraya gəlmədi, sən neçün bunun xatirin yıqdun. Dərhal Təfanuş gəlüb, ayağina düşdü, üzürlər dilədi, alub qələyə gəldilər.

Gecə oldı söhbət bəxş eylədi. Cümləsin mülzəm eylədi. Yarım gecə oldı. Seyyid tışra çıqub, Təfanuş üzərinə gəldi, başın kəsdi qırq keşişləri öldürdi tışra gəlüb gördü bir qalabaluğ var. Bir keşişdən sordu kim bu nə qoğadır. Didi: - Təfanuş oğlu Məhriyayil gəldi. Seyyid bir dəm səbr eylədi qoğa sakin oldı, gördü kim bir xadim gizlənir. Ardınca vardı. Xadim gördüki bir adam gəlür, didi: - Kimsən? Məhriyayildən gəlürəm. Seyyid didi: - Yürü gəl qulağına söyləyim. Xadim irəli gəldi. [35[a]] Seyyid dutub, ağzından boğub saldı. Sonra bürcdən aşağa endi, bir saraya girdi, gördü bir təxt qurulmuş, qızıl, altun üstündə bir surətli qız yatır. Yuxuya varmış, nagah oyanub, Seyyidi gördü. Aradı istədiki xadimələrdən çağura. Seyyid didi: - Mən Battalam, çağurma yoxsa, sən bilürsən. Qız dinmədi. Qızın bərk ağzun bağladı aşağa endirdi. Bir at tapdı qızı mindurdi, rəvanə oldı.

Sabah olunca Abdüssələmə yetüşdilər. Çünki Abdüssələm qızı gördü, şad olub, Seyyidün ayağına düşdü. Sinə-saf oldı. Sabah namazın qıldılar. Nagah qələ yolundan toz qopdu. On iki min kafir ləşkəri çıxub gəldi. Çün Seyyid anı görüb qızı bir ağaca sarıdı. İkisi dəxi ol ləşkərə qarşu vardılar.

Çün sabah oldı, Məhriyayil gəldi. Novruzbanunun qardaşı idi. Qoymayun deyüb, buyurdu, Seyyidi tir-baran eylədilər. Seyyid nərə urub həmlə eylədi. Məhriyanuş Seyyidə bərabər gəldi. Cida həvalə eylədi. Seyyid məni eylədi. Seyyid Məhriyanuşa bir qılınc urdu ki, yəhər qaşından va-

rub iki parə eylədi. Anı görüb ləşkər sınub qaçdı. Seyyid dəxi çoq kafirləri qırdı. Gəldi, Abdüssələm yüz [36] yerə qoyub, Seyyidə dua eylədi. Ol ləşkərin malların və donların alub, rəvanə oldular.

Malatiyaya yetüşdilər. Müsəlmanlar Seyyidə qarşu çıqub şad oldular. Abdüssələm Seyyidün etdiklərin bərabər şərh eylədi. Novruzbanu dəxi müsəlman oldu. Toy-dügün eyləyüb, Abdüssələmə verdilər, bunun üzərinə bir il keçdi. Seyyidün adı aləmdə məhşur oldu.

Hekayət digər ravilərdən belə rəvayət olunur ki, bir gün Tərsus şəhərində ulular oturub, pəhləvanlardan söylərdilər kim, filan pəhləvan yaxşıdır, o biri deyir filan pəhləvan yaxşıdır. Həbbab didi: - Bu zamanədə Seyyid kibi pəhləvan yoxdur ki, Məhriyayili öldürdi. Fəlah Seyyidi ğayətdə sevərdi didi: - Varub mən də Seyyid eşqinə Məhranı öldürüm. Çün Fəlahın deyirlər, ata adı Məhəmməd idi. Məhəmməd bunu deyüb atını minüb əzm Məmuriyyə eylədi. İki-üç gündən sonra bir atlıya rast gəldi. Salam verüb didi: - Handan gidirsən? Ol kişi didi: - Məmuriyyə gedirəm. Məhəmməd didi: - Bən dəxi anda gidirüm. Ol kişi didi: - Yəqin kim Məhranı öldürməgə gedirsən?

Məhəmməd didi: - Bəli, bən dəxi istərəm ki, anın başını kəsəm. Ol kişi didi ki, Məhran sən didigün kişi digil deyüb, Məhəmmədə qılınc urdi. [36[a]] Məhəmməd məni edüb, qılıncın çəküb kafiri iki parə eylədi, andan varub bir kilsəyə yetüşdü. O kilsənün yeddi qapusu var idi. Məhəmməd bir su kənarında abdəst alub, namaz qıldı. Çün namazdan fariğ oldı. Nagah kilsə qapusundan bir məhbub çıqdı ki, ayın on dört gecəsi kimi. Çağırdı: - Ey kişi, nə yerlüsən, bunda neylərsən? quş burdan uçmağa qorxar.

Məhəmməd didi: - Bən müsəlmanam.

Qız didi: - Adın Məhəmmədmüdür?

Ol didi: - Sən mənim adımı nə bilürsən?

Qız didi: - Bən Məhriyayilin qızıyam. Atamı Battal öldürdü. Bu gecə Həzrət Rəsulu duşumda gördüm. Müsəl-

man oldum, sənün xəbərini bana bildürdü və dəxi didi: - Mehranı Battal öldürər, didi. Bunda qızlar çoqdur, cümləsi padşah qızlardur, kimsəyə görünməzlər və yuxarıdan aşağa bir qədər təam saldı, didi: - Yeyib tez rəvan ol kim, Mehran səni mundə görməsün. Yoxsa aman verməyüb, öldürər.

Məhəmməd didi: - Mehran imdi nə yerdədur?

Qız didi: - O, dağın o cənubundə qırq qul ilə olur.

Məhəmməd didi: - İmdi bən Mehranı öldürsəm, sən mənim olurmusan?

Rəsul Həzrəti didi ki, bəni sənə verübdür, sən təki ol Mehranı, öldür. Məhəmməd qız ilən vida edüb, atına minüb rəvan oldı.

O canibindən çünki Məhəmməd getdi, [37] Tərtus bəgləri pərişan olub hekayəti Seyyidə bildürdilər. Seyyid dəxi atına minüb rəvanə oldı. Ol yerə gəldi ki, qız Seyyidi gördi. Məhəmmədün hekayətin Seyyidə bildürdi. Ona müsəlman olduğun söylədi, didi: - Ya pəhləvan, tez yetüşün, yoxsa Məhran Ləyin ana bir ələm yetüşdürür. Və Seyyid dərhal atına minüb rəvan oldı. Çün Məhəmməd ki, getdi, neçə dərə, təpə aşub gördü kim, bir səhranın ortasında qızıl çadır qurulmuş, bir süslü kürsüdə Mehran oturur. Ov ətin kəbab edirlər. Qırq qul qarşusunda qızıl səndəl üstə oturmuşlar. Mehran çün Məhəmmədi görüb bir qula işarət eylədi ki, yeri ol kişini mənim yanıma gətür. Qul dəxi atına minib, Məhəmmədə qarşu gəldi, didi: - Sən nə kişisən? Dərhal qılıncı həvalə eylədi. Məhəmməd məni eylədi, istədi ki, keçə Məhəmməd bir cida yürəginə soqub, həlak eylədi. Mehran ah edib, «qoymayun», didi. Otuz üç kişi Məhəmmədə qarşu yeridi. Araya aldılar. Məhəmməd təkbir gətürüb həmlə qıldı. İgirmisin öldürdü. Qalanın qapub, Mehran tez atına minib qarşu gəldi.

Məhəmməd özündən ümidin [37[a]] kəsüb haqq-təalayə minacat edirkən Seyyid Battal Qazi yetişüb gördü kim Məhəmməd Məhran ilə müqabil olmuş və Məhran qəzəblənüb bir cida urdu kim, Məhəmmədi atından

götürüb yana atdı. Bilmədi kim iş bu yerə girər, Seyyid yetüşüb bir nərə urdu ki, Məhran ləyin sərasimə oldı. İmhal Seyyid didi ki, ey ləyin əlüni çək hərifin, bənəm ləyin didi: elə olsun. Bir cida həvalə eylədi. Seyyid məni eylədi. At səğirtdiki gecə Seyyid sağ ayağın üzəngidən cıqarub, püştpainə *(arxa, dal-A.R.)* elə urdu ki, təpəsi üstə məallaq yıxıldı. Seyyid laçın kibi üstə oturdu, didi: – Ey ləyin, tez iman gətür, yoxsa başını kəsərüm. Ləyin qabul eləmədi, başın kəsdi. Məhəmməd Seyyidün ayağına düşdü. Seyyid Muhamməddün gözündən öpdü. Məhranın başun alub və ol qulların yarağın alub ol dirə gəldilər. Kim, qız qarşu çıkub Seyyidün ayağına düşdü. Müsəlman oldu və dəxi qırq müsəlman ol yerdə dustaq idilər, ol qırq igidi çıqartdılar. Ol qızları ol igidlərə verdilər.

Məhranin bir oğlu var idi, Əlyun nam. Seyyidün önündə müsəlman oldu. Seyyid onun adın İlyas Rumi qoydu. Ol yerdən çoq mal aldılar. Seyyid ol malı ğızılara verdi, özü bir çizə almadı. Andan sonra Tərsusa gəldilər. Hüseyin bin Əliyə xəbər oldı qarşu gəlüb görüşdülər. Seyyidi [38] şəhərə gətürüb, eyş-işrətə məşğul oldular. Neçə gün Seyyid mundə oldı.

Şöylə rəvayət edirlər kim, günlərdən birində Seyyid yaranlar ilə otururkən bir qovğa peyda oldı. Toz qopdı. Seyyid hekayəti sordu. Hüseyin didi: - Yaxun yerdə bir qələ var, xərabə idi. Sinbat adlu bir kafir alüb anı məmurə eylədi. Yolları dəxi kəsdi, tənha gəlüb bizim vilayətdən elləri çapub tərac edüb aparur. Seyyid didi: - İnşallah, anın şərindən bu vilayəti dəf eylərəm. Tez bir namə yazub, Malatiyaya göndərdi. Seyyid özünün hekayətin bildurdi. Çün naməni oxuyub şad oldular. Əhməd Tarran Abdülvahhabı alub, Cudə dört oğluyla Abdüssələm, Təvabil, Əflahun və Nəsrhiyat üç min kişi ilə Seyyidə göndərdilər. Bu tərəfdən Hüseyin bin Əli və Seyyid əzmi Sinbata eylədilər. Gördülər on min Qədr Frəng qoşunu qonmuş. Seyyid gecə nəsfində bu üç min kişini dört hissə edüb və dört tərəfdən həman qoşu-

nə həvalə edüb, şənçun eylədilər. Özi bir nərə urub ortayə düşdü. Seyyid dəmbədəm nərə vurdı. Frəng bəgləri bir birin qırırlardı. Ta kim sabah olunca bu növ cəng eylədilər. Cəng arasında Seyyid Sinbata uğradı, bir zərbə urdu ki, ləyin yıxıldı. Ləşkərə hücum edüb, Sinbatı qurtardılar [38a] və ol ləyin durdu qaçub, qələçəyə girdi və qapuların bərkitdi. Ləşkəri tarmar edüb ol ləşkərin malın aldılar, bir yerə cəm etdilər. Seyyid gəldi qələyə dolandı ki, fürsət tapub qələyə girə, əlac olmadı. Nagah bir su yolu tapub, o su yolundan içərü girdi, nəzər eylədi bir nərdüban göründü, ol nərdübandan endi. Çün namaz vəqti idi.

Bir qarı gəlüb, o, Seyyidi gördi və o qarının də bir oğlanı getmiş imiş. Haqq-təala Seyyidi o qarının oğlunun surətində ol qarıya göstərdi. Qarı didi: - Ay canım oğul, bu qədər vəqt handa idün deyüb, Seyyidün üstə düşdü. Seyyid didi: Söz qəti degildir, evə gedəlüm ki, xəstəyəm, bir kəsə demə. Qarı Seyyidi alub evinə gətürdi. Seyyid didi: - Üstümü basdur, yatacağam. Seyyid yatub, qarı hər nə var idi basdurdı. Qapunı bağladı. Seyyid bir dəm yuxladı. Dəxi oyanub durdı didi: - Ay ana, qarnım acdur, xörək gətür yeyüm. Qarı durdu, yumurta bişürüb və üzüm, bir qədər bəkməz ilə gətürdi, yedi. Çün Seyyidün qarının doyurdı.

Seyyid tışra çıqub, frəng donların geydi. Sinbat sarayına gəldi. Gördü kim məst olub oturur, laflar deyir, «sabah olsun, nə xəlifələrin nə Battalı qoymayıb hər kim əlimə girsə, öldürüm. Görüm Battalın tanrısı bana [39] neylər», belə deyüb, yatdı. Qulları dəxi dağılub getdi. Seyyid bir qaranlıq yerdə durub, səbr eylədi, aləm əğyardan xali oldı. Seyyid Allaha sıqunub Sinbat üstə yeridi. Başının üstə bir hindi qılınc var idi. Əlinə alub, Sinbat gözün açub, didi: Kimsən?

Didi: - Seyyid Battalam, gəldüm sənin başını kəsüm, tez ol iman ərz eylə, müsəlman ol. Yoxsa sən bilürsən. Məlun aradı istədi kim adam çağura, Seyyid boğazından dutub bərk boğdu, götürdi gəldi qapuya. Qapuda qırq adam keşikçi var idi, cümləsi sərxoş, təmamının başların kəsdi.

Qapunun kildin sındurdı. Qapuda bir nərə urdu ki, cümlə müsəlmanlar eşidüb səsə gəldilər. Qələ xəlqi bir-birinə toqundu. Sinbat ləyini dinə dəvət eylədi, çarə olmadı. Qapı önündə boğazından dara çəkdi. Sabah olunca ğəzavət eylədi. Malatiya yolundan üç yüz ğazı çıkub gəldilər. Seyyidün əlin öpüb görüşdülər. Qələnin fəthinə qayətdə şad oldılar və qələdən çoq mal aldılar. Qazılara bəhs eylədi.

Sinbatın qızın Hüseyin ğazıyə verdilər. Andan Malatiyaya gəlüb bir zaman belə keçdi. Öylə bir an oldu ki Rumda Seyyidün qorqusundan Qeysər yuxlamazdı.

Digər ravillər belə rəvayət edirlər ki, bir gün Seyyid yaranları ilə oturmuşdı. Nagah bir [39[a]] qoca kişi qapudan içərü girüb, zar-zar ağlayub, Seyyidün önündə yüz yerə qoydu. Seyyid didi: - Ya pir, bu nə haldır söylə, eşidəlüm. Ol pir didi: - Ya Seyyid, bənüm iki oğlum var idi, nagah itdilər bilməzsən ki, necə oldu. Seyid və bəglər eşidüb məlul oldular. Seyyid didi: - Ya pir, sən munda dur, ta mən gəlincə, sənin oğlanlarını axdarmağa gedirəm. Seyyid durub caməsini təbdil edüb, atlara süvar olub rəvanə oldu.

Ol gecə Şəmas yanına gəldi, söhbət eylədilər. Şəmas didi: - Genə handa gedirsən? Seyyid ol qocanın əhvalatın söylədi. Şəmas didi: - MişTarranda məhbusdurlar. Önündə bir qələ var idi. Şəmunun oğlu Qəzban xeyli müddədür anda olur, hər yerdə müsəlman görsə öldürər, həbs edər. Dün gün bir rəhban bu xəbəri bana didi. Seyyid ki bu xəbəri eşitdi, Şəmasa eylə dua edüb rəvanə oldu.

Bir gün qələ yanından keçirdi, bir çeşmə gördü. Ol gecə anda yatdı, sabah oldı, gördü ki xalıq bölük-bölük olub gedirlər. Seyyid irəli varub bir kişidən xəbər sordu ki, handa gedirsüz? Didilər kim, dağın ardında bir yer vardur, ol yerdə hər tərəfdən xalıq gəlir. Şəmun oğlu Qəzban anda gələcəkdür. Çoq Məhəmmədilər anda dustaqdı. Onları çıqarub [40] əzab ilə öldürəcəkdürlər. Oraya gedərük. Çünki Seyyid ol xəbəri eşidüb, o tərəfə rəvanə oldı.

Gəlüb gördi ki, bir dirdir qələyə bənzər, ağ mərmərdən

yapılmuş. Bir dəmir qapusı var. Təryun və Qəzban sair yaranlar qurub eyş-işrətə məşğuldurlar. Seyyid iraqdan atın bir ağaca bənd edüb, gizlədi. Özü ol yerə gəldi. Ta axşam olunca səbr eylədi. Çün axşam oldı. Kəməndin atub dama çıxdı, andan aşaqə enüb, təfərrüc eylədi, xanə-xanə gəzdi. Bir daha gəldi gördü zindanxanədir. Seyyid bir dəm qulaq asub gördü kimdürlər dəriğa, bu kafiristanda öldük. Sabah hər birimizi çıqarub bir dürlü əzab ilə öldürərlər, deyüb ağlaşurlar. Seyyid İllahı inayət səndən, deyüb o qapuya əl urub qüvvət eylədi, çəküb qopardı, içi qaranlıq idi. Qılıncından od çıqarub işıq edüb, içəri girdi. Gördi yetmiş kişi var, əlləri, ayaqları dəmirdə. Seyyidi görüb şad oldular. Seyyid bunların bəndlərin açdı, damdan [40[a]] bir-bir aşağa endirdi.

Bu tərəfdən Qəzban xəbər verdi ki, atan Şəmun gəldi. Dərhal Qəzban atasına qarşu getdi. Şəmun yüz otuz min kişi ilə Qəzban la görüşdülər. Götürüb düşüb eyşə məşqul oldular və sərxoş olub yatdılar.

Sabah oldı, xəbər gətürdülər kim nə qədər əsr varsə xilas olmuş. Şəmun məlul oldı. Bəttal ol nihanda qarşıda hazır idi. İrəlü durub Şəmun didi: - Yoxsa Battal eşidər. Didi: - Battalı Sinbat qələsində öldürdilər, mən anda idim, kimsəyə deməzlər didi. Çün bu sözü Şəmun eşidüb şad oldı. Seyyidə bir qızıl altun verdi, didi: - Gəlün imdi eyş edəlüm. Çünki Battal öldi nə Şamı, nə Həcazi nə də xəlifəni qoyalum cümləsin oda yaqalum deyüb, eyşə məşqul oldular və sərxoş olub yatdılar.

O gecə, Seyyiddən Qəzbani xəbər aldılar, didilər: «bilmədün nə yana getdi?» Seyyid didi: - Mən gördüm bu tərəfə getdi. Şəmun [41] əlli qulu ilə o tərəfə rəvan oldı və Seyyidi qabaqlarına saldılar, o yerə gətürdi ki, Qəzbanı anda gətürmüşdi. Dərhal yetmiş kişi çıqub gəldi. Şəmunu dəxi öldürdülər. Andan sonra ata minib gəldilər. Gecənin yarsında ləşkərə hücum eylədilər. Seyyid çıqırıb didi kim, «bənəm Abdülvəhhab ğazi». Seyyid ginə didi: - Bənəm, Əhməd Tar-

ran. Birisi didi: - Bənim Abdüssələm. Hər birisi bir ğazuların adın yad edib, həmlə eylədilər. Sabah olunca o ləşkər bir-birin qırdılar. Çün sabah oldu gördülər kim, Şəmun Qəzban ölmüş, şükür hər niət eylədilər. Çoq adamı cəhənnəmə vasil edüb, malların aldılar. Ol yeri yıxub və çoq mal alub getdilər. Seyyid rüsxət verüb hər kəs məqamlu məqamına. Seyyid Muhamməddi və Səyidi atasına göndərdi. Ol qoca, oğlanlarını görüb şad oldı. Seyyidə çox düalar eylədi. Seyyidün bu fəthinə xeyli şad oldular və «fəthi-naməsin» Məhəmmədi, Səyidi xəlifəyə göndərdilər. Xəlifə eşidüb şadluqlar eylədi. Xəlifə namənin cavabın yazub xələt-faxir Seyyidə göndərdi. Didi «kim zinhar Qeysərə hərəkət edirsə, bizə xəbər [41[a]] eyləyün».

O canübdə Qeysər oğlanların xəbərin eşidüb çoq məlul oldı, fəryad edüb qırq gün qara geyüb, təxtə oturmadı.

Bir vəziri var idi. Akradis nam. Anın bir qızı var idi Beyza, cadu elmin bilürdi. Bir gün vəziri qeysərün yanına gəldi, didi: - Şaha, bir qızım vardır, qarabaşındur. Anı göndərüb, Battalın başın gətürdim, didi. Qeysər didi: - Əgər belə edəcək olsa, mən onu oğluma alarum.

Pəs şəhərdə bir cuhud var idi, adı Yemiliha idi. Anı bir södəgər surətində qırq yük altun və gümüş ilə o qızı Battala verdilər. Ərməğan ilə Malatiya gəldilər. Gözlədi ki, fürsət zəmanında Seyyidün başın kəsüb gəlüb Yemilihaya xəbər edə, alub Ruma gedələr. Nagah bir gecə fürsət bulub, Seyyid yaturkən iki xəncər çəküb üstə yeridi. Seyyid xəbərdar olub bir yumruq urdu ki, qız yıxıldı. İstədi ki, öldürə, qız özünü tez Seyyidün ayağına salub, müsəlman oldu.

Yemliha xəbərdar olub, Malların qoyub Ruma qaçdı, gəlüb axdardılar, tapa bilmədilər. Yemliha qızıl-gümüş ğazılərə verüb şadlıq eylədilər. Və dəxi Seyyidün iki oğlu var [42] idi. Birinin adı Əli idi. Zeynəbdən olmuşdı və birinin Bəşir idi. Qeysərün qızı Mahpəryüzdən olmuşdu.

Hekayət bu canibdə, çün Yemliha Qeysər yanına gəlüb, əhvalı bildirdi. Qeysər məlul oldı və didi: - Anın kibi

bir məhbub qız və qırq yük altun borcum var idi. Seyyidə verüb qurtuldum, dəxi fərağətlükdür.

Bu tərəfdə Seyyid Battal yaranları ilə otururkən Təvabil bir piri alub içəri girdi və səlam verdi. Əmir çün o piri görüb didi: - Ya Abdürrəhman, əhvalın nədür kim, bunca zəmandur bizə gəlmədin? Pir didi: - Ya Əmir, İslambulda idim. Əmir didi: - Ol canibdə nə xəbər vardur? Pir didi: - Qeysər üç ay təxtə oturmadı və ata minmədi. Taryun gəldi, Şəmundan və Qazbandan ötrü çox ağlaşdılar. Taryun didi: - Şaha, ağlamaq fayda verməz. İmdi əlimdə yetmiş qələ var, səksən min ləşkərim var. Battal əlindən bir şəhrdən o biri şəhrə vara bilməzlər və dəxi karvanımız bir yana gidə bilməzlər, vilayətimiz baharıq oldı. Bir oğlan çıxub Məsihin yüzünün suyunu tökdü, nə buyurursan, Battaldan daramı, alım. Qeysər didi: - Qorxuram ki, xəlifələri gələ, təmam Rumi xərab eyliyə.

Aliyun bu cavabı eşidüb, igirmi [42[a]] min kişi alub öz məqamına gəldi. Dəxi dənizin kənarında bir köşk yapdurdı. Ol igirmi min kişini anda qoydu və hər gün ol an gözlədilər kim görək, Seyyid ələ düşürmi ola. Amma iki min müsəlman dutub öldürdülər və hər kimi ki, öldürdilər ol köşkün çevrəsində ağaclar düzmüşlər, o adam başların o ağaclara asırdılar. Bu işləri bilüb gəldüm, didi. Seyyid bu il ol canibə gəlməsün məbadə, ələ girə. Çün Seyyid bu xəbəri eşidüb, atlara suvar olub və donun dəgişüb allaha təvəkkül edüb, əzmi Ruma eylədi.

Ol gecə Şəmas diyarına gəldi, əhvalı bildurdi. Şəmas didi: - Müşkül işdür, yalquz varma, genə təvəkkül Allaha edüb, didi: - Çarə yoxdur, varmaq gərək. Şəmas təam gətürdi, yedilər.

Çün sabah oldı, namaz qıldılar. Seyyid rəvan oldı. İki gündən sonra ol diyara gəldi. Ol ağacları gördü ki, başlar asılmuş, kimisi qurumuş, kimisi yaşdur. Seyyid onlara dua oquyub həman köşkün qapusuna gəlüb qulaq dirədi. [43] Nagah bir igid çıqub gəldi. Seyyidün ayağına düşdü, Sey-

yid gördü ki, Məhəmməd bin Fəllahdur. Didi: - Ya Məhəmməd, bunda neylərsən? didi: - Eşitdüm ki, məlun çoq müsəlmanlar öldürübdür, durub gəldim. Amma bir adam tapulmadı kim, sizə də xəbər eyləyim.

Bu sözdə ikən nagah iki rəhban çıqub gəldi, didilər: - Nə adamsuz? munda neylərsüz? Seyyid didi: - Sən kimsən? Rəhban özüni bildurdi. Seyyid qəsd eylədi ki, onları öldürə, Məhəmməd iltimas edüb qarşuya durdu. Məlun Məhəmmədə bir cida urdu. Məhəmməd qalxanı bərabər verdi. Qalxandan keçüb arxasına toxunub yıxıldı. Tez Seyyid dəxi həmlə qıldı. Bir gürz dəxi Seyyidə urdı. Seyyid məni eylədi, gürzün çəküb əlindən alub, eylə urdu ki, Rəhban atından yıxıldı. Seyyid tez sıçrayub sinəsinin üstə çıqub saqqalına yapuşdı. didi: - Mənəm, Seyyid Battalam, tez iman gətür. Yoxsa başını kəsərəm. Kafir hərzə söylədi. Seyyid gördü ki, qabiliyyəti yoqdur, tez kəsdi. [43[a]] O biri Rəhban anı görüb qılıncı çəküb həmlə eylədi. Seyyid tiği səhhakı qarşu verdi. Rəhbanun əlində qılınc iki parə oldı, sonra Seyyid bir elə urdu ki, Rəhbanı iki parə eylədi. Məhəmməd başını kəsdi. Seyyid buyurdu iki başı ol ağaclara asdılar. Filhal kaffar ləşkəri çıqub gəldi. Seyyidi çevrəyə aldılar, qəti cəng oldı. Bunlar cəngdə ikən nagah bir toz içində islam ləşkəri qopub gəldilər. Tərsus bəgləri Hüseyin bin Əli və Nasir Həvvab və Tərsusun nə qədər bəgləri var isə gəlüb Seyyidün ayağına baş qoyub görüşdülər. Sonra kəffara həmlə eylədilər. Basub çox qırdılar. Sonra ol köşkə gəlüb, ol zindanı tapdılar, içində olan müsəlmanları xilas eylədilər. Çoq malların alub, ol köşkü odda yandırdılar. Ol başları endürüb nəmazın qılub, dəfn eylədilər. Andan dönüb, Tərsus bəgləri Tərsusa, Seyyidlə Muhamməd bin Fəllah Malatiyaya gəldilər. O yerə gəldilər kim, Mehriyayil Babilün qızın almışdı. Yetüşəndə Məhəmməd ağladı, didi: - Ya pəhləvan, hər qış ki, buraya gəlürəm, sevdayə düşürəm. [44] Eşqim bana kar edir. Mehriyayilın qızı vəfat eylədi. Siz baqi olun.

Bir gün bu tərəfə şikara gəldim. Yolda dört atlu çıqub gəldi. Birinə tuş oldum, nəzər edüb gördüm ki, qız imiş, əqlim başımdan getdi. Yenə özümə gəldim, bilmədim kimdür, ol zamandan bəri gözümə yuxu gəlməz.

Bu sözdə ikən yenə dört atlu çıqub gəldi. Birisi yüriyüb Məhəmmədə bir qılınc urdı, götürüb yerə atdı. Seyyid acığlanub didi: - Nə kişisən? Didi: - Bana Yəhya bin Afşin derlər. Müsəlmanam. Ol didi: - Sizlər kimsiz? Seyyid özün bildirdi. Yəhya atından enüb, Seyyidün ayağına düşdü, didi: - Ya pəhləvan, sənin aşiqlərindənəm, məzur dut, bilmədim deyüb, Seyyid ilə görüşdülər. Seyyid didi: - Bunlar kimlərdur? Munda neylərsüz? Yəhya didi: - Bunları ki, görürsən, bənim dostlarımdır, müsəlmandırlar. Seyyid bunlara nəzər eylədi, didi: - Ya pəhləvan, gördügün bunlar degildir. Seyyid Yəhyaya hekayəti didi. Yəhya didi: - Xudavənda, bu deyən mənim qızımdu, nə yerdə görmüş olalar. Sonra təklif edüb Yəhya bunları evlərinə qonaq apardı. Bağlarda və çəmənlərdə əgləndilər. Yəhya bunlara qonaqlıq eylədi. Qızını söylədi iqrar edüb, gətirdü. Seyyid nigah edüb, Məhəmmədə verdi. Seyyid anda yeddi gün durdu. [44[a]] Səkkizinci gündə Məhəmmədi anda qoyub, özü Malatiyaya gəldi. Müsəlmanlar Seyyidi görüb, şad oldular və bir neçə gündən sonra Yəhya, Malatiyaya gəldi. Mömünlər qarşu, gedüb izzət iylə gətürdilər. Seyyid Yəhyaya xələt geydürdi və dil nazluq edüb xəlifəyə göndərdi. Xəlifə dəxi izzət edüb, çoxlu nəsnə verüb gerü göndərdi.

Bu canibdə çünki Qeysər Aliyunun və rəhbanın öldüklərin eşidüb özündən getdi. Çoq qorqdu.

Bir namə göndərdi Seyyidə kim, bir neçə şəhərlər sənin olsun, didi. Öz diyarında otur, bu tərəfə gəlmə. Seyyidün qorqusundan kimsə tışra çıqmazdı. Rum vilayəti be-qayət kahit oldı. Kimsə əkin əkə bilməzdi. Çün namə ilə Seyyidə ərməğanlar və xərraclar göndərdi və Seyyid ğazılara ilədurdi.

Günlərdə bir gün qazılar Seyyid yanında oturmuşdu-

lar. İki igid qapudan içəri girdi. Seyyidə baş urdular. Seyyid didi: - Nə xəbər var? Ağladılar. Seyyid didi: - Neçün ağlarsuz? Didilər: - İkimiz qardaşuq. Atamuz öldü, biz uşaq qalduq. Atamuzdan mal qaldı. Əmumiz cəm eylədi, imdi bizə verməz, nə bəhanələr edər. İmdi səndən yardım istərüz. Seyyidün bunlara şəfaəti gəldi. Bir namə yazdı [45] şəhərün hakiminə ki, «namə sana yetüşən kibi bu iki cavanın əmusindən malların alasın, bunlara verəsin». Apardılar naməni o hakimə verdilər. Oxudular. Hakim buyurdı, malların gerü verdilər. Bir neçə gün keçdi.

Bir gün bunlar dava eylədilər və bunlara böhtan atdılar kim, siz adama qəsd edirsiz deyüb, ikisin də zindana saldılar. Bir gecə zindan kilidin sındırıb qaçdılar.

Nagah yolda bir kafir şəhəri vardur Qaymına adlu. Anın padşahına Qəytur Sasani derlər idi. Nagah anın adamlarına rast gəlüb, dutub zindana saldılar. Bir ay Zindanda qaldılar, bir gün Qəyturun qızı zindana təffərüc etməklə gəldi, oğlanın birisinin adı Qasım idi. Qasımı gördü, aşıq oldı. Dinə dəvət eylədi. Az durub, yoldan çıxartdı, ikisi də kafir oldılar. Bu xəbəri Qəytura bildirdilər. Qızın Qasıma verdi. O biri qarındaşının adı Mənsur idi, anı dəxi evləndirdi.

Bir gün Qəytur yanında Seyyidün pəhləvanluğun söylədilər. Sonra Seyyiddən çoq şikayət eylədilər. Qasım didi: - Varub biz anı öldürsək, necədür? Qeytur yanında ikisi çoq iqrar edüb, sonra [45[a]] durub Seyyid yanına gəldilər. Dua qılıb didilər ki, naməni dutmadılar. Seyyid acuğlanub Aşqara minüb əzmi İsgəndəriyyəyə eylədi. Çün ol iqlimə yaxun gəldilər. Bir yerdə yuxladı.

Qasım və Mənsur atın alub, Qəytura gətürüb didilər: - Battalı filan yerə gətürdük. Ləşkərlə varub dutalum. Qəytur eşidüb, şad olub, buyurdu. Ləşkər atlanub Seyyidün üstə yeridi. Eylə ki, ləşkər yetişdü, Seyyid ləşkərin ğələbəsindən oyanub gördü ki, ləşkər gəlir. Seyyid tez durub atın istədi, tapmadı və silahı da atın yəhərində idi. Ah edüb didi: -

Gördünmiki ol kafir məni nə hiylə ilə gətirdi. Seyyid bir nərə urub həmlə eylədi, bir kişinin atını və səllahın alub ləşkəri bir-birinə urdı. Əlli-altmışını öldürdi. Seyyidi tir-baran eylədilər. Seyyidə ziyadə zəxm yetişüb, qanı çoq axub, sədd oldı. Neçə yerdən kəmənd atub Seyyidi dutdular. Qəytur yanına gətürdilər. Qəytur Seyyidün cəmalına heyran qaldı, didi: - Ya Battal, heyfsən, gəlsənə mənim dinimə girəsən, qızımı verim. Seyyid didi: - Çoq söyləmə, gəl sən müsəlman ol, özünü cəhənnəmdən qurtar. Qəytur didi: - Tez bunu öldürün kim, Rum vilayəti bunun şərindən xilas olsun, didi. Qəyturun bir vəziri var idi. Əmir Haman didi: - Sən bunu öldürmə, qeysərə göndər, [46] ol necə bilsə, eyləsün. Çün Qeysərün neçə oğlanların öldürübdür. Anın qatı düşmənidir. Həşəmi Battalın yaranları çoqdur və cümləsi əyyardır. Məbadə ki, səna bir ziyan eyliyələr.

Məsləhət görüb, Qeysərə bir namə yazdılar. Hekayəti bildürdilər. Seyyidi zindana qoydular və dəxi bir gecə Qəytur Peyğəmbəri duşunda gördü kim, qiyamət qopmuş, cəmi peyğəmbərlər şəfaət tələb edir və Qəyturdə şəfaət tələb edər, qoymazlar. Həzrəti Rəsul ayıdır: - Ya Qəytur, mənim Battalımı tez quyudan çıqarub önündə müsəlman olsan, qiyamət güni sənə şəfaət edərəm, didi.

Qəytur oyandı.

Ol gündə Mənsur dəxi peyğəmbəri duşunda gördü. İman gətürdi, oyandı, ginə iman gətirüb, sonra Seyyid yanına vardı və Seyyiddən düa alub qədirxüalıq eylədi.

Seyyid didi: - Dəxi qeyrimiz nə qədər yerdə var imiş və Seyyidi alub evinə gətirdi. Təam yedirdi. Bunda Seyyid didi: - Ya Mənsur, məni Qəytura apar.

Mənsur Seyyidi alub, Qəyturun sarayına gətirdi. Seyyid kəmənd ilə dam üstünə çıqub baxdı, gördü kim Qəytur yalquz oturub, fikir edir. O halət idi kim, uyqudan oyanmışdı. Qəytur dəxi başını qaldırub didi: - Ya Seyyid, Battal ğazı, gəl məni bu kafir xilqətindən qurtar. Seyyid çün bu xəbəri eşidüb, aşağa endi, dərhal [46[a]] Qəytur Seyyidün

ayağına düşub, iman ərz qıldı və müsəlman oldi. Cümlə bəglərini və qullarını çağurub təmam müsəlman oldular.

Seyyid Qəyturı və bəgləri alub, çoq mal iylə Malatiya gəldilər və yaranlara qarşu gəlüb əğraz ilə aparub şad oldular. Seyyidün bu fəthini yazub Xəlifəyə göndərdilər. Xəlifə dəxi Seyyidə və Qəytura xələt fəxir göndərdi və təshir eylədilər. Qəytura dəxi Ab Fərat yanında bir şəhər binayi eylədi. Adın Qəyturabad qoyub öz qövmini anda gətirdi və dəxi Qeysər bu xəbərdən fani oldı. Rum əhlinin cümləsi Seyyidün qorqusundan müsəlman oldular.

Ravilər belə bir rəvayət edirlər kim, bir gün öz evində önünə təam gətürdilər. Bir loqma aldı, yemək əlindən düşdü. Seyyid əcəb qaldı. Xatununa didi: - Əcəb degil kim bir mötəbər müsəlman kişi, kafir əlində giriftar olmuş ola.

Bunlar bu sözdə ikən Təvabil bir kimsəni alub evə girdi və Seyyid andan sordu ki, nə kişisən? Didi: - Ey qazıların soltanı, bir cühud kişiyəm, yetmiş ildir ticarət edirəm. Təmami cəhanı təfərrüc eylədim. Heç bir şəhər və qələ qalmadı. Anı görim nərdə bir qələ vardur, adı Samniyyə.

Bir padşahı var idi, adı Firdovsdir, cühuddurlar, bir kəbiri var. Zalım məlundur. Hər müsəlman əlinə [47] düşərsə, gündüz daş daşıdar, gecə zəncirləyüb zindana qoyar.

Mən anda vardım, çoq qumaş apardım, alub bəhasın verdi. Bir qiymətli daşım var idi. Heç kəs ona bir para yetirə bilməzdi. Bir qızı var imiş, ol daşı görməgə gəldi. Həman qızı ki, gördüm, aşiq oldum. Üç ildir ki, anda oluram.

Bir gün tışra çıqdım. Dərvişlərə sədəqə verməgə, ol məhbuslar yanına vardım. Bir pir görüb halımı ona ərz eylədim. Ol pir didi: - Mən sana bir çarə eylərəm, əgər sözümi dutarsən. Didim: - Nə dersən? didi: Var, Malatiya şəhərinə, anda bir pəhləvan vardur, Seyyid Battal derlər. Bir namə verüm, sən dəxi bizim halımızdan ona ərz eylə, bilürəm ki, qeyrətlü adamdur. İşdə, munda gəlür, didi və dəxi söylə kim Əl Rəsuldur munda bir kişi yetmiş ildür məhbusdur və həm iki kimsə də anda məhbusdur. İstədilər kim namə ve-

rələr fürsət olmadı. Budur əhvalı bildurdim və dəxi anda qırx yük altunum var, gizlətmişəm, o haqq yoluna olsun və mən dəxi müsəlman olum. Bu şərt ilə kim ol qızı bana verəsən və Seyyid ki bu cavabları eşidüb Aşqara suvar olub, məğribə rəvanə oldı.

Bir neçə gündən sonra bir meşəyə gəldilər. Bir çeşmə kənarında oturub, təam yeyərkən nagah meşədən bir aslan çıqub heybətlə gəldi. [47[a]] Seyyidə nəzər eylədi, görüb geri dönüb getdi. Bir zamandan sonra başında bir tas içində yemişlər gəlüb, Seyyidə səlam verib, didi: - Məhzur dut kim, bu yerin yemişləri budur. Ol yemişlərdən Seyyid yeyirkən cühud bu halə heyran qaldı. Pəs Seyyid Aşqarı gətürüb aslana ismərladı. Özləri dərya kənarına gəldilər, gördülər bir bəgün bazarganları bir gəmi ilə gedürlər. Seyyid və cühud ol gəmiyə minüb rəvan oldılar.

Gəlüb bir tərəfə çıqqdılar, gördülər bir kimsə ifrit şəkilində silahı üstündə arastə çıqub gəldi. Seyyid xəbər aldı ki, kimsən? O şəxs didi: - Mən Səncaram, Firdovsin pəhləvanıyam. Malatiya canibinə gedirəm ki, Battalı bulum. Seyyid didi: - Battalı neylərsən? didi: - Firdovs Battalı uyqusunda gördü kim, buqazın dutar, deyər kim müsəlman ol, yoxsa sən bilürsən. Bir neçə gecə bunu öylə görüb. Bana hökum eylədi kim, qızımı sana verərəm, əgər Battalı öldürsən. İmdi andan ötrü gedəcəgəm. Seyyid didi: - Bəni dəxi Qeysər göndərdi. Firdövsə kim Battal əlində aciz oldı, andan kömək istərəm. Səncar didi: Sən Battalı gördünmi ki, necə pəhləvandur? Seyyid didi: - Gördüm öylə pəhləvandur kim, kimsə ona müqabil olmaz. Gəl o yerə varma, gerü dön, sən anın hərifi degilsən. Səncar didi: - [48] Sən mənim miqdarımı nə bilürsən? Seyid: - diyəsən bəni bəgənmədüm. Bərü gəl, mənim ilə güləşəlüm. Səncar ğəzəbə gəlüb Seyyidi dutdu. Nə qədər qüvvət etdi, yerindən tərpərdə bilmədi. Növbət Seyyidə gəldi, bir nərə urub, götürüb yerə çaldı, köksünə çıqdı. Xəncəri boğazına qoydu. Səncar gözün açub didi: - Kimsən? Didi: Bənəm, Battal, tez iman gətür! Yoxsə canını

alaram. Kafir düşmənlik eylədi. Seyyid dərhal başın kəsdi.

Biri Seyyidün ayağına düşüb didi: - Şaha, bən Bağdadlıyam, müsəlmanam, adım Saitdir. Bən dəxi əsir oldum. Cühud tacir Seyyidə çoq düalar eylədi. Seyyid Səncarın donların çıqardı. Anın donuna girdi və başın alub getdilər.

Bunlar adaya yetişdilər. Cühud tacir ayıtdı: - Xudavənd, ol Samniyyə munda, yetmiş altı qələ vardur və beş min köy vardur. Kilsələri yəhudidir. Cümləsinin ulusu Firdovsdur.

Seyyid Saitə didi: - Var, imdi sən Firdovsa muştuluq ver ki, Səncar yolda Seyyid Battalı öldürdi, başını alubdur, gəlir. Sait rəvanə olub gəldi, Firdovsə xəbər verdi ki, Səncar yoldə Battalı bulub öldürdü, dərhal Saitə xələt verüb və şəhəri xələtlədi, şadlıq edüb bəglər Seyyidə qarşu gəldilər. Seyyid dəxi Firdovsa bərabər gəlüb, yüzün yerə urdu. [48[a]] Səncarın başını Firdovsun atının ayağı altına saldı. Firdovs Seyyidə didi: - Neyçün yüzünə niqab dutmusan? Seyyid didi: - Ol zaman ki, Battala yetüşdüm, məni qarşudan urdu, yüzümi pis eylədi.

Pis rüxsət alub, Seyyid Səncarun evinə gəlüb, qondu. Üç gün qaldı, sonra Firdovsa toy eylədi. Sarayın xəlvət edüb Seyyidi evinə apardı. Seyyid didi: - Ya Səncar, nə tədbir edirsən? Düşməndən əmin oldum. Mənim məqsədüm oldur kim, Şam vilayətinə varım. Qeysər gəlməzdən əvvəl ol vilayəti zəbt edim. Seyyid dört canibə nəzər edüb, gördü kim, evi xəlvət degil. Didi: - «Ey şahım Battal ilə qarşılaşdıqda bana bir neçə söz didi, buyurdu kim, ev xəlvət olsun, söyləyim». Tez buyurdu, evi xəlvət eylədilər. Seyyid irəli gəlüb yüzündən niqabın götürdü. - Bir yüzimə bax, didi. Firdovs nəzər edüb heyran qaldı didi: - «Sən kimsən?» Didi ki, mən Battalam, gəldim səni müsəlman edəm. Neçə gün düşünda dəvət eylədim, müsəlman olmadun, imdi aşkar gəldim. Dəxi gəl, müsəlman ol. Yoxsa, sən bilürsən. O başı ki gördün, Səncarun başı idi. Firdovs ki, bu xəbəri eşitdi, sərasimə eylədi. Didi: - Əgər ölsəm mən bu sözü qəbul etmə-

nəm, istədi ki, xidmətkarlardan [49] çağıra. Seyyid Firdovsunun saqqalına yapuşub çəkdi. Təxtdən aşağa endi, başını kəsdi. Nagah təxt altından bir oğlan çıqub gəldi. Seyyüdün ayağına düşdi, didi: «Bən düşümdə peyğəmbər Əliyə Əlsəlləmi görüb müsəlman oldum. Dəxi bana didi ki, Battal gəlib Firdovsı öldürər, var sən ana yar ol bu ulu ğəzavətdə sən də ol». Deyüb, barmağın gətirüb müsəlman oldu. Seyyid Battal didi ki, adın nədür? - Didi: «Adım, Saitdir. Seyyid didi ki, ol dustaq olan əlli kişi handadur? Firdovs qorxulu düş görüb, onları qurban etməyəcəkdir. Var ol, müsəlmanları gətir, Sait durub, ol fəqir dustaqlara yetüşdi, alub gətürdü, onlar ağlaşub fəryad edürlər ki, diriğa bizlər kafiristanda qalduq. İlahi, sən bizə məni bərk, möhkəm, dayanılı elə. Dərhal saraya yetüşdülər. Seyyid buyurdu: «Tez qapuları bağlayun. Kimsə xəbərdar olmasun və əllərin açun».

Bunlar dəxi nəzər edüb, Seyyidi tanıyub ayağına düşdülər. Seyyid didi: «Bənəm, Battal Ğazi, Səncarı və Firdovsı öldürdüm. Bunlar eşüdüb şad oldular və cümləsi silahpuş olub Seyyid önündə durdular və Seyyid buyurdu, Saitə. Ol ulu bəgləri bərabər alub gəldi. Seyyid dinə dəvət eylədi, qəbul etmədilər. Başların kəsdi. On bəlli [49[a]] bəgləri öldürdü və dəxi beş min əsir qurtarub cümləsin silahiylə arəstə qalxub və dəmirə qərq eylədi.

Seyyid sabahı saray damına qalxub, bənd-avaz ilə azan oqudu. Xaliq onu eşidüb, bənd-avaz ilə hay-hay bu nə səsdür? deyüb, sərasimlə tışra cıqdılar. Firdovsin başı və on adı bəlli bəglərün başı kəsilmiş cidayə sançub qoymuşlar və Seyyid beş kişi ilə ol damda namaz qıldılar və namazdan fazi olub bilənd avaz iylə çağurdu kim, mənəm Battal ğazi Firdovsi öldürdüm və beş min əsri xilas eylədim Allahın inayətilə və Məuhəmməd Əl Mustafanın möcüzatı ilə. Gəlün siz dəxi müsəlman olun, yoxsa cümlənizi həlak edərəm. Oğlan uşağınızı əsir edərüm. Şəhər qami bunu eşidüb döndülər. Seyyid buyurdi. Qapunı açub çox kafiri qırdılar. Qa-

lanı iman gətürüb müsəlman oldular. Seyyid təxtə keçüb oturdu. Buyurdu, hər kilsənün yerinə məscidlər yapalar. Sonra Seyyid buyurdu ki, evladı Rəsuldan bir kişi əsir olmuş, ol yerdədir. Sait didi: «Ya Seyyid, ol qoca bir quyunun içindədür». Saqqalı köksünə [50] düşmüş, yüzünün nurundan quyu işıq olmuş, mişkü-ənbər qoqusundan adamın damağı müttər olur. Bir məshəf qabaqında oturur. Seyyid Sait ilə ol quyuya vardılar. Həman pir Seyyidi görüb, şad oldu didi: - Xoş gəldün, ya Battal Ğazı. Bu gecə cəddim Rəsulu duşumda gördüm. Bana didi ki, «bu gecə Battal gəlüb səni xilas edər». Seyyid irəli vardı. Salam verüb pirün əlin öpdü. Ol pirün gözləri yaşla dolub didi ki: «Ya Seyyid, şükür ol xaliqə kim». Yeddi yaşında mən bu cəhənnəmə düşmüşəm, hələ yetmiş ildurur ki, mən bunda məhbusam. Dərhal Seyyid ol pirin əlin dutub quyudan çıqardı. Pirün adı Asim idi. Hamama aparub sufiyanə donlar geydirüb, alub təxtə gətürdilər. Asim didi:

«Munda iki kişi dəxi məhbusdur. Birinin adı Qafur idi və birinin adı Abu Tahir idi. Onları dəxi çıqarub hamama aparub gətürdülər, ikisini də vəzir eylədi. Cümə məscidi dəxi təmam oldu. Asim və Tahir camiyə gəldilər. Seyyid minbərə çıqub xütbə oqudu. Namazdan fariq olcaq, nagah bir qovqa peyda oldı.

Firdovsin bir oğlu var idi. [50a] Calut və biri var idi Halut, adlu. Oğlanlar eşitmişlər kim, Battal Firdovsi öldürdü. Gəlüb üç yüz min ləşkər ilə şəhəri ortayə aldılar. Ol gecə Seyyid şəbihun eylədi. Sabah olunca cühudlar bir-birin qırdılar.

Çun sabah oldı, gördilər kim, arada heç kimsə yoq, onunçun bir-birin qırmışlar. On min adam qılıncdan keçmiş, bir-birinə deyiridilər: - «Battal əyyar kimdir, gör kim, bizə nələr eylədi».

Çün səf quruldı. Calut meydana girdi cağurdı kim, Ey Battal, əyyarluq ilə cahanı xərabə verdin. Əgər ərsən meydana gəl! Asimi kişi ilə içəridə dutub, hayıfın alub tışra çıq-

dı, atın sürdü Caluta bərabər gəldi. Calut didi: - Kimsən? Seyyid didi: - Kimi istəyirsən? Mənəm, Battalam, Firdovisi öldürdüm, Səncarı öldürdüm. Calut ah edib cida həvalə eylədi. Seyyid çəkübcidasın əlindən aldı. Calut gəldi kim keçə, Seyyid cida ilə elə şillə urdu kim, at ağrısından aşub yeddi addım yer məallaq urdı. Seyyid sıçrayub saqqalına yapuşdı, dinə dəvət eylədi. Gördü kim, qəbul etməz, başın kəsdi. Halut anı görüb fəryad eylədi. Ləşkərə buyurdu. Cümləsi tez gəldilər. Seyyid bir nərə urub həmlə eylədi. Kafirlər anın nərəsindən sərasimə oldı. Çarə cəng içində Seyyid Haluta uğradı. Bir neçə həmlə arada xəta eylədi. Seyyid uzun cəng edərkən [51] Halut önündə zəbun göstərüb qaçdı. Cəmi adam yuxarıdan nəzər edirkən, Halut məlun, nərə urdı, Battala kim nərəyə qaçarsan, əlimdən harada qurtularsan. Sənin başını kəsmiyincə qoymaram. Seyyid bir meşəyə girdi. Halut yetüşdi, didi: - Ey əyyar, handa gedirsən gör sana neylərəm. Fi əhl Seyyid dönüb, bir nizə urdu ki, Halut at arxasından yerə yıxıldı. Seyyid enüb başın kəsdi və Halutun donların geydi. Atın boynuna Halutun başın asdı, ol qədər dəgdi kim, Halutun başın kimsə tanımadı.

Seyyid meşədən çıqub gəldi. Müsəlmanlar gördülər Halut gəldi. Seyyidin atında, yədəgində də başı kəsilmiş. Fəryad eylədilər, ağlaşdılar. Kafir ləşkərindən şadlıq qopdu.

Seyyid didi: - Mən Battal ilə xeyli savaşdım, yorulmuşam. Siz dəxi varun şəhəri ortaya alın, qırın Məhəmmədilər çoxdur. Mən bir az yatım. Elə eylədilər. Seyyid durub gördü kim, iki oğlan oturub. Bunlara irəli sıçrayub didi ki, mən Battalam, Halutu öldürdüm, siz tez müsəlman olun, yoxsa bilürsiz neylərəm. Gəlüb Seyyidin ayağınə düşüb öpdülər. Müsəlmanıq, Şam vilayətində oluruq. Bu diyarda əsirik deyüb, şəhadət gətürdilər. Seyyid buyurdu: «Talutu çağırın». Halutun kiçik qarındaşı idi. Varub çağırdılar, xəlvətcə gəlüb içərü girdi. [51a] Seyyidi görüb canı başına sıçradı. Seyyid didi: - Mənəm Battal ğazı Harutu öldürdüm,

imdi gəl sən iman gətür. Talut istədi ki, fəryad eyliyə, boğazına yapuşub, başın kəsdi və bir-bir bəgləri çağurub cümləsin qırdırdı. Ol iki oğlanı alub gecənün yarısı idi, hasar qapısına getdi. Qapuda durdu. Asim Seyyidün avazın eşidüb qapını açdı. Seyyid içərü girüb şadlıq eylədilər. Asim didi: - Ya pəhləvan, bizlər başı görüb, «hiylədür» didik.

Çun sabah oldı, şəhər içində nəqarələr dökildi. Seyyid tışra çıqub bir kəz avaz ilə çağırdı, didi ki, «Mənəm Battal Qazı, Halutu öldürdüm, Talutu öldürdüm. Siz dəxi tez iman gətürüb müsəlman olun, yoxsa cümlənizi qıraram». Ol qövm anı eşidüb dönüb çadırlarına gəldilər və bəglərini başsız görüb qaçmağa yüz dutdular.

Gəmilər dəniz kənarında durur idi. Gəldilər kim, minüb qaçalar, nagah Xızır peyğəmbər çıqub gəldi didi: - Ey qövm, handa qaçarsuz? Didilər: «Battal bizi öz dininə dəvət eylər. Bizim dinimiz zəifdir». Xızır didi: «Anın dini haqdur və gerçəkdür. Varun, anın sözin dutun». Bunlar didilər: «Bizim ulumuz, ölüyi diri eylədi [52] və Musa dəxi munca möcüzələr göstərdi. Biz ana iman gətirdük. Bunda nə gördük kim, ana iman gətürəlim». Xızır peyğəmbər əleyhisəlləm didi: - Varun, ana deyün ki, sən dəxi ölüni diri eylə, bizlər sənin dininə girəlüm, çün bunlar bu sözü eşidüb cümləsi döndülər. Gəlib Seyyidə didilər: - Ya pəhləvan, əgər sən ölünü diri eyləsən, bizlər sənin əmrünə müta olub və dinə girəlüm. Çün Seyyid bu sözü eşidüb didi: «Mən dəxi varub, məşvərət edüm, sonra sizə diyəlüm». Dərhal Seyyid Asim yanınə gəlüb didi: - Heç eylə düa bilürmüsən ölünü diri qıla? Asim didi: - İlyas peyğəmbər yanında bir düa vardır kim, ölünü diri eylər. Seyyid didi: - Ol handadur? Asim didi: - Ol dağ yeri kim dəniz içində vardur, İlyasın məqamıdır. Gərək qırq gün oruc dutasan kim, müradın hasil ola.

Həmən Seyyid durub kəffar ləşkərinə gəldi didi: - Bana qırx gün möhlət verün. Bən dəxi Allahıma yalvarım ki, hacətim rəva olsun. Olar dəxi qəbul eylədilər.

Seyyid dəxi suvar olub ol dağa getdi. Gördü kim, bir

xoş xəbər yerdir, cənnətə bənzəyir, ulu ağac var, kölgəsində zülalə (şirin su) yapulmuş, bir qapısı var, anı gümüşdən bir altun halqa qapudan asılmış, Seyyid gəldi andə abidəst alub ibadətə məşqul oldı. Qırx gün yemək yemədi [52[a]], ta kim qırx gecə təmam oldı. Səbah zəmanı İlyas peyğəmbər hazır oldı. Anı saqqallu, nurundan adam yüzünə baxə bilməz. Seyyid ki, ani gördü, ayağınə düşdü. İlyas əleyhisəlləm dəxi Seyyidi gördü, iki gözündən öpdü didi ki, - Ay cigər güşəm, gərəkdur sənün qədəmində bu vilayətə islam gələ, gəl sabah namazın qılayum. Seyyid azan verib içərü girdi. Gördü bir mihrab önündə bir yaşıl səccadə döşənmiş, nurü günə çıxar və məhrabın bir guşəsində bir səccadə də var, anı alub, Seyyidə verdi, ya Seyyid, bənim yadigarım olsun, didi və keçdi İlyas peyğəmbər imamlıq eylədi. Fərzi qılıb dua eylədilər. Namazdan fariğ olanda çoq nəsihətlər eylədi. Ol düanı ögrədüb və dəxi gözün yum, didi və aç, didi. Seyyid gözüni açub özün dəniz kənarında gördü. Baxdı nə İlyas var və nə Sumar var. Ol səccadə yanındə Seyyid əcabə qaldı. Dərhal bir avaz gəldi kim, - Ya Seyyid Battal, dur var, dəxi muradın hasil oldı. Seyyid şükür səcdəsin eylədi. Zuraqə minüb kənarə gəldi. Müsəlmanlar qarşu gəldülər və şadlıq [54] eylədülər. Seyyid Battal kafirləri cəm edüb didi: - Söyləyün görüm bana nə dersüz. Gətürün Allah inayəti ilə ölünü diri qılayım. Kafirlər deyirlər ol qarşudakı dağda bir ər və bir qız ölübdür. İkisini də Firdovs öldürübdür. Söylə durub sənin dininə girsünlər. Bizlər anı görüb səna müta olalım.

Seyyid buyurdı: - Nə qədər kafiri müsəlman varsə anda cəm eylədilər. Ol qəbri Seyyid görüb səccadəni qəbrün üstünə örtdü. Peyğəmbərin düasın oqudı. Mömünlər amin didilər. Düa ki, təmam oldı Haqq-təalanın qüdrətilə qəbr iki parə oldı. Bir igid və bir qız tışra çıqub, didilər: «Əşhədü enla ilahə illəlahü və əşadü ənnə Məhəmmədin Rəsul Allah».

Qövm anı görüb barmağın qaldırıb müsəlman oldular.

Ol iki şəxs didilər: - Ya Seyyid, ol düanı yenə oku, bizim bu dünyada səfamız yoq, ol cahanın ləzzətin bildük. Bu cahan bizə gərək deyil, didilər. Seyyid ol düanı yenə oqudu, ol ikisi yüz yerə qoyub canın haqqa təslim eylədilər. Seyyid dəfn edüb, buyurdu [54[a]] üstündə qübbə yapdılar. İmdi ki, halda ol ziyarətgahdır.

Seyyid yeddi gün yeddi gecə anda qalub, səkkizinci gün köçüb şəhərə gəldi.

Əlli yüz min kafir, müsəlman oldı. Yetmiş parə şəhər üç yüz altımışı parə qələ, beş min parə köy Seyyidün əlində müsəlman oldılar. Bunların işi təmam oldı. Seyyid o yəhudini çağurub, dinə dəvət eylədi. Ol dəxi iman gətürüb müsəlman oldı. Seyyid dəxi Firdovsun qızın ana nigah eylədi. Tacir ol qırx yük malı ğazılarə bəxş eylədi.

Sonra Seyyid didi ki, Asimi öndə xəlifə edə. Asim qəbul eyləmədi didi kim, mən həbsdə ikən əhd eyləmişəm əgər xilas olsam, Məkkəyə gedərəm. Əlhəmdüllah hümətinlə xilas oldum. Mən səndən ayrılmanam, didi. Seyyid didi: - Pəs imdi bizə xəlifə gərəkdur kim, hər nə dürlü hal olursa bizə bildirə. Seyyid ana buyurdu, Abdülmömün derlər idi. Onı gətürüb padşah etdilər və dəxi Firdovsun, Calutun, Halutun, Talutun və on ulu bəglərün Seyyid öldürmüşdür. Malların cəm edüb, gəmilərə qoyub alub rəvan oldular. [55] Günlərdə bir gün quruya çıqub gəldilər. Seyyid gəmidən tışra çıqub bir nərə urdı. Həman aslan meşədən çıqub gəldi Seyyidin önündə yüzün yerə qoydu, yenə getdi. Varub Aşqarı neçə baş özgə atlar ilə gətürdi didi ki, bunları Aşqara münis eylədim ki, məlul olmıya. Seyyid aslanı nüvaxət eylədi, yenə aslan dönüb meşiyə getdi. Müsəlmanlar ol atları dutub kimisinə özləri mindi, kimisinə mal yükləyib, rəvan oldular.

Gedirkən yoldə bir qalaya rast gəldilər. Qələnin padşahına Bəxtiyar derlərdi. Yavuz zalım idi, heç müsəlmanlara hüsm etməzlər idi. Seyyid yaranları pünhan qıldı, özü qələyə gəldi. Qələnun önündə qoyun-quzu otaran çoban var

idi. Ol çobandan qələnün əhvalını sordu. Çoban didi: «Bu qələyə həsar pulınan derlər». Seyyid çobanları dinə dəvət eylədi. Çoban ayıtdı ki, fəryad eyliyə, boğazından boğdu. Seyyid çobanun donların geydi. Donquzları sürü-sürü qələyə gəldi.

Ol Qövm didilər: - Hey sənə nə oldı bu zaman donquzları gətürdün. Seyyid didi kim, filan yerdə bir neçə mühəmmədiləri gördüm. [55a] Olardan qaçub gəldim. Bunu eşidüb qələ adamı səgirişdilər. Qələnün içi qovqa ilə doldı. Bəxtiyara xəbər oldı, didi: «Battal mənim qorqumdan yuxuya uyumazdı. İndi nə oldı ki, bu arayə gələ, didi». Buyurdu: - Tez çobanı bana gətürün. Dərzuman Seyyidi alub Bəxtiyarın yanına gətürdilər. Seyyid gördü bir sərxoş məlun oturur, önündə bir dağ kibi gürz qoymuş, otuz iki arşun qadqaməti var, dört yüz qul qarşusunda durar. Seyyüdün xəbərin sordu. Seyyid didi: - Filan yerdə bir neçə Muhamməd ilər var, gördüm qaçdum. Bəxtiyar acıqlanub qullarına buyurdu: Tez varun onları dutun gətürün. Bunlar qələdən çıqub, Bəxtiyar xəlvət qalub baxdı, Seyyidi qarşuda gördi didi: - Ey çoban, sən neçün onlarla getmədün. Seyyid didi: - Mənim sana bir ərzim var, buyursan söyləyim. Bəxtiyar didi: - Söylə. Seyyid irəlü yeriyüb gürzi əlinə aldı, bir alma kimi götürüb başına çevirdi. Bəxtiyar didi: - Neylərsən? Seyyid didi: - Məni bilürsən ki, mən Battalam? Tez müsəlman ol, yoxsa bu gürzü başına salarum. Bəxtiyar əlini qılınca apardı, [56] dərhal Seyyid gürzi ilə urdu kim, yer ilə bərabər eylədi. Tışra gəlüb bir nərə urdu kim, yaranlar eşidüb çöldən Seyyid, içərüdən kafiri arayə alub qırdılar. Neçəsi ay iman, didilər. Seyyid buyurdu qələni yıxdılar, xərab eylədilər. İki yüz mömin müsəlman yaran adamlar qələnün malın alub, altı yüz kişi rəvan oldular.

Hekayət ol canibdə Qeysərə xəbər oldı kim, Battal bəllisüz olub. Qeysərin bir pəhləvanı var idi. Şahsəp nam yüz min ər ilə Sərcail məluna qoşub göndərdi və buyurdu ki, Seyyidün vilayətin xərab edələr.

Bu xəbər Malatiya gəldi.

Seyyidün yaranları bir yerə cəm olub, məşvərət qıldılar, hər biri, bir söz didi. Abdülvəhhab didi ki, tədarük görüb, köçüb fəth varalum. Ötən kərə kibi xəndəq qazub düşmənə cavab verək, ol yer mübarək yerdir. Bəlkə Haqq-təala bizə nüsrət verə. Cümləsi bu sözü bəgəndilər, andan fəthicəbələ gəldilər. Təvəkkül Allaha edüb, durdular.

Bir gün kafir ləşkəri çıqub gəldi və kafir bəgləri yetüşüb, ələmləri ilə qondular. Şahsəp buyurdu, namə yazdılar. Möminlərə göndərdilər kim, «gəlin bana müta olun, sizün günahınızdan keçərəm və Battal məğribdə öldı və ol qoca kim «Muhammədi gördüm» dir, bağlayub [56[a]] bana verün. Battala edəcəgimı ona edim. İçəri gətürüb naməni yetürdü, oxuyub parə-parə eylədilər. Həman gələnun yüzün və iki qulağın kəsüb göndərdilər.

Şahsəp bunu görcək buyurdu, ata mindilər, özü meydana girib cövlan göstərdi, ər dilədi. Müsəlmanlardan Əhməd Tarran meydana girdi. Şahsəp ilə çoq cəng eylədi. Əhməd Tarranı Şaməsəp yıxdı. Əhməd Tarran durunca ol ləyin kəmənd atıb Əhmədi dutdu. Qulları ayruşub ələm-dibinə apardılar. Müsəlmanlar məğlub oldular. Müsəlmandan Abdülvəhhab meydana girdi, önündə giriftar oldı. Ol Cudə meydana girdi, odə dutuldü, Müsəlmanlardan on dört bəlli pəhləvan dutuldı. Müsəlmanlar ğeyrət edüb yerbəyerdən at saldılar.

Kəffar ləşkəri dəxi həmlə qıldılar. Müsəlman ləşkəri sındı. Xəndəqə girə bilməyüb Malatiya yolın dutdılar. Əmir şəhərə gəldi, tez xəlifəyə namə yazdı. Seyyid məğribə getdi ki, əhvalı bildirdi və bu xəbəri xəlifə eşidüb, məlul oldı.

Mizrab Xarizəminin oğlu Əli bin Mizrab öndə idi. Aba Müslimin qız qardaşının oğluydı.

Xəlifə on iki min ər verüb göndərdi və bu tərəfdən Şamasəp ol əsir olan yaranları Mənquşə göndərdi. Və dəxi iki yüz müsəlman əsiri var idi. Onlar yenə də ol yaranlar ilə min [57] adam birdə bir neçə at və mal Qeysərə göndərdi

özü köçdü gəldi Malatiyanı hasarladı, şəhərdə ğayət aclıq oldı, aciz qaldılar taqətləri qalmadı.

Belə rəvayət edirlər kim, bir gün kafir ləşkəri qələbə eylədi. Şəhər xalqı qayət zəbun oldular. Nagah Bağdad yolundan Əli bin Mizrab çıqub gəldi. On iki min ər ilə. Əli buyurdu, tir baran eylədilər. On iki min kafir zəbun oldı. Kafir ləşkəri qələdən iraq getdilər.

Əli genə buyurdu, həmlə eylədilər. İyirmi min kafiri cəhənnəmə vasil eylədilər. Andan sonra dönüb geri oturdular. Əli gəlib qələyə bərabər. Yenə Əmir gəlüb, Əli ilə görüşdülər. Təhsin edib, alub şəhərə gətirdü. Sabah oldı, nəğaralar döküldü, səf bağladılar. Əli meydana girdi. Doqsan kafiri öldürdü. Çünki bunı gördülər, kimsə meydana girmədi. Əli meydanda ər dilədi. Bir kafir meydana gəlüb Əliyə bərabər durdu. Ol gün cəng eylədilər. Bir-birin ala bilmədilər. Yenə döndülər. Əmir və digər müsəlmanlar qarşu gəlüb Əliyə düa eylədilər. Buyurdu: - Şəhər önündə çadırlar qurdular. Əmir, Əliyə qonaqluq eylədi. Ol gecə sabah olunca söhbət eylədilər. Bir zaman Seyyid üçün məlul oldular.

Çün yenə sabah olub, nəqarələr dökülüb səflər bağlandı. Çün Mənquş ləin ki, min kişi ilə ol [57a] əsirləri alub rəvan oldılar.

Müsəlmanlar bənd içində ağlaşdılar. Diriğa Qeysər bizə aman verməz, öldürər və dəxi bizlərə Seyyidi görmək qiyamətə qaldı deyüb, fəryad edirlərdi. Bu haldə nagah qarşudan toz qopdu, yel əsib, iki parə oldı. İslam ələmi göründü. Əhmədi Tarran nəzər eylədi gördü kim, ələm dibində bir igid xoş qəddi-qamət. Bunlar anı görüb ah eylədilər, didilər kim, nə olaydı bu gələn Seyyid olub, bu zəbunları kafir əlindən alaydı.

O tərəfdən Seyyid dəxi oları görüb və kafir Əlini görüb, didi: - Bu qədər kafir bundə neylər? Tez buyurdu, bir yerə qondular. Bunlar altı yüz müsəlman idi. Seyyid atından aşaqə enüb, atın qulanın bir kəs əylədiginə minüb bir nərə urdu didi: - Ey məlunlar, sandunuz kim, Battal bəllüsiz oldı

və dəxi gəlməyi yoxdur. Uş budur gəldim. Alub həmlə qıldı, Mənquş Seyyidi görcək ayıtdı ki, qaça. Seyyid yetüşüb bir zərb urdı ki, iki parə eylədi, Kəffar ləşkəri qaçdılar. Əsirlərə yetişdi. Qamusu yetdi görüb ağlaşdılar. Seyyid atından enüb onların bəndlərin açdı. Bunlar dəxi Seyyüdün ayağınə düşdü, Seyyid əhvalların sordu. Ərz eylədilər, Seyyid dərhal ata minüb yüz kafiri qılıncdan keçürüb, atların və donların alub [58] əzim Malatiya eylədilər. Çünki bu tərəfdən səf bağlanmışdı. Əli bin Mizrab meydana girib Şaməsəpi tələb eylədi. Şaməsəp atın sürüb Əliyə bərabər gəldi. Çox cəng eylədilər. Axır Şaməsəp zəbun oldı, didi: – Ya Əli, zəbun oldun kim, ləşkərini gözlərsən. Əli didi: - Sən nə kişisən bizi zəbun edəsən? Şaməsəp didi: - İmdi söylə ləşkərün yerli yerinə varsunlar. Əli anı görcək bilib döndi, gerü baxdı, Ləyin Əlini qılınclayıb bir budun saldı. Əli ah eylədi didi: - Ay ləyin, qəfil ikən adammı çalırsan.

Əlinin qulları at salub Əlini alub meydandan çıqartdılar. Əmir buyurdu, Əlini şəhərə apardılar. Müsəlmanlar bicarə olub və zarılıq eylədilər.

Ol dəmdə nagah bir toz qopdu. İçindən ələm dibində Seyyid Battal sabah yeli kibi gəlir. Ol pəhləvanlar kim kəffar əlində əsir olmuşlardı. Müsəlmanlar anı görüb şad oldılar, şadyanalıq çalındı. Seyyid dərhal at meydana salub, Şaməsəpə bərabər gəldi, didi kimsən, məlun didi: - Qeysərin oğlu Şaməsəpəm. Seyyid didi: - Məni bilürsən? didi: - Bilürəm. Battalsan didi: - Sən iman gətür yoxsə, sən bilürsən. Ləyin didi:-Buna bir nəzər elə. [58[a]] Seyyid gördü bir adam budu düşmüş, durur didi: - Ya Ləyin, bu kimin bududur? Məlun didi: Bu Xavərzəmi bəginin bududur. Seyyid çağurdı kim Əlini tez mundə gətürün, əgər gəlməyə macal yoxsə, bir taxtaya sarıyub gətürün. Dərhal Əlini taxtaya sarıyub meydana gətürdilər. Qarşu varub bu du alub yerinə qoydu. İlyas peyğəmbərün düasın oxudı. Haqq-təalanın qüdrətilə sani oldı. Əmir buyurdu Seyyidin qədəminə baş qoydular və Əliyə at gətirdilər. Əli suvar oldı. Yaranlar bu halı gö-

rüb, nəqarəsin urdılar, afərin qıldılar.

Şaməsəp ləyin anı görüb heyran qaldı, didi: - Ya Battal, sən nə əcəb cadıy imişsan. Sənin başını kəsim deyüb, həmlə eylədi. Seyyidə qılınc həvalə eylədi. Seyyid dəxi yetəni çəküb qoltuğunun altından eylə çaldı ki, bir əli başı havayə qalxdı. Yaranlar anı görüb həmlə eylədilər. Kəffar ləşkəri qaçmağə yüz qoydu. Müsəlmanlar üç gün onları qovdılar, əsirlər ayıdub dutdular və malların cəm eylədilər. Xəlifə üçün pəncin *(beşdə bir pay - A.R.)* çıqarub yerdə qalanın ğazılara verdilər və bir neçə gün Asim, Arif və Tahir çoxlı xidmətlər eylədilər.

Andan xəlifəyə göndərdilər. Xəlifə dəxi bunları [59] gördi. Çoq şad oldı. Andan Seyyid hekayyətin xəlifəyə bəyan eylədilər. Xəlifə heyran qaldı, Seyyidə düa eylədi, Asimə dəstur verdi. Asim əzmi şükür eylədi. Vardı anda mücavir oldı.

Ol tərəfdə Qeysərə xəbər oldı. Battalın gəldigini və Məğribdə olan hekayətini bərabər şərh eylədilər. Qeysər məlul olub çoq ağladı didi: - Vay, əcəbdur ku, Battal peyğəmbərlik davasın edirsə, dəxi İsa dini zəiflədi və Məhəmmədin dini qüvvətləndi, bundan sonra bizim dinimizün rövnəgi pozuldı. Hörməti qalmadı deyüb, ağladılar.

Qeysərün bir vəziri var idi. Mücayil nam derlər idi. Ol didi: - Ya şah, mənim xatirimə birisi gəldi, buyursanuz söyləyim? Qeysər didi: - Söylə! Mücayil didi: - Sənə bağlı nə qədər qala varsa və Rumun darbəndlərini bağlasunlar. Ol keçəcək yerdə dursunlar. Andan hər kim keçərsə öldürsünlər. Şayəd Məsihin dövlətindən Battal ələ girə. Qeysərə bu söz xoş gəlib tez oğlu Şəmasa namə yazdılar. Əhvalatı bildirdilər, andan Sinbatın evinə namə yazdılar. Andan Firidünə, Qalunə və Qudsiyə, Təkfur şaha, Kələbət Rumiyə nə qədər din düşmanlari varsə namə yazub göndərdi kim, tamam [59a] darbəndlər dutub, hər kim ələ düşsə öldürələr ya dutub Qeysərə göndərələr. Elə eylədilər kim, quş dəxi uça

bilməz oldı. Hər yerdə iki min kişi qoydular. Elə yer oldu ki, igirmi min adam qoydular, andan sonra Qeysər Şəmasa on min altun göndərdi ki, hər zaman Battal bu tərəfə gəlsə bana bildirəsən. Şəmas özü müsəlman idi. Seyyidün məhbusu idi.

Bu tərəfdən Seyyid yaranları ilə oturmuşdu, Yəhya bin Münzər gəldi. Yaranlar ilə görüşdülər. Seyyid didi: - Nərdən gəlürsən? didi: - Rumdan gəlürüm. Seyyid didi nə xəbərün vardır didi: - Qeysər Rumdə nə qədər kim darbəndlər varsə saxladılar. Hər bir yoldə on min igirmi min adam qoydular. Dəxi quş keçməz oldı. Bu halı görüb, sizə xəbər gətürdim, məbadə Seyyid bu il ol tərəfə varmiyə, bu iş məlum olacək. Əmir didi: «Hanı Tərsusdan gələn namə», gətürüb Seyyidün əlinə verdilər, oxuyub gördülər ki, yazmış: «Zinhar bu il Seyyid Rumə varmiyə». Seyyid didi: - Bu namə nə vəqt gəldi? Əmir didi: - İyirmi gün vardur. Seyyid didi: - Bəs neçün bana göstərməyübsüz? Əmir didi: - Ya Seyyid, səndən qorqdum. Zira əksinə eşidərsən anın əksin dutarsın. Seyyid didi: Mundə dəxi Haqq-təala [60] yazmışsa, odur kim, siz belə dersiz məni düadan unutmayın. Bən dəxi gedirəm. Yaranlar nə qədər israr eylədilər, çarə olmadı. Seyyid ol gecə cami məbədin edüb, Şəmmas diyarinə gəldi anda, qalub gecə söhbət eylədilər. Seyyid Rumdan xəbər sordu. Şəmas didi: - Yeddi gündür ki, Qeysərün adamı gəldi. On min altun gətürmiş, demiş hər vəqt ki, Battal ol canbə gəlsə bana xəbər eyləyin kim dutam, imdi ol altunı al, xərc elə, bu yıl Ruma varmə, didi. Seyyid qəbul etmədi və sabah oldı, Seyyid durdı, Şəmmas ilə vida edib rəvan oldı.

Qalun qələsinə gəldi. Otuz min kişi yolları bəklər idi andan keçdi. Hər yerə kim uğradı, gördü ki, on min igirmi min kişi, yollara düşmüş bir səhrayə çıqdı, gördü kim, qarşudan bir atlı hiylə gəldi. Seyyidi görüb həmlə eylədi. Cida həvalə qıldı. Seyyid məni eylədi gəldi, kim keçə Seyyid qurşağından dutdu, qüvvət edüb götürdü ki, yerə ura, gördü ki, Musa bin Cudədir. Əlindən aşağa qoyub didi ki, - Ya

Musa, [60[a]] sən munda neylərsən? Musa yüzün yerə qoyub didi: - Ya Seyyid, sən getdikdən sonra yaranlar pərişan oldılar. Didilər: - Seyyid yalquz haqq yolunda çaluşur, bizlər evdə oturur.

Bunlar bu sözdə ikən on pəhləvan çıqub gəldilər. Çün Seyyidi gördilər. Atlarından enüb, Seyyid önündə yüz yerə qoydular. Seyyid nəzər edüb gördü kim Əhməd Tarran, Abdülvəhhab, Nəsr Həbbab, Təvabil Əflahun, Məhəmməd bin Zeyid, Əli bin Haşım, Yəhya. Seyyid didi: - Bunda yenə gəldüz? didi:

- Gəldük kim, sənin qulluqunda olayım. Seyyid didi: - İman eylədünüz, məni bəlayə saldunuz. Yaxşı idim.

Bunlar didi: - Xudavənda, bir heybət gördük, yolda ləşkərə uğraduq. Gecə nagah qarucuq çıqub gəldi çignində səccadə, əlində əsa, bizlərə didi: - Durun sizi Seyyidə aparum. Alub bizi buraya gətürdi. Özü nabud oldı.

Bu sözdə ikən lələsi Təvabil çıqub, gəldi. O dəxi didi: - Bir qarıcuq bana dəlil olub, mundə gətürdi. Özi bilmədim nə yerə getdi. Seyyid didi: - nə deyirsiniz, necə edəlüm, getmək gərək. Andan suvar [61] olub Qeysər ləşkərinə gəldilər, gördülər iki yüz minə qədər ləşkər qalmuş. Seyyid ehtiyat eylədi, andan keçüb getdilər, Qəlleyi-Mişturanə gəldilər. Gördülər əlli minə qədər ləşkər Kəlb bin Sabahla oturmuş. Seyyid didi: - Yaranlar, bu çeşmə kənarında bir dəm aram edəlüm. Andan durub, təvəkkül Allaha edüb, özümüzi ləşkərə uraq. Zira ki, adət idi, heç kim Seyyid ğəzavət edəndə suyə girüb qüsul eyləməzdi. Seyyid donun çıqarub, atını bir yerdə qoyub, suyə girdi. Ol dəm Kəlb bin Sabah kim, Qeysərin sərləşkəi idi. Oraya gəlüb gördi ki, bir at ondə durar, önündə bir cida sancılmış və bir kişi suya girmiş, cəled çağurub, didi: - Sən nə kişisən? Battal didi: - Kəlb qullarındanam, didi. Yalan dersən, bəri gəl, biləlüm. Seyyid çoq bəhanələr eylədi. Çarə olmadı, didi. Sən Battalmısan, əslin Məhəmmədilər nəslidir? Seyyid gördü kim, ləyin bilicidür, suyun ortasına gedüb, didi: - Ay ləyin, inşallah bəni bir

gecə başın ucunda taparsan. Kilb anı eşidüb buyurdu, tirbaran eylədilər. Seyyid dəxi balıq, kibi suya batdı. Haqqtəalah saxladı. Kəlb [61a] axşamədək orada durdı.

Axşam ki oldı, gəlib Seyyidün atın və donın alub qayıtdı. Gedirkən Qüdrət-i aləmin yolu ol yaranlar olan tərəfə uğradı. Bunlar qafil yatırkən Kəlb gəlüb buları dutub möhkəm bağladı və Battalın yaranlarınə didi: «Ol Battalı tapdım, suya girmişdi. Tir baran eylədük, zəxmli oldı. Şimdi öldi gərək, atın və donın alub gəldüm».

Çün bu gecə keçüb sabah oldı, Seyyidün yaranların gətürdilər. Kəlb nəzər ediüb Əhməd Tarranı tanıdı didi: - Ya Əhmər, rəvamıdur, əcdadının dinini tərk edəsən. Varub bir caduyə uyasən. Gəl geri dön dinə gir, bən səna şəfaət eyleyim. Qeysərə iltimas edib mənsəbini geri alam. Yoxsa başını kəsərəm. Əhməd didi: - Hərzə söyləmə, mən bir Allahə iqrar eylədim. Əgər sənin də dövlətin varsa, sən dəxi dinindən bu dinə dön, canını cəhənnəmdən qurtar. Kəlb ləyin acıqlanub buyurdu ki, bunları öldürün. Vəzirlər qoymayub didilər məsləhət oldur ki, sən bunları öldürmiyəsən. Qeysərə göndərəsən ki, Battal yavuz kişidür. [62] Əlbəttə gələr, nə sizi qoyar və nə bizi. Bəs bunları zindana qoydular. Sonra oğlu Şəmun qırq keşiş ilə bir zurqə minib Seyyidi axdarmağa göndərdi.

Bu tərəfdən Seyyid sabah olunca bu yerə gəldi. Gördi bir su kənarında bir qala var, qapusu dəmirdən. Açub içəri girdi. Ac idi bir az əkmək və balıq tapub yedi toydu. Durub tışra çıqdı. Bir məqaraya gəldi və gördü ki, bir gəmi gəlür qırq iki kişiylə. Seyyid maqarada gizləndi. Bunlar gəlüb maqaranun dört yanın gəzdilər. Bir kimsənə bulmadılar, döndülər getdilər.

Dərhal beş adam gəlüb və bir iki şərab gətürüb bu maqarada söhbətə məşğul oldılar. Bir-bir piyalə doldurub içdilər və birisi didi: - Bu qədəhi ol Seyyid Battal eşqinə içirəm. Onlar didilər: - Ol didigün kimdir? Didi: - Seyyid Battaldur. Bunlar bunu eşidüb didilər: - Hey sən Məhəmmədi-

sən deyüb, bunu dutdılar. Bu Miskin didi: - Ya Battalın tanrısı, bana imdad eylə. Seyyid bunlarun sözlərin eşidüb ayağa durub gəldi. İkisinin boğazından dutub boğdu və ikisini dəxi öldürdü. Ol birisi, yatduğu yerdən durub, Seyyidün ayağına düşdü didi: - Sən kimsən? didi: - Sən qədəhi kimin eşqinə içdün. Didi: - Battal eşqinə içdüm. [62[a]] Didi: - Bən Battalam. Ol didi, mənsə Yemeliha. Seyyidün ayağınə düşüb iman ərz qıldı. Seyyid çılpaq idi, ol ölümün bir yesnəg donun geydi, didi: - Hanı Kəlb? Ol didi: - Bilməzəm. Seyyid durub getdi.

Bu tərəfdən Kəlb ləyin bir az gəzdi. Gerü qayıdub o yerə gəldi didi: - Qapınu açun. Didilər kimsən? Didi: - Kəlbəm, Seyyidi istəməgə getmişdim. Sonra qapunu açdılar, içərü girdi. Qırq rəhban qapıçı var idi. Qarşu gəlüb izzət ilə gətürüb oturtdılar və eyşə məşğul oldular.

Bu tərəfdən Seyyid dilə gəlüb Yemilihaya didi: Sən var, Kəlbə söylə kim, bir ulu sudan çıqmış, Battalə bənzər. Yemlihan durub Kəlb yanına gəldi və didi: - Xüdavənda, biz beş kişi idük. Qarşu maqarada otururduq. Nagah mövc urub sudan bir ölü çıqardı həman Battalə bənzər. Kilab şad olub bir zövrəqlə bir neçə adam ilə ol maqaraya gəldi. Ol ölü handadur? didi. Seyyid yetişdi rəhbanə bir qılınc urdı. Başı həvayə paran oldı. - Öldün! Bir nərə urub, onları dəxi qırdı. Kəlb qaçdı. Kəlbin oğlu dəxi ələ düşdü. Həman o oğlan idi kim, Seyyidün ayağına düşdü. Müsəlman oldı. Anın adın Seyid, [63] İsmayıl qoydu. Yemlihanın adın Evhad qoydu. Seyyid didi: - durun imdi kilsəyə varalum. Vardılar zövrəqə minüb dırə gəldilər. Qırq keşiş var idi, qarşu çıqdılar, xəbər sormağa irəli yeridilər. Bir ululları var idi. Adı Heys idi, anı dinə dəvət eylədi. Ləyin fəryad eylədi. Seyyid bir qılınc urdı iki parə eylədi. O qırq keşişləri öldürdi.

Andan sonra zövrəqə minüb getdilər. Seyyid İsmayıla didi: - İndi sən müsəlman oldun. Var, atan yanına, söylə kim, Heys yanına bir rəhban gəlmiş Qaf dağından, «İsa dinin qalxanıdır, qılıncıdır», əcaib sözlər söyləyir. Heys bəni

sizə göndərdi, gəlüb nəsihətlərinı eşidəsüz, rahət olasuz. Oğlan çün bu xəbəri eşitdirüb çıqub getdi. Atası yanına gəlüb külahını yerə urdu didi: - Ey baba, hanı qırq qul, qırq rəhban və Heys. Battal qılıncdan keçürdi və zövrəqə mindirüb, özün suya urdı. Bən hiylə eylədim və dinə girdim, qurtuldım. Məni göndərdi didi, «var atana, söylə Şayəd müsəlman ola», çün Kəlb bin Sabahi bunu eşidüb buyurdu. Əlli min adam ata minib Seyyidə gəldilər. Seyyid onları görüb zövrəqi suya saldı. Evhad didi: «gördünmi ol oğlan bizi aldadub, qammazladı. O üstümüzə qovğa gətürdi». [63a] Seyyid didi: - Qoymaz Haqq-təalanın inayəti, Kəlb bizimlə bərabər gələ. Didi: - Ey Battal, əyyarlıq ilə mənim əlimdən can qurtarmazsan, munca məkr və hiylələr edərsin. Nar-ı nurun dövlətindən mən səni dəxi həlak edərim. Seyyid didi: - Məgər sən mənim kölgəmdən elə qorqmuşsan kim, hər kimi görürsən Battal sanursan! Bən Kuh-i Sevlandan gəlirüm. Bir neçə ayət incildən oxudı dəvar-avaz ilə, ol rəhbanlar kim belə gəlmişlər idi, ol qədər ağlaşdılar kim, az qaldı kim həlak olalar, didilər: Bu necə Battaldır kim, bu vilayətə muncayın ğərəz gəlübdür. Bunun xatrin yıxmayun, bu siz deyən adam degildür, didilər. Oğlan nə qədər fəryad eylədi didi: - Bihəq İsavü Məryəm, bu Battaldur, sizi yoldan çıxarur. Rəhbanlar dəxi fəryad eylədilər kim, bu Battal degildür, siz bilməzsüz. Battal çağurdı kim, oğlanın əqli zayuldur. Bana nələr söylər. Anın damağında hiylə vardur. Ana timar gərəkdür, didi. Oğlan nə qədər çağırdı: - Ey baba, bu kişi Battaldur. Sən keşişlərə inanma. Keşişlər çağırırdılar kim, ay oğlan, sən danışma, bu sən deyən degil, ancaq nar-ı nur özüdür. Bir neçə dəfə oğlan fəryad eylədi, çarə olmadı, cümləsi atdan endilər. Baş urub yalvardılar. Seyyidə didilər məzur dut kim, Seyyid bizlərə çoq işlər dutubdur. Seyyid bunlara ol qədər mərifət söylədi ki, bunlar [64] ağlamaqdan ürəkləri parə-parə oldılar. Andan sonra rəhbanlar didilər: - Bu sözləri kim, bu söylədiginə görə, məgər kim, İsa ola? Oğlan genə fəryad edüb didi: - Ey qövm, bən dəli degiləm,

bu Battaldur. Əsla sözünə etiqad etmədilər.

Seyyidi alub ulu dirə vardular. Anda qonaqlıq eylədilər. Seyyid buyurdu, minbərə arastə qıldılar. Seyyid minbərə çıxub neçə ayət incildən oxuyub təfsir eylədi. Təmam keşişlər özlərindən getdilər. Həman oğlan atasın yanındə ağlar idi ki, zinhar keşişlər inanmasunlər, bu kişi Battaldur, əgər bana inanmazsız, adam göndər varub görsünlər. Keşişlər əgər diri olsalar, bən yalanam, didi. Kəlbin bir vəziri var idi, didi: - Şaha, bu oğlan yalan deməz. Bir rəhbana neçə adam qoşub göndərdilər, gedüb gördülər qırq keşişdən biri sağ degil. Atasının bu işlərdən xəbəri yoxdur, didi. Bir az keçdi, gəlib Kəlbə xəbər verdilər. Ol zaman Seyyid minbərdən enmiş idi. Baş aşağa salub otururkən ittifaq edüb kəmənd atdılar, hündürüncə dutdular, bağlayub Kəlbə yanına gətürdilər. Kəlb Seyyidi görüb buyurdu tez boynunu urun. Cəlladlar qılınc çəkdi kim, boynunu uralar. Kəlbin vəziri qoymadı. Didi: - Şaha, bunı öldürmə, səbr eylə, Qeysərə bildir, bu iş az degildür, [64[a]] həm bu kişi Qeysərə çoq iş edübdür, bunu öldürmə, hər nə edirsə ol eyləsün, şayəd ki, sana itab eyləyər. Yoxsa, «bunun kibi işləri bana bildirmədün» deyər. Battalı zindanə göndərüb,

Qeysərə namə yazdılar. Hekayəti bildürüb cavaba müntəzir oldular. Bu cavabında Seyyidi yenə zindanə qoydular. Yaranlar bunu görüb, fəryad eylədilər, didilər: Xudavənd, bizim ümidimiz sən idün, sən dəxi giriftar oldun didilər. Seyyid didi: - Qəm yeməyin bu halı xoş görəlim Haq-təalanın didigi yerinə gəlməsi gərəkdür. Görəlüm deyüb, zikrə məşğul oldular.

Bunlar bundə qaldı, bu tərəfdən Seyyidün dutulduğun Qeysərə xəbər verdilər. Qeysər eşidüb şadlıq eylədi. Sonra cavab yazdılar kim, «min kişi ilə dərhal Battalı alub mundə gələsən. Bən ana dürlü əzablar eyləyim». Naməni bəg alub gəlməgdə oldu.

Bu tərəfdən gəlib bin cahil oğlanı yanınə alub eyşə məşğul oldı. Bir gecə oğlan fəryad edüb uyqudan oyandı, səra-

simə gəlib didi: - Ay oğul, sana nə oldu? Didi: - Ay baba, duş gördüm bir əjdəha bana qəsd eylədi, qaçdum. Ardumca çağurub didi: - Ey oğlan, babana söylə, kafiri tərk eyləsün Muhamməd dininə girsün, yoxsa sarayı ilə özün odlaram, [65] didi. Kəlb didi, «Ey cigər guşəm, Seyyiddən qorqub duş görürsən. Oğlan yenə yatdı. Yenə duş görüb fəryad eylədi, durdu gəldi. Kəlb didi: - Nə oldı? Oğlan didi: - Ya baba, bana bir aslan qəsd eylədi, qaçdım məni qovdı çağırub didi: - Ey oğlan, söylə baban kafiri tərk eyləsün, yoxsa həlak olarsan. Kəlb didi ki, qorqudan sənə xələl gəlübdür. Oğlan yenə yatub duş gördü kim, bir nəhəng ağzın açmış qəsd edir, oğlan qaçır ardından deyir var, babana söylə kafiri tərk eyləsün, yoxsa həlak olur, Muhamməd dininə girsün. Yuxudan oyanub nərə urub durdu. Hekayətin şərh eylədi. Kəlb eşidüb məlul oldı. Buyurdı incil gətirdilər, tez oğlanı geydirdilər və incildən ayətlər bülünə asdılar.

Bir qədər oturub rəhbanlar getdi. Kəlb bin Sabahı yatdı yuxladı. Duş gördü kim, bir nur peyda oldı. Qiblə tərəfindən müşkənbər qoqusu aləmi dutdu. Didilər sədri-bədri aləm Seyid-i vələd-i adəm Muhamməd Əl Mustafa firiştələr və yüz igirmi dört bin ənbiya peyğəmbərlərin ruhi beləsincə Əvayili-həmd Rəsul ilahinin sağında və solunda yeriyürlər. Həzrət Rəsul bir ağ büraqə minmiş, ol əzəmət tacın başına qoymuş gəlür. Kəlb belə görüb yeridi. Rəsulun ayağına düşdü. İman ərz qılub müsəlman oldı. Peyğəmbər dəxi adın Abuzər qoydu didi: - Ya Abuzər, var bənim oğlum Battalı zindandan çıqart, ana yar ol, anın dini haqdır və bəglərdən kim varsa cümləsini onun dininə dəvət eylə. Kəlb Səbahı oyanub ol ağac yaprağı kibi titrədi. Tez donların geydi və vəzirlərin çağurdı və qohumların cəm edüb, gecə gördügü, duşu şərh eylədi. Bunlar dəxi «bu vaqeəni bizlərdə gördük» didilər. Tədbir qıldılar, Kəlb bu işləri görüb, yerindən durub zindanə gəldi. Qapunu açdırub içərü girdi. Seyyidün ayağınə düşüb didi: - Ya ğazılar sultanı, günahımı bilmədim, bağışla. Seyyid didi: - Peyğəmbəri görüb adın Abuzər

olmayınca, inanmadun. Tez çəküb Seyyidün əlin öpdü və orada məhbus olan yaranlar ilə görüşdü. Buyurdu, Seyyidü həmamə apardılar, yaxşı donlar geydürdilər. [65a] Aparub təxtə oturtdular. Abuzər Seyyidi yanında əgləşdirüb iraqdan yaxundan nə qədər bəglər varsa çağurdı. Onları dinə dəvət eylədilər. Cümləsi didilər bizlər dəxi duş görüb Rəsul Həzrətin önündə iman gətürdük. Əlli min kişi, neçə bəgləri, bütün vilayətləri müsəlman oldular.

Bu tərəfdə ginə Seyyid yaranlar ilə oturmuşlar idi. Nagah bir bəg gəlüb naməsin Abuzərə verdi. Naməni oquyub parə-parə eylədilər. Abuzər didi: - Qeysər bu naməni kimə yazmış dəxi o batil əndişə məndən getdi və dəxi o bəg didi: - Mən Muhamməd Mustafayı duşumdə gördüm, filan yerdə müsəlman oldum, didilər. Qeysər pəs nə fikirdədür, didi. Kəlbə yüz min ər qoşub Malatiyaya göndərdi.

Bu tərəfdən Seyyid Kəlb bin Sabahi ilə Şətran diyarında ikən Malatiyaya xəbər gəldi ki, Kəlb ibn Səbah Seyyidi dutmuş. Qeysər yüz min kişi ilə Kəlbi göndərdi kim, gəlib Malatiyanı zürü-zəbər edələr.

Əmir və yaranlar bu xəbəri eşidüb fəryad eylədilər və əmir buyurdu on min ğazi cəm oldı və özləri qələni möhkəm edüb oturdular. Bunlar işzarda, çün Seyyid ki Məştəran diyarında Kəlbad Malatiyaya getmək xəbərin eşidüb didi: - Ya Abuzər, bu diyarı sana tapşurdum, kilsələrin yıqub, yerinə məscid yapdırasan və özü nə qədər altun və gümüş varsa alub yolə düşdü.

Günlərdə bir gün gəlüb Kəlbad ləşkərinə yetişdü. Gördi ləşkər qonmuş, Seyyid Aşqırdan düşüb və Aşqırı bir yerdə pünhan eylədi. Çün gecə idi özü piyadə Kəlbad yanına gəldi, gördü bir xub surətli igid yatur, öldürməgə qıymadı kim, şayəd, müsəlman ola. Şəfqət edüb, bir namə yazdı ki, «Ya Kəlbad, mən Battalam, gəldüm səni öldürüm, gördüm xub igid imişsən, sana qıymadum ki, şayəd müsəlman olasan. Gəl imdi sən müsəlman ol, kafiri tərk eylə, yoxsa sən bilürsən». Naməni baş ucunda qoydu, çıqub getdi.

Gəlüb şəhərə yetüşdü. Bir yerdə durub çağurdı. Müsəlmanlar Seyyüdün avazəsin eşidüb qarşu vardılar. Seyyid ilə görüşdülər. Seyyid özü hekayətin bunlara, didi. Sərgüzəştin eşidüb şad oldular. Seyyidə düa eylədilər, andan sonra Seyyid didi: - Kəlbad yüz min ər ilə gəlür. Mən ona qarşu gedürüm, siz dəxi mənim ardımca gələsüz. Atına rəvan oldı.

Bu tərəfdə, Kəlbad ləyin oyandı. Başı ucunda sərxətti tapdı, oxuyub hekayətin bildi. Bəgləri çağırdı, [66] bunu görüb heyran oldılar didilər varınca bizlər Battaldan qurtulmaqdan xali olduq deyüb pərişan oldular və ləşkərə qorxu düşdü.

Bu haldə Seyyid yetişüb bir təpə üstə çıqub, aşağa nəzər eylədi. Kafir ləşkərinə bir dəm tamaşa edüb, andan bir nərə urdu kim, kafir ləşkəri bihuş oldular. Uç kərə peydərpey nərə urdu ki, mənəm Battal ğazi, Ey Kəlbad! Gecə vardum sizi öldürməgə, səna qıymadım ki, şayəd müsəlman olasan, gəl sən imdi müsəlman ol. Batil dinini qoy, haqq dinə gir, yoxsa bilürsən. Kəlbad bu sözləri eşidüb sərasimə oldular. Kəlbad buyurdu: - Ləşkər suvar olsun. Ləşkər suvar olub, səf bağladılar.

Kəffar ləşkərindən Kibriyanus meydana girdi didi: - Ya Battal, halın nədir kim, səni öldürürlər, yenə diri olursan, zindanə qoyurlar çıxırsan. Məgər ğayyətdə ustad cadumusan? deyüb, cida həvalə qıldı. Seyyid cidasın məni eylədi. Gəldi kim gecə, qurşağından dutub, sıkub bir alma kibi götürüb həvayə atdı. Atırkən qılınc ilə iki parə eylədi.

Qardaşı Ebryanus meydana girdi, o dəxi həlak oldı. Bərabər yüz igirmi kafir həlak oldı. Kəffar ləşkərinə vahimə düşdü.

Günün orta vəqtdi Malatiya yolunda toz qopdı, islam sancaqı peyda oldı. [66a] Əmir on min ər ilə çıqub gəldi. Seyyid bunlara qarşu vardı. Bunlar dəxi Seyyidi görüb düa eylədilər. Seyyid ğazılar ilə zöhr namazın adayi eylədilər. Seyyid yenə girdi. Kilab ləyin buyurdu. On min kişi həmlə birdən qıldı. Seyyid özün on min kişiyə urdu. On min kafiri

Kəlbad üstə tökdü. Kəlbad özü həmlə eylədi. Kəffarlar xaç pakir ələmin götürüb həmlə eylədilər. Bunlar bundə cəngdə ikən toz peyda oldı. Yüz bin kafir Süheyl ibn Sinbad və Təqanuş Frəng, Tapdıq Həmədanı Rum bəgləri çıqub gəldilər. Cümləsi həmlə eylədilər. Qan sel kibi axdı. Seyyid dəmbədəm nərə ururdı. Kafirlər xəzan yaprağı kibi tökülürdi. Bir dəmdə əlli bəg kafiri qılıncdan keçirdilər. Amma kafirlər çoq idi. Müsəlmanlar az idi. Nagah Müştüran yolundan əlli bin ər ilə Abuzər birlikdə müsəlmanlara yetüşdü. Təkpir gətürüb həmlə qıldılar. Əhməd Tarran meydana girüb yaranlar nərə urub, həmlə qıldılar. Müsəlmanlar yerbəyerdən qeyrət ilə cəng edüb, kafirləri yerindən qopardılar. Əlləri yüzülüb qaçacaq oldular. Ol dəmdə Qonstantin Qeysər oğlu yüz bin ər ilə alayların puskurddilər.

Çün axşam zamanı idi, təbil əsayiş uruldu. Hər tərəfdən ləşkərə döndilər. Kafirlər Qonstantin bin Qeysərə qarşu gəlüb Seyyiddən [67] şikayət eylədilər. Tez Qeysərə adam göndərdilər və didilər tez gəlsün, yoxsa Battal aləmi fəda verür və dəxi gəlüb əlli min kişi ilə müsəlman olduğun və kilsələri məscidlərə yapdurduğın Qeysərə məlum eylədilər.

Çün namə Qeysərə getdi və bu xəbərləri ki, Qeysər eşidüb, götürüb tacın yerə urdu, fəryadı-fəqan eylədi. Buyurdu, iki yüz min adam Seyyid üstə rəvan oldı. Bunlar gəlməkdə ikən bu tərəfdə üç gün ləşkər cəng etməyüb ölülərin daşıdılar. Meydan yerin pak eylədilər.

Dördüncü gün hər iki tərəfdən nəqarələr dögüldü. Ləşkər səf bağladılar. Müsəlman Əhməd Tarran meydana girdi, ər dilədi. Aqarib nam bir pəhləvan idi. O dəxi meydana girdi. Əhməd Tarran bir əzm ilə onu həlak etdi. Ol gün Əhməd Tarran əlli kafir öldürdi cəhənnəmə vasil eylədi. Kəlbad onu görüb atın meydana sürdi bərabər gəldi, çoq cəng eylədilər, bir-birin almadılar. Kəlbad qüvvət edüb Əhmədi atından qapdı kim ələmin dibinə sala, kimi ələmrı sala. Əhməd özü qurşağın kəsüb Kəlbad əlindən xilas oldı. Seyyid anı görüb, nərə urdu, [67[a]] yetişüb Kəlbadın qurşağından

dutdı, alma kibi götürüb başı üstə dolandırdı, didi: - Mənəm, Battal Ğazı, ey Kəlbad, tez imanə gəl, canını cəhənnəmdən qurtar.

Qeysərün oğlu Qonstantin bunu görüb, didi: - Bu kimdir ki, bunun kibi işlər edə. Ləiyn bu Battaldur, deyüb rəngi təffir oldu. Məlun Kəlbad didi: - Bana ölmək, müsəlman olmaqdan iyidür. Seyyid gördü kim, qəbul etmir, tutub həvayə atdı. Enərkən tiği səxxakı elə çaldı, xiyar kibi iki parə oldı.

Qeysər oğlu anı görüb iki əlin dutub böyük xaç olan ələmlərin titrətdi. Gəl indi görüm! O an iki dərya kibi ləşkər bir yerdən Seyyidin üstə həmlə edib və ox yağdırdular. Seyyid qalxanı sinəsinə dutub həmlə eylədi. Qan ləşkəri götürüb getdi. Seyyid qəsdi ələm eylədi. Qeysərün oğlu baxub, gördü kim, Seyyid divanə olmuş, qəlblər sökür alaylar pozur çıqub gəldi. Belə görəndə Qeysərün oğlunı titrətmə dutdı, qışqırdı ki, «qoymayın!» dərhal Seyyidi tirbaran etdilər. Seyyid kuştab qalxanını yüzünə dutub, yunan cidasın Qeysər oğlunun rast sinəsinə düzəldüb yeridi. Qeysər oğlu, Seyyid budur yetişdü. Götürüb, özün təxtindən aşağa atdı. Tez bir at çəkdilər minüb getdi. Seyyid yetişüb cidasın məlunun təxtinə urdı. Təxtin götürüb atdı və qılınc əlinə alub, ələmdarı öldürdü. Ləşkər sınıb, yüz qaçmağa qoydular.

Müsəlmanlar üç gün qırdılar və üç gündən sonra geri dönüb ol dərya kibi ləşkərin malların cəm edüb, xəlifə üçün pencin çıqarub baqisin qazılərə bəxş eylədilər.

Andan sonra durub Malatiya şəhərinə gəldilər. Seyyid buyurdı, Qeysərün tacın və dört yüz bədəvi at xəlifəyə Ömər ilə göndərdi. Çünki, Ömər gedüb xəlifənün qulluğuna yetüşdi. Xəlifə anı görüb şad oldı, əzim nəqarələr tökdurüb şadyanəlıq eylədi və fəthnamə Şam vilayətinə yazub, süngusünü cidasını xəlifə Öməri ilə Seyyidə göndərdi. Seyyidi qazılar görüb şad oldılar. Andan sonra Seyyid Ömərə dəstur verdi, Ömərə Məştəran qıldı və sonra cəmi kafirlər və Qeysər bu işləri eşidüb məlul oldılar. Və yenə məşvərət

eylədilər ki, Seyyid ilə barışıq eyliyələr. Seyyidə dürlü-dürlü töhfələr ərmağanlar və hər sənə xərac göndərüb sacət eylədilər. [68] Seyyid dəxi ol tərəfə varmaz oldı.

Bir il belə keçdü, yeməkdə və içməkdə oldular.

Hekayət digər bir gün Seyyid yaranlar ilə otururdı. Bir yerə qondu. İçəri girdi. Seyyidün önündə baş yerə qoydu. Dua eylədi, bu didi: - Ya Seyyid Xarcından gəlürəm. Andə bir kafir vardur, adınə Taryun dirlər. Mənim bir qulum var idi, anı dutub zindanə qoymuşlar idi, onı görməgə vardum. Anda bir igid gördüm bana didi ki, sən Malatiyaya Seyyid Battalə varasan, diyəsən Cudənin oğlu Musanı gördüm. Anıda zindana qoymuşlar və dəxi doqquz pir gördüm altımış ildir o məlunu zindanə qoymuş, ondə əzab çəkirlər. Cudə anı eşidüb, aşk-xünun gözlərindən rəvanə qılub ağladı, Seyyid didi: - Ey Cüdə, ağlama, ümidim vardur varım, Allah-təalah tövfiq verə, oğlunu xilas edəm. Siz dəxi məni düadan unutmayın. Çün axşam oldı, Seyyid cəmi mübəddəl qılub, Xarcına əzmi eylədi.

Cünlərdə bir gün şəhərə yetişdi gördü bir böyük qaladü. Qülləsi həva yüzündə. Seyyid səbr eylədi gecə oldı gəlüb qalanin dört ətrafın dolandı girə bilmədi nə qədər cəhd eylədi, qalaya yol olmadı. Zira ki, hər gecə üç min pasiban qalani saxlardılar. Gündüz dağdə olub, gecə şəhərə enirdilər, yol bulmaqa çarə olmaz idi. [68[a]]

Bir gün baxub gördü şəhərə bir kişi gəlür. Məgər Çin padşahı Taryunun qızın oğluna nişan qoymağə gəlür idi və töhfələr gətürür idi. Seyyid anı görüb ol tərəfə vardı. Adamların qırıb və malların alub, dağa gəldi. Taryuna xəbər oldı, dərhal min kişi ilə nərə urdu ki, təmam sərasimə oldılar. Ol min kişi sındurub və Taryunu dutub yenə ol dağa çıqdı. Özü öz adın Şəmran qoydu. Yolu kəsüb durdı. Taryun xəbər alub oğlu üçün yas dutdı. Tez əlli min kişi göndərdi və Mahiyara qoşdı gəldilər dağa girdilər, döşünə yayılan kibi Seyyidi axtardılar. Ol saətdə Seyyid çıqub gəldi bir nərə urdu ki, mənəm Şəmran deyüb əlli min kişini tari-

mar eylədi. Mahiyarı öldürdü, qalanı qaçdılar. Taryun alub özü atına minüb, əlli min ər qabaqca göndərüb, özü də rəvanə olmuşdı.

O tərəfdən Seyyid Taryunun oğlunu bağlayıb qoydı özü, tışra çıqdı. Abdəst alub, namaz qıldı. Elə kim Seyyid namaza durarkən onlardan iki yüz igidlər Seyyidün üstə çıqdılar. Dərhal kəmənd atub, [69] Seyyidi dutub bağladılar. Seyyid dutulmağa razı oldı, namaz içində əqidəsin yüzmədi. Və Taryuna xəbər oldı atı sürüb Seyyidin üstə gəldi, tez əlin ayağın dəmirlədilər, oğlı ilə malları alıb şəhərə gəldilər. Taryun təxtə keçüb oturdı. Seyyidi gətürdilər ki, öldürələr, bir kişi Seyyidi bildi, didi: - Şaha, bu kişi Şəmran degil, Seyyiddür. Taryun anı eşidüb, Seyyidə didi: - Doğru söylə səni öldürmənəm. Seyyid didi: «Kattalam, Battalam». Taryun sevindi tez zindanə qoyub Qeysərə namə yazdılar kim, Battalı dutdum və naməni bir bəgə verüb Qeysər canibinə rəvanə qıldılar.

Çün Musa ibin Cudə zindandə Seyyidi gördi didi: - Ey pəhləvan, bizim umidimiz sən idün. Bizim səbəbimizdən sən dəxi bu halə düşdün. Aya, bizim halımız necə olur deyüb, ağladı. Seyyid didi: - Ya Musa, bən munun kibi, çoq görmüşəm. Görəlüm. Haqq-təalanı neylər ol qazilər gəlüb Seyyidin ayağınə düşdülər, bunlar bu hallə qalmaqda.

Bu tərəfdən namə Qeysərə yetişdü, vəzirlər naməni alub, oxudular. Qeysər şad olub o bəgə çoq mal verdi. Həmən saət buyurdu, Taryunə namə yazdılar kim, «namə yetişən kibi, Battalı oradə oda yaqub bir ovuc külündən bana göndər, gözümə [70] çəkim. Andan sonra ata minüm nə xəlifəni qoyum, və nə islam vilayətlərin. Təmam xərab edim». Bəgə naməni təslim edib, göndərdi.

Bu canibdə Seyyid Battal ki zindanə qoyuldu dört yüz müvəkkil də qoydılar kim, saxlasunlar.

Bir gün Seyyid yaranlara söylədilər kim, siz ğəm çəkməyin, mən cənab peyğəmbəri düşümdə gördüm bana didi: «Sən vilayəti müsəlman edüb, kilsələrin yıxub, yerinə məs-

cidlər tikəcəksən».

Çün Seyyidə Haqq-təala avaz vermişdir. Hər kəs Quran okuyanda Seyyidün avazın eşidsə bihuş olurdu və başladı bir neçə ayə Quran oxumağa, anda olan yaranlar cəm olub ağlamağa başlayırlar, ol müvəkkillər anı görüb, varub Taryunə xəbər verdilər kim, ol kişinin heç ölmündən qorqusu yoq. Şeiri oxuyur öylə kim, hər kəs səsin eşidür, bihuş olur.

Bir həftə bunun üzərindən keçdi. Çün Təryunun bir qızı var idi Güləndam adlı. Çoq xub rəva idi.

Bir gün səray damınə çıqub təfrih edirkən Seyyidün avazın eşidüb, ğayətdə buna xoş gəldi. Dayəsinə didi: - Ay dayə, bu səsin sahibi kimdür. Dayə didi: - Ol Battaldur kim, atan dutub zindanə qoyub. Bu anın avazıdur. Qız didi: - Ay canım dayə, bir gəz anın yüzün görsəm nə olur? Buyurdu, tez təamlar hazır edüb zindanə gəldilər. [70[a]] Zindançılara qarşu gəlüb didi: - Qapunu açın, əsirlərə təam gətürmüşəm və həm Battalı görüm necə kişüdür. Qapunı açdırub, içəri girdilər. Seyyidə nəzər edüb gördi bir xub cəmal kimsədür kim, heç sormuş olə şad-həzəran canı dildən aşiq oldı.

Seyyidə səlam verib və təam gətürüb, Seyyidün önündə qoydu. Seyyid təamdan yeyüb toydu. Qız didi: - Ya igid, sən Battalmısan?

Seyyid didi: - Bənəm.

Qız didi: - Gəl mənim dinimə gir, səni bu zindandan xilas edim. Babamdan səni alum, məbadə səni öldürələr.

Seyyid didi: - Nə dersən, əsla bu sözü söyləmə kim, mənim qulağıma girməz. Qız andan durub babası yanına gəlüb didi: - Ey baba, sən onun kibi igidi neçün zindanə qoydun, dinə dəvət eyləmədin? Anın kibi igid sana arxa olursa, yaman olurdı? Atası didi: - Ay cigər guşəm, ol çoq kitablar oquyubdur, ol bizə boyun əgməz. Qız didi: - Əgər bən onu zindandan çıqarsam necədür? Taryun didi: «Bən səni ona verərüm».

Ol gün keçdi. Sabahdan zindanə vardı, məclis qurub, oturdı didi: - Ay Battal, gəl sən mənim dinimə gir, atamdan səni diləyim, məni al, həm də atamın səraləşkəri ol. Seyyid didi: - Çoq söyləmə ol mümkün degil. [71] Qız durub gəldi, əlin Seyyidin boynunə saldı. Seyyid fəryad edüb qoymadı, didi: - Məni murdar eylədin. Seyyid didi: - Sən gəl müsəlman ol, andan sonra əlini boynuma sal. Qız didi: - Mənim dinim sənin dinindən yaxşıdur. Bəndən niyə qaçırsan. Seyyid didi: - Din Muhamməd dinüdür. Muhamməd dini varsa, özgə dini nəyə gərəkdür. Qız didi: - İsbat eylə kim, sənin dinin haqdur, bən dəxi inanum. Seyyid didi: - Nə istəyirsən? Qız didi: - Tanrıdan nəsnə istə qayibdən gəlsün, taki mən onı yeyəlüm, sonra müsəlman olarum. Seyyid didi: - Xoş olə və Seyyid yüzün Həzrətə dutub didi: «İllahı, məni bu qız yanındə şərməndə etməyüb, bunun muradın verəsən». Allaha yalvardı, Haqq-təalanın qüdrətindən zindan divarı yarıldı bir süfrə çıqdı, içində bir çanaq aş və bir çörək. Seyyidün önündə qoyuldu. Elə kim təamın qoqusu, zindan əhlinin dəmağın dutdı. Seyyid əl urub təamdan yedi. Qızə didi: - Ye. Qız anın qoqusundan heyran oldı. Seyyid zindan əhlinə ol təamdan uluşdurdı. Andan süfrə yenə getdi. Qız anı [71a] görüb heyran olub, durub getdi. Seyyid zindanda qaldı. Seyyid nəzər edüb, bir dəmir gördü. Təpərtdi gördü ki, bir külüngdür, qazub çıqartdı. Həman külüng iylə ayağının dəmirlərini yüzdi. Yaranlara didi kim, cəmi dəxi ğəm çəkməyün, Haqq-təala bizə xilaslıq verdi. Andan zindanın qazub tışra çıqdılar. Bir ipi alub səray daminə qalqdı kəmənd ilə aşağə enüb bir pəncərəyə rast oldı. Baxub gördü qız təxt üstündə yatur. Bir azdan qızun yanına gəlüb, gördü bir hüsn-camal ki, ayə bənzər, heç kim görməmiş bir qədər təğafil edirdi. O haldə qız vaqeəsində peyğəmbəri gördi, didi: Ya Güləndam, mən səni Battalə verdim və Seyyiddən bir oğlan olacakdır adı Bəşir olə, tez imdi imanə gəl və ol dəxi başının ucundadır yeri. Nagah qız oyanub Seyyidi başı ucunda gördü. Səddəqna (ə) Ya Rəsülu İllahi!

Deyüb, Seyyidün ayağınə düşdü, iman ərz qıldı, didi: - Zindancını çağurun gəlsün, çağurdılar gəldi. Güləndam ona altun verüb, dilini bağladılər. Bulardan əvvəl zindançı didi: - Ay bəglər, mən bu gecə Peyğəmbəri duşumda gördüm, müsəlman [72] oldum və qız dəxi şad olub öz halını ona bildürdi və zindançı Seyyidi görüb ayağınə düşdü, iman ərz qıldı. Tez durub zindana gəlüb yaranları çıxardılar və bir kafir var idi, Seyyid onu öldürüb öz surətində düzdü. Külahını başına qoydu və öz dəmirlərin anın ayağına urdı. Musa İbn Cudəni və ol piri aldı andan vardı. Qız didi: - Çünki bunları xilas etdün, bir məxvi yerdə qoy, kimsə bilməsin. Onları bir məxvi yerdə qoydular. Seyyid qız yanında qaldı. Eyşə məşğul oldular.

Çün sabah oldı, Seyyidi evdə qoyub, qız atası yanına gəldi. Gördü qeysərdən namə gəldi. Oqudular yazmış kim, «Battalı şəhər önündə oda yakasın, bir ovuc külündən bana göndərəsin». O halda qız didi: - Ey baba, mən eylə bilürəm ki, Battal diri degil. Taryun didi: - Bu nə sözdür dersən. Qız didi o gün bən zindanə vardum, Battal qayətdə xəstə idi. Ola kim ölübdür. Dərhal zindançı gəlüb fəryad eylədi didi: - Şaha, bu gecə zindanı dalub, əsirlər qaçmışlar. Taryun ayıdub buyurdu: - Zindançını [72a] oğul, uşaqları ilə oda yaqın. Güləndam irəli durub, didi: - Bir dəm səbr eyləyin, bir varub görüm, zindanı necə dəlmişlər.

Güləndam atası ilə zindanə vardılar. Qız qabaqca içərü girüb gördü kafir yatır, qalanı qaçmışlar. Atasına qarşu gəlüb didi: - Ya baba, nar-ı nur (İsa) sana yardum eyləmiş, Battal ölmüş, qalanı qaçmışlar. Taryun şad olub, didi: - Mənim məqsədim Battaldur. Qalanını neyləriz. Tez qeysərün əmrin yerinə gətürdilər. Taryun buyurdı, şəhərün ortasında odun yıqub bir böyük od yandurub ol kafiri gətürüb Battal deyyüb oda yaqdılar və külün də qeysərə göndərdilər.

Çünki ol kafirin külü qeysərə yetişdi. Qeysər Battalın külüdür deyüb, alub yüzünə gözünə sürtdi. Andan tamam

Rumda şadluq eylədilər.

Battalı Taryun oda yakdı deyyü, bu xəbər Malatiyaya yetüşdi. Yaranlar fəryad edüb ağlaşdılar. Yeddi gün Seyyid üçün təhəccür dutub, cümlə qara geydilər. Seyyidün iki oğlu var idi, qara geydilər və Zeynəb xatun dəxi eşidüb, şivən etdi. Təmam islam vilayəti matəm dutdular və dəxi xəlifəyə namə yazub göndərdilər. Xəlifə eşidüb təhəccür dutdı.

Hekayət edilir ki, digər [73] canibdə Qeysər Battaldan feyz olub, yetdi iqlimə namələr pərakəndə eylədilər. Cümlə dərya kibi vilayətlərin və bəglərin ləşkərlərin İslambula cəm eylədilər.

Malatiya bəgləri əhvalatı eşidüb xəlifəyə bildürdilər. Xəlifə dəxi tez namələri pərakəndə qılub qanda kim islam padşahı və pəhləvanları var idi cəm edüb gətirdüb didi: - Qeysər hansı canibə əzmi eyləsə biz də ana əzmi edüb, Allaha təvəkkül edüb yeriyəlüm. Xəlifə namələr göndərdi Yəmənə, Xəcaza, Türkistana, Çinə, Bulqara, Gürcüstana, İraqa və İsfana, Pirəyə, Tusa, Ciddəyə, Xorasana, Diyarı-Bəkrə, müsəlmanlar eşidüb fövc-fövc *(dəstə-dəstə - A.R.)* gəlməkdə oldular və Qeysər dəxi namələr göndərdi Firəngistanə, kilsə Rusa, Xətaya xətuna Səmərqəndə, Kəşmirə, hər vilayətdə nə qədər kafir varsa dəvət eylədi didi:

- Gəlin yer yüzində nə qədər Muhammədilər varsa gətürəlim təmam vilayətlərin xərab edəlüm, Məshin yüzün suyun yerinə gətürəlim. Ləşkər cəm eylədikim haqqını bir Allah bilür.

Bunlar bundə gəlməkdə, bu tərəfdə Seyyid kim Güləndam ilə qalmışdı. Belə qavil eyləmişdi ki, Güləndamdan dəstur olmayınca heç yerə getməyə. Bunun üzərinə bir yıl keçdi.

Bir gün Seyyid oturarkən ağladı. Gözləri yaş ilə doldu. Güləndam didi: - Niçün ağlarsan? [73[a]] Seyyid didi: - Niçün ağlamayım. Hər il Allah və Rəsullah üçün gəzalar edirəm. Əmhal bir yıl oldu kim, tışra çıqmadum. Güləndam didi: - Məlul olma, Qeysərdən atama namə gəlübdür ki, gəlsin də-

xi səni də göndərim. Bu şərt ilə kim, məni sən unutmayasan. Məbadəki məni unudasan. Seyyid qəsəm etdi ki, mən səni unutmanam və bir bazubəndi var idi, dört qiymətli gövhər olan. Onı Güləndama verüb didi: - Əgər oğlan olsa bazubəndi qolunə bağlıyarsan, adın Bəşir qoyarsan. Əgər qız olsa, boynuna asarsan, adın nə istəyirsən qoyarsan.

Taryun ləşkərin cəm edüb, əzm-i Qeysər etdi.

Sabahdan Güləndam Seyyidün atın, donun və iraqın hazır eylədi. Seyyid halallaşub bir gün bir gecə yol getdi.

Bir yerə yetüşüb gördü ki, yüz minə qədər ləşkər qonmuş. Bir kişidən xəbər aldı ki, bu nə ləşkərdür və nə yerə gedirlər. Ol kişi didi: - Qonstantin Qeysərdür, Malatiyaya gedir. İstəyirlər kim, ta Kəbəyə kimi xərab edələr. Andan keçib getdi və bir vilayətə rast gəldi gördü ki, Qeysər oğlu Şəmun hesabsız ləşkər ilə qonmuş, birisindən xəbər sordu ki, bu nə ləşkərdir, didi: «Şəmunundur, atasına gedir. Battalı Taryun Xarcında *(Amasiyada - A.R)* oda yaqdı, təmam Rum ləşkəri ittifaq edübdurlar ki, cümlə müsəlman [74] vilayətlərin xərab edələr».

Seyyid didi: - Tez müsəlman ol, yoxsə sən bilürsən. Ləyin hərzə didi. Seyyid boğazından dutub saqqalın bir-bir yoldu, burnun kəsüb, əlinə verdi, didi: - Tez var, Şəmunə söylə ki, Seyyidün öldüginə şad oldun. Biz üç yüz altımış kişiyuq. Qaf dağından gəlüb, Qeysərin qəsdinə gedirük, hər birimüz bir Battal, dərhal hazır olun.

Və o kişi gəlüb bu cavabı Şəmuna xəbər verdi. Şəmunun rəngi qaçdı buyurdu, tez andan köçdülər. Atası yanına gəlüb bu xəbəri söylədi. Qeysər dəxi ğayətdə məlul oldı. Ərkani dövlət didi: - Şaha sənin babalarının zamanında Abdulmalik padşah dilədi. Cümlə kəffar müttəfiq olub, diyari islam ləşkəri ilə getdilər. Ol vilayətləri xərab edə bilmədilər. İmdi sən gəl bu hərəkəti tərk eylə. Qəbul edəmədi nə qədər imha eylədi, çarə olmadı, yenə təkrar ləşkər cəm eylədi. O qədər ləşkər cəm oldı ki, «hər birin hesablayın» Qeysər buyurdu. Ləşkəri yazdılar, yüz kərə yüz min ləşkər qələmə

gəldi. Qırq göylük yol gəlmişlərdi. Sərcayıl Ağarib, Qalun, Kalkan, Halut, Əntaq Xaluq, Tatar Merti, Nəsr Həmədani, Kilab Rumi, bunlar hər biri, bir iqlim padşahları idi. Çün ləşkər o yerdən ki, köçdü, Seyyid [74a] Aşqara siyah rəng verib zurini dəxi hindivar edib rəvanə oldı.

Bir yerə yetişüb gördü ki, bələd ləşkər düşmüş. Seyyid nəzər edüb, gördi ki, böyük ağac var. Gəlüb həman ağacun dibində düşdü və dəstəmaz alub namazın qıldı. O halda Taryunun oğlu evdə imiş, bir dəstə qullar ilə gəlüb gördü bir hündür igid, xoş cavan əgləşmiş, didi:

- Kimsən?

Seyyid didi: - Zəngibardan gəlürəm, eşitdüm ki, Qeysər ləşkər ilə islam diyarına varur. Bən dəxi gəldüm ki, Qeysərə xidmət eyləyim. Yaxşı görsə xidmət edərəm, amma yoxsa, özgə tərəfə dəxi gedərəm. Və ol didi: - Mənim adım Qasuradır. Taryunun oğluyam, atam Battalı oda yakdı, eyni zamanda qeysər dayımdır. Əgər mənim yanımda durarsan səni xoşca dutaram. Dərhal Seyyid atına minib Qasuranın gürzün əlindən aldı. Başı üzrə qırq kərə çevirdi atdı və yayın alub, elə çəkdi ki, parə-parə eylədi. Atın sürüb rəvanə oldı didi: «Rumda igid yox imiş. Bunlar igid qədrin nə bilürlər». Gedirkən Qasura qullarına didi: - Qoymayın!

Qullar Seyyidə həmlə eylədilər. Qullardan əllisini öldürdi. Qalanın tarmar eylədi. Seyyid dəxi İslambul yolun dutub rəvanə oldı. Baxub gördü cümlə yüzin [75] ləşkər dutub, Seyyid əcabə qaldı. Bir dağə vardı. Dağ içində bir çeşmə gördü və bir mağara tapdı. Atın anda qoydu, bir səqqa surətinə girdi və bir danə qızıl cam əlində ləşkər içinə girüb səqqa kibi su paylamağa başladı. Gündüz bəglərin və pəhləvanların yerlərin nişan edirdi. Gecə ki olurdı, gəlüb başların kəsiridi. Sabah olanda başsız adamları görürdülər və bir gecə on padşah və pəhləvanların öldürdi.

Qeysər bu hala aciz qaldı. Taryuna didi: - Necə eyləyüm, hənuz islam diyarinə varmamış, bu halə uğradıq. Bana bir çarə edün, didi. Vardılar, ittifaq edüb, məsləhət gör-

dülər kim, ləşkərdə nə qədər adam var isə bir-birinə zamınə verələr. Çün hünər adamı bir-birinə zamınə verdilər. Ancaq bir Seyyid qaldı. Kimsə ona zamın olmadı. Dutub qeysərə gətürdilər didilər: - Şaha, bu kişiyə kimsə zamın olmadı. Qeysər gördi kim, bir siyah zəngi nəfis tonlar geymiş başında bir küllah əmamiyə bənzər. Səqqa altı üstü eylədü kim, görən yüz illik səqqa sanar. Seyyid irəli durub, Qeysərə düa eylədi. Bəglərə [75a] su payladı və dəxi didi kim, Xudavənda, qırq ildür ki, sənin ləşkərində nar-ı nur (İsa) eşqinə su paylaram. İmdi bəndən zamin-səmin istəyirlər. Qeysər didi: - Bən sana zamınəm var, git. Düa edüb çıqub getdi.

Ol gecə yüz on kişi başsız buldılar, sabahı Hindistan padşahı yüz min ər ilə yetişdü və yanında iki qarındaşı var idi. Biri Sihrab və biri İhrab yüz cəngəllü fili var idi. Qeysər xəbər alub özü qarşu varub görüşdü, böyük iltifat etdi.

Seyyid o gecə iki yüz adlu bəllü pəhləvanları və bəgləri öldürdi. Qeysər bu xəbəri eşidüb ğayyətdə məlul oldı. Bəglərin cəm edüb didi: - Görün, Məhəmmədlilər əlindən nə çəkirəm? Cigərim necə qan oldı bu qədər hesabsız ləşkər cəmlədim. Hənuz diyarı islama varmamış, muncalın bəglər və pəhləvanlar öldürdülər. Bana belə işləri kim eylədi. Əcəbdür kim, bizim dinimiz yaramaz işə deyüb, ağladı. Bəglər didilər: - Şaha, niçün belə ğəm və xəl çəkirsən. Bizim qorqumuz Battal idi, indi Battal öldü və dəxi [76] kimdən ğəm çəkərük. Buyur, köçəlüm dünyanı Məhəmmədilərə dar edəlüm.

Qeysər buyurdı, ləşkər köçdülər. Qeysərin taxtın bir fil üzərində bağladılar, çətr həmalun könlin duddular. Qeysər qızıl altun təxt üzərində oturdu. Xaç pəkir ələmləri götürdülər. Yeddi yüz cənkçi fillər yanınca Qeysərün ləşkəri gəldi. Qabaqından keçdi. Bəglərün hər birinə istiqamət edirdi. Qeysər at üstündə nəzər edirdi. Bu ləşkər fuç-fuç gəldikcə bir-birinə derlər idi: Xudavəndi, bunun kibi yetüblü padşah olmadı və belə əzəməti heç bir padşah toplamadı dəxi kimə nişan verمədi.

Bu tərəfdən Yəhya bin Mənsur, mömünlərün cəsusu idi. Gəlüb bu əzəməti görüb tez müsəlmanlara xəbər gətirdi. Bu işi eşitdilər, Əmir ağladı didi: - diriğa ola kim, Battal bu halətdə sağ olaydı. Yəhya didi: - Yaranlar, sizə bir əcəb xəbər verim. Qeysərün ləşkərində hər gecə əlli altımış adlu bəllü bəgləri öldürürlər, amma bilməzlər kim öldürür. Bir gecə bunun heybətindən özləri ləşkərdə yata bilməzlərdi. Hər gecə yatub sabah görürlər ki, yüz adam iki yüz adam və iki yüz addı bəlli bəglərdən və pəhləvanlardan başsız [76[a]], təprənə bilməzlər. Hər nə ilə məlum olmaz. Bu xəbərdən müsəlmanlar şad oldılar və didilər: - Haqq-təalanın inayəti ola kim, ol kafirlər həlak olalar.

Əmir buyurdu kim, köçüb dağlara, daşlara getdilər və Xəlifəyə gögərçin uçurdılar. Xəlifəyə dəxi doqquz yüz min ər cəm eylədi. İstiqamət verdi, didi: - Din yolunda ğeyrət üçün savaş edün ölursuz, şəhid olursuz, öldürürsüz, qazi, didi. Cümləsi təvəkkül Allaha edüb, rəvanə oldular. Köçüb Malatiya gəldilər. Əmir Vəhğədə Abdüssələm, Qasım, Mənsur Əli bin, Haşım, Nəsr Həbbab, Əhməd Tarran, Yəhya bin Mətihi, Muhamməd bin Fallah, Rəbi, Əli, Həsən, Əfləhun, Təvabil, Rumi Cudə dört oğlı ilə Seyyidün iki oğlu bunlar dəxi əlli min müsəlman Xəlifəyə qarşu vardılar. Seyyidün yaranları cümləsi siyah geymişlərdi. Xəlifə çün Seyyidün oğlanların görüb ağladı. Ol ləşkər cümləsi Seyyid üçün ağladılar. Andan sonra Xəlifənin həmləsinə dilavizliq eylədi. Gəlüb oturdular.

Əmir Xəlifəyə qonaqlıq eylədi. Xəlifə dəxi Seyyidün oğlanlarına pək xələt geydürdi. Yas donların çıqardılar və öz əmmaməsin Əmirə verdi və dəxi Əmirəlimömin Əlinin sancağın [77] verdi. Müqəddəm sərləşkər olasan, didi. Andan sonra üzərində bir aq filin təxt bağladılar, üstə həmayun köynək dutdılar. İmdi bu tərəfdə Seyyid saqqal surətində çoq adamları cəhənnəmə göndərdi.

Bir gün Qeysər bəzm qurdu. Nə qədər bəgləri varsa cümləsi laflar urub, didilər: Muhammədiləri belə edək,

dünya yüzündə biri qalmıya deyib, eyşə məşğul oldılar.

Nagah islam ləşkəri gəldi deyüb, xəbər verdilər. Qeysər buyurdu, beş kişi çağırdılar. Biri Akratis ləyin, biri Əliqan Kəbiri, biri Qalut, biri Talut. Bunlara iki yüz bin kişi verdi. Qonstantini Qeysərün oğlunı bunlara sərdar etdi. İki yüz min ər qoşdu. Siz irəli gedün nə yerə gəldilərsə xəbər gətürün deyüb göndərdi. Gəlüb bir yerə düşdülər. Məşvərət eylədilər kim bir kişi olsaydı Məhəmmədlərə cəsus eylərdik. Məgər Seyyid ondə hazır idi, didi: - Şaha buyursaz, bən varalım. Yaxşı dur var, deyüb, qul eylədilər.

Seyyid varub, bir xəlvət yerdə yatdı. Ta kim gecənün bir parası oldı, durub Kapusun çadırina gəldi gördü sərxoş yatur. Oyandı, Seyyidi gördü, istədi ki, çağura, dərhal Seyyid ağzın dəsmal ilə dutdı. Əlin [77a] bağladı, aldı getdi. Aparub bir yerdə ağacə saruyub, qoydu, yenə döndü. Qonstantinin çadırina gəldi gördü məst şərabə məşğul olmuş. Seyyid o yerə yeriyüb didi: - Məni Qapus sənə göndərdi. Didi: - Kim Məhəmmədiləri buldım, tez şahzadəyə gəlsün. Qonstantin buyurdı ki, tez ləşkər hazırlayın. Son gecə zamanı ləşkər başlu başınə atlandılar. Seyyid bir tərəfdən Kapusu ləşkərinə çağurdı ki: - Nə ğafil yatursuz ləşkər gəlüb yetüşdi. Ləşkər bir-birinə toqundı.

Seyyid yenə nərə urub didi kim, mənəm Abdüssələm. Ləşkər anı eşidüb, bir-birin qırmağa başladı. Sabah olunca kafirlər bir-birin qırdılar, dəmbədəm Seyyid pəhləvanların adın yad edüb, nərə urdı. Bir kəz dəxi çağurdı kim, nazənin Kapus ölü verdi deyüb, Qalunun yanına gəldi. Qalun didi: - Kapusu, kim öldürdü? Seyyid didi: - Bən öldürdim. Qalun, Seyyidə həmlə eylədi. Seyyid qaçdı. Ləşkərdən cida oldı gedirkən, döndi. Qaluna bir zərbə urdı, atdan yıxub, qolunu bağladı. Kapusu yanına gəldi. Qapusı dəxi ağacdan asdı. Əlin bağlayıb, alub getdi.

Şəmas diyarına yetişdi. Qapını dögüb çağırdı. Şəmas [78] Seyyidi avazından tanıyub tez gəldi, qapunı açdı, Seyyid ilə görüşdi. Şəmas didi: - Ya Xudavənda, Taryun sizi

oda yaqdı, didilər. Cəmi yaranlar qara geydilər. Əlhəmdülillah kim sağ imişsən. Seyyid didi: - Kimsəyə demə və Şəmasın evində bir böyük quyu var idi, həman iki kafiri ol quyuya qoyub, Seyyidə yemək gətürdi. Yeyüb Seyyid yenə atına minüb rəvanə oldı.

Şəmun ləşkərinə gəldi. Gördi kim, yüz min kişi ilə oturmuş Şəmunun çadrına gəlüb fəryad eylədi, didi: - Qalun, Qapus ləşkər içində nabud oldılar. Biləməzlər kim, nə haldır. Şəmun anı eşidüb çadır önünə gəldi. Bir pəhləvanı var idi. Almas nam, anı Şəmun çağırub didi: - Biz ikimiz ata minüb anları bir axtaralum. İkisi də ata süvar olub aşağa yuxarı gəzdilər. Bir iş zühur olmadı. Şəmun Alması bir canibə göndərdi. Özü şaha gəldı. Seyyid didi: - Şaha, gəl ikimiz ol yerə gedəlüm. Şayəd Məhəmmədilərdən adam tapub, intiqam alalum. Şəmunu alub, ol yerə getdi. Seyyid tez çevik Şəmunun atının çəliyin dutdı. Şəmun ay kişi, neylərsən? - deyincə, Seyyid köksundən bir [78a] yumruq urdı. Məallaq yıxıldı. Əlin arxasına bağlayub, Şəmas diyarına gətürdi. Anı dəxi quyuya qoyub tez gəldi.

Bu tərəfdə, Qonstantin Qeysər oğlu o əzəmətli ləşkərlə əksli bir-birin qırdılar. Çoq kafir qırıldı. Çün sabah oldı, gördülər Məhəmmədilərdən kimsə yoqdur. Ancaq bir-birin qırmışlar. Bu işə məlul pərişan oldılar. Bu halətdə Qonstantin oturmuşdu. Seyyid gəlüb didi: - Şəha, Qeysər buyurdu ki, Qalun və Qapus bizdən yüz döndərdi. Zinhar qafil olmasun. Qonstantin bunu eşidcəg, çoq məlul oldı. Bir at çəkdilər, mindi. Seyyid neçə qullar ilə ləşkərdən iraq getdilər. Seyyid gördü ki, ləşkərdən bunlara imdad olmaz. Bir söz ortaya saldı ğovğa edüb qılınc çəküb, qulları qırdı. Qonstantin dutdı bağladı. Şəmas diyarinə gətürüb, ol quyuya saldı, yenə dönüb gerü vardı.

Seyyid gedürkən Akratisə uğradı. Gördü ki, iki yüz min kişi ilə yola düşmüş. Xəbər aldı ki, bu nə ləşkərdür. Bunun sərdarı kimdür? Bunu apardılar Qəratasın yanınə. Akratis didi: - Sən kimsən ki, məndən xəbər sorursan. Sey-

yid didi: - Bən Qeysərin quluyam, adım Akuşdur. Akratis didi: - Ləşkərin sərdarıları bəllüsüz oldı. Bilmərüz necə haldur və Qeysərə nə cavab verəcəgəm. İmdi deyərəm Muhammədilərə şəbxun qlım. [79] Seyyid didi: - Sən ləşkərün iki baxış ilə andan adam göndər. Məbadə ki, bir ələm yetüşməyə. Qara Akratis didi ki, imdi cəsus hər kim, varsun? Seyyid didi: - Bən varalum sana onlarun xəbərün gətürəlüm. Bən bunun kibi işləri çoq görmüşəm. Bu yerlərdə çoq gəzmişəm və Qeysər məni bu iş üçün buraya göndərübdür. Seyyid dəxi Akratis anda qoydu, özü rəvan oldı. Yatsı zamanı keçmiş, Seyyid gerü gəldi didi: - Nə oturursuz, vardım müsəlmanları görüm hənuz Malatiyada otururlar. Ata dağının o yanında otuz min adam ilə Əhməd Tarran və Abdülvəhhab bir neçə pəhləvanlar ilə oturmuş ləşkəri iki baxış ilə. Üstlərinə varalum didi. Akratis tez buyurdu: Ata mindilər, iki yüz min kişini dəstə eylədi. Bu halda Taryun və oğlu Kasura çıqub gəldilər. Əhvalı bildilər. Təryun və oğlu didilər: - Biz varaq Seyyid didi Akratis şaha sən mundə dur gəl. Bən Taryunun oğlu ilə varım. Sana yenə tez xəbər gətürüm.

Seyyid Təryun oğlun qırq bin ər ilə alub rəvanə oldı. Bir az getdilər. Seyyid didi: - Xudavənda, onlara yaxun gəldük. Ləşkər burada dursun, oğlun ilə gəl varub, o ləşkəri sizə göstərim. Andan sonra necə bilürsiz elə edəlüm. [79[a]] Təryun Seyyidün sözün qəbul eylədi, ləşkəri anda qoyub, özü irəli vardılar. Çün elə ki, ləşkərdən cida oldular, Seyyid gəlüb, ikisinində kəmərindən tutub hey neyləyirsən? - deyincə atlarından götürüb, yerə urdı. İkisinində əllərin dallarına bağladı. Təryun didi: - Sən kimsən ki, bizə bu işi eylərsün? Seyyid didi: - Bən ol kişiyəm ki, sən bəni oda yakdun və külümi Qeysərə göndərdin. Məhəmmədin tanrısı yenə məni diriltdi. Ol qədər bəglərün cümləsini ləşkərinizdə öldürən bən idim. Taryun sərsamləyib, əqli başından getdi.

Seyyid onları oradə bir ağaca saruyub qoydu. Akratis yanınə gəldi, didi: - Taryun sizdən imdad istədi. Müsəlman-

lar çoq. Təryunı ortaya aldı. Ləşkərdən yüz bin adam gətürüb getdilər. Bunları bir yerdə qoydı. Seyyid didi: - Siz bir qədər gerü gəlün bən irəlü gedüm. Yenə sizə xəbər ilə gələrüm. Amma siz hazır olun deyüb getdi və tez gəldi. - Atlanun, deyüb Akratisi alub, Taryunun ləşkəri tərəfə yerüdi. Yetişüb, didi: «Görürsünüzmi necə dururlar. İmdi qatildür, geri qoymayun bunları. Qılıncları çəküb at saldılar. Seyyid tez Təryun ləşkərinə gəldi, [80] didi: - Nə durursuz? Budur, Məhəmmədilər yetüşdi. Bunlar da əl qılınca atub, bu gələn ləşkərə həmlə qıldılar. Seyyid qabaqlarından bir tərəfə çıqdı. Qaranluq gecədə bu iki dərya kibi ləşkər, bir-birinə qarışub elə qırğın eylədi ki, vəsfə gəlməz. Seyyid Akratisin geridə qalan ləşkərində ki, yüz bin ər var idi, yetişüb, didi kim, «nə qafisiniz? Durun, Akratisi arayə almışlar, tez yetişün. Ol ləşkəri də götürüb bir tərəfdən həvalə verdi. Özü ləşkərün sağından solundan nərə urub didi ki, mənəm Əhməd Tarran və bir tərəfdən, didi: - Mənəm Təvabil Rumi, mənəm Abdülvəhhab, deyüb çıxdı. Özü iraqdan tamaşa eylədi. Ləşkər o qədər bir-birin qırdılar ki, qan su kibi axdı. Yetmiş bin kafir həlak oldı. Çün sabah oldı gördilər aralarında heç yabancı yox, ancaq bir-birlərin qırmışlar. Akratis ah, eylədi. Taryunı öz oğlu ilə axtardılar tapmadılar. Heyrət etdilər didilər: «Aquşu tapun. Bizə hər nə eylədisə, ol eylədi». Axdardılar tapamadılar. Tez qeysərə namə yazdılar ki, ləşkər içində Təryun, Kasura, Şəmun, Qətzin, Qalun, [80[a]] Qapus kibi altı bəglər nabud oldı. Bilmənuq öldülərmi və ya diridürlər. Və gecə olan hekayəti, təfsili ilə Qeysərə bildirdilər. Yazdı ki, ya bənə kömək göndər və ya bən o yana gəlürəm.

Bu tərəfdən Seyyid ki, o yerdən döndü, gəlüb Təryunu oğlu ilə alub Şəmas diyarınə gətirüb ol quyuyə qoydu və Şəmas ilə vida edüb, rəvanə oldı. Buyurdı Malatiya gəldi. Sabah vəqtı idi, şəhərə qarşu bir təpə yerə çıqub bilənd avaz ilə azan oxudu. Seyyidün avazını şəhər xəlqi eşidüb, şəhərə ğəlğələ düşdü. Tuapıl Seyyidün ayağinə düşdi, didi: -

Ya Xudavənda, sən qandasan, bizim cigərimizi para-para eylədün. Seyyid heç dinmədi. Təvabil başını qaldırıb Seyyidün yüzünə baxdı gördü kim, qəddü-qaməti Seyyidə bənzər, üzü siyahdur. Bir də drüst nəzər edüb ağladı. Seyyid didi: - Mənim yanıma gəldün niçün ağlarsan? Təvabil didi: - Barı sən söylə kim, nə kişisən? Seyyid didi: - Bən Cınliyəm, Qaf qağından gəlürəm. [81] Müsəlmanam. Bizlər eşidduk qeysər ləyin yeddi iqlimin ləşkəri ilə əzmi diyari islam eyləmiş, biz dəxi üç yüz altmış Cinliyüq, gəldük mömünlərə kömək etməgə. Sən nədən bizi göründə ağlarsan və yenə qara geymisən səbəb nədür? Təvabil didi: - Ya sərdar, bizim bir sultanımız var idi, ğayətdə pəhləvan idi. Kafiristanda Təryun onu dutub oda salubdur. Anın içün bizlər belə yüzülürüz qəddi-qamətiniz ol sərvərə bənzər. Amma ol ağ idi. Siz siyah çöhrəsüz. Seyyid didi: - Hər kim andan tərəf olursa yerində olur. Siz dəxi din yolunda mərdanə olun. Qeysər ləşkəri bihesabdur. Siz azsınız hanı xəlifəniz Təvabil, didi. Xəlifə dəxi gəlüb Seyyidi alub şəhərə gətürdi. Hər kim iraqdan görürdi. Gəlüb ayağina düşürdi. Eylə ki, yüzinə baxırdı, görürdi siyah çöhrədir. Cümlə yaranlar gəlüb Seyyidün qamətin görüb heyran qaldılar.

Andan Əmir irəli keçüb İmamluq eylədi. Sabah namazın qıldılar. Namazdan fariq olcaq bir cəsus gəlüb didi: - Filan yerdə [81a] yetmiş min kafir qırılmış, aralarında bir müsəlman yoqdur. Bilməzlər kim, nə haldur. Seyyid didi: «Anları çin qırdı» və atına rəvanə oldı. Müsəlmanlar şad oldular kim, Əlhəmdüllah çinlilərdən bizə mədəd verildi. Bu hekayəti Xəlifəyə bildirdülər. Andan sonra ata minüb ol yerə gəlüb qırılan kafir ləşkərini görüb, şad oldular.

Bu tərəfdən Akratis Qeysərə namə yazdı. Yetişüb oxudular, məlul oldular. Bəglərin cəm edüb hekayyəti bunlara bildürdi. Şah Mazandaran yerindən durub zirehini geyib didi: - Şaha, sən buradə otur, bən qulun bəglər ilə varum. Malatiyanı zirüzəbr edim. Qeysər üç yüz min ləşkər üç yüz adlu bəllü pəhləvanlar verüb göndərdi.

Bu tərəfdən müsəlmanlar dəxi min ləşkər ilə ol kafirlər qırıldığı yerdə durmuşdular. Nagah qarşudan toz oldı. Ol kafirlər ləşkəri, çıqub gəldi. Üç yüz min ər cümləsi əmirə qərq olmuşlar.

Müsəlmanlar anı görüb, səf bağladılar. Onlar dəxi alay yığub qarşu durdular. İki tərəfdən nəzər eylədilər kim, meydana kim girür. Müsəlmanlardan İbrahim nam igid meydana girdi, ər [82] dilədi. Kafir Aliqan görüb didi: - Ey bi həyalar, sizün sərvərinizi biz oda yaqdıq. Genə yüzün bərk edüb, bu qədər ləşkərə qarşu gəlürsiz. Qeysərün ləşkəri gəldi. İndi sizi yer üzündən götürər deyüb, həmlə eylədi. Növbət İbrahimə yetişdi. Bir qılınc eylə urdı ki, qalxanı para-para olub qılınc təpəsinə dəgib xiyar kibi iki paralandı.

Bir kafir də meydana girdi, ona da bir qılınc urdu, iki para oldı. Filcümlə *(xülasə - A.R)*, yeddi kafiri düzəxə *(cəhənnəmə - A.R)* göndərdi. Akratis acıqlanub özü meydana girdi. İbrahimi bərabər dutdı paydar *(daimi - A.R)* olmadı. İbrahim şəhid oldı. Ol kafir qırq müsəlmanı şəhid eylədi və kimisin məcruh yaralı vərdi.

Müsəlmanlarun taqəti qalmadı. Bir kəz çağırdı ki, mənəm Akratis, Qeysər kimi padşah gəlür, sizün halunuz necə olur. Dərhal Təvabil meydana at salub, bərabər durdı. Akratis didi: - Kimsən? Didi: - Təvabil Rumi. İkisi cəng eylədilər. On yeddi həmlə ortada xətaya keçdi, Akratıs ləyin acıqlanub, Təvabilin qurşağından dutdı. Qüvvət edüb, atından götürüb istədi ki, ələm [82[a]] apara, nagah bir nərə yetişdü ki, yerlər, göglər təprəndi. Neçələrinnaün bağrı çak oldu, didi: - Ey Ləyin, anı əldən qoy, hərifin mənəm. Müsəlmanlar şad olub, didilər: - Bu xud, Battaldur. Əmir didi: - Bu ol çinlidur kim, bizə kömədə gəldi. Çün Təvabil Seyyidün avazın eşidüb özündən getdi. Yüzünə nəzər eylədi gördü kim, ol Çinnidür kim, Malatiyada görmüşdi. Didi: - Ey pəhləvan, doğru söylə kim, nə kişisən? Səni görəndə dərdim ziyadə olur. Seyyid didi: - Bən Salun Çinliyəm, ləşkərim bu dağın arasındadur. Ğəzayə gəldük. Təvabil ah çəküb, islam

ləşkərinə gəldi. Cümləsi didi: - Bu Battaldur. Təvabil didi: - İmdi bən sordum didi Salun Çinliyəm, ləşkərim bu dağın ardındadur.

Bunlar bu sözdə ikən Akratis meydandan getmişdi. Ham adlu bir kafir meydana girdi. Seyyidə bərabər gəldi. Seyyid Hamı qurşağından dutub həvayə atdı. Atırkən tiği səxxakı urub iki para eylədi. Bir-birinin ardınca igirmi kafiri həlak eylədi, islam ləşkərindən şadlıqlar qopub təkpir avazı gögə çıqdı. Kəffar ləşkərinin üstə heybət düşdü. Seyyid meydana çağırub, ər dilədi. Kimsə meydana girmədi. Seyyid atından aşağa enüb atın qulanını bərk çəküb, [83] özüni ləşkərə verdi. Sağından girüb, solundan çıqdı. Hər tərəfə uğradısa tar-mar eylədi.

Müsəlmanlar dəxi anı görüb əlli min kişi sağından enüb kafiri qırdılar. Kafirin qanı sel kibi axdı, ta axşam olunca qatı cəng oldı.

Çün axşam araya gəldi, ləşkər bir-birindən ayrıldı. Seyyid atına minüb, sürüb ol dağa vardı. Müsəlmanlar anı görüb şad oldılar. Gəlüb düşdülər. Kəffar ləşkəri məlul olub boğuldılar, iki tərəfdən qaraullar qoyuldu.

Yarım gecədə Seyyid dağdan enüb, yerürdü ki, mənəm Şəmun, müsəlman oldum, İsanin dinindən döndüm, Muhamməd dininə girdim, Qonstantini öldürdüm, dəxi heç kafirə aman verməzəm deyüb, həmlə eylədilər. Seyyid dəxi ələmdarı öldürdi, ələm yıxılub, kafir ləşkəri sındı. Yüz qaçmağa qoydular. Əlli min kafir qılıncdan keçdi.

Müsəlmanlar şad olub, nə qədər ğənim malı var isə aldılar. Bir yerə cəm edüb ğazılara yetürdilər.

Bu tərəfdən Qonstantinin qulları gəlüb qeysərə xəbər verdilər kim, «Şaha! Şəmun [83a] müsəlman oldı. Oğlunu öldürdi və ləşkəri tar-mar eylədi». Çün qeysər anı eşidüb tacın yerə urdu. Təxtindən aşağa enüb, əqli başından getdi. Bəglər, vəzirlər qeysəri dutub, təxtə qoydular. Bir zaman keçdi əqli başına gəlmədi. Əlac eylədilər olmadı, didilər: «buna həkim gərək, əqlin yerinə gətürə». Məgər Seyyid an-

da hazır idi, didi: - Bən həkim. Tez Bərgah qapusuna gəldi. Seyyidi görüb içəri dəvət eylədilər didilər: - Padşahın əqlin gətür. Səni ulu qolalum. Seyyid qoltuqundan bir həqqə *(qab - A.R)* çıqartdı. İçindən bir az yağ çıqarub, qeysərun başına, yüzünə sürtdü didi: - Üstüni örtun, bir az yatsun.

Həkim deyən kimi eylədilər. Bir tövr *(müddət, zaman – A.R)* yatub, axır durdı. Gözün açub, əlin yüzünə sürtdi. Saçı-saqqalı tökülüb əlinə gəldi. Qaşı kiprigi əlinə gəldi. Bir qabağa döndü. Qeysər bu halı görüb didi: – Ey bəglər, bana nə oldı kim, belə oldum? Didilər: - Şaha, Qonstantin xəbərin eşidəndə bixud *(ixtiyarsız, özündə olmadan - A.R.)* oldun. Bir həkim gətürdilər. Əqlini yerinə gətürə. Dəxi bilməzlər kim, həkim sənə nə eylədi ki, belə oldun. Qeysər buyurdu: - Ol həkimi tez tapun, gəlsün. Adamlar pərakəndə oldu. [84] Axdardılar, tapulmadı. Dərhal Seyyid yeriyüb gəldi. Bir mürtədd həkim var idi, didi gəl sana bir yaxşıluq edim. - Didi: - necə? Seyyid didi: - Bir bədbəxt gəldi, qeysərə həkimluq edüb, yaxşı oldı. Ol qoyub getmiş, imdi qeysər istəyir ki, ona bihədd mal verə. Çoq gəzürlər tapulmaz. Səni aparum ol həkimi buldum deyüb, bu şərtlə kim hər nə ki versə, bənimlə qismət edəsən. Mürtəd həkim razı oldı. Seyyid mürtədi alub, qeysər yanına gəldi. Düa edüb didi: «Həkimi buldum». Qeysər həkimi irəli aparub yüzündən nüqabın götürdü. Hay xurdigə, *(günəş dikə çıxana qədər – A.R.)* tez dara çəkün. Mürtədi saqqalından dutub çəkə-çəkə tışra çıqardılar. Mürtəd nə qədər fəryad eylədi ki, - Hey, narinur (İsa) haqqı üçün mən degiləm, çarə olmadı. Mürtədi dara çəkdilər, andan sonra qeysərün saçı və saqqalı gəldi. Nüqabın götürüb, buyurdu ki, iraq edün sabah köçüb məsihin *(sürtülmüş, yağlanmış, xristianlar doğulmuş uşağın alnına çəkirlər – A.R.)* yüzü suyunu yerinə götürəlim. Bəglər laflar vurdılar. Qeysər bunların hər birinə dürlü xələtlər verdi.

Bu tərəfdən müsəlmanlar ol dağın ətəginə düşüb durdular. [84a] Didilər kim, bu fəth ol çinli igidün qədəmidür.

Cümləsi Seyyidə düa qıldılar. Yenə ol dağın ətəgində xəndək qazub, qapular açub məhalə *(kələk, fənd, hiylə – A.R.)* oldılar. Dəxi xəlifəyə adam göndərdilər didilər ki, tez gəlsün, Qeysər bizi aldı. Çün xəbər xəlifəyə yetüşdü tez buyurdu köçdülər.

Bunlar gəlməkdə bu tərəfdə müsəlmanlara xəbər gəldi kim, «Araqil Qeysər gəldi».

Günlərdə bir gün gördülər kim, gög yüzün toz dutdu. Nəqarələr və koslar avazı cahana düşmüş, kəffar ləşkəri alay-alay, fövc-fövc çıqub gəldi. Müsəlmanlar əlli min səf bağlayub durdular. Can-başların din uğruna qoydular, gördülər kim, ol rumi Təryunun qardaşı yüz min ər ilə çıqa gəldilər, səf bağladılar durdular anın ardınca Təryun və Mehran çıqub gəldi, yüz bin ər ilə. Andan sonra Süleyman Əntaqi çıqub gəldi yüz bin ər ilə. Andan sonra Əqrab Müştiran yüz min ər ilə yüz cift nəqarə ilə çıqub gəldi. Anın ardınca Süheyl, andan sonra qalan bəglər alaylar bağlayub durdular. Andan sonra on iki bin ər ilə on iki bin ələmxaçı və bin iki yüz altundan bayraqlar yəhərlü bədü atlu on iki cift nəqarə ilə qızıl altundan avazları aləmi tutdu və [85] bin beş yüz fil manusi *(başçı – A.R.)* və bər-bəzəklü fil üstündə bir gön qələ, içində oturmaqda.

Qeysər çıqub gəldi. Qeysər təpə üstə çıqub ol adlu, bəllü bəglər sağında, solunda durub. Qeysər ləşkərinə nəzər qoyulurdu. Gördü kim, müsəlmanlar dəxi arxaların bir dağə verib dururlar, təkpir və təhlil edürlər. Qeysər didi: - Ey bəglər, bu Məhəmmədilər necə biçarə, qorqusuz qövimdur. Mənim kibi sultanə qarşu dururlar. Əgər gecə fəthi olmasa idi, bunlarun işlərin təmam edərdim. Buyurdu, düşdülər dağ daş-biyaban ləşkər ilə doldu. Qeysərin təxtin qurub keçüb oturdular. O gecə sabah olunca yeyüb içdilər.

Çün sabah oldı, Qeysər buyurdı, ol əzəmət ləşkər süvar olub səflər alaylar bağlayub durdular. İslam ləşkəri dəxi atına süvar olub, təkbir və təhlil gətrüb xəndəqdən tışra çıqdılar. Didilər nə edəlüm din uğrunda canımız fəda olsun.

Allah-Allah deyüb, qarşu durdular.

Qeysər təxtin fil üstündə bərkidüb, üstə çıqır. Himayənlərlə Qeysər oturub Təryunu yad edüb ağladı, yüzün sordı. Didi: - İmdi Təryun olsa idi Məcihin yüzi suyunu yerinə gətürərdi. Akratis ləyin didi: - Şaha, sən sağ ol geydür, yedür bən qulun varıb cümləsin dəstə-bəstə yanına gətirüm. Bunlar bu ərəfədə ikən [85a] Bağdad, Çin yolundan toz qopdu. İçindən yüz min müsəlman çıqub, gəldi. Din uğrunda can verməgə Memlan, yüz cift nəqarə yüz ələm gəldilər. Ol kəffar ləşkərin gördülər ki, dağ-daş dutmaz.

Müsəlmanlar anın yanındə xardal danəsi kibi. Memlan quluna buyurdu ki, atlar salub, oxlar atun. O qul birdən həmlə edib, at saldılar, hər birisi üç ox urdular. Yüz bin kafiri cəhənnəmə göndərdilər. Qeysərün dəxi nəfəsi bağlanub, fəryad eylədi didi: - Ey Məsihin qulları, sizə nə oldı kim, nar-ı nur sizdən iraq oldı?

Didilər: Məhəmmədilərə köməkçi gəldi.

Bu tərəfdən Əmir və digər qazilər Memlana qarşu vardılar. Xəlifəni sordular, gəlüb düşdülər. Nagah bir toz peyda oldı. Toz içindən yüz cift nəqarə, yüz bin ər ilə xəlifə çıqub gəldi. Anın ardınca Həcaz padşahı gəldi. Səflər bağladılar. Anın ardınca Sultan Qaruni Əziz igirmi min ər ilə igirmi cift nəqarə ilə çıqub gəldi, anın ardınca Abdülqədir gəldi. Səf bağladılar. Qeysər yanında bir pəhləvan var idi. Frəng bəglərindən idi. Rusin adlu, ol meydana girdi ər dilədi. Müsəlmanlardan Ərdəşir meydana girdi. Bir-birinə [86] bərabər gəlüb, çox cəng eylədilər. Ol ləyin, Ərbəşirə qılınc urdu, Ərbəşir şəhid oldı. Qasım o dəxi zəximli oldı, Neman girdi Qasımə at yetürüb meydandan çıxartdı. Neman Rusin ilə cəng eylədi, igirmi dört həmlə xətayə gecdi. Ləyin xişımkər *(hiddətlənib – A.R.)* olub bir gürz urdu. Qalxan dağulub, gürzün ucu başınə doqundı. Başı üç şaqqa oldı. Qulları at salub Nemanı meydandan çıqardılar. O gün ləyin meydanı dutdı. Müsəlmandan çoq adam zəxmlü və çox şəhid oldı. Axşam oldı, təbil asayiş uruldu ki, dönüb qon-

dular. Müsəlmanlar məlul olub, şəhidləri daxili dəfn eylədilər.

O canibdən Qeysər dəxi şad olub keçib taxtə oturdu. Rusini xələtlədi, cümləsi Rusini təhsin eylədilər.

Genə sabah oldı, nəqarələr dögüldü, iki tərəfdən ləşkər səf bağladı. Genə Rusin meydana girdi. Cövlan göstərüb didi: - Ey əqilsiz qövm, sizün nə həddinüz var ki. Qeysər adam göndərüb, Rusiyi gerü apardı. Süleyman bin Əntaqi adlu bir kafir meydana girdi. Cövlan göstərdi. Müsəlmandan Süheyl meydana girdi. Cəng eylədilər. Süheyl bir gürz urdu [86a] ləyinin qalxanı bağrına dikdi. Süheyl dutunca atı yıxıldı. Ləyin fürsət tapub bir qılınc urdu. Omuzundan məcruh eylədi. Məsihin gerülədilər. Süleyman meydana girdi. Ləyinin qurşaqından bərk dutdı. Ləyinin qurşağı üzüldü, əlindən xilas olub getdi. Kafirdən Əqarib girdi. Müsəlmandan Asim yetüşdi. Asima bir cida urdı. Qalxanı bərabər gətürdi, qalxandan keçüb buduna doqundı. Xürremi yetişdi. Ləyin dönüncə Asim ardından yetüşüb, bir qılınc urdı, iki para eylədi. Sonra İshaq Kufi Musa kafirlərdən meydana girdi. Asim meydandan çıqdı. Musa İshaqa bərabər gəldi. Kafirlər didi: - Kimsən? Didi: - Kufidənəm, adım İshaqdır. Atamın adı Abdullahdır. Mənim cəddüm Hüseyin bin Əlidür. İshaq Musaya bir görz urdı. Musa çapuk suvar olub atın qarnı altına girdi. İshaqın oqun savdı. İshaq bir oq da atub, urdı. Köksündən dəgüb arxasından çıqdı, şəhid oldı. Əmir istədi ki meydana girə, Memlan meydana girdi. Yayın ələ alub, ox atdı. Ləyin, qalxanı bərabər gətürdi. Qalxandan keçdi, sinəsinə toqundu, [87] bağrından keçüb Ləyinin canın cəhənnəmə ismarladı. Həman dəm yetmiş kafiri öldürdü. Qeysər ah, edüb, buyurdu: On cəngci Memlan üstə saldılar. Əmir bəglərinə buyurdu, oq yağdırub, filləri gerü qaytardılar. Qeysərin ləşkərindən çoq adam həlak oldı. Qeysər acıqlanub buyurdı, əlli bin kafir at saldılar. Memlan nərə urdu. On iki min Xərzəm bəgləri həmlə eylədilər. Cəng yaxınında Memlanın atı yıxıldı. Kafirlər

Məmlanı ortaya aldılar. Xərzəm ləşkəri sındı, döndülər. Memlan üçün məlul oldular. Kafirdən Əskirat meydana girdi. Müsəlman Mərdan Əhməd Tarran meydana girüb xeyli cəng eylədilər. Axır Əhməd Tarran Əskiratı qurşağından dutub götürdi ki, ələm dinə gətürə, ləyin qurşaqın kəsüb xilas olub getdi. İslambulun bəgi Təkfür şaha həmlə qıldı, cəng eylədi. Qeysər Əhmədi görcək kəmənddazlara buyurdu ki, hazır olun. Nüqat kim, Əhməd cəngə məşğul olur, sizlər atlar salub kəməndlər atub Əhmədi dutun. Çün Əhməd ğafil ikən kəməndlər [87[a]] salub Əhmədi dutub, Memlan yanına apardılar.

Müsəlmanlar ğayyətdə məlul oldular. Təvabil Rumi meydana girdi. Təkfur şah acıqlanub bir gürz urdu. Təvabil qalxanı bərabər gətürdi. Qalxan dağılub gürz sinəsinə toqundu, mayallaq yıxıldı. İstədi ki, qılıncı ilə iki para eyləyə, Bulqari meydana girdi. Cida həvalə qıldı. Seyyid mane edüb, növbət Seyyidə yetişdi. Bir cida urdu ki, qalxandan keçüb köksünə toqundı. Bağrından çıqdı, götürüb, başı üstə çevirüb yerə saldı, xurd-xam eylədi. Bəd Pirstan meydana girdi. Anı dəxi atından götürüb gögə atdı. Atır ikən gögdə qılıncı ilə iki para eylədi. Qeysər anı görüb, məlul oldı. Seyyid ər dilədi. Kimsə meydana girmədi. Seyyid gördi ki, kimsə meydana gəlməz, tiğsəxxak çəküb, sağ canibə həmlə eylədi, əlli-altmış kafiri cəhənnəmə vasil eylədi. Sol canibə həmlə qıldı. Yetmiş-səksən kafiri öldürdü. Kimsə önünə dura bilmədilər. [88] Yenə qayıdub meydana çağırdu: Ey kafirlər, meydana gəlün. Qeysər acıqlandı: - Nə oldu? Sizdə, bir igid yoxdurmu? bu nabekarı öldürə? Məshin yüzünün suyun yerinə gətirə? deyərkən, nagah toz bulundı, yüz ələm yüz bin adam, yüz cift, nəqarə ilə İsmayıl Səmərqəndi çıqub gəldi, müsəlmanlar qarşu varub görüşdülər. Xəlifəni xəbər aldılar, didi budur yetüşür, anın ardınca əlli bin ər ilə Fəvəran şah Qara ol, çıqub gəldi. Anın ardınca otuz bin ər ilə Mənuçər çıqub gəldi. Qeysər baxarkən nagah bir əcayib toz göründü.

Toz içindən xəlifənin ələmi çıqdı. Andan Rəsulullah ələmi peyda oldu. Bir ağ fil üzərinə təxt bağlamışlar, üstündə çətir həmayun, yaşıl atlas dutulmuş, içində xəlifə Təvabil Sədi bin oturmuş beş yüz müftü-müdəris sağında, solunda yerüyürdü və dəxi Hafiz kəlamları xoş avaz ilə «İnna fatehina» surəsin oxuyurdular. Dört yüz xoş mömindən təkpir gətirib əssalat vəssələmu [88a] əleykə ya Rəsulullah», derlər idi. Dört bin igid Filanın filan dəmurə ğərq olub, əllərində yaylar, qəbzələrini dutub adamlar düşmənin gəlişin gözləyib gedirlər. Dört bin igid sağında, solunda, gürzlərin çakərlərin də götürüb, gedirdülər və üç yüz altımış cəngi filləri sağında, solunda yerürdi. Bin altı yüz altin yəhərlü, bədəvi, Rumi yəhərlü atlar dalında və önündə yüerüyürdilər.

Bu əzəmətə xəlifə çıxub gəldi. Əmir buyurdu, Qazılar qarşu vardılar. Üzərinə yetüşəcək peyda oldular. Xəlifə dəxi bunları oxşadı. Qeysər anı görüb, qayətdə qorqdu. Seyyid dəxi meydan içində anı görüb, təfric edirdi. Xəlifə dəxi təxt üstündə kəffar ləşkərinə tamaşa edirdi. Nagah gözü Seyyidə tuş oldı, didi: - Ol meydan içində duran kimdir? Didilər: «Xəlifeyi zaman», o bir cannı igiddür. Hünərlər edübdür kim, vəhə *(bəh-bəh - tərif – A.R.)* gəlməz və kimsə ona müqabil ola bilməz. Bizim ləşkərimizi ol dayandurdı. Yoxsa bizüm külümüzü savururlardı. Ol qəddü-qaməti, varmaqı, dutmaqı, nərəsi Battala bənzər, amma ol ağdi. Bu qaradur. Ol mindigi at Əşqara bənzər. Amma ol sarı idi. Bu siyahdur. Ol qarşudakı dağdan enir, hünərlər edir kim, [89] Rüstəm Zal, Sami Nəriman eyləməz. Genə gecə olanda varub, ol dağa gedür.

Çünki xəlifə bu sözləri eşitdi əl götürüb dua eylədi. Müsəlmanlarun səsi gəldi. Didilər: - Ey ğazi, xəlifə sizün üçün düa qıldı. Seyyid tez atından enüb xəlifəyə qarşu yüz yerə qoydu. Yenə atına minüb bir müddət silahşorluq eylədi, kim heç kəs görmüş ola. Nə qədər müsəlmanlar və kafirlər varsa heyran qaldılar. Seyyidün yaranları didilər: - Şaha bu hünərlər və hərəkətlər cümləsi Battalındır. Amma,

nə edəlüm bu siyahdur. Xəlifə didi: - Haqq-təala qadirdir ki, Battalı bu surətə qoya, müsəlmanlara mədəd *(yardım – A.R.)* göndərə. Seyyid Qeysərün kafirdə bir igidi var idi. Qörkün adlu Qıravan padşahı idi. Seyyidə bərabər gəlüb cida ilə həvalə eylədi. Seyyid məni eylədi. Gəldi ki gecə, Seyyid qurşağından dutdı, atını götürüb başı üstündə bir alma kibi çevirib yerə urdı, kafirin canın cəhənnəmə ismarladı. Andan sonra biri girdi. Anı dəxi dutub, əllərin dalına bağlayub müsəlmanlara göndərdi. Andan sonra Qarunı Şişən girdi anı dəxi bağlayub, xəlifəyə göndərdi. MüsəlmanLardan təkpir avazı gögə çıqdı. O günü adlu bəlli pəhləvan hər birin bir növ ilə yıkub xəlifəyə göndərdi. Andan sonra yetmiş kafiri bir-bir yıqub həlak eylədi və dəxi [89[a]] kimsə meydana girmədi. Seyyid atından enüb, qulayın bərkidüb, yenə sıçrayıb atına minüb tiğsəxxak çəküb nərə urdu. Özünü Qeysərin ləşkərinə verdi, hər yerə uğradı, tarimar eylədi. Kafir qanın sel kibi axıtdı. Çün axşam oldı, Seyyid ləşkərdən çıkub, ol dağa rəvan oldı. Xəlifə Seyyid üçün düa eylədi.

Qeysərin ləşkərinə qorqu düşdü. İki tərəfdən gəlüb qondular. Əmir didi: - Yaranlar, ol igidün ardınca varun! Anı bir mənüm yanıma gətürün, könlüm ilə şahidliq verərüm kim, ol Battaldur.

Bir gecə anlar dağı gəzüb, tapmayub gəldilər.

Bu tərəfdə çün Seyyid axşam namazın qıldı. Atın, əsbabların götürməyüb, dağdan aşağa endi. Qeysərün bərgahına gəldi, gördü Qeysər təxt üstündə, padşahlar altun gümüş kürsülərin üstündə otururlar. Siyasət qurulmuş, Əhməd Tarranı, Memlanı gətürmüşlər. Əzab ilə öldürməgi Qeysərə dimişlər: - Şəha, sən bunları öldürürsən ol on adlu bəglərimizi Muhammədilər öldürürlər və sözə gəlmişlər ki, əcəba ol dağdan enən nə kişidür, kim bizə bunun kibi işlər eylədi? Bən sanuram Battal ölüdür. O biri deyir ol [90] Battaldan artuqdur. Bu halda Battal irəlü varub, didi: - Şaha, bu iki dustağı əgər buyursan, mən aparub siyasət edim ki,

bunlar ol kişinin kim olduğun nə bilirlər. Qeysər buyurdı: Eylə. Ol iki pəhləvanı alub, bir xəlvət yerə gəldi. Bəndlərin açub, ləşkərdən tışra çıqdılar. Əhməd Tarrana didi: «Ey mərdanə, bir mənim yüziyimə bax». Çün Əhməd Seyyidün yüzüyinə baxdı. Əqli zayil oldı. Tez yenə gözün açdı didi: Ya pəhləvan, bu gördügim duşumdur, yoxsa xəyalumdur? Seyyid didi: - Ağlını başına cəm eylə. Mən Battalam. Əvvəldən ol dağdan enüb bu hünərləri edən, mənəm. Əhməd Seyyidün ayağına düşdü. Bir-birin qucdılar, görüşdülər. Sonra Məmlan qucdı və görüşdü. Məmlan didi: - Bu nə igiddür? Bizi bundan xilas eylədi. Əhməd Tarran didi: - Bu bizim sərvərimiz, Sultan Seyiddür. Məmlan Seyyidün ayağınə düşdi, Seyyid Məmlanı təkrar qucub, görüşdü. İki at götürüb bunlara verdi didi:

- İmdi siz varun, yaranlara mənim salamımı yetirün. İnşallah, Allahtalanın dəxi köməyi ilə varub, özümü [90[a]] əyan edərəm. Bunlar dəxi şad-xürrəm müsəlman ləşkərinə gəldilər, gördülər nə qədər varsa, xəlifə yanındə olurlar. Seyyidün hekayətin söylədilər. Müsəlmanlardan bir kişi Əhmədi və Memlanı gördü. Xəlifəyə muştuluqladı. Alub xəlifə yanına götürdülər. İrəli varub yüz yerə urub didilər: - Ey xəlifəyi zaman, bəşarət olsun sizə, kim ol kişki dağdan enüb bu dürlü hünərlər göstərir. «Mən cinliyəm», deyən ol ğazilər, Sultanı Seyyid Battal qazı imiş. Bizi dəxi ol xilas eylədi və didi: - Bən dəxi sabah meydanda özümü xəlifəyə bildürrəm. Siz mənim silahımı aparun. Təvabil didi: - Ya Əhməd, bu xəbər ki sən dersən, doğrudur? Əhməd and içdi ki, bizi Seyyid xilas eylədi. Ol qeysərin ləşkərində neçə bəglər, pəhləvanlar gecə başsız olur. Onları Seyyid öldürürmüş, bu sözləri eşidüb, cümləsi şad oldular. Ol gecə sabahadək şadluqdan heç kim yuxlamadı.

Çün Seyyid, bunları göndərdi. Özü qeysərün çadrına gəldi, gördü ki, qeysər yatur. Seyyid qeysərün əqlin keyidür. Götürüb ol dağə çıqardı, bağlı qoydu. Badam yağın sirkə ilə qeysərün burnuna qoydu. Qeysərin əqli başına gəl-

di, özün bağlı gördü. Bir kişi əlində bir qamçı dutub, qarşusunda durur. Həmən qeysər gözüni açdı. Seyid, qeysərin yüzünə urdu və didi:

- Məlun gözünü aç.

Fəryad edib didi:

- Kimsən, məni neçün öldürürsən?

Seyyid didi:

- Ey bi din!

- Bən can qoydum, sən bəni neçün öldürürsən?

Seyyid didi:

- Ey məlun, mənim üçün sən neylədün, bu qədər adamları və padşahları qırdırdun, bənim düşmənimi ələ gətirmədün.

Qeysər fəryad eylədi aqibət. Qeysər didi: - Ey Ruhullah, imdi bana bir yol göstər ki, bən andan tışra çıqalayım. Seyyid didi: - İmdi bən səni öldürdüm, sənin bunca qulların Muhammədilərin ayağına düşüb altında qalub, həlak olar. Əgər deyirsən ki, mən sənün günahını bağışlayum, ol dağdan enən ki, «mən cinliyəm», deyən bilürsən kimdür?

Didi: - Bilməzəm.

Seyyid didi: - Ol Battaldur.

Qeysər didi: - Anı tapub oda yaqdılar.

Seyyid didi: - Yanmadı diridür. Padşahlar ki, sənin ləşkərində öldürürdülər və ol «siyah saqqallı» su paylaşdırırdı və «ol həkim» ki, sənin saç-saqqalını tökdü, ol Battaldur. İmdi anın əcəli sənin əlindədür. Sabah yenə meydana girüb, özünü əyan edər. Heç qorqma, sabah meydana gəl onu öldür, yoxsa, o dünyada axırətdə mənim yanımda yerin yoqdur. Nar-ı Nur (İsa) yanında rusvay olursın.

Qeysər didi: - Sən hər nə kim buyursan, mən anı edərəm. Çün vədələr təmam oldu, yenə qeysərün əqlin gətirdi. Alub gətürdi çadrına qudu. Bir zamandan sonra əqli başına gəldi, özünü bildi. Təxt üstündə gördü. Amma canı dögülmüş. Qulların çağurdı, gəldilər. Gövdəsin göstərdi didi: - Gəlün görün bana neylədi, buyurdu: - Bəgləri çağurdı, nə

qədər bəglər varsa çağurdılar.

Qeysər didi: - Ey bəglər, eşidin,İsa Ruhullah məni aparub əzablar eylədi.

Hekayəti bir-bir didi. İmdi gərəkdur ki, sabah [91] mən özüm meydana girüb, Battalı öldürəm. Əmrlə bəglər bu sözdən şad oldular.

Çün sabah oldu, iki tərəfdən hərb döküldü, səflər bağlandı. Müsəlmanlar ol dağa baxırdılar. Həman dəm ol sərvər, qazı Seyyid Battal, ata süvar oldı. Səlavat verdilər. Hər kim Məhəmmədi sevər, ona səlavat versün. Atını sürdü, bir kəz nərə urub meydana girdi. Elə silahşurluq eylədi kim, iki tərəfdən heyran qaldılar. Axır müsəlmanlara qarşu durub, yüzündən nüqabın götürdü, didi: - Məlumunuz olsun, ol mənəm, Battal. Təryun oda yaqdı, Haqq-təalanın əmri ilə od kar eyləmədi. Bir neçə padşahları öldürdüm deyüb, qədəm irəli qoyub yeridi. Müsəlmanlar, yaranlar ol əksüklü biçarə gözlərə yenə tutub yetişdüm deyib, irəlü yeridilər. Əmirin qərarı qalmadı, Seyyidə qarşu gəldi, görüşdülər. Lələsi Təvabil yetişüb, Seyyidin ayağına düşdü. Yaranlar cümləsi gəlüb Seyyidün ayağına düşdülər. Seyyid oğlanların görüb bağrına basdı, gözlərindən öpüb, bir az ağladı və cümlə yaranlar ağlaşdılar. Yenə oğlanların gerü ələm [91[a]] dibinə göndərdi. Əmir didi: - Gəl xəlifəni gör. Seyyid didi: «Əlim boşdur, ərməğansız getmənəm».

Yaranlar şad-xürrəm oldular. Ol tonları çıqarub atdular, bəyaz geydilər. Xəlifə buyurdu: - Təbil başarət urdular.

Kafir ləşkərinin üzərinə qorqu düşdü. Qeysər didi: - Hay, bu gün Battalın ölümü mənim əlimdədür. İsa Ruhullah bana buyurdu ki, bu gün anı öldürüm. Seyyid meydanda dövr edib, çaqurdı. Hanı Qeysər, gəlsün cəng edəlüm. Qeysər didi kim meydana girə, qoymadılar. Didilər: «yerində qərar dut». Bu biz bəglərə mənsəb neçün veribsən. Bunun kibi gündə sənin qabağında can-baş verirük. Pəs, Təryun adlu bir kafir meydana girdi Seyyidə bərabər gəldi, didi: - Ey cadu, nə dirsən? Gör səni necə öldürrəm deyüb, ci-

da həvalə eylədi. Seyyid məni eylədi, gəldi kim gecə, qurşağından dutub, atından götürüb əski bəz kibi iki parə eylədi. Andan Qeysərün qarşusuna düşdü. Arxasından Qəbs Talıqan meydana girdi. Qılınc həvalə qıldı. Seyyid məni eylədi. Seyyid öz qılıncın bərabər gətürdi. Kafirin qılıncı iki parə təpəsinə dəgdü. [92] İki şaqqa oldı.

Nuh Muten dirlər idi, ğayətdə pəhləvan idi. Ol meydana girdi. Bir neçə həmlə arada xətayə keçdi. Seyyid dinə dəvət eylədi. Müsəlman olmadı. Sam suvar gürzin həvalə eylədi. Qalxan bərabər gətürdi. Paydar olmadı, gürz enüb təpəsinə toqundu, ləyinin başı tarimar oldı. Bir-bir yetmiş kafiri cəhənnəmə göndərdi. Müsəlmanlarun təkpir avazı gögə çıxdı. Xəlifə Seyyidə düa eylədi. Qeysər didi: - Ey qövim, məni neçün qoymaduz meydana qirim, anı öldürüm deyincə. Kahuyi Hindu adlı bir kafiri meydana girdi, didi: - Ey Battal, münca padşahları öldürdün, hər birisinin qapusunda neçə sənin kibi qulları var idi, indi onların dadını səndən alaram deyüb, gürz həvalə eylədi, enirkən Seyyid Kahunun gürzinə ayəsin bərabər dutdı. Haqq-təala saqladı. Gürzi bir kəs dutdı, çəkdi. Kahuyinin əlindən aldı həvayə atdı. Enirkən bir gürz urdı kim fil iylə özüni, yerə bərabər eylədi. Seyyid çağurdı: - Qeysər hanı, gəlsün anınla bir danışalum. Qeysər dəxi on iki min qul ilə, dört yüz bədöv at maliklər rəkabı da təzim ilə meydana girdi. Seyyidə bərabər gəldi, didi: - Ey Battal, sənin ölümün mənim əlimdədür. Bu gecə bana xəbər verdi. İmdi heyif sən, nocəvansan, sən dəxi mənim dinimə gir, səni sərləşkər edim. [92a] Seyyid didi: - Çoq söyləmə, əgər sən bəni yıqarsan, sənin dininə girrəm. Əgər mən səni yıqsam, sən mənim dinimə gir. Qeysər dəxi razi olub, sözlərin məhkum etdilər. Qeysər ələ cida alub, həvalə eylədi. Seyyid məni eylədi. Gəldi kim gecə, Seyyid sağ ayağın üzəngidən çıxarub bir poşt pay ilə urdu kim təpəsi üstə yıxıldı. Seyyid sıçrayub, sinəsi üzərinə çıqdı. At quyruğu kibi saqqalın əlinə doladı, didi: «Gördünmi? O, sözləri sana deyən, bən idim. İmdi tez iman ərz qılub, müsəlman ol. Sə-

nin öz eyligünü sana verim və əgər müta olmasan, haqqından gəlürüm». Qeysər didi: «Mən sənin dinini qəbul eyləməzəm. Pəs sənin cəzan budur» deyüb, başın kəsdi. Canın cəhənnəmə vasil eylədi və salavat verdi. Seyyid qeysərün başını alub, atına süvar olub, aparub, xəlifənin ayağının altına saldı, didi: - Düşmənün başı həmişə belə olsun. Xəlifə atından enüb Seyyid ilə görüşdü. O vəqtə kibi Seyyidi görməmişdi, iki gözündən öpdü. Seyyidə düa eylədi.

Qeysərün başını cidayə sancdılar. Xəlifə buyurdu, təbilə işarət verdilər. Şadyanalıq eylədilər. Bu halı görüb, kafir ləşkəri bir-birinə doqundu və ağlamaq istədilər. Hər iqlimin bəgləri öz ləşkərin çağurdular ki, nə hünər edirsiz bir qeysər öldüsə, bin qeysər vardır. Biz munda *(burda – A.R)* ğeyrət üçün gəldük, didilər. [93] Qəntar Hindi var idi deyüb, meydana girdi didi: - Ey Battal! Caduluq ilə onun kibi padşahın başını kəsdün. İmdi anın intiqamın səndən alarum deyüb, gürz urub həmlə qıldı. Seyyid məni eylədi. Seyyid ləyinə bir gürz urdu. Ləyinin qalxanı dağıldı, başını qaçırdı. Gürz enüb qılına toqundu, Fil yıxıldı. Seyyid endi. Qənzar ayağa durdu. Bir-birinin qurşağından dutdular. Seyyid Qəntarı götürüb yerə urdu. Bağlayub ələm dibinə göndərdi.

Kəffarda iki pəhləvan var idi. Birinin adı Aqtayi Zəngi o birinə Mənkuyi zəngi derlər idi. İki canibdən həmlə edüb, Seyyidi araya aldılar. Biri gürzü, o biri qılıncı ilə həvalə oldılar. Seyyid gördü kim növbət verməzlər. Aşqarı aralarına salub, sağ əlilə Aqtayi sol əliylə bir kəz qurşaqlarundan bərk dutdı. Qüvvət edüb, ol iki pəhləvanları atlarından götürdü. Mənkuyi zəngi əyyar idi. Xəncərin çıxarub qurşağun kəsdi və Seyyidin əlindən xilas oldı. Aqtayı elə urdı yerə kim başı xurd-xam oldı. Rum ləşkərindən fəryad-fəğan qopdu. Ləşkər bir yerdən həmlə edüb, Seyyidün üstünə yeridilər. Seyyid bir nərə urdu. Əhməd Tarran, Memlan Xərzəmi, Əli İbn Haşim, [93[a]] Cudə Mussa, Süleyman Təvabil, İslam ləşkərləri xəlifədən qeyri cümləsi həmlə eylədilər.

Ol iki dərya kibi ləşkər, bir-birinə toqundı. Sanki kim

qiyamət günüdür. At ayağının tozundan gün yüzü dutuldu. Toz içində nabud oldular. Qan sel kibi axdı. Yer yüzü nə qədər varsa, insan qanı ilə doldu. Üç gün, üç gecə cəng oldu. Müsəlmanların taqəti qalmadı. Zira ki, kafir ğayətdə çoq idi. Müsəlmanlar həqqə minacat eylədilər.

Nagah bir yel qopdu, toz kafirlərin üzünə. Seyyidin gözləri toz ilə doldu. Yüz qaçmağa qoydular. İslam ləşkəri kafiri basub, qırdılar. Gerü dönüb ol ğənimət malın cəm eylədilər. Xəlifə üçün pəncin çıqardılar, beş-sini ğazilərə bəxşiş eylidilər.

Ondan keçüb Şəmas diyarina gəldilər. Şəmas dəxi qarşu varub, Xəlifəyə ziyarət eylədi. Xəlifə Şəmasa düa eylədi, andan sonra xəlifə təxtin arastə *(düzəltdilər – A.R.)* eylədilər. Xəlifə çıqub əgləşdi. Padşahlar dəxi gəlüb oturdular. Seyyid dəxi kürsü üstə oturdu. Buyurdu, vardılar. Qonstantin bin Qeysəri, Taryunu və Qasurayi, Qalunu və Qapusi ol quyudan saçı-saqqalı tökülmüş gətürdilər. Seyyid buyurdu: «Boyunlarun vurun!» Ol arada bir qazı var idi. Bağdadın ğazısı idi. Xəlifə yanında ğayətdə hörmətlü idi. Qabil [94] kafir idi. Uğrunda din dutar idi. Yerindən durub gəldi didi: - Ya xəlifə, bunları bana ver, gəl. Bən nəsihət verim. Şayəd ki, müsəlman olalar. Seyyid didi: - Xoş ola. Ol altı kafiri Əgba Qazı alub getdi apardı öz odasına və odasın xəlvət edüb, qabaqlarına təam gətürdi yedilər. Əqba Qazı onlara didi: - Siz bilün bən dəxi Məsihiyəm papaz quşağı qusanuram. Bən nə desəm siz anı eyləyin və Qeysər də mənim sirrimi bilürdi. Daim bənimlə məşvərət edürdi. Ol gün ki Qeysər öldü, mənim ürəgim yandı sizə. Xərac gətirün siz riza verün. Konstan üzərinə cəm olun. Mənim sözümə qulaq olun, didi. Nar-ı nur (İsa) dövlətindən mən bir alqı edim, Battal görməmiş olsun. Qeysərün İntiqamın almayınca qoymazam, didi və nə zəman Battal bir iş vasitə olə siz cəm olub Malatiya üzərinə gəlün. Məhəmmədilərə aman verməyüb, qılıncdan keçirün deyib, ögüt verdi. Sabahdan xəlifə yanına gəldi didi: -

Xudavənda, çoq nəsihət eylədim. İmkan olmadı, xəracə razı oldular. Xərac kəsüb azad edün, didi. Sözündən çıqmazlar sözünü eşidüb kərəm edərlər *(bağışlayarlar – A.R.)* [94[a]]. Dərhal Əqba onları gətürüb, Seyyidün ayağına düşdü və xəlifənün əlin öpdülər. Qonstantin Qeysər bunları verdilər, xərac kəsdilər. Çoq əsirləri var idi onları dəxi azad etdilər. Onlar getdilər xəlifə dəxi köçüb Malatiya gəldi. Ancaq bir xəlifə qaldı.

Bir gün Əmir xəlifəyə qonaqluq eylədi. Ol gün məlun Əqba qazı Seyyidə bir loqma verdi. Seyyid alub yedi və bir loqma Təvabilə verdi, o dəxi alub yedi. Bir loqma Abdürrəhman dəxi alub yedi. Bu uçunə də zəhər verdi və iki gündən sonra xəlifə Seyyidə çox düalar eylədi və düasını edüb, əzmi Bağdada eylədilər.

Bunlar getməkdə, ravilər belə rəvayət edirlər kim, ol bir ay qaldı. Anlardan ikisi şişdi. İman ərz eylədi, canların tapşurdular. Yaranlar fəryad eylədilər. Seyyid çoq ağladı. Namazların qıldılar. Andan sonra Abdürrəhmanın ayaqları şişdi, canın tapşırdı. Yaranlar didilər: - Bunlara zəhər vermişlər. Bu halətdə cümləsi heyran qaldılar kim belə düşmənluq kim eylər, didilər. Neçə gün keçdi.

Bir gün Seyyidi dəxi titrətmə tutdu, didi: - Ey bənə də vermişlər deyüb ağladı, didi: - Ah diriğa müsəlmanların atlarının ayağı altında həlak oldular. O gün iki ayağı şişdi bixub oldu. [95] Saçı saqqalı töküldü.

Yaranlar fəryad-fəğan qıldılar. Əmir dərhal xəlifəyə «namə yazub göndərdi. Hekayəti bildirdi və didi ki, Allah xatirinə Seyyidə zəhər vermüşlər, tez tiryək göndərin». Naməni gətürüb verdilər. Xəlifə namədən xəbərdar olub, dərhal bir şüşə tiryək gələn bəgə verib rəvan oldu. Əqba məlun anı görüb, iki qulun pünhan göndərdi. Onlar yetüşüb, o bəgi öldürdilər və tiryəki alub tulladılar. Xəlifə Seyyid üçün ğayətdə məlul oldu, didi: - Əcəba ki, bu işi kim eyləmiş ola? Əqba ləyin didi: - Ol gün Battal yaxşı işmi eylədi. Qeysər kibi padşahı öldürdi az iş degildir. Çün bəglər eşitdilər didi-

lər: - Bu nə sözdür söylərsən? Biz səni bi dini öldürrük səna nə əcəb gəldi deyüb, üzərinə ğələbə eylədilər. Məlun gördü kim sözi bir eylədilər, dəxi söyləmədi. Ortaya bir özgə söz salub durdu. Evinə getdi.

Qonstantin Qeysərə bir namə yazdı ki, Seyyidə ağu verdim. Tez ləşkər çəküb Malatiya üzərinə gələsüz, ol qövimə aman verməyüb, İntiqamımızı alasuz, bən dəxi fürsət vəqtində xəlifəyə ağu verərəm. [95[a]] Siz dəxi mərdanə olun deyüb naməni bir ləyinə verib göndərdi.

Namə Qeysərə yetişüb, əhvalatı bildilər. Bu iş əcəb işdür. Təryun onu öz əli ilə oda yaqdı ölmədi. Biz gedək məbadə, ola ki aləmi fənayə verər. Qeysər didi: - Pəs necə edəlüm? Bəglər didilər: - Cəsus göndərüb xəbər biləlüm. Cəsus göndərdilər, qayıdub xəbər gətirdilər ki, Təvabil, Abdürrəhman ölmüş və Battal dəxi şişmiş, çənəsindən saru sular axır. Çün Qeysər bu xəbəri ki, eşitdi yüz bin ər cəm eylədi. Nəqarələr dökülüb cümlə süvar olub, Malatiya rəvan oldular.

Bunlar gəlməkdə, Seyyid ağulu qaldı. Yaranlar fəryad edüb, didilər: - Əcəba, xəlifə neçün tiryək göndərmədi? Nazənin Battal həlak olur deyib cümləsi fəryad eylədilər. Bu halda içəri müsəlmanların cəsusı çıqub gəldi didi: - Nə durursuz, Qeysər Battalın hekayətin eşitmiş yüz bin ər ilə gəlür, didi. Müsəlmanların halı zəbun oldı. Tez on min müsəlman hazır oldular. Şəhəri dəxi bərk tir-baran eylədilər. Qazılardan Məhəmməd bin Fəllah gördü kim hal belə oldı, şəhərdən tışra çıqub bir ağacın dəpəsində durdı, ağladı, didi: «Burada durum. [96[a]] Nə zaman kim eşitdim Battal öldü və yaranlar ağlaşdılar, mən dəxi özümü həlak edim» didi. O halda gördü ki, bir qarıcuq çıqub gəldi. Qəmuzında səccadə, əlində əsa, bir əlində su şüşə dutmuş gəldi. Yaranlara xəbər verdi. Cümləsi şad oldılar, gəldilər. Ol qarıcuğu ziyarət eylədilər. Seyyidün yanına apardular. Seyyidün başı ucunda oturdı düa eylədi. Seyyid gözün açdı. Ol şüşədən bir qətrə, Seyyidün ağzına tökdü. Həman dəm, boğazından

aşağa endi. Haqq-təalanın qüdrətindən Seyyid aqsırdı, istifraq eylədi. Ol ağu cümləsi töküldü. Seyyid tez gözin açdı, xoş oldu. Durdu oturdu yenə ol şüşədən içdi və vücudu xoş oldı, çigəri təzələndi. Heç zəhər qalmadı. O, suyu şüşədə qalanın dəxi yüzünə sürtdü. Haqq-təalanın qüdrətilə, saçı-saqqalı bitdi. Həman əvvəlki kibi oldı. Könlü təam dilədi. Yemək gətürdilər. Seyyid ilə yaranlar cümləsi qarıcığun ayağına düşdülər didilər: Axirət xatunı, sən kimsən?

Didi: - Əhtiqan İstila Zahidün qızı Rabiəm. [96a] Çoq zamandur Mədinədə Həzrət Rəsulun türbəsində oluram. Bu gün türbə içində bir avaz gəldi kim Ya Rabiə, tez dur bu şüşəni oğlum Battala yetir ki zəhərdən xilas olub, şəfa edə. Şüşəni alub budur ki, gəldüm çün murad hasil oldı, yenə gedirəm. Seyyid didi: - Ay ana, bir-iki gün bunda durasan ta biz dəxi sizə xidmət edək. Bu sözdə ikən qarıcuq qeyb oldı. Ol qədər axtardılar, bulamadılar.

Ol dəm bir qalabaluq oldı. Seyyid xəbər aldı ki, nə hekayətdur didilər, Qeysər gəldi yüz bin ər ilə.

Həman ki, Seyyid eşüddi, tiği səxxakı qurşayub Əşqarə süvar oldı, salavat gətürdi, ol ləşkərə bərabər gəldi. Bir təpənün üstə çıqub nərə urdu. Kənar ləşkərlər sərasimə oldılar. Bir dəxi nərə urub, çağırdı ki, - Ey məlunlar, yəni məni öldü deyib, bu fitnəni başladuz. İnşallah bən sizi öldürrəm, didi. Kənar ləşkərlər anı görüb, didilər dəryanın qisası Asimana uğradı. Bir-birinə yenə doqunub zəhrləri çak oldı. Battal dirilmiş, didilər. [97]

Battal özüni ol ləşkərə urdı. Ardınca yaranlar iki bin kişi ilə Seyyid yerüdü, həmlə yapdılar ələmdarı öldürdi. Kafir ləşkəri sındı.

Allahın qüdrətilə, bu halda Əmir əlli bin müsəlman ilə gəldi. Kafirlərin ardından onlar önündən ol kafir ləşkərin qırdılar. İki bin kişi ilə Qonstantin Qeysər qurtuldu. Qalanlar qılıncdan keçdilər. Bir yerdə malları töküldi qaldı. Seyyid ol malları cəm edüb, qazılara uluşdurdı.

Əbuzər kimi nov müsəlmanlar gəlüb Seyyidin əlin öp-

dü didi: - Xudavənda, eşiddüm mübarək bədəninizə zəhmət dəgmiş, gəldim ki, sizi görüm. Əlhmədullulah, sağ və səlamət gördüm. Seyyid buyurdu, qalanın öldürdülər.

Bu xəbəri xəlifə eşitdi ki, Seyyidə Rəsul həzrətindən şəfa yetüşüb. Qeysərün ləşkərin sındırdı. Çoq şad oldılar. Əqba ləyinin dəxi nəfi bağlandı.

Bu tərəfdən ravilər belə rəvayət edirlər kim, Seyyid Taryuna bir namə yazub göndərdi ki, «Tez Güləndamı cehiz ilə bana göndər. Yoxsa sən bilürsən». Namə Taryuna gəldi. Oqudular mətləb məlum oldı. övrəti yanına gəlib əhvalı xəbər verdilər. Övrəti [97a] didi: - Güləndama məlum edüm, görüm nə deyir. Gedib Güləndama didilər ki, Seyyid səni istər. Əgər gitməzsən, bir yavuz kişidir gəlüb cümləmizi xərab edər. Qız didi: «Nə məsləhətdur, mənim səbəbimdən sizə ələm yetişər. Andan isə bəni verün, bən varım. Əgər Battal məni oda salsada, bən ona razıyam siz dəxi rahat olun. Tək sizə ziyan olmasun».

İhal Təryun qızun irağın gördi. Qulları, qaravaşları bir neçə bəglər ilə Güləndamı Seyyidə göndərdi.

Çün xəbər Malatiya gəldi. Qarşu çıqub, izzət ilə şəhərə gətürdilər. Güləndamın toyun edub, Seyyidə verdilər. Güləndamdan Seyyidün oğlu oldı. Şüküranə xəlifəyə xələtlər göndərdi. Varlılara qonaqlıq eylədi. Dərvişlərə mal verdi.

Bir zaman bunun üzərindən keçdi. O tərəfdə xəlifə dəxi vəfat etdi. Oğlu Müslüm, xəlifə oldu. Matəm dutdular. Xəbər Malatiyaya gəldi, Seyyid sual eylədi: - Xəlifənin nə idi? Ol bəg didi: - [98] xəlifəyə dəxi ağu vermişlərdi. Nə qədər çarə eylədilər olmadı. Seyyid didi: - Bizim aramızda bir minafiq vardur. Yoxsa bu fitnəni kim edər. Sonra Seyyid düa edüb didi: - Allah, anı sən rüsvay edəsən.

Bir zaman bu üzrə keçdi bir gün Abdülvəhhab didi: - Yaranlar. Əsb Fərat yanında bir saray yapdım. Dilərəm ki anda gələsüz ol məqam mübarək qədəminiz ilə müşərrəf ola. Əmir didi: - Hər kişi Abdülvəhhabı bir şey verə ol məqamı mübarəkliyə. Əmir didi: - Bən qırq qoyun və qırq bat-

man bal verim. Cudə didi: - Bən dəxi bu qədər pirinc və bu qədər qoyun verim. Cəmi yaranlar hər kəs hallu-halınca bir nəsnə verdilər. Seyyid didi: - Yaranlar bənim nəsnəm yoqdur, şikar edəyüm hər nə əlümə düşsə Abdülvəhhabın olsun deyüb atına mindi rəvanə oldı.

Ol gün əlinə nəsnə düşmədi. Bir neçə gündən sonra bir mürği zara yetüşdü gördü bir çeşmə qabağında ulu ağac. Atından enüb abdəst alub namazın qıldı. Namazdan fariğ olcaq yatdı.

Seyyidün qulağına at səsi gəldi. Seyyid durub gördü ki, ləşkər gedür.

Çün Əraqil Qeysərün dört oğlu və dört qızı var idi. Birin Seyyid almışdı, biri də Fəqfur şahın oğluna nişanlu idi. Ol qız öz nişanlusınə adam göndərdi ki, [98a] atamı Battal öldürdi və bir qız qarandaşımı oğurlayıb apardı. İmdi əgər bəni istəyirsə, gəlüb aparsun. Ol dəxi gəlüb, qızı aparmaqdə nagah Seyyid çıqub gəldi. Qız Seyyidi görüb tanıdı. Canına titrətmə düşdi, didi: - Andan ki, qorxurdım genə ana tuş oldum. Xosrov Çini didi: - Ğəm degil, qorqma. Buyurdı, çuhəla araya. Seyyid nərə urub həmlə eylədi. Xosrovı bir zərb ilə yıkub, ləşkəri tarmar eylədi. Çünki Xosrov yıxıldığın gördi. Qız Seyyidün yanına gəldi, didi:

- Ya Seyyid, hanı əhd eyləmişdün neçün bəni qoymazsan yolum ilə gedəm?

Seyyid didi: - Siz qoyunsuz, bən qurt. Qoyundan qurt təmahın kəsməz, didi. Qız didi: - Gəl bəni qoy, sana nə qədər mal dirsən, verim. Seyyid didi: - Gəl imdi bənə söylə görüm sən kimsən? Ol didi: - Bən Qeysərün qızıyam, adım Həmayundur. O bağladuğun Faqfur şahın oğludur. Seyyid didi: - Siz mənim avımsuz. Sizi qoymanam, deyüb onların malların alub rəvanə oldı. Yolda gedirkən bir ağacluğa uğradı. Onların yemişlərindən dərub yedi. Dərhal Seyyidün əqli geddi atından yıxıldı. Qız anı görüb, Xosrovun əlin açdı. Xosrov istədiki Seyyidi öldürə, qız qoymadı, didi: - Məbadə ki, yoldaşlarından yetüşə, bizi həlak [99] edir. Seyyidi

bir ağaca saruyüb atın və donun alub getdilər. Seyyid bağlu qaldı.

Bir zamandan sonra Seyyid özünə, huşə gəldi gördü ki, bir ağaca sarıyub qoymuşlar. Bildi ki, ol ağacın yemişlərindən bu halə düşdü. Nə qədər cəhd eylədi özünü qurtara bilmədi və gördü ki, bir bölük atlı gəlir. İki atlu Seyyidi görüb, yanına gəldilər, didilər: - Sən nə kişisən? Səni munda kim bağladı? Seyyid didi: - Bu yoldan gidirkən gördüm bir neçə kişi şərab içirlər. Məni dəxi çağurdılar, gəlüb oturdum hər nə ki malım var isə əlimdən aldılar. Bunlar gülüşdülər. Ol oğlanların birinin belində qılınc var idi. Seyyid anı görüb didi: - Ol dəmirmi ya ağacmı. Bunlar yenə gülüşdülər didilər sən dəlimisən. Anın üçün səni bağlamışlar. Seyyid didi: - Əgər satun almışsan aldanmışsan sən, yenə gülüşdülər. Seyyidi ordan açdılar, qılıncı çəküb əlinə verdilər, didilər: «Gör dəmirdür yoxsa ağacmudur? Seyyid qılıncı əlinə alub, didi: - Tez müsəlman ol yoxsa sizi öldürrəm. Bunlar çıqrışmaq istədilər. Yenə bir qılınc urdı iki parə eylədi. Birisi qaçdı. Anı dəxi dutub öldürdü. Bunlarun donun geydi və bir at minüb Xosroyun ardından yetişdi. Bunlar bir çeşmə başında oturub yemək yeyirlər idi. Nagah Seyyid çıqub gəldi. Xosrov tez atına minüb, Seyyidə qarşu durdı. [99[a]] Qılınc həvalə qıldı. Seyyid məni eylədi. Xosrovu atından alub, yerə urdı. Əlin bağladı, yenə ata mindürüb, alub getdi.

Ta kim Abdülvahhabın məqamına gəldi, gördü yaranlar cəm olub, otururlar. Seyyidün hekayətindən məlul olmuşlar. Dərhal yetüşdilər, ğənimət malını gördülər, qarşu vardılar, izzət eylədilər. Ol mala heyran qaldılar. Ol malın cümləsin Abdülvahhaba verdilər. Qırq adlu cəmi pəhləvanlar Abdülvahhabın məqamında otururlar idi. Təam gəldi, yedilər andan sonra cümləsi Seyyiddən ol qızı istədilər. Biri deyir bana ver, o biri deyir bana ver. Cümləsi tamahlandılar. Seyyid gördü ki, işi fəsadə varur, hayqırdı: - Sizə nə oldu. Bən bu qızı sizlərə verməzəm, tamahlarınızı çəkün. Bunu xəlifə üçün ərməğan göndərürüm. Seyyid həman dəm

qızı xəlifəyə ərməğan göndərdi.

Elə ki, xəlifə qızı gördi, ğayətdə xoş gəldi, aşiq oldu. Bir dəm görməsə, dözməzdi. Çün Qonstantin qarındaşının xəbərin eşitdi. Məlul oldı, tez Seyyidə namə yazub göndərdi ki, «qız qarandaşının və Xosrovu bənə göndər ki, yoxsa bilürsən, cümlə vilayətinizi xərab edərəm», didi. Çün namə Seyyidin əlinə düşdü, cavab yazdı kim - Ey məlun, bir hərəkət eylə gör kim, sana neylərəm. Bən qızı xəlifəyə göndərdim».

Çün namə [100] Qeysərə gəldi. Qeysər bəglərin cəm edib, məşvərət eylədi, didi: - Xüdavənda, acığ iylə nəsnə olmaz. Gördünmi, babalarun çarə edə bilmədi. Bir neçə dəfə varub rüsvay olduq.

Bu sözdə ikən Əqba qazıdan namə gəldi. Oqudular ki, qız qarəndaşını Xəlifəyə göndərdi. Siz dəxi xətircam olun. Mən qızı oğurlayıb sizə göndərrəm. Qeysər bu xəbəri eşitdi şad oldu. Tez cavab yazdı ki, «İmdi sən mənim atamsan. Hər nə eyləsən, tez eylə ki, bən ğürbətə düşmüşəm. Adam yüzünə baxa bilməzəm».

Çün namə Əqba qazıya yetişdü. Fikrə daldı bu işə yol aradı. Şikarə meyl edüb ova getdi. Əqba ləyin fürsət tapub, qızı oğurladı. Bir neçə oğlana verüb, Qeysərə göndərdi.

Xadimələr gəlüb Qeysərə xəbər verdi ki, «Həmayun gəldi». Qıza qarşu varub, alub gətirdilər. Şad oldular. Əqba ləyin çünki qızı göndərdi, sonra ah edüb, yaxasın yırtdı didi: - Ey müsəlmanlar, gördünüzmü Battal neylədi? Qızı özü sevirmiş xəlifəyə göndərdi. Peşiman oldı. Abdülvahhabı göndərdi, qızı oğratdı, deyüb, fəryad eylədi. Bağdad qövmu cümləsi Battala tənə eylədilər. Əqba ləyin didi: - Bən imdi xəlifəyə nə cavab verürüm. Nagah xəlifə gəldi. Əqba ləyin fəryad eylədi. didi: - Ey xəlifeyi ruy-i zəmin, qızı Battal Abdülvahhabı göndərdi oğurlatdı. Xəlifənin canına od düşdü, gözləri qana döndü. Xəlifə Əmirə namə yazdı ki, yetüş nüqət Abdülvahhabı dutub əlini ha ardına bağlayub bana göndərsin. Çün namə Əmirə gəldi, oqudu bənizi qızdı.

Hekayəti Seyyidə bildirdi. Seyyid dəxi Abdülvahhaba bildirdi, didi: - Xəlifə hər nə buyursa əmrinə mutiyəm. Seyyid didi: - Bən dəxi belə gedirəm, tez yaraq edib rəvanə oldular.

Günlərdə bir gün Bağdada gəldilər. Xəlifənün sarayına yetüşüb. Xəlifəyə xəbər oldu kim, Abdülvahhab gəldi. Battal dəxi bilincə Əqba ləyin xəlifənin yanına gəldi, didi: - O, xainlər ki, padşahın xanidaninə qəsd etmişlər, gəldilər. Onlarun yüzlərinə baxmaz buyurdu Abdülvahhabı bağlasunlar. Battala yol verməsünlər içərü girməgə. Tez xəlifə buyurdu cəlladlar tışra çıqdılar. Seyyidə didilər: «Xəlifə belə buyurdu kim Abdülvəhhabın əlin bağlasunlar. Sizə də yol yoqdur içərü girməgə. [100[a]] Seyyid acığlanub gözləri qan ilə doldu. Abdülvəhhab açub içəri girdi. Səlam verdi, gördi xəlifə yüzün yerə verib oturur. Xəlifə buna heç iltifat eyləmədi. Seyyid didi: - Ya, xəlifeyi-zaman peyğəmbərimizsən, günahımı məlum eylə, andan sonra nə bilürsən eylə. Xəlifə didi: - Rəvamudur, mənim xanidanıma qəsd edüb, xayın olasuz. Qeysərün qızını bana göndərdün, Abdülvəhhabı göndərüb oğurlatdun. Seyyid didi: - Haşa, mənim bu işdən xəbərim yoqdur. Abdülvəhhab didi: - Ya xəlifeyi-zaman peyğəmbər, bana nişanələr vermüşdür. Ol mənim oğlumdur, dimişdür. Kərəm ilə mədət et. Başqalarının sözünə uyma, bu igidin xatirin yıkma. Bu sözlər cümlə iftiradır. Ömrümdə pəs xəyanət eyləmədim və eyləməzəm. Əqba ləyin didi: - Ey Battal, qızı sevdüm, göndərdün yenə oğurlatdun. Abdülvəhhab and içdi ki, mənim bu işdən xəbərim yoxdur. Əqba ləyin didi: - Belə buyurmaqla məlum olmaz. Abdülvəhhabın əlin bağlasınlar, boynun ursunlar ki, bu işi aşkar olmuştur. Cəlladlar qılıncları çəküb irəlü gəldilər. Seyyid sıçradı cəlladın qılıncın əlindən aldı didi: [101] - Şəha, bunun günahın isbat eylə. Andan sonra öldür. Əqba ləyin fəryad eylədi kim xəlifə yüzünə qılınc çəkdün imdi qanın haldır. Didi:

- Bən kimsəyə qılınc çəkmədüm, qılıncı zalım çəkər, bən zalım degiləm əlindən aldum, didi. Pəs sən otur bən va-

rub qızı axtarum, didi.

Əqba didi:

- Sən əyarsan, çox fikirlər bilürsən necə ki Abdülvəhhabı göndərüb, qızı oğurlatdun. Seyyid didi: - Əqba yavuz sözdən xəbərdarsan. Bən Allaha sığınıram didi. Qırq gün bana möhlət verün. Əgər qırq gündə bən qızı bulub gəlməsəm, sən halı olarsan. Cümləsi məsləhət gördülər, Abdülvəhhabı zindana qoydular. Seyyid andan sürüb Malatiya gəldi. Hekayətin bildirdi. Yaranlar məlul oldular. Seyyid yaranlar ilə himmətləşdi. Canə məbdəl əzm Rum eylədi. Bir neçə gün getdi. Bir gün çaşə vəqti bir kişiyə uğradı. Əldində bir supurgə o biri əlində xəlbir yolundan çıxdı. Seyyid ardından yetüşüb didi: - Sən məgər Məhəmmədilərdənsən, cəsussan? Ol kişi didi: - Haşa ki, casus olam, bən bu köydənəm buğda almağa gedirəm, didi. Seyyid [101[a]] didi:

- Hərzə söyləmə, bir qamçı urdı. Qəsd eylədi kim öldürə. Ol kişi didi:

- Ey igid, sən bizi öldürmə, doğru söyləyim. Seyyid didi: - Söylə. Ol kişi didi: - Qeysərin cəsusuyam. Əqba qazıya namə aparuram, didi. Yalan söylərsən, inanmazam, didi. İnanmırsan bu da naməm. Süngüyə qoymuşdu. Çıqarub. Seyyidün əlinə verdi. Namədə yazmış kim Sən qız qarındaşımızı göndərdün bana yetüşdi. Dənizdə bir iyi bina eylədüm, içində qoydum. Yüz bin Battal ola dəxi ələ düşməz. Seyyid didi: - Nə xəbər bilursən? Didi: - Dəxi xəbər yoqdur. Seyyid qılıncı çəkub didi: - Bən Battalam, tez iman ərz qıl, yoxsa öldürrəm. O ləyin fəryad eylədi. Başını çaldı, iki parə eylədi. Naməni alub getdi. O gedən getdi. Sabahdan gördü dəxi bir kişi gedür. Seyyid didi: - Varub görüm nə kişidür. At sürüb didi: - Handa gedirsən? Şayəd Muhammədilərin cəsusu olasın? O kişi, eşidüb didi ki, mən sən deyən degiləm. Seyyid didi: - Doğru söylə, yoxsa öldürrəm. didi: - Adım Şamil məzirdur. Əqba qazı yanından gəlürüm. Qeysərə namə aparuram. Seyyid didi: - Naməni göstər. Kafir naməni çıqardı, [102] Seyyidün əlinə verdi. Seyyid naməni

oxudu, gördü yazmış ki, «Zinhar qızı mundə gəturmə, Zinhar hazır olasən» dimiş, «altı ayət incildən yazasan qızın boynuna bağlıyasan ki, Battalın şərindən əmin olsun», naməni oqudı. O kafirə didi: - Tez müsəlman ol! Yoxsa, səni öldürrəm. Ləyin hərzə didi. Seyyid başını kəsüb kafirin surətinə girdi, rəvan oldı.

Qeysər yanına gəlüb naməni verdi. Qeysər oquyub güldü didi:

- Qızı Battal handa bulur. Xadimə didi al bu kişini qızın yanına apar görsun ki necə sərb yerdədür. Hüsn ol incili öz əliylə bağlasun. Seyyid xadim iylə gəmiyə minüb getdilər. Nəzər edüb gördü bir köşk. Xadim dəmir qapunı urdı gəlüb açdılar. Bir göndən nərdivan gətürdilər. Seyyid xadim yuqarı çıqdılar.Gördülər kim qız təxt üstündə oturmuş başına bir tac vurmuş mahi-təbanə bənzər. On qarabaş kəniz qarşusunda əlləri bağlu dururlar. Xadim naməni verdi qız alub oqudu. Ol incili öpdü başına qoydu. Əqbanı sordu. Seyyidə altun verdi. Seyyid gördü ki, durmaq məqamı degil xadiminin boğazını dutub, boğdu. Qılıncı çəküb, ol qaravaşları öldürdü. Dayəsi anı görüb iman gətürdi müsəlman oldı. Qızı bağladı, hər nə ki, var idi altundan, gümüşdən iki sanduğa qoydu.

Gecə əlində qızın ağzunu yayluq iylə bağladı, alub Aşaqə endi. Yetüşüb gəmiyə mindilər, gəlüb kənara çıqdılar. Tez üç at gətürdi. Birinə dayə bindi, birinə ğız, birinə mal yüklədi rəvan oldular. Heç yoldan getməyüb, on iki gündə Malatiyaya gəldilər. Yaranlar görüb, şad oldular. Hekayətin bir-bir didi. Namələr ki, Əqbanın, Qeysərin yazılarını oqudular. Əmir yaranlara zəhəri, ol məlun verмədisə bu fitnənin ki ol məlun eyləmüşdür. Görərsüz ol məlunun canına nələr eylərəm deyüb, Seyyid getdi.

Otuz yeddi gün keçmişdi bu tərəfdən Əqaba ləyin xəlifəyə didi: - Budur, otuz yeddi gün tamam oldı. Battal gəlmədi, məlumdur Battal qaçmış, buyurdılar. Abdülvəhhaba [102a] üç gün siyasət eylədilər. Dar ağacının və Qeysərin iş-

gəncəsindən Abdülvəhhabın vücudunda yaralar açıldı. Sonra buyurdı meydan içində ağ saqqalı toza qərq olmuş dəst kəndirə bağlu gətürdilər.

Didi: - «Bağdad qövmi, Əqba bana böhtan eylədi. Seyyid Battal qırq günə kibi gəlürəm» deyib vədə eylədi. Bu gün vədə tamam olur. Bu kişi, bu gün səbr eyləsün, əgər gəlməzsə özü bilsün, hər nə eyləsə, eyləsün. Ol nam cümlə rəva gördülər. Əqaba didi: - Yoq olmaz.

Bu tərəfdən bir gecə Seyyid yatmışdı duş gördü. Həzrət Rəsulu gördü. Seyyid ayağınə düşür, Rəsul Həzrət ayıdır: - Ey cigər guşəm, tez dur, Bağdada yetüş kim, Əqba ləyin mənim Abdülvəhhabımı həlak eyləməsin. Seyyid tez durub qız ilə dayəni alub rəvanə oldılar. Sabah namazı qatında Bağdada yetüşdi. Gördü kim meydanda çoq cəmaət yığulmuş. Abdülvəhhab qızıl qanə qərq olmuş boğazına kəmənd salmışlar. Seyyid bunı görüb «ah» eylədi, didi: - Görürsiz, ol mübarəkə nə cəza verirlər. Ol dağdan aşaqə enüb bir nərə urdı ki, Bağdad qövmi sərasim oldular. Nagah qız, dayə Battal çıqub gəldilər. Əqba onı görüb tez xəlifə yanına gəlüb didi:

- Gördünüzmi Battal işlər işləmiş. Budur qızı gətirdi. [103] İsbat oldı ki, qızı Abdülvəhhab oğurlamış. Bəs anı asmaq gərək, didi. Çün Seyyid dar ağacının dibinə gəldi. Atından enüb, Abdülvəhhabın əllərin açdı. Miskin Abdülvəhhab Seyyidün ayağınə düşüb ağladı, didi: - Ol məlunu gör kim, bana nələr eylədi. Əcəbdir ki, bu işlər avaz eyləmiş ola. Seyyid didi ki, bən yəqin bilməmişəm ki, kafir imiş və bu işləri də ol eyləmüşdür. Bəs gör kim anın canına nələr eylərəm, dərhal buyurdu. Abdülvəhhabə işarə eylədi yaraların bağlasınlar özü buyurdu. Xəlifə yanına gəldi. Səlam verdi. Yüz yerə qoydu didi: - Ey xəlifə, niçün ol kafirin Sözü ilə pirqərinə Məhəmmədün yüzün görmüş olana bu qədər əzab edürsən, vədəmiz tamam olmamış? Allah-təalanın Həzrətinə necə cavab verərsən? Bən varub qızı İslambuldan gətürdüm. Pəs xəlifə şərmsar olub, başın aşağa saldı. Sey-

yid didi: - Ya xəlifə bu işləri bu məlun eyləmiş, qızı bu oğurlayıb rəvanə qılmış və xəlifəyə zəhəri bu kafir vermişdür. Əqba ki bu sözləri eşidüb, fəryad eylədi, didi:

- Ey müsəlmanlar, görürsüz bu fitnəni ki, padşahın xanədanına qəsd eylədi. [103[a]] Bunun kibi sözləri bu söylər, ol qızı oğurladı. Gördi ki, Abdülvəhhab həlak olur, yenə gətürdi. Barı, günahını bilüb tövbə elə. Xəlifənün ayağına düş, günahını de.

Seyyid didi: - Ey bihəya, utanmaz kafir gizlün din dutursan. Ömrünü küfr ilə keçürdin. Haqq-təala ən uca padşahdur, didi kim səni rüsvay eyliyənlə dutuşdun. Gör bən dəxi sənin canına nələr eylərəm. Əqba ləyin bundan durub, didi: - Ey əhli Bağdad! şahid olun, bu kişi bana kafir didi. Bu fitnələri cümləsin bu edir kim, bizim aramıza bir fitnə salır deyüb, yağlığun yüzünə dutub hey-hey ağladı yenə didi: - Ey müsəlmanlar, rəvamıdır bu kişi mənim haqqımda kafir deyə? Bən iki rükətdə yeddi məshəf xətm eylərəm. Yeddi kəz piyada, həcc eylədim. mənim haqqımda «kafir» deyə, bana «kızı İstanbula sən göndərdin» Qeysər ilə Bənim nə işiməki bu kibi işlər eyləyim, didi. Ey xəlifə özün bu kişidən bənim haqqımı al, yoxsa, qiyamət günündə yaxandan yapışarum. Cümlə Aqbanın sözünə heyran oldular. Cümləsi Seyyidün yüzünə dönüb, didilər: - Ey pəhləvan, rəva [104] degildir bunun kibi sözləri söyləmək. Qızı sən apardın, yenə gətirdin. Barı üzr dilə, nə lazımdur belə sözləri demək. Dünyaya bunun kibi alim gəlmədi. Bunun haqqında iftiralar lazım degil.

Seyyid didi: - Hər kim bunun ardınca namaz qıldısa qəza etmək gərək. Sonra ol namələri çıqartdı xəlifənin əlinə verdi. Xəlifə oqudu bənizi qızardı, didi: Əqba, bu nə əhvaldur. Öz xəttin ilə yazmısan ki, «qızı yaxşı saxla. Battal onu istəməgə getdi». Qeysərə yazmısan. Əqba didi: - Ey xəlifə, bu kişi əyardur. Hər kimin xəttini derlərsə, yazar. Ol xəttə inanma. Seyyid sonra xəlifəyə Qeysərin naməsini verdi. Gördü yazılmış kim «qız bizə vasil oldı. Dənizdə bir yer dü-

zəltim, heç ona yol çarə bilməz» Yenə ərzlər eyləmiş kim bu yaxşıluq sən bana eylədün məqsədini İsa Ruhullah yerinə gətürə. Çün xəlifə anı gördi didi: - Bən səni müsəlman bilürdim, sən xub kafir imişsən. Xəlifə cümlə əhvalı xalqa bildürdi. Bəglər vəzirlər əcəb qaldılar. Əqba didi: - Haşa! bu sözlər gercək deyildir. Xəlifə buyurdı: - Qızı gətürün.

Qız gəldi. Yerdə ardında oturdu. Xəlifə didi: - Doğru söylə, İslambula səni kim apardı. Qız didi: - Yəni Battal oğurladı. Əqbanun [104[a]] bu işdən xəbəri yoqdur. Əqba didi: - Gördüz müsəlmanlar bəni yoq yerə həlak edirdilər.

Seyyid didi: - Varun, incili gətürün, qıza verün. Gətürüb verdilər. Açdı. Məryəm surəsindən beş ayət qıza, oqudı. Seyyid didi: - Bu ayətlər səni dutsun əgər dimədən. İmdi söylə ki, bən səni nə yerdən gətürdim. Qız çün beş ayət incili gördü didi: - Ey cəmaət, doğru söyləyirəm. Battal ilə Abdülvəhhabın bu işdən xəbəri yoqdur. Bəni İslambula Əqba göndərdi. Battal gəldi, xadimi, qarabaşı öldürdi, dayəmi müsəlman eylədi. Məni aldı gəldi. Mənim bildügim budur ki, didim. Əqba fəryad eylədi ki, «qız Battaldan qorqdu, sözünü unutdı».

Seyyid didi: - xəlifə, bana rüsxət ver, varub bunun sarayını gəzim.

Xəlifə didi: - Məsləhətdür. Seyyid durdu bir neçə alimlər ilə Əqbanun evinə gəldilər nə qədər axtardılar heç bir kafir nişanı məlum olmadı. Ancaq bir müshəf buldılar. Seyyid bu işdə aciz qalub Haqq-təalayə minacat eylədi.

Didi: - Ey xalıq-aləm sana məlumdur ki, bu kişi kafirdir. Bəni bu xalq arasında şərməndə etmə. Qapuya gəldiki qayıdalar, Seyyidün gözü bir qapuyə tuş oldı. Gördü kim bu qapu bağludur. Tez gəldi qoparub açdı, girdi. Gördi kim içəri dolu saman. [105] Seyyid buyurdu, səmanı daşıdılar yerin süpürdülər. Gördülər mərmər döşənmiş. Dərhal çirağ yandırdılar, gördülər bir nərdüban tir, aşağa endilər, gördilər bir qandal asılmış bir yer var və iki keşiş oturur, vəzirlər anı gördü. Seyyid keşişlərin əllərin bağladı.

Ol alimlər anı görüb xəlifəyə xəbər verdilər. Seyyid dəxi gəlüb ol iki rəhbanı gətürdi. Xəlifəyə düa eylədi. Əqba kafir onu gördü. Xalq içində yüzi qara oldı. Xəlifə yerindən durub Seyyidün yüzün gözlərin öpdü üzür dilədi. Seyyidi yanına keçürdi və Abdülvəhhabdan üzür dilədi. Seyyid didi: - Ya xəlifə, imdi bu kafiri bana ver, barı haqqımı bundan allım. Xəlifə didi: - Sən bilərsən.

Xəlifə durdu, öz əliylə iki qulağın burnın kəsdi. Başından araqçını çıxardı. Saçın saqqalın yoldu, yüzünə qara sürtdü. Əqbanın malın saraylar ilə xəlifə Seyyidə verdi və Seyyid dəxi dərvişlərə verdi. Pəs xəlifə Seyyidə, Abdülvəhhaba ağır bahalı donlar və xələtlər verdi. Əqba ləyini üç gün Bağdadı gəzdirdilər. Gözlərinə yüzünə tüpürdülər. Andan sonra Seyyid dəstur aldı. Rüxsət alub xəlifə ilə vida edüb Əqbanı götürüb Malatiya gəldilər.

Əmir, yaranlar [105[a]] qarşu gəlüb görüşdülər. Şəhərə daxil olub Əqbanın hekayətin şərh eylədi, eşidüb əcəb qaldılar. Əqbanun yüzünə tökülüb lənət eylədilər. Seyyid buyurdu. Yenə şəhəri gəzdirdilər və yuzünə tüpürdülər. Seyyid didi: - Ey Əqba, imanə gəl müsəlman ol, səni azad eyləyim. Hüsnü canını cəhənnəmdən xilas eylə. Qəbul eyləmədi didi: - Qeysərə namə yazub göndərim, məni satın alsun. Seyyid buyurdu: - Yaz.

Əqba yazdı ki, «İsa Məshin hörmətinə və dəxi sənin üçün rüsvay oldum. Bana imdi dəstəgirliq eylə, mundan qurtar kim, sana çoq vəfa qılmışam. Bana rəhm edüb satun al yoxsa, bəni əzab ilə öldürərlər».

Bir kafir tapub naməni əlinə verib göndərdilər. Çün namə Qeysərə gəldi. Naməni oxuyub ağladı. Bu hekayəti bəglərinə bildurdi. Cümləsi didi: - Hər birimiz də paramızdan verək, yoxsa, biz havadarımızı Battal əlində qoymanuq.

Pəs on min altun mərsəli on qılıncı on bədovi at iki yüz qaravaş verdi öz vəzirinə qoşub göndərdi.

Günlərdə bir gün gəlib Malatiyaya yetüşdilər. Seyyid

Əmirə didi: - Sən bu malları al, o ləyini onlara ver. Məni sorsalar deyün, xəstədür zira ki, bən anları görməyüm. Əmir malı alub, Əqbanı onlara verdi. Alub rəvan oldılar. Seyyid bunlarun ardınca suvar olub yetüşdi [106] gördi ki, bir ağac dibində düşmüşlər. Seyyid gördi ki, iki kişi gəlür. Sordu ki,

- Nə kişisən? Didilər: - Əqba adamıyam, Qeysərə namə aparuram. Yazmış kim «şəha, sənin sayəndə Battal əlindən xilas oldum. Qeysər dəxi namə yazmış kim, «Sən mənim babamsan. Əgər Bağdad qadessən bunda tamamət Rum səninkidir». Seyyid ol naməni aldı. Ol iki kafir öldürdi. Anın surətinə girdi. Sorub Əqbanın yanına gəldi. Qeysərün naməsin Əqbaya gətirdi alub oxudu. Şad oldı. Ol gecə Seyyid Qeysərün vəzirin və rəhbanları öldürdü. Əqbanın boğazına ip taqub rəvanə oldu. Əqba didi: - Sən bəni satdun. İmdi neçün dutursan. Nə qədər didi, çarə olmadı. Seyyid didi: - Ey məlun, sənin ilə mənim işim çoqdur. Heç bilürsən bana sən nələr eyləmisən?

Aldı Şəmas dirinə gəldi. Qapunı dögdi. Şəmas gəlüb Seyyidi gördi, görüşdilər. Əqbanun burnu və iki qulağı kəsilmiş, boynuna kəmənd salmış yüzünə tüpürüb və bir neçə sillə urdı. Şəmas didi: - Ey pəhləvan, sana qızmışdım, məlul olmuşdım, bu məlunu satmışsan sən, deyü.

Seyyid didi: - [106[a]] Bunu eyləmi qoyaram, gərək kəsim necə bana əzablar edübdür. Şəmas didi: - Haşa, kim bunı diri qoyarsan. Çün sabah oldı Şəmas ilə vida edüb, Əqba yanına şəhərə gəldilər. Əqbayə çox cəzalar eylədilər.

Yenə Əqba didi: - Naməyi yazum, bəni Qeysərə satsun. Seyyid qəbul eylədi. Namə yazub göndərdi. Çün namə Qeysərə gəldi. Yazmış kim. «Azı bir aya nar-ı nur haqqı çün bu dəfə bəni Battalun əlindən satun al».

Qeysər bəglərini cəm edüb Əqbanun xəbərini söylədi. Bunlar didilər kim, «Şaha, biz bir söz deyərük, əgər qəbul eyləsən». Buyurdı kim deyün. Didilər əgər gəncü-qarunı *(var-dövlət - A.R.)* verəsən, anı Battaldan ala bilməzsən.

Battal anı öldürməyincə qoymaz. Qeysər didi: - Pəs necə eyləyim? Didilər: - Cəvab yaz kim istər öldür, istər qoy, bana nə tələqqi. Əgər ol mundə gələrsə bir fitnə salar.

Qeysər dəxi namə yazub göndərdi. Çün namə Battala gəlüb, oqudu məzmunu məlum oldı. Seyyid buyurdı. Əqba diri ikən dərisin soydular. Canı cəhənnəmə getdi. Dərisinə saman doldurub şəhərün qapusundan [107] asdılar. Bir il anda durdı. Rum əhli Əqbanın halın bilüb, cümləsi yas dutdılar. Xəlifə dəxi eşidüb, şad oldılar.

Altı ay bunun üzərinə keçdi. Qeysər Seyyidə ərməğanlar və töhfələr göndərdi. Bir zaman fərağat keçdi.

Əlqissə, ravilərə belə rəvayət edirlər ki, Seyyidün üç oğlu var idi. Biri Bəşir, biri Əli, o biri Nəzir. Amma Əli xub igid idi. Elm okurdı. Bir gün gəlüb ustasına hədiyyə istədi. Evdə nəsnə bulamadı. Cübbəsin və kaftanın çıqarub, oğlanlarına hədiyyə verib. didi: - Ustadınıza verib, ərzlər diləyin, inşahlıqla qəzayə varanda gələrüm, xidmət edərüm, didi.

Xatunı Güləndam didi: - Rəvamudur, sənin kibi kişi aləmdə yoqdur. Bu gün evində heç bir şeyin olmaya verməgə, bir pulun yoqdur, bu şeyləri verirsən. Kişinin yaxşı günü və yaman günü olar bir nəsnə qazanmıyasan? didi.

Seyyid didi: - Ya nabekar, mən eşitdim ki, mənim babam Həzrət Rəsul allaha Əliyi Əsəlləmə hər gün munca altun gəlirdi, kafir xurcunundan. Cümləsin dərvişlərə verürdi. Özü libasından ğeyri nəsnə saqlamaz idi. Əli və Həmzə də eylə edərlərdi. [107[a]] Dünyaya meyil eyləməzlərdi, hər nə eyləsələr allah üçün edirlərdi. İmdi bən dəxi anların nəslindənəm. Bən də nə eyləsəm allah rizası üçün eylərəm. Dünyanı cəm eyləmək bənim əlimdən gəlməz. Nakar didi: - Bəs necədur, Əmir imdi xəzinələr cəm eyləyübdür. Hər gündə iki don geyür.

Seyyid didi: - Sən məlul olma. Bən anın qızın dilərəm. Cəmi mal iylə verər, ol zaman malumuz çoq olur. Güləndam didi: - Sənin nəyin var ki, anın qızın alasən. Yetərincə

mal gərəkdür. Seyyid didi: - Sən heç qüssə çəkmə, bən anın qızın diləröm. Güləndam didi: - Əgər verərsə, xoş ola. Seyyid didi: - İmdi gör, Əmir yanına gedirəm.

Əmir Ömərə gəlib söz açdı, səcdə eylədi didi:

- Ya Əmir, eşitdim malın çoqdur. O kim ahıl allahdır dünyaya sığmaz mal cəm eyləməz.

Əmir didi: - malum varsa nə olur. Bir qızım var, bir ismətli tapum mal ilə qızımı verim. Didi: - Əgər yaxşı igid tapsam sana xəbər edimmi? Əmir didi: - Xəbər elə, verəyim. Seyyid didi: - Bən igid. Əmir didi: - Sənin xatunun vardur, Taryunun qızı, Güləndam. Seyyid didi: - Nə olur bizim Rəsulumuzun doqquz xatunu var idi. Əmir didi: Bəs evə varub xatunumla məsləhət eyləyim, didi. Seyyid didi:

- Xoş ola. Əmir evə gəlub hekayətin Xatununa didi. Övrət fəryad eylədi didi: - Ol qızı nə ilə alur, [108] bir pulu yoqdur, bu sözü söyləmə. Əmir didi: - O handa varsa evlənür. Qız anda hazır idi, didi: - Nə olur, bir övrət dəxi alar. Anası acığlanub bir yumruq qızun ağzına urdı. Ağzı-burunu qan oldı. Əmir didi: - Qızın dəxi meyli varsa, verək. Övrət didi: - Seyyiddən çox şey istər barı anın bir zadı yoqdur verə bizdən xilas olur, özü daxili qüdrətinə didi. Aq fil ki, Hindistanda vardur, qızıl altun çətr köşklü, yüz qızılı dəvə, və yüz ağ dəvə, yüz ərəbi at, hər bir inək üstündə, mürəssəli *(Daş-qaşlı – A.R.)* kəmərlü yüz gözəl qul qaravaşı olsun. Bu nəsnələri istə. Bixud haldır ələ girməz, fərağat oluruq.

Andan Əmir durub Seyyid yanına gəldi. Bunları tələb eylədi. Seyyid dəxi yox demədi. Xoş ola, didi. Bana bir ilədəkin möhlət ver, didi. Bir ilə vədə alub Seyyid evinə gəldi. Güləndama halı bildürdi. Güləndam didi: - Bən sana demədim, ol sana qızın verməz? Yaranlar eşidüb məlul oldular. Məşvərət edüb, Seyyidə didilər, «ya pəhləvan, ol didigi nəsnələr handa olur. Əl tövbə, Hindistana səfər etməyim gərək». Seyyid yarım gecəyə kibi səbr eylədi. Oğlancuqların həlalı ilə və yaranları ilə vida edüb, rəvanə oldu. [108a] Yaranlardan bir neçəsi didi: - Barı bizi də yoldaş eylə birgə va-

ralum. Çarə olmadı.

Seyyid tənha atına minüb rəvanə oldı. Otuz gündən sonra dəniz kənarına yetişdü. Gördü bir çeşmə yanında xoşca *(çəmənlik – A.R.)* mərğzar. Seyyidün ov əti var idi. Ol ov ətin bişirüb yedi.

Andan sonra abdəst alıb, namaz qıldı. Allaha minacat eylədi didi: «İlahi, hacətimi rəva qıl» əlin yüzünə sürtdi. Yuxusu gəlüb yatdı, yuxladı. Nagah qulağına at avazı gəldi, durub gördü kim Xızır Əleyhissələm gəlüb, Seyyidə səlam verdi. Seyyid dəxi ayağına düşdü. Əlin öpdü. Xızr didi: - Tez suvar ol, Seyyid atına mindi didi: - Gözün yumdu, dəxi didi: - Gözün açdı.

Özüni dəryanın kənarında gördü. Şükür səcdəsin eylədi. Bir səhraya yetişdi. Otlaqda zəfəran, qərənfil, zəncəfil, darçın. Seyyid dört tərəfə baxdı. Xızırı görmədi, bir avaz gəldi ki, «Ya Battal, Hindistan budur». Allah-təalaya təvəkkül eylə. Gərəkdir ki, munda çox işlər edəsən. Seyyid yüz yerə qoyub rəvan oldı.

İki gündən sonra bir səhrayə yetüşdi. Gördü bir bağça ətrafı düvar ortasında bir köşk. Seyyid qapısın açdı içərü girüb ətrafın dolandı, heç afəridə görmədi. Atdan aşağa endi, gördü kim meyvə yemişlər. Ol meyvələrdən yedi. [109] Andan sonra, qəsrə gəlüb heç kimsə yoq. Seyyid təəccüb eylədi, aşağa endi. Atın tapmadı. Çoq gəzdi çara bulmadı, bağdan çıqdı.

Bir yol dutub rəvanə oldı. Axşam namazı vəqtində, bir şəhər müəzzəm gördü. Seyyid gəlüb bir köşk üstünə çıxdı. Namaz qılıb, yatdı.

Sübh vəqtində durdu, sabah namazını qıldı, gördü bir kişi gəlür. Xəbər aldı ki, bu nə şəhərdür? O kişi didi: - Buna Tantəniyyə derlər. Durdu qapıya gəldi. Gördü kim qapu bağlıdır. Bir dəm tövür durdu qapu açıldı, içəri girdi kim, şəhərin bəgi durub tez qulu ilə çıqub gəldi. Adına Məhrasib derlər idi. Çün Seyyidi gördi ki, bir mərdanə igiddür quluna işarə eylədi ki, ol igidi evə apar. Mən gəlincə, xoş saxla.

Qul Seyyidin yanına gəlüb didi: - Dur, padşah səni öz məqamına buyurdı. Seyyid didi: - Padşah nə dindədür? Qul didi: - Bütpərəstdür. Bir bütü vardır, qızıl altundan. Qırq batmandur mücevvef turassədir. Heç padşahın bunun kibi bütü yoqdur. Seyyid didi:

- Nə hərzə söylərsən. Tanrı oldur ki, cümlə-aləmi yaratdı və rəzzaq verür sənə. Padşahın butpərəsimiş bən kafir qapusuna getməzəm.

Qul Seyyidə güc eyləməgə başladı. Seyyid qulun iki qulağın qupardı, əlinə virdi, didi: - Var ol, bütünə söylə qulağını [109a] yaxşı eyləsün. Qul bu halı görüb, fəryad eylədi. Xalıq yığılub həmlə eylədilər. Seyyid ol gün, on səkkiz kafiri öldürdi, qul tez gedüb padşaha əhvalı bildurdi.

Ol məlun dəxi acığlanub sordu. Seyyid yanına gəldi. Çağırdı kim qoymayın tir-baran eylədilər.

Seyid zəhmli oldı. Qan axdı, axşam oldı, Seyyid özü ləşkərdən oğurlandı. Çıqub getdi, bir viranəyə gəlüb bir divar dibində yatdı. Şəhəri nə qədər axdardılar tapa bilmədilər. Padşah əcəbə qaldı evinə gəldi. Bir vəziri var idi.

Behnam didi: - Əcəb bu nədür? Divmüdür, yoxsa pərümüdür. Hər kəs belə adam görmədim, didi.

Ol gecə vəzir, peyğəmbəri duşunda görüb iman gətürdi. Müsəlman oldı. Həzrət Rəsuləleyhi vəsəlləm didi: «Ya Behnam, ol savaş eyləyən mənim cigər guşəmdir. Filan yerdə yatur. Var oğlunlə anı şəhərə gətürün. Tümar eyləyün. Əgər istəyirsüz ki, mənim şəfaətimdən [110] məhrum olmıyasüz».

Vəzir oyanub gördü ki, evinin içi nur ilə dolmuş, özü dəxi bir nur olmuş. Oyanan vəqtə oğlu qapuyı döydü. Soruşdu ki, atam oyağdur? Atasına xəbər oldı.

Atası didi: - İçəri gəlsün. İçəri girüb didi:

- Baba, bu gecə Həzrət Rəsulu duşumda gördüm. Bana didi: - «Ol sizün ilə cəng edən mənim oğlumdur». Necə ki, atası görmüşdü, oğlu da eylə gördü. Vəzir dəxi öz yuxusun didi.

İkilikdə dəxi durub qapuya gəldilər. Kilidə əl urdular kim balta ilə pozalar, kilidlər qırıldılar, qapu açıldı. Tışra gəldilər, Seyyidün yanına. Gördilər bir daş başı altında qoyub yatur. İrəlü gəlüb səlam verdilər, didilər: - Necəsən, ya Rəsul allahın oğlu? Seyyid durub didi: - Siz kimlərsüz? nə bilürsüz, bən Rəsulun oğluyam. Bunlar gördükləri vaqiəni şərh eylədilər. Seyyidi alub, şəhərə gətürdilər. Yaraların xoşluqla bənd edüb bağladılar, Gül yağın sürtdilər. Seyyidə təam gətürdilər, yeyüb, bir az yatdı, yuxladı. Çün sabah oldı, gördü vücudunda heç ağrıyan yer yoqdur. Sağalmış. [110[a]] Haqq-təalaya şükür eylədi. Abdəst aldı, namaz qıldı. Vəzir gəlüb, Seyyidi sağ gördü, ağladı. Dəxi möhkəm ol, didi: - Xudavəndа, əgər buyursaz, padşah yanına varum, şayəd ki, dəlalətdən qurtara. Seyyid didi: - Məsləhətdür. Vəzir padşah yanına gəldi. Məhrasib didi: - Əcəb gəldün. Mənim bütümə İkram etmədin? Vəzir didi: - Yoq Allah, oldur ki, cümlə nəsnələri ol yaratdı. Ol Allahın əvvəli-axırı yoqdur. Padşah didi: - Ya vəzir, əcaib sözlər söylərsən. vəzir didi:

- Ey igid, gördüm ol savaş edən kişini, anı dəxi buldum gətürdüm. Padşah didi: - Ey vəzir, anı bir gətür görəlim nə var. Vəzir oğlun göndərdi. Seyyidi padşahyanə gətürdi. Vəzir dərhal yerindən durub gəldi. İkram eylədi. Seyyidə səlam verdi, yer göstərdilər, oturdu. Seyyid araya söz salub didi:

- Şaha, öz qulunı çağa vəqtindən bəsləsən və malını xərc eyləsən, aqibət ol qul səndən yüz çevirsə, bir uzaq padşah yanına varsa, səni yadımasa, yenə əlinə girsə, ona neylərsən? didi: - Qanın tökərəm, öldürrəm. Seyyid didi: - Pəs Allah-təala səni topraqdan yaratdı sana padşahluq verdi, bunca əlvan-əlvan nemətlər verdi. Dəxi yüz kişi ona bir Daş [111] uracaq. O isə dəf edə bilməz. Bir nacis yerə vursa, anda qalub arayırsan, xərab olur. Ol necə tanrı olur ki, sən ona baş vurursan? Çün Məhrasib Seyyidin bu sözlərin eşitdi, heyran qaldı, didi: - Ey igid, sən nə əcəb sözlər söylədün.

Seyyid didi: - Barı bir büt götürün görüm ol dəxi nə söylə-yur? Şah buyurdu, xadimlər varub, bir büt gətürdilər. Nəfis donlar geydirmişlər. Yüzini buxura salmışlar. Məhrasib və bəglər qarşu varub yüz yerə verub bürgəi yüzündən götür-dilər. Seyyid dəxi nəzər edüb gördü ki, gözləri gövhərdən, dodaqları ləldən, dişləri dürdanədən. İçi məhyuf edib müş-kənbər ilə doldurmuş. Məhrasib ayidır: «Ey mənim məbu-dum neçə illərdir kim, sana baş verəyim. İmdi bir kişi gəlüb məni səndən məni edir. Bu nədür, nə buyurursan nə?» Əhli büt hərəkətə gəlüb, avaz virdi ki, ey Battal əyyar, Rum vi-layətini xərabə verdün, istəyirsən imdi bu vilayəti xərab edəsən. Çün Seyyid bütdən bu sözü eşidüb, Seyyid dəxi Ayətəl kürsini oqudu üfürdi allahın qüdrətilə büt söyləməz [111[a]] oldu, titrədi. Nagah büt yüzü aşağa düşdü, para-para oldı. Hər bir parasından avaz gəldi kim, «la-ilahə illallah, Məhəmmədən Rəsulallah.

Mehrasib çün bu halı gördü, vəzirə didi ki, bu kişi nə didi ki, mənim bütüm yıxıldı, vəzir didi: - Allahın adın oqu-du, büt batil oldı. Məhrasib didi ki, «bənə məlum oldı ki, kişinin dini haqdur», ol qul dəxi ağladı, «anda imiş» Seyyi-dün ayağına düşdü didi: - Ol bütə oquduğun nəsnəni qula-ğıma oxu, qulağım sağalsun. Seyyid ağzın ol qulun qulağı-na qoyub surəh fatehəni oxudu. Qulun qulağı xoş oldı. Məhrasibin etiqadı dəxi xoş oldı. Xaliqləri, bəgləri dəxi heyran oldular. Seyyid didi: - Dəxi nə deyirsüz iman gətü-rüb müsəlman olun, didi.

Məhrasib: - mənim bir müşkülüm vardur. Çün bir qı-zım vardı, bir div anı apardı. Əgər o qızı div əlindən xilas edüb gətürsən, onu bən dəxi elim və vilayətim ilə müsəlman olaram.

Bəhnam vəzir didi: - Ol üçü divdir. Birinə Ancaf dirlər, birinə Azraf, birinin adın bilməzəm. Seyyid vəzirə didi:

- Sən bənimlə gəl görəlüm, Allah neylər. Seyyid vəziri ilə rəvanə olub, [112] dördüncü gün bir yerə gəldilər. Bəh-nam didi: - Ol zəngi munda olur. Seyyid didi: - Allah versə,

öldürrəm. Nagah bir avaz gəldi ki, «hey munda neylərsüz? Bu yerdən mənim qorqumdan quş keçməz».

Seyyid gördü bir qaradağ kibi qırq arşun, qəddü-qaməti var, bir dağa bənzər, dəgirman daşını bir ağaca keçürüb, amud *(uzun saplı nizə, cida - A.R.)* eyləmiş... Seyyid atın vəzirə verdi, özü Ancafa qarşu vardı. Ancaf amudu Seyyidə həvalə eylədi. Seyyid sıçradı. Ancafın ardına keçdi, mizraq yerə toqundu. Amudun başı yerə batdı, vəzir ah eylədi, didi: - Nazənin Battal, ol amudun başı altında qaldı. Öz halından getdi. Seyyid divin ardından bir nərə urdu, div baxınca qulağın tüzünə bir yumruq urdu. Yeddi addım yer maallaq yıxıldı. Seyyid köksünə çıqdı, xəncər ilə boğazın kəsdi. Dərhal Seyyid gördü ki, bir qarı div çıqub gəldi, başı donuz başı kibi, qulaqları fil qulağı kibi, pəncələri aslan pəncəsi kibi, quyruğu əjdəha quyruğu kibi. İki aslanı iki əlinə almış. Bu iki aslanı bir-birinə urub, para-para eylədi. Kəbr kəz heybət ilə çağurdı ki, Ey Battal, mənim qəsdimə gəldün, gör imdi sana neylərəm.

Bir Sənubər ağacına [112[a]] bir dağ kibi daşı dəlüb keçürmüş əlinə alub, Seyyidə həvalə qıldı. Seyyid sıçrayub gerü durdı. Ol mizraq yerə doqundı. Ancaf öldü. Didi: - Ey Battal yat, imdi sana bu gərək idi. Seyyid ardundan bir nərə urdı. «Hey öldüm» deyincə, Seyyid qoltuğunun altından tiği-səxxak ilə elə çaldı ki, tazə xiyar kibi iki parə eylədi, öldürdi.

Bir dəmdən sonra qızlarun əqli başına gəldi. Gördülər kim divin işi təmam olmuş, yatur. Seyyidin ayağına düşdülər. Seyyid didi: - Məhrasibin qızı hansudur? Gətürdilər, Seyyidün ayağına düşdilər. Seyyid dəxi divin başını kəsdi, qızları müsəlman eylədi. Alub dəniz kənarına gəldi. Ol baluq gəldi didi: - Seyyid bənim bir əmanətim vardur. Seyyid didi:

- Nədür? didi:

- Həzrətin türbəsinə varanda mənim salamımı ona yetürəsən. Qiyamət günü məni, şəfaətindən məhrum eyləmə-

sün. Seyid, qəbul eylədi və dəxi baluqa minüb dəryadan keçüb ol yerə gəldilər.

Bəhnam vəzir məlul otururdı ki, «aya, Seyyidün halı necə oldı». O halda səkkiz qız iylə Seyyid çıqub gəldi. Bəhnam Seyyidi görüb [113] şad oldı. Seyyidün ayağına düşdi. Divin başını görüb dəxi şad oldı. Seyyid didi: - Ey Bəhnam, bizə atlu gərək. Necə eyləyəlüm? Bir qədər gedüb bir köyə uğradılar. İçərü girüb gördilər bir çəmən səhra dört yüz at var. Aşqar dəxi anlar ilə. Seyyid şad oldı. Aşqar Seyyidə qarşu gəldi. Seyyid Aşqarı dutub gözlərindən öpdü. Vəzir anı görüb heyran qaldı.

Ol atları, dutdular və ol mallarun götürüb yükləri, qızları dəxi atlara mindirdilər. Dönüb rəvanə oldular. Doqquzuncu gündən sonra Azrafa gəldilər. Azraf Seyyidün ayağına düşdi, şad oldı. Ol divin başını görüb dəxi şad oldı. Azrafın gözü Kəşmirin qızına tuş oldı. Seyyiddən ədəb ilə istədi. Qızın meyli oldı. Seyyid nigah edüb Azrafa verdi. Andan getdilər, dördüncü gün Ancafa gəldilər. Ol dəxi Qiravan şahın qızına aşiq oldı. Qızun meyli oldı. Anı dəxi nigah edüb, Ancafa verdi. Andan vəzir bir adam irəlü göndərdi. Gəlüb Məhrasibə xəbər eylədi. Qayətdə şad oldı. Cümlə ləşkər ilə Seyyidə qarşu getdilər. [113[a]] Məhrasib Seyyidün ayağına düşdü didi: - Ey sərdar, bu sən eyləyən hünəri heç kim eyləməz. Məgər bunun əvəzin sana Allah tala verə.

Azrafı Seyyid şəhərə gətürdi. Divin başını qələyə asub qoydular ol qızlarun ataları bu xəbəri eşidüb gəldilər. Qarı div başına, tamaşa eylədilər. Hər kəs öz qızın alub Seyyidə dua edüb getdilər. Andan sonra on səkkiz şəhərün xəlqi bəglər iylə müsəlman oldılar. Seyyidə cümləsi düa eylədilər. «Bu zalim divin bəlasından bizi qurtardun», didilər. Dəxi ol qızlarun hər birisini hər kim sevərdi, o istədi Seyyid öz əliylə nigah edüb, verdi.

Andan sonra Behman vəzir didi: - Ya Xüdavənda, cümləsinin muradın hasil eylədün. Mənim dəxi bir muradım var o məram ki yoq demiyəsən. Seyyid didi:

- Hacətin nədür? Didi:

- Oğlum Məaz üçün Məhrasibin qızın diləyəsən. İnişallah, Allahtala verər. Çün əvvəldən dimişlər idi. Seyyid bu cavabı Məhrasibə didi, ol saət Məaz üçün nigah qıldılar. Yeddi gün toy edüb, qızı təslim eylədilər.

Andan sonra Seyyid Məhrasibə didi: - Mən bu iqlimə Ağ fil üçün gəlmişəm. İmdi nə yerdə isə bana xəbər verün. Məhrasib an didi: «Ol Heylan padşahın yanındadur. [114] Buradan ona yeddi gün yol vardur. Heylan büt-pərəstdir və mənim düşmənimdür». Seyyid didi: - Bən imdi anda gedirəm. Bana himmət edün, Atına minüb rəvanə oldı.

Səkkizinci gündə bir hündür yerə çıqdı. Aşağa nəzər edüb gördü iki ləşkər bir-birinə maqabil durmuş. İki bin müsəlman səkkiz bin kafir. Müsəlman azdur, kafir çoxdur. Müsəlmanların tək bir avazı gögə çıqmış. Seyyid irəlü vardı. Gördü bir kişi durur. Səlam verib, didi: - Bu nə ləşkərdür? Ol kişi didi: - Bu məğrub ləşkərüdür. Adına qeysər derlər. Ol kafir padşahıdur. Adına Heylan derlər. Büt-pərəsdür qəsd eylədi ki, Qeysəri əlindən çıqart, ol dəxi ləşkər cəm eylədi. Cəng edirlər, didi. Heylandan bir kafir meydana girüb on yeddi müsəlmanı şəhid eylədi. Müsəlmanlardan Xalid meydana girdi. Anı dəxi şəhid eylədi. Andan Qalun hindi meydana girdi. Qaluna bərabər gəldi.Ləyin dəxi həmlə edüb Seyyidə cida urdı. Məni edib cida həvalə eylədi və düa oxudu. Cidadan od çıkub, Qalınu fililə oda yaqdurdı. Bir-birinin [114[a]] ardınca yetmiş kafiri oda yaqdurdı. Meydana dəxi kimsə gəlmədi. Seyyid gördi ki kimsə meydana gəlməz özüni ol ləşkərə urdu. Ləşkər bir-birinə doqundu qırdı, qan sel kibi axdı.

Axşam oldı, Seyyid ləşkərin çıqarub dağın yolun dutub rəvan oldı. Ol iki ləşkər əcəbə qaldı. Seyyid Aşqarı bir yerdə gözlədi. Özi Qeysərə gəldi, gördi bəglər çevrəsində Seyyiddən söylərlər: - Əcəba ol kişi divdür, ya pərimi ola? Bu gün gəlüb müsəlmanlara belə yoldaşluq eylədi.

Qeysər didi: - Əgər ol igid mənim əlimə girsə, təxtimi

ona verrəm. Amma adam degildir, ya firiştədür və ya pəridür. Haqqdan bizə mədəd yetüşdü. Andan durub Heylan çadrına gəldi. Gördü bir əcaib qarə surətli qara ağızlı uzun boylu, başı çadır səqfinə yetişmüş otururlar. Qarşuda bir büt qoymuşlar, ona səcdə qılurlar.

Bəglər söylədilər: «Bir kişi gəlüb munca pəhləvanlarumızı oda yaqdı və bu qədər ləşkərimizi qırdı. Bilmürük bu divmidir, yoxsa pərimidir?»

Seyyid didi: - Hünər vaxtıdur. Seyyid Cidasın əlinə aldı içi məhruq idi. Bir kəz urdu içindən od çıqdu. Heylana toqundı alışdı, fəryad eylədi. Tez əbasını alub bütün üstünə saldı. Büt alışdı. Seyyid tışra gəldi. Hansı çadra ki gəldi od urdı. Üç kərrə nərə urdı. Ləşkərlər çıqdı, bir-birinə doqundı və bir-birin qırdılar.

Çün sabah oldı, gördülər aralarında biganə yoqdur. [115] Ata oğlünu, qardaş, qardaşı öldürmiş. Heylan məlul oldu, acığlanub durdı. O əzəmətli fili yəhərlədilər, Cəng alətin arəstə qıldılar.

Heylan minüb Qeysərə qarşu gəldilər. Qeysər dəxi şad olmuşdı. Ol Şəb-hunlardan xəbərdar idi. Yenə nə haldur. Heylan Qeysərə bərabər gəlüb əzmi meydan eylədi. Seyyid dəxi dağdan enüb Heylana bərabər gəldi. Qeysərdən bir kişi gəlüb Seyyidə salam verdi. Seyyid didi: - Kimsən? Bu didi: - Ya pəhləvan, mən müsəlmanam. Ol qüvvət kim Əmirəlmöminin Əli, bu əyalətə gəldi, qırq doqquz gün bu fil üzərində cəng eylədi, ələ gətürdi və Qeysərün babası Ənqaya Səməndi ol Şir-i Xüda önündə müsəlman oldı. Bu fili Ənqaya bağışladı və Heylanın atası Mənkənuş hindu derlər idi. Bütpərəst idi. Ənqayı qəzəblə öldürdi. Öz xanədarı bu fili Heylana verdi. Atasından bir at qalıbdur. Çün ki Seyyid bu xəbəri eşitdi, filə doğru dönüb çağurdı didi: - Ey fil-i mən o kişinin oğluyam ki, qırq səkkiz gün sənin üstündə cəng eylədi. İmdi əgər anı sevirsən, bu gün bana yar ol, didi. Ol dəmdə fil, Allahın qüdrətilə elə çıqırdı ki, cümlə əhl-ləşkər sərasimə oldılar. [115a] Bir kəz elə silkələndi ki, Hey-

lan mayallaq yerə düşdü. Dutub xortumuna alub, gətürdilər havayə atdı. Alub yerə toqundı, parah-parah oldı. Tez üstə çıqdı, ayağı altında xurd-xam oldı. Fil gəlüb Seyyidün önündə durdı. Atından enüb Seyyid filə mərhəbalar eylədi, Fil dəxi nərə urub, həmlə eylədi.

Bu yandan Qeysər həmlə qıldı. Altımış bin kafiri qırdılar. Seyyid cəng içində Heylanın oğlun dutdı, alub götürdi.

Qeysər bəgləri ilə Seyyidə qarşu gəldilər, əlin və ayağın öpdülər. Heylanın oğlun görüb şad oldılar. Didilər: «Xüdavənda, sən nə kişisən və sənə kim derlər». Seyyid bütlərə özünü bildürdi. halını ərz eylədi. Heylan oğlunı müsəlman eylədi. Qeysər dəxi qızın verdi barışdılar. Seyyid dəxi ol fili aldı. Yüz yük altun və yüz qaravaş və dəxi atdan, dandan, İraqdan çoxlu şey verdilər. Qeysər dəxi Seyyidi alub Məhrasibin yanına gətürdi.

Məhrasib Seyyidə qarşu varub az-az ələ gətürüb, Seyyidə yeddi gün qonaqluq eylədi. Bu dəxi Seyyidə mübalağə çoq mal verdi. Yüklər hazır edüb rəvanə oldılar.

Səkkizinci gündə dərya kənarına çıqdılar. [116[a]] Seyyid didi: «Bu nə məqamdur?» Bir su kənarına gəlüb qondular. Bir kişi tapdılar, andan xəbər aldı ki, Malatiya yolu nə tərəfdədür? Munda Malatiya yoludur. Andan dəxi rəvanə oldılar. Çün yaxın gəldi. Seyyid gördü kim şəhər xərabə olmuş, içində adam yoqdur. Seyyid buna heyran qaldı. Bağlar arasında gəzüb axdardı. Bir kişi gördi. Andan bu şəhərün əhvalın xəbər sordı. Ol kişi didi: «Battal Qazı Hindistana gedəndən son kərə Qeysərə xəbər olmuş, iki yüz bin ləşkər ilə gəldi. Müsəlmanlar Əmirdən yüz döndərdilər, didilər doymazsan dünya malından, o töür sərdarımızı avarə eylədün deyüb ağladılar. Əmir dağınığa qarşu durmadı qaçdı. Qeysər dəxi şəhəri xərab eylədi, adamlarını qırdı».

Seyyid bu xəbəri eşidüb yeyürdü. Şəhər önünə qondular. Əmirə xəbər eylədilər. Gəlüb Seyyid ilə görüşdü və cümlə yaranlar gəlüb Seyyidin ayağına düşdülər. Bir parə ağlaşdılar, sonra şükür eylədilər.

Ol fili, ol çoqluq malı görüb heyran qaldılar. Seyyid dəxi öz sərgüzəştin söylədi. Cümləsi, Seyyidə düa eylədilər Əmir ağladı [117] didi: - Ya Seyyid, ol ki, sənə namzəd eylədiyimüz qızı əsir etdilər. Seyyid eşidüb məlul oldı didi: - Ey yaranlar, yenə bana səfər düşdü. Bən Rumə gedirəm, siz bu malları götürün. Şəhri imarət edün, amma əvvəlkindən yaxşı düzəldün.

Özü camə təbdil qılub, rəvanə oldı. Yetmiş iki para qələ, on iki parə şəhəri gəzdi, qızdan kimsə xəbər vermədi. Şəhri Laloikəyyə gəldi, gördi bir ğalabaluq var. Atını bir yerdə pünhan eylədi. Özi durub şəhrə gəldi. Bir kişidən sordu ki, bu nə ğavğadur? Ol kişi didi: - Qeysər Malatiyanı xərab eyləyəndə Battalın bir övrətini əsir eyləmişlər, imdi anı Bəhmən oğluna verürlər. Toy dügün eylərlər. Seyyid bu xəbəri eşidüb gördi kim çala-çala alub gəldilər. Qəlini seyr edüb aparub gərdəgə qoydular. Çün Seyyidün önündən geçəndə diqqət edüb qızın gözi Seyyidə sataşdı. Seyyid istədi qəsd eyləyə atından qapub gətirə, fikir eylədi ki, «hələ səbr eylə», qız keçüb getdi. Ardınca Bəhmən gəldi.

Seyyid bir irəlü varub Rumiyanə bir mədh oqudu. Bəhmənə xoş gəldi. Ol igidi alun, qələyə [117[a]] gətirün. Seyyidə didilər: - Adın nədür? Didi: - Abdülməsihtir.

Aldılar, gəlini gərdəgə gəldilər. Battalı söylədilər. Eyşə məşğul oldular. Battalın goruna didilər. Didi: - Hərzə söyləmə, ol didi: - Məgər sən Battalın havadarısan? didi: - Vəlidəm, mən. Əqba qazının oğlu Vəlidəm. Görmüşəm hər yerdə ki anı söysələr hazır olur. Seyyid bu sözləri eşitdi. Vəlid durub rəvan oldı. Seyyid dəxi ardınca getdi. Dalusuna baxub Seyyidi gördi, tanıdı. Gəlüb ayağına düşdi didi: - Ya pəhləvan, bəni müsəlmanlıqa çıqart, bana doğru göstər. Seyyid didi: - Bən sana necə inanum? Didi: - Necə deyirsən. Seyyid didi ki, bən dilərəm qızı ələ gətürüm və oğlunun işin tamam edim. Vəlid didi: - Mənim ilə gəlün. Yerüdilər bir saraya gəldilər. İçəri girüb gördü Bəhmən sərxoş yatur, başın kəsdi. Seyyid didi: - Qız hanı? Vəlid didi: - Qız anda de-

gildi.

Bunlar bu sözdə ikən qız çıqub gəldi. Seygidin ayağına düşdi. Hər nə kim ağdan, qızıldan var idi, aldılar. [118] Üç at gətirdilər. Birinə Vəlid, birinə qız mindi və birinə mal yüklədilər. Seyyid dəxi öz atına mindi. Rəvanə oldılar.

On səkkizinci gündə Malatiyaya gəldilər. Yaranlar qarşu çıqub görüşdilər. Yeddi gün toy edüb, Əmir qızın əqdi-nigah edüb, Battala verdilər. Seyyid xeyli mala fili xəlifəyə göndərdi. Xəlifəyə yetişdü əzim şad oldı. Seyyidə dəxi yaxşı xələtlər göndərdi. Malatiya şəhərin əvvəlcədən yaxşı memar eylədilər. Cümləsi Seyyidə düa edüb, oturdılar. Bir zaman belə keçdi.

Ravilər rəvayət edirlər ki, Vəlid bir gün Seyyidin evinə girdi. Seyyidin övrəti başın tarardı, Vəlid gördi aşiq oldu.

Bir zaman keçdi. Bir gün Seyyid ilə Vəlid bağa getdilər. Bağa yaxun gələndə Vəlid didi: - Bağın muftahın unutmuşam. Seyyid didi: - Tez var gətür. Vəlid evə gəlüb Fatiməyə didi: - Seyyid sizi istəyir, didi tez gəlsün. Övrət atlanub Vəlid iylə rəvanə oldılar. İma *(işarə ilə anlatma – A.R.)* ilə şəhərdən tışra çıqdılar. Bir xəlvət yerə gəlüb, [118[a]] Vəlid ləyin atın cilovun dutdı, didi: - Bilurmisən, mən səni munda neçün gətirdüm? Övrət didi: - Yoq. Vəlid didi: - Mən səni sevirəm, gərəkdir ki, muradımı hasil edəsən. Övrət didi: - Hay haramzadə! Nə hərzə söylərsən? Məlun didi: - Əlbəttə, çarə yoqdur, mənimlə bir ol, yoxsa səni öldürrəm. Övrət atını hazır eylədi, qaçdı. Vəlid ardına düşüb qovdı. Övrət bir yerə uğradı. Qaya idi, qayadən aşağa düşdi. Parə-parə oldı. Vəlid ah, eylədi didi: - Əgər uçar quş olursam belə Battal əlindən qurtulmanam deyib əzmi Rum eylədi.

Seyyid ikindiyə kibi səbr eylədi, gördi kimsə gəlməz, canına dığdığa düşdi. Seyyid evinə gəldi. Övrətin bulmadı. Həmşirələrindən xəbər aldı, didilər siz bağda onu istəmisüz, deyüb Vəlid alub getdi. Seyyid bunu eşidüb ah, eylədi. Məlun yenə əslinə rəcuhi eylədi deyüb övrətinin atının izilə getdi. Gördi ki, atla özü para-para olmuş, Vəlid ləin qaçmış...

Əmir və xatunu qızı tabuta qoyub şəhərə gətürdilər, dəfn eylədilər.

Seyyid əzmi Rum eylədi. Qayət qış idi, qar yağır idi. Bir köyə vardı, bir igid gəlüb Seyyidün ayağına düşdi. Seyyid [119] didi: - Sən, məni nə bildün?

- İmdi Məhəmməd Əli Mustafanı duşumda gördüm. Səni ol bana didi. Adım Qaysdır. Bağdadda oluram. Bunda ticarətə gəldüm. Bir keşişin qızına aşiq oldum. Altı ay onun yanında dururdum.

Bir gün bana didi ki, Bunda neylərsən, var get, bən dəxi halimi ana ərz eylədim. Didi: - Yaxşı var, sən gəl, mənim dinimə gir. Qızımı sana verim. Mən dəxi qıza söylədim, müsəlman oldı. Aldum andan iki oğlancuğum oldı.

Bir gecə duşumda peyğəmbər Həzrət didi: - Oğlum, Seyyid Battal, Əqbanun oğlunun ardınca gəlür araya. Vəlid bir gecə bunda yatub getdi. Seyyidi alub evinə apardı, təam gətürüb yedilər. O gecə anda yatdı, sabah olcaq atın düyünün anda qoyub özü rəhban donların geyüb rəvan oldı. Bir yerə gəldi, axşam vəqti idi, qar yağırdı, bir damda bir rəhban gördü çağırdı. Rəhban istədi ki, Seyyidi içərü qonaq edə. Vəlid ləyin anda idi. Seyyidi bilüb fəryad eylədi ki, bu Battaldur. Seyyid yaxun gəlüb rəhbana didi: - Dur, sən qapunı aç, soyuqdan öldüm. Rəhban didi: - Ey Battal, sana yol qadağandur. Seyyid didi: - Bəni kimə bənzədirsən. Battala bənzərsən, didi. [119[a]] Yox rəhbanam, didi: - Ey iraq get yoxsa iş fürsədə verərsün. Başına daş salarum. Seyyid gördü ki, Rəhbandan kərəm gəlməz, bir neçə ayət incil oxudı. Rəhban eşidüb heyran qaldı didi: - Ey Vəlid, sən bəni günaha saldun. Yox bu Məsihindir. Vəlid ləyin çox cəhd eylədi ki, qapunı açmasun çarə olmadı. Rəhban aşağa enüb qapunı açdı. Seyyidün ayağına düşdü. Qədirlər dilədi. İçəri girdi, od yaqdı, önünə təam gətürdi didi ki, məğrur dut hər kimi ki görür, Battal sanur. Bir dəmdən sonra qurşağın açdı. Kəhban gördi içində müsəlman qurşağı var. Rəhban ah, eylədi. Vəlid ləyin göyin bir bucağında pünhan olmuşdı.

Seyyid rəhbandan su xəbər aldı. Rəhban didi: - Su qapunun qabağında axır. Tışra çıqmaqa qorxuram. Seyyid tışra çıqdı ki, abdəst alub namaz qıla, rəhban can açısından tez qapunı bağladı. Seyyid namaz qılub dıra gəldi, gördi ki, qapu bağlanmış, tonları içərüdə qalmış, özü həman bir köynək ilə qaldı. Qapunı dögdi. Rəhbandır, dama çıqdı didi:

- Ey Battal əyyar gəldün bir iş edəsən, amma olmadı. Seyyid gördü ki, [120] çarə edə bilməz. Vəlid gəldi, Seyyidün başına daşlar saldı, çoq hərzə söylədi. Seyyid soyuqdan titrədi. Seyyid bir böyük daş arxasına girdi. Sabah olunca turmadı gəldi, çox zəhmətlər çəkdi. Çün sabah oldı, namazın qıldı. Manasdır divarının dibində yatdı. Rəhban yuxarıdan aşağa baxdı, gördü ki, Seyyid yatmış, didi ki, yəqin ölmüş. Vəlidə xəbər verdi. Vəlid gəlüb gördü ki, yatmış. Vəlid didi: - Hay, bu əyyardur. Rəhban didi: - Sən dəlümüsən, ol soyuqdan ölübdür bir böyük daş, dam üstündən götürüb Seyyidün üstünə saldular. İlyas peyğəmbərin düasın oqudı, daş Seyyidin qarnına toqundı, daş bölundı. Seyyid tərpənmədi. Didilər kim ölmüş, tez başın kəsəlüm, Qeysərə aparalum. Qapunı açdılar, Seyyid durdı gəldi Rəhbanun əl ayağını bağladı, içəri girdi gördü ki, od yanır. Seyyid tonların geydi od içində Vəlidi axdardı, tapmadı. Seyyid dama çıxdı. Gördü Vəlid uzaqda qaçır. Seyyid çağurdı ki, «ey səgzadə məlun, mənim əlimdən hənda gedirsən», Rəhbanı dinə dəvət eylədi. Qəbul etmədi. Tez başını kəsdi.

Dirdə nə var idisə, əlinə aldı. Qeysin yanına gəldi. Rəhbanın hekayətin şərh eylədi. Qeys heyran qaldı. Rəhban ol malını Qeysə verdi. Özi Vəlidi istəməgə getdi. Bir çeşmə kənarına yetişüb gördi. [120[a]] Vəlid anda yuxlamış. Bir kəs boğazından yapışdı. Vəlid gözün açub Seyyidi gördi, fəryad eylədi, «bərayi-Xüda bən səna nə edim», didi. Seyyid çoq dögdi bir ağaca bərk bağladı, didi ki, ana eylədügün əzabı sana eyləyəm gərək.

Özü namaza durdı, namaz qıldı. Dərhal iki aslan çıqub gəldi, atə həmlə qıldı. At qaçdı, yenə bir aslan gəldi əlində

bir kiçik aslan dutmuş. Seyyidə hışımlə eylə baxub getdi.

Çün Seyyid at ardınca getdi. Nagah bir karvan gəldi. Vəlidi gördülər, ağaca sarıqladular. Sən kimsən? Didi: - Bəzirganum. Həramilər bəni dutub malımı əlimdən aldılar, belə sarıyub qoydular. Bəzirganların rəhmi gəlüb açdılar, qaçub getdi. Seyyid Əşqarı dutub, gəlüb gördü ki, Vəlid qaçmış. Seyyid andan gedirkən gördü ki, bir yerdə bin kişi qədər ləşkər gedür. Birisindən xəbər aldı ki, bu ləşkər handa gedür? O kişi didi ki, bu, Bədrun şahındur. Bunda bir bəy vardur, Hamiran derlər. Anın bir qızı vardur. Adın Banu dirlər. Çoq güclü sərləşkərdir. O, qız dua edir kim «hər kəs məni zəbun eyləsə, bən ana gedərəm». Bədrun anı eşidüb andə gedür. Bədrün didi: - Ata bu gecə bir duş görmüşəm ki, Battal govur bəni, müsəlman edir. Hamiranın qızın bana alur. Seyyid əcəba [121] qaldı, bunlar getdilər.

Seyyid dəxi ardlarınca gedüb gördü bir qələ. O, qələyə qarşu yerüdü, gördü bir atlı, aslan dutmuş gəlür. Seyyid baxub gördi dünən gələn hərifdür. Seyyid didi: – Ey igit, səni bir görüm necə adamsan? Tez aslanı əlindən salub qılıncını çəküb, Seyyidə həmlə eylədi. Seyyid məni eylədi, acığlanub Seyyid üstə at təpdi. Seyyid bir yumruq urdu ki, atın altına yıxıldı. Yerindən durdı, iki ətəyini belinə sancdı, yeriyüb Seyyidi qurşaqından dutdı ki, götürə, Seyyid yerindən tərpənmədi. Seyyid dutub qüvvət edüb götürüb yerə urdı, başı açıldı. Seyyid gördi ki, bir məhbub qızdır kim, aləmdə naziri yoqdur. Seyyidin üzünü görcək, qız yerindən durdı, gəldi. Seyyidün qəddinə baş qoydu. Seyyid gördi Adn Banudur. Qız didi: - Ya Xüdavənda, məni qəbul eylə. Hamiranın qızıyam. Çoqların öldürdüm. Kimsə cəngimə dözməzdi. Sən ki, bəni ələ gətürdün, məni qəbul eylə. Seyyid didi: - Bən səni qəbul etməzəm, çün Bədərun bəni duşünda görmüş, səni ana verirəm. Adn Banu atlandı. Şəhərə getdi. Seyyid atına mindi, şəhərə gəldi, gördi ki, üç böyük ləşkər qonmuş.

Sabah oldı, nəqarələr dögüldi. Həmiran əlli bir kişi ilə

ata mindi, arxasın şəhərə verub durdu. [121a] Meydanı arastə eylədilər. Şəhərdən Adn Banu çıqıb gəldi. Yüzün puş qızlar bilincə meydana girdilər. Bu qızlar bir dəm top oynadub at səgirətdilər. Qızlar gerü dönüb meydandan çıqdılar. Adn Banu özü meydanda qaldı. Həmiran xadimlər göndərdi ki, «ey cigər guşəm, bilurəm ki, mislin yoqdur. Gəl bəni bu ğoğadan qurtar». Qız didi: - İmkan yoqdur. Əlbəttə bana bir kişi gərəkdür kim məni zəbun eyliyə deyüb, cövlan eylədi. Ər dilədi Firəng padşahın oğlu Tumə meydana girdi. Həmlə qılub cəng eylədi. Adn Banu bir cida ilə Tuməni atından yıxdı. Adn Banu endi, başın kəsdi. Anın ardınca Bəhmən şahın oğlu meydana girdi. Anı dəxi öldürdi. Anın ardınca Bədrun meydana girdi. Gəldi qıza salam verdi didi: - Bən sənin əmin oğlunam. Malım mülküm çoqdur, məni öz yanına qəbul eylə. Qız didi: - Bana mal, mülk gərəkməz, bana ər gərəkdir. Kim bəni zəbun edər? Sən gəl, hünərini görüm, yoxsa səni ol tiyan-bərgi edim. Bir-birinə həmlə qıldılar. Bədərunu yəhərdən qapub yerə urdı. Seyyid anı görüb, bir nərə urdi ki, [122] ləşkər sərasim oldılar. Seyyid yetişüb bir beş puşt-paya ilə urdu kim, qız at saqrısından yeddi addım yer məallaq yıxıldı. Qız bildi ki, dünəngünkü hərifdür.

Bədrun durub tez Seyyidin yanına gəldi. Yüz yerə urdı didi: - Nə kişisən?

Didi: - bən ol kişiyəm ki, sənin duşüna girdim. Həman dəm Bədərun iman gətirüb müsəlman oldı və qızı alub Bədərun yanına gətirdilər, oturdılar. Seyyid qıza didi ki, «səni Bədəruna verəcəgəm». Sən dəxi yox, demə. Adn Banu didi ki, «hər nə sən buyursan, başım da sənindir». Seyyid didi: - Dur, imdi atan yanına var. Halın ona əyan eylə. Durub atası yanına gəldi. Hekayəti bildürdi. Həmiran çarnaçar kölnun verdi. İrağın gördi. Qul qaravaşları ilə qızın Bədəruna verdi. Seyyid önündə yüz yerə qoydü, durdı. Seyyid oturub din şərhin bunlara söylədi, didi: - Bən hər nə kim eylərəmsə, din bərəkatından eylərəm. Həmiran didi: - Səd-

dəqə ya pəhləvan, Qeysərdən qorxuram sənin dininə girəm, sənin qulunam dininə mütayam. Seyid [122[a]] didi: - İmdi qızını Bədəruna ver. Həmiran didi: - Verdim. Seyyid nigah eylədi. Gərdək gecəsi qapusunda durur. Bunlar ki, xəlvət oldı, Seyyidi ağlamaq dutdı. Bədərün eşidüb fəryad eylədi. Qıza didi: Seyyidün əcaba səndə könlü var. İkisi də tışra gəldilər, didilər: - Xudavənda neçün ağlarsan, didi: - Munca bilərüz zəhmətlər çəkdim, hənuz çıxdı. Adn Banu didi: – Ya Xüdavənda, ağlama, ğəm çəkmə, Qeysərün bir qızı vardur, Kitayun adlı, cahanda anın nəziri *(oxşarı, tayı, bərabəri – A.R.)* yoqdur. «Qəleyi Kəvakibdə» və dəniz içində olur. Qeysər sizün qorxunuzdan anı göndərib dört bin adam ilə. Anı anda saqlar. Seyyid didi: - Məni anda apararsan. Qız didi: - Apararam həm muradını hasil edərüm. Ol qədər Kitayun vəsfin tərif eylədi kim, Seyyid görməmüş aşiq oldı. Qız didi: - Bən anın dostuyam, həmişə gedirəm və dəxi atlanub dəniz kənarına gəldilər. Tez bir zövrəq tapub minüb rəvanə olub, günorta namazı vəqtində qələyə vasil oldılar. Seyyid özüni Rəhban eylədi. Adn Banu didi. [123] Sən anda varanda ana deyərsən, kim «Kuh-Abad»dan atan yanına bir rəhban gəlibdür acaib sözlər söylər, xub avaz ilə incil oxur. Şayəd bəni çağura. Adn Banu Kitayun yanuna gəldi. Kitayun dəxi qarşu görüşdülər. Son kərə Seyyid ki, necə demişdi Adn Banu Kitayuna hasil bəyan eylədi. Şad oldı, didi: - Neçün durursuz, tez gedüb anı munda gətürün. Adn Banu gəlüb Seyyidi apardı. Bədərun zövrəq yanında qaldı. Seyyid gördi, qələni dört bin kişi saqlar.

Seyyid Kitayun yanuna gəlüb gördü bir təxt üstə oturubdur, bir aya bənzər. Seyyid ömründə bunun kibi gözəl görməmişdi. Elə oldı ki, özündən gedə, yenə özün saqladı. Kitayun yerindən durub Seyyidə qarşu varub əlin öpdü yer göstərdi, Seyyid oturdı. Bir az mərfətdən söylədi ki, Kitayun heyran qaldı. Seyyid diz çöküb bir neçə ayət incil oqudı xub avaz ilə. Seyyid Kitayunun müğci *(Zərdüşt dininə mənsub, öndə gedən, yol göstərən – A.R.)* oldü. Adn Banu-

ya didi ki, daim munda gəlürdün, bunun kibi töhfə gətürmürdün. Adn Banuyə afərin oqudı. Andan sonra Kitayun didi:

- Munca ləşkər məni saqlar. Hənuz, [123a] Battal qorqusundan yatmazam. Seyyid didi: - Battal necə adam ola. Kitayun didi: - Ərlükdə Rüstəm Zaldan ziyadədur. Hiylədə cahanı bir hoqqaya qoyar. Səxavətdə hatemi taydır və peyğəmbər nəslindəndir, gah rəhban surətində olur, gah elçi. Mənim atamı dəxi ol öldürdi. Seyyid didi: - Ay gözəl, sən o sifətlər kim onun haqqında deyirsən, xas kişi imiş, imdi heyf degilmi anın kibi kişidən qaçırsan. Kitayun didi: - Ol müsəlmandır. Musanın düşmənidür. Mənim bir qız qarındaşımı alub və birin dəxi xəlifəyə göndərmüşdür. Bən dəxi anın qorqusundan bunda vətən salmışam. Seyyid didi: - Bu sifətlər kim anın haqqında sən dersən, əcəbdür ki, səni munda qoya. Qız bundan kənarə durdu, didi: - Əcəbdur ki sən Battal olmıyasan? Seyyid didi ki Kitayun sərasimə oldı, didi: - Ay Adn Banu, mən səni dost bilürdüm, sən düşmən imişsən. Adn Banu didi: - Ay canım, sən həmişə bana deyərdün, yaxşı igit bilsən, bana söylə. İgid bundan yaxşı, pəhləvan xoş? Sordu. Satan əlinə girməz. Çün Adn Banunun bu sözlərin eşidüb istədi ki, xidmətkarların çağura, Seyyid boğazina yapuşdı. Dəsmalın ağzına soqdı, iki xadiməni, üç qaravaşın öldürdi. [124] Durdular dört sandıq cəvahir doldurdılar. Durub dərya kənarına gəldilər.

Bu canibdə Vəlid ləyin Kitayuna vardıqda xəbərdar oldı. Durdı Hamiranın yanına gəldi ki, hekayəti bildürdi. Çün Hamiran bu xəbəri ki, eşitdi, sərasimə oldı. Qeysərə namə göndərdi. Əhvalı bildürdi. Çün namə Qeysərə gəldi, fəryad eylədi.

İki adlu pəhləvanı var idi. Biri İlyun, biri Haman. Tez bulara yüz bin ər qoşdı. Göndərdi gəlüb Hamiranə yetişdi. Əlli bin ər daha anın var idi. Onları da götürüb rəvan oldılar.

Bu tərəfdən Seyyid zövrəqdən çıqub Kitayunun ağzın

açdılar. Seyyid dinə dəvət eylədi. Qız rıza vermədi, didi: - Dinimi tərk eyləməzəm. Təam gətürüb yedilər, andan rəvan oldılar. Çün qələdən bir qədər yol vardılar. Gedərkən nagah qırq atlu gəldi. Bu rəvan irəlü vardı ki, görə kimdür. Gördü ki, varlu durlü ləşkər gəlür. Tez döndü xəbər gətürdi. Bunlar gerü Qələyə gəldilər. Kitayunı andə qoydular. Adn Banu gözçi qaldı. Seyyid Kitayuna didi: - Sən imdi təfərrüc eylə gör, kiməm bunda nələr eylərəm.

Ləşkər dəxi gəlüb bir yerdə düşüb səf bağladılar. Seyyid aşağa enüb, kəffarə qarşu bir nərə urdu ki, mənəm Seyyid Battal qazi, görən heyran qaldı. Adn və Kitayun söhbət edirdilər. [124[a]] Adn Kitayuna didi ki, görürsən Seyyid necə pəhləvandur? Bu kimi igidə muta olmazmısan? Seyyid meydana girüb özüni ol ləşkərə urdı, adam qanı sel kibi axdı. Axşama kibi çoxlı cəng eylədi, döndü qələyə gəldi. Bədərun, Adn ona qarşu gəldilər. Yüz yerə qoyub düa eylədilər. Seyyid donların çıqarub adam qanını yudu. Abdəst alıb namaz qıldı. Oturub yemək yedilər. Andan Kitayuna didilər: - gördünmi, bir kişi islam dinin bərakatından munca hünərlər eylədi. Münkir olma, müsəlman ol. Kitayun didi: - Əgər belə qəbul eyləsə, eyləsün, yoxsa bən öz dinimi tərk eyləməzəm. Seyyid didi: - İmdi sən murdarsan. Bən murdarı qəbul etməzəm.

Bu canibdən Hamiran İlyun və Ham oturub, didilər: «Bu qədər ləşkər buna kar qılmaz». Yenə Qeysərə namə yazub ləşkər tələb eylədilər. Sabah naqarələr dögüldü. Seyyid meydana girdi. İlyun bərabər gəldi, çoq hərzə söylədi. Seyyid onu atından qapdı həvayə atdı, enirkən tiği-səxxakı elə çaldı ki, iki para oldı. Bir-birinin ardınca yetmiş kafiri cəhənnəmə göndərdi. Dəxi kimsə meydana girmədi. Seyyid özüni ləşkərə urdı. Ləşkərə yetişdüki ötə iki yüz bin kafir ilə Qərağan padşah çıqub gəldi. Çün axşam Seyyid Kitayun yanına gəldi. Bədərun qarşu gəlib [125] Seyyidə təsəlli verdi. Seyyid abdəst alub namaz qıldı. Kitayuna çoq nəsihət eylədi, çarə olmadı.

Şahanə nəqarələr dögüldü. Seyyid meydana girdi. Kafirlərdən Bəhmən meydana girdi, cəng eylədi. Seyyid Bəhmənə bir gürz urdı. At ilə özün yerlə yeksan eylədi. Andan sonra otuz doqquz kafiri öldürdi, ləşkər cümləsi həmlə qıldılar. Cəng içində Firidun Acəmi Seyyidin ardından gəlib Seyyidi yaraladı. Döndi, bir ox urdu. Atından yeddi adım bir məallaq yıxıldı.

Ol gün çox cəng eylədiyinə döndi. Bədərun qarşu gəlüb Seyyidün yarasın yağladi. Namaz qıldılar. Seyyid didi: - Ey nigarım həqqi görürsən, neçün dini tərk etmirsən? Bən yalğuz bunca ləşkər ilə savaşdığım ol dinin bərəkatindandır, imdi sən gəl müsəlman ol. Kitayun didi: - Qorxuram bəni aldıqdan dəxi tərk edəsən. Seyyid and içdi, didi: - Necə kim sən deyərsən elə edərəm. Sənün üstünə xatun almanam. Kitayun bir yalan şəhadət gəturdu. Bunlar şad Seyyid ilə Kitayun xəlvət qaldılar. Adn Banu Bədərun qapuda durdular. Kitayun bir sandiq açdı. Bir turunç *(uyuşdurucu - A.R.)* çıqarub Seyyidə verdi didi: - Qarnın kim ac olsun və ya susuz olasan, bu tozuncu qoxuyasan. Seyyid aldı qoqudi fiəmhal bihuş oldı, əqli getdi. [125[a]] Kitayun qapıya gəlüb didi: - Seyyid bana didi ki, var qüsul al. Adn Banu alub su tərəfə gəldi. Adn Banuya didi: - Sən bir qədər uzaq dur. Bən edim. Adn qapuya gəldü. Bədrun didi: - Anı necin yalquz qoydun. Tez anının yanına var. Adn Banu gerü dönüb gördu Kitayun ləşkərə gedür. Ah edib gerü Bədəruna gəldi və didi: Kitayun ləşkərə gedir. Hiylə eylədi. Bədərun didi: - Dəriğa Seyyidə nə cavab verəlüm.

Seyyid yanına gəldilər. Gördülər yatur. Adn Seyyidün əlin aldı didi: - Ya Seyid, dur gözün aç, didi. Çarə olmadı nə qədər cəhd eylədilər, Seyyid durmadı. Adn Banu didi: - Ol saçı kəsilən Seyyidə darı vermiş. Kitayun can qorqusundan dağdan aşağa endi. Aqratis Məğribi qaravul çəkirdi. Kitayunu gördi, didi: - Ey nagah, bana söylə necə qurtardun. didi: - bəni Hamiran yanına apar, tez ata mindilər. Hamiran yanına gəldilər. Kitayun əhvalın söyləyib didi: -

tez durub gəlün. Battala darı verdim. Əqli getdi, yeddi gün olunca əqli gəlməz. Hamiran bunu eşidüb şad oldı. Tez Hamiran buyurdı ləşkər yendi. Bu canibdə Adn Banu və Bədərün Seyyidün qulağına çağırub [126] Xüdavənda, Kitayun qaçdı, ləşkər qapuya gəldi, didilər. Çarə olmadı, silaha qurşanub qapuyə gəldilər. Adn Banu cəngə vardı. Xeyli adam qırdı. Bədərun çoq çaşdı. Seyyidə faidə olmadı.

Adn Banu cəngdən gəldi. Bədərun cəngə vardı, çoq cəng eylədi. Hamiran Adn Banuya adam göndərdi, didi: - Kitayun, Battala zəhər verdi. Ol dəxi olmaz. Siz kim üçün cəng edirsüz? İmdi bən səni Bədərundən ayırmanam. Battalı bana ver. Adn Banu o gələn kafirün burnun, iki qulağın kəsdi, didi: - Var anda söylə kim, Seyyid anın kibi nəsnələr çox görübdür ümud vardur ki, Haqq-təala Seyyidə inayət verər. Nə qədər bən sağam, Battalın bir tükün kimsəyə verməzəm, didi. Üç gün növhəli cəng eylədilər. Rux sənəmlər idilər, qövmi aciz oldular,

Seyyidün yanına gəlüb ağlaşdılar. Səni Allaha ismarladuk, didilər. Andan qapuya gəlüb, özlərin ləşkərə urdılar, ləşkərin iki parə eylədilər. Çıqdılar Malatiya yolun dutub, rəvan oldılar. Kəffar ləşkəri Seyyidün üzərinə gəldilər. Gördilər bihud yatur. [126[a]] Silahın və qolların aldılar. Seyyidi taxtaya sarıdılar. Qeysərə namə göndərdilər. Çün namə Qeysərə gəlüb, xeyrin bilüb Qeysər şad oldı, yenə məsihin bana inayət elədi. Bən ləşkər çəküb varım, nə qədər Məhəmmədilər varsa qılıncdan keçirüm.

Bu tərəfdə, yeddinci gündə Seyyidün əqli başına gəldi. Gördi kim bir təxtə üstündə bağlu yatur. Ah edüb, didi: - Dəriğa kafir əlində əsir oldum. Ey pərvərdigari aləm, artıq ümüdüm yoqdur, inayət eylə deyüb münacat eylədi. Seyyid özünə gəlibdi deyüb, Kitayuna xəbər eylədilər, bəglər dəxi yalın qılıncı alub, Seyyid yanınə gəldilər. Kitayun gəlib yüzündən nüqabın tutub didi: - Ey Battal, qədərincə sən çok elm oxumuşsan, bu iş sənin kölnündən keçirdi. Özgələrə eylədigün öz başına gəlür və dəxi mənim qız qarandaşımı

aldun. İmdi bana qəsd eylədün. Dövlətün yar olmadı. İmdi qarandaşım Qeysər gəlür. Həman dəm ki səni görər aman verməz öldürər. Gəl bənim dinimə gir, səni xilas eyləyim. Seyyid bu xəbərə cavab vermədi.

Firudun Əcəmi çoq iman sözlər [127] söylədi. Seyyid təxt üstə iki kərə qüvvət eylədi, bəndlərin qırdı. Firudin qaçdı. Seyyid yumruq ilə əlli altımış kafiri öldürdi. Seyyid yalıncıq idi. Çox zəhmətlər verdilər, kəmənd atdılar. Seyyidi yenə dutdılar, bağladılar, munca ləşkər Seyyidün ərligünə heyran qaldılar.

Qalun və Aqratis bunlara didilər, bunu öldürəlim. Hamiran qoymadı, didi: - Qeysər yanuna aparalum, hər nə eyləsə, ol eyləsün. Andan köçdülər bir qələyə gəlüb qondular. Bir ağac var idi. Seyyidi ol ağaca sarıdılar. Kitayunun cadrı ol ağaca yaxun idi. Təxt üstündə özünü bəzəndirüb oturdı. Kitayun: - Ya Battal sən gəl mənim dinimə gir, qurtul. Heyfdür, sənin kibi bəhləvan fani ola, imdi Qeysər gələr səni öldürər. Seyyid heç dinməyüb, Allaha münacat edirdi.

Dəxi bəglər gəlüb şərab içüb məsxərəlik eylədilər, məst olub, çadırlarına getdilər. Seyyid xəstə məcruhi ağaca sarılu idi. Ayıdır:-İlahi, məni bundan qurtar, mundan qorxum budur ki, müsəlmanlar kafir ayağı altında paymal olur. Ol dəmdə ağacın başından bir ilan endı əjdəhaya bənzər. [127[a]] Kafirlərün şəmi yanar idi. Qazanları dolu aş idi. Ol məlunlar yatırlar idi. Ol ilan gəlüb o qazanlardan bir az aş yedi. Sifraq eylədi, yenə öz məqamına getdi.

Qırəvan padşahının oğlu oyandı, durub qulların çağırdı, bir parə ət gətürdülər. Bunun avazından ol qalanı oyandı. Durub bir yerə cəm oldılar, yemək yedilər, hər kim ol yeməkdən yedi, dərhal canı cəhənnəmə vasil oldı. İmhasil yetmiş adı bəlli bəglərdən həlak oldular. Bağlı qullar qaçdılar. Ləşkər içində fəryad-fəğan qopdu. Kitayun bunları gördü ah eylədi.

Durub Seyyid yanına gəldi didi: - Ey Battal, bu işi sən eylədün, bunları caduladun. Seyyid didi: - Bənim əlimdən

nə gəlür. Əgər çarə bilsəydim, özümə eylərdim. Kitayun qılıncı çəküb Seyyidün üstünə yeridi. Bağlu ikən Seyyidi çaldı. Haqqın qüdrətilə qılıncı əl bağına uğradı, əlləri açıldı. Seyyid sıçradı, durub bir kəz nərə urdı. Tarun qalxanı götürüb, yeridi kim Seyyidi duta. Seyyid bir yumruq boğazına eylə urdu mayallaq yıxıldı. Seyyidün üstə qələbə eylədilər. Kibi daş, kibi ağacla. Seyyid Tarun Talkanın bir qıçın ayağı altında qoyub və bir qıçın iki əli ilə dutub qüvvət eylədi. [128] Bir əski bəz kibi iki parə eylədi. Bir ayağı ilə Aqratisin sinəsinə eylə urdu ki, köksü yarılıb təpəsi üstə məallaq yıxıldı. Seyyid o birilərinə həmlə eylədi ki, işin bitirə. Yerbəyerdən kəməndləri salub və bir neçə zəhmətlər verdilər. Qana qərq oldı, yenə dönüb dərhal bağladılar. Xeyir oldı ki, Qeysər gəldi. Qeysərə qarşu çıqdılar, hekayəti bildirdilər. Qeysərin yüzünə qan gəlüb təxtə çıxdı, oturub tez buyurdı ki, «Seyyidi gətürün». Tez gedüb Seyyidi gətürüb siyasətə çəkdilər. Qeysər buyurdı, neçün durmusuz, tez boynunu vurun.

Bir vəziri var idi Yemliha nam. Qoymadı didi:

- Şəha bu qulun bir sözü vardur. Buyursun, deyim sonkərə sən bilürsən. Didi: - Söylə. Didi: - Bunun qanın yerə tökmə, bunı Taryun oda yaqdı ölmədı və Əqba qazı zəhər verdi ölmədı, bunun qanının hər bir qətrəsindən bir Battal olur və dəxi anın qanı yerə tökülsə ol yerün otların qoyun yesə, ətindən neçə Battal hasil olar. Qeysər didi:

- Bəs necə edəlüm? Vəzir didi: - Şaha, orada dağda bir quyu var, ona cəhənnəm yeri derlər. Cəddin zamanında bir dəxi bunun kibi qopdu. Necə dəfə öldürdülərsə diri oldı. [128[a]] Aparub ol quyuya saldılar. Şərindən əmin oldular. Bunuda eylə edəlüm. Cümləsi bu sürü məsləhət görüb anı götürüb ol quyunun ağzına gəldilər Seyyidi quyuya salmağa.

Bu tərəfdən çün Bədərün və Adn Banu Malatiyaya gəldilər. Əmir yaranlar ilə oturub Seyyiddən söylərdilər kim Vəlid ləyini ələ gətürməmüş gəlməz bu halda bir aya kimi

sürər. Gəlüb hekayəti şərh eylədilər. Yaranlar yetüşüb peşiman oldular.

Ol dəm Yəhya bin Mənsur cəsusluğa getmişdi. Ol vəqt Rumdan gəldi kim, Seyyidi cah-ı cəhənnəmə saldılar. Cəlladlar qılınclar çəküb durdular. Bir cəllad qəsd eylədi ki, Seyyidin boynunu ura, əmhal özünü üstünə saldı. Eylə düşdi ki, cəllad iylə birgə quyuya getdilər. Qeysər buyurdı. Tez Seyyidün üstə daşlar saldılar, kim hesabə gəlməz.

Yəhya bin Mənsur bu halı görüb fəryad eylədi. Malatiya gəlüb xəbər verdi ki, bən öz gözüm ilə gördüm cah-ı cəhənnəmə saldılar. Yaranlar fəryad fəğan eylədilər. İkinci gün Seyyidün yasın dutdular və qara geydilər.

Andan Yəhya didi: - Hazır olun, yolda ləşkər gördüm. Fəğfur Çini sizün qəsdinüzə gəlür. Bunlar bu xəbəri eşidüb pərişan oldular. Tez xəlifəyə namə göndərdilər. Seyyidün əhvalı oldu məlul. Və Qeysərin Fəğfur cəng xəbərin bildürdilər.

Xəlifə Seyyid üçün dəxi yas dutdı. [129] Xəbər göndərdi kimi «ğafil olmyayın, bir iş olursa, bizə elam edün və dəxi Fəğfuri Cin Qeysərə namə göndərdi ki, «oğlumu Battal öldürdi. Bən dəxi yüz bin ər ilə Malatiya üzərinə gedirəm. Sən dəxi ləşkərünlə gələrsən. Muhammədiləri yer yüzündən götürəlim».

Çün namə Qeysərə gəldi, şad oldı, didi: - Əlbir edüb Məhəmmədiləri qıralüm və əyalətin xərab edəlüm, dəxi kimdən qorqmız var. Qərəvan padşahı didi: - Mənim sənin yanında bir mərdim vardur. Yerinə gətür didi. Qeysər didi: - Nədür? Qərəvan didi: - Kitayunu bana ver. Oğlum sənin yolunda qurban oldı və munca ləşkərim qırıldı. Sən qızqardaşını bana verməsən, çıqub gedərəm, didi. Qeysər didi: - Bir Kitayunı görəlüm nə deyir.

Qeysər Kitayunun yanına gəlüb hekayəti bildürdi. Kitayun didi: - Qərəvan şahı bir qoca kişidür. Yüzdən ömri keçmiş, nəşat surət bədlə atamdan yaşlu, bu bana nə layiqdir deyüb, acıqlandı. Mənim muştuluqum bumudur kim,

Battal kimi düşmanını əlinə verdim. Qeysər didi: - Ey Nigar, bən səni şimdi verməněm desəm ol bəndən yüz döndər, ər barı bir saqqalının altından keçəlüm deyüb, Qeysər Qərəvanın yanına gəlüb didi:

- Kitayun [129a] didi kim, «əvvəl islam vilayətini aradan götürün, andan sonra nə dersə olsun». Qərəvan bu xəbəri eşidüb şad oldu. Ol gecə Kitayun Seyyidin məhbubluğun və pəhləvanlıqların yad edüb, peşman oldı. Çoq ağlayub didi: - «Dəriğa özüm əlim ilə öz evimi yıxdım. Anın kibi pəhləvanı öldürdüm». Ol gün ol gecə gözünə yuxu gəlmədi. Az qaldı ki, divanə ola, çünki sabah oldı.

Qeysər əzm-i Malatiya qıldı. Yahyayı bin Mənsur Əmirə xəbər eylədi. Əmir dəxi xəlifəyə namə göndərüb əhvalı bildürdi. İslam ləşkərin cəm eylədi. İrağı gördülər, əmirə xəbər oldı ki, çin ləşkəri gəlüb yetüşdi. Qarşıu getdilər, qırq bin ər ilə gəlüb qondılar.

Sabah ki, oldı, nəğarələr dögülüb meydan quruldu. Çin ləşkərindən Ankas meydana girdi.

Bu tərəfdən Adn Banu meydana girdi. Ankas acığlanub Adn Banuyə qılınc həvalə qıldı. Adn Banu qalxanı bərabər dutdı. Qalxan iki parə olub, qılıncı ata toqunub, at yıxıldı. Dönüncə Adn Banu bir qılınc urdu, iki parə olub iki əliylə başı həvayə pərran oldu. Müsəlmanlar təkbir gətürdilər. Əmirə didi: - Kimdür ol qılıncı uran. Bədərun didi: - Ol mənim yarım, Adn Banudur. Dərhal Ankasın oğlu Kürnək meydana girdi. [130] Həmlə eylədi. Adn Banu qalxanı bərabər gətürdi. Qılıncı döndərüb qoltuğunun altından caldı. Adnı şəhid eylədi. Bədərun meydana girdi. Kürnək Cinini öldürdi. Atından aşağa enüb Adn Banunun üstə düşüb şirin həqqə təslim eylədi. Müsəlmanlar anı görüb ağlaşdılar. Ol iki aşiqi dəfn eylədilər.

Çün sabah oldı. Xəbər gəldi ki, Qeysər yetüşdi deyüb Fəğfur qarşu durdı, görüşdü. Ankas və Kürnək üçün ağlaşdılar. Qeysər didi: - Oğlumdan ötürü nə qədər müsəlman varsa qılıncdan keçürəm gərək. Ol vəqt sakin oluram və

Battalı öldürmək hekayətin Fəğfura bildürdi, şad oldular. Bunlar burda, gəldük Seyyid hekayətinə.

Seyyid deyir: ol günki mən cah-ı cəhənnəmə düşdüm, üç yüz kərrə «Külhü va'llahu əhəd» oqudum, andan quyunun dibinə endüm, dizlərimə kimi palçuğa düşdüm. Özümü palçıqdan qurtardım, amma qatı qaranluq idi, işıq görünməz idi. Qırq addım yeriyüb divar dibinə gəldim. Ol daşlar ki, quyuya salırdılar, palçıqa düşür idi, gah-gah sıçrardı. Mən becid quran oqurdum, nagah qarşudan bir çıraq peyda oldı və avazlar gəldi. Seyyid nəzər eylədi gördü ki, ilanlardur. Hər birisi bir minariyə bənzər. Seyid «Ayətə-l-kürsü» oqurdı. Seyyidün dairəsində durdular. Seyyid yenə nəzər eylədi gördü ki, bir neçə şahmarlar çıqdı. [130[a]] Quyunın içi işıq oldı. Seyyid gördü ki, daşlar ki, salmışlar idi, hər yeri bir dağ kibi yığılmış. Allaha şükür eylədi. Gördü ki, bir əjdəha kibi ilan çıqub gəldi. Arxasında bir küçik ilan başı yaşıl zümrüdə bənzər sağında və solunda ilanlar ortaya salmışlar. Seyyidün qarşusunda alay bağlayub durdılar. Ortalarında bir ilan Seyyidə salam verdi. Seyyid salamın aldı didi: - Ya ğazilər sərvəri, necə kim bunda gəldün heç ğəm çəkmə. Allah talanın təqdirində vardur ki, sən munda düşəsən, bu əcaiblər görəsən. Seyyid didi: - Siz kimlərsüz. İlan didi: - Bənim adım Yemlihadır bana şah maran deyirlər. Ol bu gördügün bənim ləşkərimdür. Süleymandan sonra məni dutub həbs eylədilər. Qırq gün dağda, daşda gəzdirdilər cümlə ibadətlərun xasiyyətlərin bildirdilər, didim yazdılar. Aqibət, xillas oldum. Allah əmri ilə gəldim, bu quyuya girdim. Bir kəz dəxi çıqdım ol iki cahan Fəxri Məhəmməd Əl-Mustafayı ziyarət eylədim. Andan ginə bunda gəldim. Buna - cah-ı cəhənnəm dirlər. Bunun bir qapusu Kaf Dağına açulur. [131]

Seyyid ac idi. İlxıya işarət eylədi. Bir ilan varub bir daşı gətürdi. Seyyidün yanında qoydu, didi: - Acısan, bunı ağzına qoy. Seyyid Allahın adına sıqulub ol daşı ağzına qoydı. Necə dürlü təam yemiş kibi aclığı getdi. Ağzından ol daşı

çıqardı, yanında qoydı. Yemelha ol daşı gerü ol ilana verdi didi: - Dəxi bir saat vardur ki, çıqasan.

Seyyidün yuqusu gəlib yatdı yuxladı, yenə tez oyandı, gördü ki, nə Yemeliha var, nə o biri ilanlar var. Qaranluqdur Seyyid əcəbə qaldı.

Bu tərəfdə çünki Qeysər gəldi. Sabahdan nəqarələr döğüldü, ləşkər atlandı. Abdülvəhhab meydana girdi. Bir kafir var idi Talut nam. Meydana girüb didi: - Ya ixtiyar, o ləşkər də dəxi adam yoqmu meydana səni göndərdilər? Abdülvəhhab didi: - Ey məlun, islam ləşkərində igidlər çoqdur. Yüz sənin kibi itlərə cavab verərlər. Talut cida həvalə qıldı. Abdülvəhhab məni eylədi. Növbət Abdülvəhhaba yetüşdi. Bir cida kafirə urdı. Kafir qalxan bərabər gətürdi. Qalxandan keçüb sinəsinə toqunub boğazından çıqdı. Canı cəhənnəmə vasil oldı.

Şəmun dəxi girdi. Anı dəxi [131[a]] öldürdi. Çıqdı Fəqfur, heyran qaldı. Urnək Cini, Əhməd gəldi, xeyli cəng eylədi. Axırda Əhmədə bir gürz urdu. Qalxanın dağıdub atına doqundı, atı yıxıldı. Əli bin Haşım girdi atı dəxi yıkıldı. Beş on müsəlmanı şəhid eylədi. Əmir buyurdu, Əli bin Hüseyn Tərtus Malikin atına mindi. Bin kişi iylə həmlə qıldılar. Ol iki ləşkər bərabərinə müsəlmanlardan dərya içində bəlirsiz oldular.

Bir gün bir gecə cəng eylədilər. Haqq-təalaya minaçat eylədilər. Məhəmməd Əli Mustafadan şəfaət gətirdi.

Ol dəmdə Bağdad yolundan toz peyda oldi. İki yüz bin ər ilə xəlifə çıqub gəldi peyğəmbər ələmi üstündə. Dört yüz hafiz ana fatihə surəsin oxudular, möyuzunlar məqriblərə əl salavat və əssəlam ya Rəssullah, deyə-deyə çıqub gəldilər. Xəlifəyə buyurdu iki yüz bin kişi kafiri oda yaqdirdilar. Kafiri qirdilar. İki ləşkər bir-birindən ayrıldılar.

Əmir və qazilar xəlifəyə qarşu gəldilər. Seyyid üçün bir az ağlaşdılar. Qələdən düşdülər.

Bu tərəfdə Seyyid ol quyuda otururkən gördi bir əjdəha gəldi ki, Seyyid xof eylədi. «Ayəti-Əlkursini» oquyub ət-

rafına üfürdü. Əjdəhanın nəfəsindən guyu isti oldu. [132] Seyyid yaxın gəlib baş qaldırdı quyudan yuxarı getdi. Seyyid rəvayət eylədi ki, uç bin kərrə qılhəvvəllah oqudum. Andan əjdəhanın quyruğu çəkildi getdi.

Bir nihandan sonra yenə gəldi. Ol getdü ki, yoldan rəvan oldı. Fi əhl yeddi gün çıqdı gəldi. Səkkizinci gün Seyyid fikr eylədi ki, əgər bən xilas olursam bu əjdəhanın səbəbinə olaram. Gözlədi onun quyruğuna bərk yapuşdı. Quyruğın qucaqladı. Əjdəha quyruğın bərk qapdı. Seyyidi götürüb quyruğı yuxarı getdi. Seyyid deyir: «ilanın istiligindən az qaldı ki, bihuş olam, özümü saxladım». Bir nihandan özün quyudan tışra gördü. Səcdeyi-şükür eylədi. Durub əjdəhanı görmədi.

Çün sabah oldı. Yenə namazın qılub quran oqurkən gördü qarşudan bir süri donquz çıqub gəldi. Eylə ki quyunun ağzına yaxın gəldi, çoban çağırdı ki, ey Battal, ey Qəttal, ey nabekar, ey nalan deyüb, hərzə söylədi. Seyyid durub çobanın yanına gəldi didi: - Ol quyuda neylərdün? - Çoban didi: - Battala sögürdim. Seyyid didi: - Bu donquzlar kimündür, didi Kitayunundur. Seyyid didi nə xəbərün vardur, didi:

- Qeysər Malatiyaya getdi. Çin padşahı ilə əlbir oldular kim, Məhəmmədiləri [132[a]] aradan götürələr. Seyyid adın xəbər aldı, didi: - Adım Lulandır. Seyyid didi: - Bən genə Battalam, gəl müsəlman ol. Kafir hərzə söylədi. Seyyid boğazından dutub canını cəhənnəmə ismarladı. Tez çobanın donların geydi, çobanı quyuya saldı.

Axşam oldı donquzları sürüb şəhərə gətürdi. Donquzlarun ardınca getdi. Bir uluxanəyə gəldi. Məqərr ol Kitayunun köşkü idi, donquzlar hər biri yerinə gitdilər, ibadətgah gördü. Bu kahinə gecə düşmüşdür. Səng üstündə bir bardaq vardı. Seyyid bu suffədə oturdu. Çığır çıqartdı, bir nihandan sonra bir qaravaş gəldi. Bir çanaq aş gətirdi. İçində bir qədər ət, amma qoyun əti idi. Bir ətmək üstə. Seyyid aşdan bir az yedi. Qarnı doydu. Allaha şükür eylədi.

Bir nihan keçdi. Kitayun çıqub gəldi. Qara donlar geymiş mahitabana bənzər Lulan qarşusunda oturdı. Məlul Seyyidə baxdı, didi:

- Lulan necəsən? Seyyid ayağa durub xidmət eylədi.

Kitayun didi: - Lulan, bu gün cahə *(iki mələyin əsr olunduğu quyu – A.R.)* vardunmı?

Lulan didi: - Bəli, vardım. Ona ismarladığımı unutma. Əgər Battaldan bana bir xəbər gətürsən, səni bəy eylərəm didi. Seyyid didi:

- Ey nigar, bən bu gün cahə vardum. Ta bir səs gəlür idi. Kitayun bu sözü eşidib ağladı didi:

- Vay dəriğa, öz əlüm ilə eylədügim işi, kimsə düşmən eyləməzdi, onun kibi sərdarı öldürdim. [133] Yaxşı budur ki, varub özümü ol cahə salum, didi. Heyüfdür ki, bən andan qeyri kişinin yüzünə baxam. Seyyid qaldı didi: - Ya məğlətə *(fitnə törədən söz – A.R.)*, «ya padşah, sən Kitayun yürəgin mum eyləmisən». Seyyid didi: - Ey məlakə, əgər məsləhət eylərsən, sabah kəmənd alub gedəlüm, mənüm belimi bağla enüb sizə anı gətürəlim. Kitayun didi: - Ey Lulan, əgər sən bu işi eyləsən, gör bən dəxi səna neylərəm. Kitayun şadluqdan ol gecə yatmadı. Kəməndləri cəm eylədi.

Seyyid dəxi əlsabah donquzları çıxarub sürüb ol cahə gəldi. Kitayun dəxi bir xadim iki qaravaş ilə gəlüb Lulana yetüşdi, didi: - Ey Lulan, gecə ki sözlə razımısan? Seyyid didi: - Bəli, amma mən ki, sabahdan munda gəldüm bu quyudan bir kişi çıxdı başı ayağı açuq ol yerə getdi. Buyur xidmətkarlar munda dursun, biz varub bir görəlüm necə kişüdür. Kitayun «yaxşı deyirsən». Xadimləri anda qoyub getdilər. Çün xəlvət Seyyidlə getdilər. Seyyid Kitayunun atının cilovun dutdı. Kitayun didi: - Ey Lulan, neylərsən? Seyid, didi: - Bir bana dürüst nəzər qıl Lulanam? Kitayun nəzər edüb, bixud oldı. Lulanın üstə düşdü. Bir azdan sonra gözünü açıb didi: - Ey pəhləvan, bu gördügüm duşmudur, yoxsa xəyalımdur? Seyyid didi: - Görürmüsən məfğudiyyət peyğəmbər məni xilas eylədi. Kitayun didi: [133[a]] - Xuda-

vənda, günah eylədim. Təqsirimi bildüm, bağışla. Seyyid ki Kitayunı kənara çəküb qucdu. Qaravaşlar anı görüb dəxi Seyyidün ayağına düşüb müsəlman oldılar. Dərhal Seyyidün atını və donlarını gətirdülər. Seyyid dəxi donların geydi. Qeysərdən xəbər sordu didi: - İmdi bir aydur ki, Malatiyaya getdilər, dəxi bilmədüm. Seyyid didi: - gərək mən gedüm. Kitayun Seyyidi alub şəhərə gəldi. Hər nə ki ələ gələn şey varsa yaxşıların aldılar, atlara yüklədilər. Qırq qul, qırq qaravaş və qırq xadim alub əzmi Malatiyaya eylədilər.

Bu tərəfdə çün ki sabah oldı iki ləşkər səf bağladılar. İslam ləşkərindən Əli bin Mizrab Xürzəmi meydana girdi. Yetmiş kafiri cəhənnəmə göndərdi. Urtek Çini meydana girdi cəng eylədilər. Axır bir-birin atdan salub piyadə oldılar. Əli iylə keşiş dutuşdılar. Əli Urteki götürüb yerə vurdı. Dinə dəvət eylədi başın kəsdi. Firənk Çalut meydana girdi. Bir az cəng etdi Əli şəhid oldı. Müsəlmanlar məlul oldular. Abdülvəhhab meydana girdi, giriftar oldı. Əhmədi Tarran meydana girdi, giriftar oldı. Süleyman, Həbab oğlu Nasr, Cudə, Əli bin Haşım və Abdüssələm bunları meydandə yıkdı və bağladı. Ələm dibinə gətürdi. Qeysər şad oldı və əmr eylədi ki, anları öldürələr.

Xəlifə əl götürüb gözün gögə dutdı, münacat eylədi. Nagah gördilər. [134] Qeysər yolundan toz çıqdı. İçindən ələmli atlu çıqub gəldi iki yüz kişi bir sarı ələm dibində Seyyid Qazini Əmir görüb, Seyyidi bildi didi: - Yaranlar, ol gələn Seyyiddür. Bu sözdə ikən xəlifə fildən aşağı enüb, yüz yerə urdı. Seyyid Kitayunı qarşuda qoydı. Özü üç kərə peya-pey nərə urub yeridi. Meydana girdi didi: - Ey kafirlər, sandınuz ki, Battal öldi. Haq təalanın möcüzzatı ilə xilas olub gəldim, əlimdən necə qurtularsuz? İnşaalah Qeysəri bir əzab ilə öldürüm ki, atasının ölümü anın yanında halva ola. Müsəlmanlar anı eşidüb qarşu vardılar, görüşdilər. Xəlifə buyurdı, bəşarət təbil çaldılar, şadlıq eylədilər. Seyyid meydana girib Calut bərabər gəldi. Seyyidə cida həvalə eylədi. Seyyid məni eylədi. Seyyid allah deyüb, bir zərbə urdı.

Ləyin qalxan gətirdi təpəsinə toxundu. Atla özüni yerilən yeksan eylədi. Seyyid bir-birinün ardınca on yeddi pəhləvan öldürdi. Dəxi kimsə meydana girmədi. Fəxfur Çini didi: - Ey Qeysər, sən [134a] dedün ki, mən, Battalı öldürdim. Qeysər xəcil oldı, didi. Bu ol degildür. Bunlar bu sözdə ikən Seyyid meydana girdi. Gördi kimsə meydana girmir. Özüni kafirin ləşkərinə verdi. Kafirin qanını sel kibi axıtdı.

Çün axşam oldı. Təbil əsayiş uruldı. Seyyid dəxi döndü yaranlar qarşu vardılar. Seyyid xəlifə yanına gəldi. Yüz yerə qoydı. Xəlifə piyadə olub Seyyid ilə görüşdilər. Seyyidün əhvalın soruşdı. Seyyid didi: - Hekayətim çoqdur. İnşallah fəraǧat söylərəm.

Seyyid nəzər edüb gördi yaranlardan bir neçəsi əskükdür. Seyyid əhvalların sordı didilər ki, anlar giriftar oldular. Sonra Adn Banu, Bədrən hekayətin didilər. Seyyid anlar üçün xeyli ağladı. Seyyid and içdiki ağzuma bir loqma qoymanam Qeysərün işin bir yanə etməyincə və yaranları qurtarmayınca, tez camə yetdi, qəlub rəvanə oldı.

Çün Qeysər ləşkərinə yaxun gəldi. Nagah qatı yağmur yağdı, tufan qopdu, sellər gəldi. Çadırda adamlar dözə bilmədi. Kafir ləşkəri sərasim oldılar. Hər biri bir yana dağıldı. Seyyid andan bir çadra girdi. [135] Yaranları gördü zindanda otururlar. Seyyid bunların bəndlərin kəsdi. Bunlar Seyyidün ayağına düşdülər. Seyyid bunları bağrına basdı, gözlərindən öpdü, ləşkərdən atlar alub mindilər. Seyyid bunları öz ləşkərlərinə gətürdi, özü qayudub bir yerə gəldi gördi kim, dağ dibində on binə qədər ləşkər yağmurdan qaçmışlar. Birindən Seyyid xəbər aldı ki, Qeysər qandadur? Didi:

- Cəhənnəmdə. Seyyid didi:

- Bəs munda siz neylərsüz? didilər:

- Yağmurdan qaçdıq. Seyyid didi:

- Bəs necə edəlüm, ginə xəbər aldı ki, bu nə ləşkərdür, didilər Şah Qərəvanundur. Seyyid irəlü varub şah Qərəvana salam verdi, didi. Qeysər sizi istəyir. Bir xoş yer əlimizə

girdi. Seldən əmin olduq. Ol dəxi mundə gəlsün, məbadə Battalın cənginə düşər. Qərəvanı alub məğrib ləşkərindən çıxartdı. Bir ağacın dibinə gətürüb bir əzab ilə yıxdı. Bu ağaca sarıyıb qoydu. Qərəvan şahı didi:

- Məni niyə sarudun, Seyyid didi:

- Səni sel aparmasun. Su gəldi. Anı dəxi Qərəvan yanına gətürüb bir ağacə sarıdı. Əlqissə, Qeysərün və Fəğfur Çinin qırq adı bəlli bəgləri ki var idi, cümləsini bir-bir ağaca boğazından asdı. [135a]

Çün sabah oldı, yağmur açıldı, göz gördü. Ləşkər bəglərini axtardılar tapmadılar. Gördilər kim, cümləsini boğazlarından asmışlar. Fəryad-fəğan eylədilər. Başları qaysıya döndi. Qaçmağa yüz dutdılar. Seyyid nərə urub həmlə qıldı. Yaranlar dəxi həmlə eylədilər. Çoq kafirləri qırdılar və əsir eylədilər. Sonra ləşkərün malların cəm eylədilər. Xəlifə Seyyidə çoq düalar eylədi. Ol malı ğazılara uluşdurdılar. Cümləsi şad oldular.

Andan sonra Kitayunu Seyyidə nigah eylədilər. Toy, dügün edüb verdilər xəlifəyə, çoq mal iylə Bağdada rəvan oldı.

Çün Qeysərün bir oğlu qaldı Əsatur nam. Bəglər anı padşah eylədilər. Seyyidə elçilər göndərdilər ki, Qeysər didi: «Bən anın quluyam». Nə kim atam sana nə eylədisə, bən onu eyləmərəm. Çün Seyyid naməni oqudı, didi: - Bu sözi atası dəxi söylər idi və vəfa eyləmədi, xərracı verməgi dəxi boynuna aldı. Bu da qəbul eylədi.

Ravilər belə rəvayət eylədilər ki, bir gün xəlifə bir neçə kişi iylə şikara gedirkən gördi bir ağacın dibində bir kişi yatur. Burnı qulağı kəsük. [136] Çün xəlifə anı gördü ağladı. Sordılar kim, səni kim belə eylədi, didi: - Bən Səhil tacirəm. Ruma getmişdim, qumaşımı Qeysərə satdım. Parasını istədim vermədi. Didim bu mal xəlifənindir. Acıqlanub məni bu halə saldı didi: - Var, xəlifəyə söylə və mən də gəldim ki, mənim malımı və qisasımı Əsatur Qeysərdən alasan. Xəlifənin buna rəhmi gəlib şəhərə qayıtdı. Ləşkər cəm edüb Ma-

latiyaya gəldilər və bunlar eşitdilər xəlifə gəlür. Əmir, Seyyid Battal yaranlara qarşu varub şəhərə gətürdilər. Xəlifə hekayəti Seyyidə bildürdi. Seyyid didi: - Xudavənda, siz zəhmət çəkməkdə nə hacət, didi. Bən bu əmri yerinə yetirərdim didi: - Doğru deyirsən, ayağım xatirim qəzavətə həvəs eylədi gəldüm Malatiyadan yüz bin ər cəm eylədi.

Bu xəbəri Əsatur eşitdi ki, xəlifə Malatiyaya gəldi. Ləşkər cəm eylədi kim, İslambula gələ. Əsatur dəxi neçə kərə yüz bin ər cəm eyləyüb gəlib oturdılar. Əsaturun bir vəziri var idi, Danyal adlu, onu xəlifəyə göndərdi ki, Battalı dutub bana versün və dəxi xərac boynuna alsun çün ol kəslərə xəyal eyləməsün, əgər yox desə, təmam [136[a]] islamı xərab edərəm. Çün namə xəlifəyə məzmunu məlum oldı, Seyyid acıqlanıb vəzirin iki yüzini və iki qulağın kəsüb əlinə verdi didi: - Ey sək, (it) bi din, var söylə ki, atan bəndən nə aldı ki, sən nə alursan. Bu xəbər Əsaturə gəldi.

Sabah oldı nəqarələr döküldü. Ləşkərlər səf bağladılar. Kafir ləşkərindən Qurt firəng meydana girdi. Müsəlmandan Səhil meydana girdi. Qurt Ləhin yetər əndaz idi. O Qıl Səhili şəhid eylədi. Dəxi bir pəhləvanı da şəhid eylədi. Qurt Ləhin nərə urub çağırdı. Hanı Battal gəlsün. Seyyid meydana girdi. Qurt Ləyin bir ox yaya qoydu, doldurunca Seyyid yetişüb cida iylə elə urdu ki, qalxandan keçüb boğazından o tayə çıqdı. Atından qapdı yerə urdı. Kəffar ləşkərindən nərə qopdu. Zərbun nam bir kafir meydana girdi. Həlak oldu. Əsaturun acıqından gözləri qanə döndü, özü meydana girüb Seyyidə həmlə gəldi. Seyyid dəxi həmlə eylədi, Əsatur gördü ki, ğənim *(düşmən kəs - A.R.)* güclüdür, önündən qaçaq deyildi. Ol iki dərya kibi ləşkər cümləsi bir-birinə qarışdı. Qan su kibi axdı. Əsatur gördü kim, islam ləşkəri qoşuldular. Bir yaxşı bədöv ata minüb yüz çevirdi. [137] Seyyid yetişüb kəffar ələmin yıxdı. Kəffar ləşkəri sınub qaçdılar. Müsəlmanları qırdılar, kimisin əsir eylədilər. Qənimət malın yığub cümləsi xəlifə yanına cəm oldılar. Malları yetürdilər. Xəlifə didi: – Mənim xatirim belə istəyir kim, Qey-

səri bir yana yetirməyincə aram etməyim. Seyyid didi: - Əmr sənindür. Xəlifə tez nəqarə dögdürdü. İslambula əzm-i eylədilər.

Çün Əsatur İslambula gəldi, xəzinə açub, mal tökdü. Nagah Battal üstümüzə gəlməsün deyüb, ləşkər cəm eylədi. Əsatur bəgləri cəm olub, məsləhət eylədilər ki, Battal cadudur. Ol caduya bir cadu gərək, gətürüb bir-birinə məqayil edəlüm. Harun adlu bir vəzir var idi. Didi: - Şaha qalan yerdə bir Hərus adlu həqiqi cadu oğlandur. Əgər o gəlirsə bu qövmə cavab verür. Əsatur buyurdu namə yazdılar kim, «Bən sənin qulunam Munda bir kişi vardur, Battal deyirlər atamı öldürdi. İmdi mənim qəsdimdədur. Kərəm eylə gəl, bəni andan qurtar. Hər nə buyursan canimə minnət bilürəm, sənə xidmət edərəm» deyüb, naməni göndərdi. Bunun üzərinə qırq gün geçdi və qırq gündən sonra xəbər gəldi ki, [137[a]] «Harus nam cadu gəldi». Özü qarşu vardı nagah hava yüzündən bir qövm peyda oldı. Kimi donuza binmiş kimi əjdəhayə binmiş. Hər biri bir ilanı qamçı eyləmiş hər biri növ ilə gəlib səhrayə düşdülər. Qoxularından adam yanlarına gedə bilməzlərdi. Əsatur anı görüb qorqdı. Piyadə olub qarşu yeridi, görüşdülər. Yar kahinə gəlüb əzim qonaqlıq eylədi.

Hərus didi: - Bən eşitmişəm ol, Battal heybətlü pəhləvandır. Dörd kitab oqumuşdur. Bən ona hərif olmanam. Amma bir cadu bilürəm. Zül-qərneyn daxmasında olur, Cuzəndə cadudur. Qırq arşun qəddü qaməti var, əgər ol gəlsə cahan dolu Battal olursa həqqından gəlur. Əsatur buyurdı, namə yazdılar. Hərus naməni aldı. Həva yüzündən pərvaz urub getdi.

Nagah xəbər gəldi ki, Battal gəldi. Əsatur eşidüb məlul oldı. Ol, Seyyid Battal Ğazi gəldi. Dalusında Malatiya bəgləri gəldi. Andan sonra xəlifə, yüz qazı arxasında, dört yüz xoş avazlu qaziləri, sağında və solunda «İnna fatehna» surəsin oxudular. Müqərrəblər *(yaxın, saraya yaxın adam – A.R.)* önündə təkbir gətirib ol ağ filin üzrində xəlifənin tax-

tını bərkitmişlər. [138] Xəlifə təxt üstündə oturmuşdı. Peyğəmbərün ələmi dibində və üstündə yazılmışdı: «nəsrun mina Allah və fəthün qərib və bəşşirül möminun ya Muhamməd».

Çün Əsatur bu əzəmətlə xəlifəni görüb ah eylədi, didi: – Ya nar-ı nur! Mən sana neylədim ki, bu qövmi bana həvalə eylədün? – deyib ağladı.

İslam ləşkəri gəlüb İslambula qarşu düşdülər. Dərhal Seyyid buyurdı, «Musal kadesini» Əsətura göndərdilər. Gəlüb yetişdi, didi: - Gəl küfri tərk eylə imanə gəl, yoxsa təmam Rum vilayətini xərab eylərəm.

Bu xəbəri ki Əsatur eşitdi, ağladı didi: - Battal on gün bana möhlət versun bən dəxi rəhbanlarım iylə məşvərət edəlüm görüm nə buyururlar və dəxi sizün üləmalarınızla, üləmalarımızı bəhsə qoyalım. Hansı din qüvvətli olursa anı dutalım, didi. Musal kadisi xəlifəyə xəbər gətürdi on gün möhlət verdilər. Çün Qeysər xəlvət qaldı. Didi: - Dəriğa, bu vilayəti bunlar xərab edürlər. Mən çarəsizəm deyüb, yüzü üstə düşüb ağladı. Məğər Əqbanın oğlu anda hazır idi didi: - Şəha, sən qəm yemə, [138[a]] bən Battalı bu əskərdən avarə idim. Qalanın işi asandır. Əsatur anda didi: - Əgər sən bu işi bacarsan, qız qərındaşımı sana verəyüm.

Vəlid özi sufiyanə donlar geydi, təsbeh düzümi boynuna saldı. Sabah vəqti müsəlmanlar namazdan feyz olcaq içəri girdi, ağlayub yüz yerə qoydu və bir namə çıqarub qabaqlarına qoydu. Naməni alub oqudular. Əvvəl Allah adın yad etmiş və peyğəmbərə salavat gətürmüş, andan Seyyidə düa yazmış və demiş: «Mən Abdülmömünəm, məğrib padşahıyam. Eşitdüm ki, Seyyid Battal, İslambula qəzavətə yaraqlanmış. Bən dəxı ləşkər cəm eylədim. Yetmiş bin kişiylə gəmiyə mindim nagah bir xərab yerə gəldim. Qayd-ı Müniyyə dirlər. Anda bir kafir var Cavni Frəng derlər. Doxsan bin frənglə gəlüb gəmilərimüzi dağıdub və bizi həsar eylədilər. İmdi bu müsəlmanlara bir çarə edün. Əgər yalquz Seyyid gəlsə bizə bəsdür».

Namə oqundı. Xəlifə didi: - Əgər Seyyid varsa işimiz yaxşı olmaz, cümləmizün başı odur, biz ansuz iş bacarmanuz. Seyyid o saət atlandı rəvanə oldı.

Günlərdə bir gün birini yanına gətürdi, didi:

«Mundan, ol yerə nə qədər yol var?» [139] Didi: - dəniz ilə yetmiş gün yoldur. Seyyid didi: - Az yol imiş. Seyyid xəlifədən dəstur alub ol məlun iylə dəniz kənarına yetüşüb, gəmiyə minüb rəvan oldılar. Cezirəyə gəlüb çıqdılar. Seyyid namaza durdu. Vəlid ləyin tez gəmiyə minüb, Seyyid çağırdı: - Ey məlun, handa gedirsən? didi: - Ey Battal, sənin haqqından gəldim. Eylə eylədim ki, ömrün olduqca adam yüzin görməyəsən. Bən Əqba qazının oğluyam deyüb rəvan oldı. Seyyid anda qaldı. Çoq gəzdi, adəm əsəri bulunmadı, Haqq-təalanı həzrətinə münacat eylədi.

Nagah gördü ki, bir qarı çıqub gəldi. Seyyid anı bilüb, ayağına düşdü. Zira ki, bir neçə yerdə Seyyidə yardıma gəlmişdi. Seyyidin önündə bir tabaq qoydu. İçində iki ətmək, bir parə halva. Seyyid yedi. Qarı didi: – Ey cigər guşəm! Niçün belə ğafil olub məlunun sözünə uydun. Dur imdi səni Xızır yanına aparım. Seyyid ilə böylə gedirkən gördü ki, bir xoş çəmənlər və bir çeşmə yanında bir qoca namaz qılur. Çün namazdan fariq oldı. Seyyid Xızırun ayağına düşdi, əlin öpdi. Xızır Seyyidi bağrına basdı. İki gözündən öpdü. Bir gün, bir gecə söhbət eylədilər. Çəküb Seyyidə uç ok verdi didi: - [139[a]] Ey cigər guşəm! sana gərək olar. Xızır ol qarıcığa didi: - Bunı ləşkərinə apar. Xızır ilə vida edüb, ol qarucuqla ləşkər canibinə rəvanə oldılar. Qarı Seyyidə didi: - gözün yum, yumdı, aç didi, açdı. Özün dərya kənarında gördi. Nə Xızır var, nə qarı var. Haqqa ləşkər eyləyüb rəvan oldı.

Bu tərəfdən çün Vəlid ləyin Qeysər yanina gəldi, əhvalı bildirdi. Qeysər şad oldı, bu halətdə Hərus Cadu gəldi. Seyyidün xəbərin bildi kim, Seyyid avarə olmuş didi: - O gəlincə bən bu ləşkəri bir yan eyləyim. Tez nəqarələr dögüldi. Kafirlər İslambuldan dışra çıqdılar. Xəlifə xəbər alub atlan-

dı, iki ləşkər bir-birinə müqabil oldılar. Bir cadu meydana girdi. Müsəlmanlardan bir kişi müqabil gəldi. Cadu, əfsun oqudı, zihir eylədi, bir şişə atdı. Abdülvəhhabın dört yanı sel oldı. Didilər, Abdülvəhhab qərq oldı. Rəsul düasın oqudı. Ol sel nabud oldı bir qılınc urdu cadu iki parə oldı. Cadunun o bir qardaşı meydana girüb caduluq eylədi. Rəsul düasının bərəkatından kar eyləmədi. Anı dəxi həlak eylədi. [140] Nəqtay-i Firəng yeddi bin frəng ilə həmlə qılub, Abdülvəhhabı ortaya aldılar. Xəlifə buyurdı, Əhmədi Tarran, Nəsr Abdüssələm, Əli bin Haşım, Cudə Məhəmməd bin Əli həmlə qıldılar. İki ləşkər bir-birinə qarışdılar. Hərus Cadu yerdən bir avuc topraq alub bir əfsun oqudu. Müsəlmanların üstə səpdı. Bir zülmət qopdu qaranlıq oldı. Müsəlmanların üstə çökdü. Əlləri bağlandı taqətləri qalmadı. İslam ləşkərini xəlifənin üstə qovdular. Xəlifə yüz yerə qoyub, həqqə münacat eylədi, didi:

- Pərvərdigara, bu islam ləşkərinə bir mədəd eylə, deyüb ağladı, ol saət Seyyid ləşkərə yavaq eylədi, gördü ki, islam ləşkəri sınmış. Nagah bir nərə peyda oldı. Seyyid avazın eşidüb şad oldılar. Tez Aşqarı yetirdilər. Mindi həmlə qıldı. Hərus ləyin bir yerdə durub əfsun oqurdı. Müsəlmanlar üzərinə topraq səpirdi. Dərhal Seyyid yetişüb nərə urdı. Nə qədər əfsun oqudusa kar qılmadılar. Dilədi qaçə Seyyid yetüb tiğ-səxxakı öylə urdı. İki parə oldı. Çün Hərus öldi. Aləm münəvvər oldı, qaranluq getdi. Qazılar hərəsi bir əjdəha kibi oldılar. Döndülər kəffar [140[a]] ləşkərin basdılar. Cadular Seyyidi görəndə qaçdılar. Kəffar ləşkərin gırdılar. Müsəlmanlar şəhəri araya aldılar. Seyyid xəlifə yanına gəldi. Yüz yerə verdi, xidmət eylədi. Ol sərgüzəştin ərz eylədi. Cümləsi heyran qaldılar. Seyyid didi: «Vəlid ləyin nə qədər kim mundadur, bəlası əksük olmaz».

Bir gün Cuzənd gəldi, Qeysər şad oldı. Sabah oldı, Cuzənd ləşkəri gəldi. Əsatur Qeysər Cuzəndə qarşu gəldi görüşdi. Sarayına gətürdi, yedilər içdilər. Cuzənd sərxoş oldı didi: - Ey Qeysər, məlul olma, tamam Qaf Dağı əlimdədür.

Divlər pərilər bənim qorqumdan yatmazlar. Nə Battalu, nə xəlifəni qoymaram. Gecələrin oda yıqaram, didi. Qeysər bu xəbəri eşidüb canı yandı didi: - Vay, dəriğa, özüm öz əlüm ilə ayağuma daş urdum. Bu kişi nə Battalı qoyar və nə məni. Canına qorqu düşdü.

Sabah oldı Seyyid şəhəri ğovrah dolandu. Nagah, bir ox şəhərdən qabağına düşdü, ucunda bir namə yazmış kim, «ol binam Xüda, ikinci binam Rəsul və dəxi Şəmasdan Seyyidə düa kim, Vəlid ləyin bizim sirrimizi bilüb [141] Əsatur Qeysərə saldurdı, bizi üç müsəlman ilə zindana qoydular, əlbəttə bizi unutmayasız».

Çün naməni oquyub ağladılar. Yaranlar xəbər alub cümləsi pərişan oldılar. Sabah oldı. Ləşkər atlanub tışra çıqdılar. Ol kəslərdən Cuzəndə meydana girdi. Qırq arşın qəddü-qaməti var idi. Bir kərgədanə binmış və bir qara palasa girüb durdı. Ol Cuzəndin ləşkərinə vücudlarından odlar sacdılar. Kafirlər və müsəlmanlar anları görüb qorqdular. Seyyid Xəlifəyə düa edüb, əzm-i meydana eylədi. Cuzəndiyə bərabər gəldi. Eylə ki, Seyyidi gördi, didi: - Kimsən?

Didi: - Kimi istəyirsən?

Didi: - Battalı istəyirəm.

Seyyid didi: - Ol istədigün mənəm. Cuzəndə didi: - Bu aləmi xərab edən Battal sənmisən? Seyyid bəli deyəndə, o məlunun gözləri qana döndi, qoltuqundan bir daş çıxarub, bir əfsun oqudı. Seyyidin üstünə «od içində qal!» daşı atdı. Ol daşdan əjdəhalar peyda olub həmlə qıldılar. Seyyid peyğəmbər düasını oqudu. Cuzəndin caduluğı batil oldu. [141a] Ol dəm ol qarucuq çıqub gəldi didi: - Ey Seyyid, ol Xızır verən oqların birini ol məluna at. Seyyid bir oq atdı, Cuzəndənin sağ gözünə doqundı, dalusundan çıqdı. Fəryad eylədi. Bir dəxi sol gözünə urdi. O tayından çıxdı. Cadu ah, eylədi didi: - Ey Battal, əyyarlıq ilə məni həlak eylədün. Seyyid atını sürüb irəlü gəldi. «Niyyət ğərasəpi allah» deyüb, tiği-səxxakı elə çaldı, iki parə eylədi. Cadu ləşkərindən

fəryad-fəğan qopdu. Müsəlman ləşkəri təkbir gətürüb at saldılar, nərə urub həmlə qıldılar. Cadu ləşkəri dəxi dözməyüb qaçdılar. Cuzəndənin gövdəsin yıqub gətirdilər, Əsatur qeysər şəhərə qaçdılar. Çün Abdülvəhhab busquya getmişdi. Əsatur anı oğradı dutub əsir eylədi. Kafirləri qırdılar. Qalanı şəhərə girdilər. Xəlifə Seyyidə yuqa düalar eylədi, gəlüb qondılar. Seyyid buyurdı, Əsaturı gətürdilər. Seyyid didi: - Ey məlun, tez müsəlman ol! Yoxsa öldürrəm. Əsatur didi: - Ey pəhləvan, mən müsəlman oluram. İmdi bana təəllüq iki [142] bin şəhəristan, yeddi bin qələ vardur. Cümləsi əldən gedir. Asi olurlar, gəlün bu dəfə bana xərrac kəsün. And içüm islam diyarına qəsd eyləməyim. Xəlifəyə Seyid, bəglər məşvərət edüb, didilər. İmdi əgər bunu öldürsək, bir oğlunu, yerinə qoyarlar. Qələni ginə möhkəm edərlər. Barışmağa ittifaq eylədilər. Seyyid didi: - Ey Əsatur, gəl imdi bu şəhər içimdə bana bir gön miqdarı yer ver nişan eyləyim. Əsatur didi: Xoş ola. Andan sonra and içüb saziş eylədilər kim, dəxi bu sözdən dönməzlər. Xəracı boynuna aldı. Seyyid bir sığır gönü nazik şırım çəkdi ki, uzunu dörd bin arşın oldu. Ol şəhər içində o güşədən üzünü bir yerə dutdı, belirlədi. Ağacların qırdılar, neçə kilsələrin dükkanların xərab eylədilər. Əsatur çun onu görüb xəlifə yanına gəldi. Şikayət eylədi didi:

- Məndən dörd bin miqdar yer istədi, imdi şəhərün yarısun tutdı xərab eylədi. Xəlifə Seyyidə didi: - Niçün belə eylərsən? Seyyid didi: - Qəzəbləndi, xəşimlə Qeysərün yüzünə baxdı. Qeysərün içinə od düşdü, qorqub gəlüb Seyyidün ayağına düşdü didi: - Xüdavənda, hər nə kim xatirindən keçir, eylə özündən. Seyyid didi yeri, imdi Şəmas üç bin müsəlman iylə həbsdədür tez gətür, didi. Ol saət gətürdilər. [142[a]] Cümləsinə yaxşı xələtlər verüb, Seyyid yanına gəldilər. Xəlifə Seyyidlə Şəmaslə söhbət eylədi. Yaranlar ilə belə Seyyid dəxi sarayları və neçə dügganları yıkub, yerinə məscidlər bina eylədi. Nə qədər müsəlmanlar anda kim, şəhid olmuşlar idi anda dəfn eylədilər, Qeysərdən dəxi yeddi illik

xərac aldılar. Qeysər ilə vida edüb andan köçüb Malatiyaya gəldilər. Əmir xəlifəyə böyük qonaqlıq eylədi. Yeddi gün durdılar. Səkkizinci gündə xəlifə məqamına varub, qalan mömünlər bunda yeməkdə içməkdə qaldılar.

Hekayəti digər çün məhərrəm ayının onuncı günü idi. Adına günü Malatiyaya xəbər gəldi ki, Mutasım xəlifə vəfat eylədi oğlu Mümin təxtə çıqdı oturdı. Xəlifə öldi. Əmir, Seyyid, yaranlar yeddi gün yas dutdular. Andan şəhəri, xəlifəyə getmək üçün Abdülvəhhaba tapşurdılar. Andan cümləsi xəlifə ilə biat etməgə getdilər.

Çün Seyyidün üç oğlu var idi. Birinin adı Əli, biri Bəşir və biri Nəzir. İkisi giçik idi, Əli növcəvan idi. Əli Seyyid ilə getdi. İkisi munda qaldı çün Bəşir və Nəzir bir gün şikarə getdilər gəlmədilər. Nə qədər aqdardılar çarə olmadı. Abdülvəhhab pərişan oldı. Bağdada adam göndərdi ki, bəlkə atasının ardınca getmiş ola deyüb, xəbər gətürdilər kim, anda degil. [143] Abdülvəhhab didi: ki, varın dəriğa, Seyyid oğlanların bana ismarladı. Onlar bəllürsiz oldı, bən Seyyidə nə cavab verim deyüb ağladı. Tez Ruma adam göndərdi ki, xəbər bilsün. Adamlar gəlüb xəbər bildilər, didilər: «Qeysərün Təkfur şah adlu oğlu itmiş. Hər gecə bəglərün oğlanları və qızları itir, kimsə bilməz necə olur. Deyirlər, Battaldur bu işləri edən».

Qeysərün taqəti qalmadı və Abdülvəhhab ecaz olub ğəmə batdı gəlüb Rumə yetdi.

Çün Abdülvəhhab əzm-i Ruma eylədi Qeysərün cəsusu xəbər gətürdi ki, mən Bağdada vardum bu işləri Battal eylərmiş. Bunlar didi, cümlə Rum vilayəti ana tabe olmuşlar və cümlə rəhbanlar anın qorqusundan hər il adam başına beş batman mum kəbələrinə göndərürlər. Bəs bünı Battal nə əcəb ilmək gərək bu sözü Əsətur eşidüb ürəgi yandı. Pərişan oldı. Bir pəhləvanı var idi Aqranuş frəng derlər, ol gecə anın bir qızı qeyb oldı. Qeysərün yanına gəlüb ağladı didi: - Ey məlik, Bu zamanda səndən ulu padşah yoqdur. Bir hiyləçi adı oğru ola qorxub xərac verirsən, bu necə biqey-

rətlik olurmı, biz edirük. Aqranuş çoq şikayət eylədi didi: - Bu gecə mənim dəxi bir qızım itdi.

Qeysər eşidüb məlul oldı. Ətraflara namələr göndərdi. Beş yüz bin ər cəm eylədi. İki yüz bin adamı İslambulda qoydu. [143a] Qapuları möhkəm edüb özü dəxi üç yüz min ər ilə Məmuriyəyə getdi.

Bu tərəfdən çün Abdülvəhab bir gün Rumə yetüşdü. Abdəst alıb, namaz qılıb yatdı. Düş gördü ki, bir qara palçıqdan qayrılmış bütə səcdə eyləyir. Kimsə gəlüb ol qara donunı çıqarub, ağ don geydürdi. Abdülvəhhab oyanub «əstəfur» edib ağladı. Abdəst alub namaz qılurkən Əsətur bəgləri ilə gəlüb gördülər Abdulvəhab namaz qılır. Qeysər ləşkərindən Nəqtayi frəng üstə yerüdi. Didi: - Ey Battal, bu fitnələr nədür edirsən? Bizimlə əqrar eylədügunə, dəxi bu canibə gəlmirsən? Bu nə işlərdür kim, sən edirsən, hər gecə oğlanlarımızı, qızlarımızı sən oğurlayırsan? Abdülvəhhab tez sıçrayub yerindən durub bir qılınc elə urdu ki, ol kafiri iki parə eylədi, Əsatur fəryad eylədi, didi: - Ey Battal, hanı oğlum Təkfur şah, hanı bu qədər oğlanlar və qızlar. Sən imdi Rumə qəsd eyləməyəcəkdun. İmdi qəsd eylədün deyüb, tir-baran eylədilər. Qələbə qılub, Abdülvəhhabı dutdılar, Qeysərə gətürdilər, gördü ki, bir ağsaqqal kişidür. Əsətur didi:

- Sən nə kişisən?

Ol didi: - Bən ol pirəm ki, Məhəmməd Əl Mustafanı gördüm. Üç yüz il yaşadum yetmiş kəz həccə getmişəm, bin iki yüz kərə qəzavət eyləmişəm İstər öldür, istərsən sağ qoy. Əsətur çün bu sözü eşidüb, vəzirlərə [144] didi: - Bu nə? Nə eyləmək gərək. Didi: - Şaha, bunı öldürmə, xoşca saxlıyalum. Şaid girsə dinimizə, Battalın ərlüki budur, bu olmuyacaqsa, Battalın əlindən nə gəlür?

Qeysər buyurdı, Abdülvəhhabı İslambula göndərdilər. Gətürüb bir xub saraya qoydular. Əsatur qızına ismarladı ki, hər nə kim eyləsən eylə Abdülvəhhabı yoldan çıqar, didi. Qeysərün bir qızı var idi. Xurmənk derlər idi. Qayətdə

xublardan idi. Yarım gecə özüni bəzəyüb, sərxoş olub Abdülvəhhabın yanına gəldi.

Səlam verdi. Didi: - Necəsən? Ey şiri-nər Abdülvəhhab, didi: - Budur halimi görürsən. Qız didi: - Bu dünyanın axırı heçdir. Diri ikən zövq səfa hasil etmək gərək deyüb bir qədəhi doldurub içdi didi: - Gəl bunı nuş eylə, bənim iylə kölnünü xoş eylə ki, bu aləm bir qərar, degil deyüb genə əlindəki qədəhi içdi, oturub məclis əgləncə arəstə qurub bir neçə qədəhi içüb məst oldı, durub Abdülvəhhabın dizi üstə oturub əlin boynuna saldı. Yüzin yüzü üstə qoyub, didi: - Bir qədəhi mənim əlimdən iç, bənüm iylə [144[a]] söhbət eylə. Qız qayətdə məhbub idi. Abdülvəhhabın ixtiyarı əlindən getdi. Eşq divanəsi oldı.

Nəim-cimlə qırq gün gəlib getdi, Abdülvəhhab eşq atəşinə düşdi, özün saqladı, nagah Əsatur gəldi didi: - Ey cigər guşəm, necə eylədün? Qız didi: - Heç, çarə olmadı.

Çün Qeysər bu xəbəri eşidüb buyurdı, Abdülvəhhabı gətürdilər siyasət etdilər. Qızdılar didilər ki, çün Məsihin qulu olmaz imişsən. Boynunı vurun cəlladlar qılınc çəküb üstə yeridilər. Ol dəm qız qapudan içərü girdi. Şəfaət edüb Abdülvəhhabı öz otağına göndərdi, didi: - Ey Abdülvəhhab, ölməkdən diri yaxşıdur, xüsusən mənim kibi məhbubi bağruna basasın. Ol qədər söylədi kim, Abdülvəhhab mayıl oldı. Abdülvəhhab özü kölnündə didi: - Dinimi kölnümdə məhkum eylədim. Dinim ilə iqrar idim. Bunları aldadım bunun kibi məhbubi bir bağrıma basım. Abdülvəhhab qərar verdi. Qız eşidüb şad oldı. Əlin Abdülvəhhabın boynuna saldı, bir neçə şəfaətkarlığ eylədi. Bir qədəh şərab töküb təvazi eylədi. Miskin heç nə deмədi alub içdi. [145]

Qız dərhal Qeysərə adam göndərdi muştuluq ki, Abdülvəhhab məsihinin qulı oldı. Kafir şad olub durub Abdülvəhhabın yanına gəldi, ol dəxi bir qədəh verdi, anı dəxi alub içdi. Qeysər genə şad olub bir qədəh də verdi, anı da içdi. Abdülvəhhabın başı qızdı, üzüni ana dutdı. Qeysər şadluq eylədi. Ab-i Məbudəyi *(Qütsal su - A.R.)* ilə yudı-

lar, üstinə kafir suyun tökdilər, zünnar bağladılar. Sonra büt önünə gətirdilər. Donquz ətın yedirdülər.

Qeysər çoq şadyanalıq edüb, Abdülvəhhaba yaxşı xələtlər verdilər, dört şəhər, otuz para qələ, bi nəhayət mal verdilər. Yeddi gün toy edüb qızı Abdülvəhhabə tapşırdılar. Çün sərxoş idi, yatdı. Qız otururkən Abdülvəhhab ağzından bir ağ quş çıqub uçdı getdi. Bir qara quş gəlib ağzına girdi, həman dəm anın məkur surəti qapqara oldı. Yenə oyanub durdı oturdı didi: - Tez şərab gətür, məhmuram. Qız şərab gətürdi. Bir neçə qədəh içdilər. Qız hekayətin bildirdi. Abdülvəhhab eşidüb, ah edüb ağladı didi: - O aq quş, mənim imanumdur. Ol qara [145[a]] quş, kafirdir dəriğa neçə illəri taət və həcci qəzalar kim eylədim, zay oldı deyüb, ağladı. Qız didi: - Hələ ol getdi. Al bu qədəhi bir iç, həman dəm bir kəsük baş rovzəndən aşağa endi hənuz qanı axar. Qız anı görüb fəryad eylədi. Abdülvəhhab qışqırub qılıncı əlinə alub tışra gəldi ki, görə bu nə işdür. Dörd canübə nəzər eylədi. Bir şey görmədi. Gerü gəlüb oturdı, həman dəm daha heybətli tazə adam başı yenə düşdi. Abdülvəhhab qılınc alub yenə tışra çıxdı, heç bir zad görməyüb məçbur qaldı evinə gəldi. Qızı tapa bilmədi. Fəryad eylədi. Qeysərə xəbər eylədilər. Qeysər gəlüb o təzə başları görüb qanı qaçdı.

Sabah oldı qızı çoq axdardılar, tapulmadı. Cümləsi didilər, «bunu Battal eyləyübdür». Onun işidür. Qırq gün bunun üzərindən keçdi.

Günlərdə bir gün əmir düa eylədi. Cəmi bəgləri xəlifə saqladı, Malatiyaya göndərdi. Şəhərə gəldilər. Xalıq Seyyidə qarşu gəlüb görüşdülər. Seyyid iki oğlunı, Abdülvəhhabı [146] görməyib xəbər sordu. Əhvalı bildürdilər. Seyyidün taqəti qalmadı. Seyyid Musa bin Cudəni yoldaş götürüb rəvanə oldı.

Çünki bunlar Ruma gəldilər gördilər xalıq söyləşirlər. Ol peyğəmbərin yüzini görən Abdülvəhhab, gəldi Qeysərün qızına aşiq oldı. Qızın ana verdi. Ol gecə Seyyid Battal gə-

lüb oğurladı. Biçarə məğbun oldı. Çün Seyyid bu xəbəri eşidüb ah eylədi. Musayi bin Cudəni ol yerdə qoydı, didi: - Bən gəlincə heç yerə getmə, özü Qeysər yanına gəldi. Qeysər dəxi bəglərin cəm edib məclis qurub oturmuşdı. Məşvərət eylədilər. Seyyid baqub gördü Abdülvəhhab bir qızıl kürsi üstündə oturub bir tac başında, bir neçə qədəh içüb məst olmuşdı. Seyyid içərü girüb Qeysərə salam verdi. Gəlüb Abdülvəhhabın ağzına bir yumruq urdı. Ağzı burnı qızıl qan oldı. Üç dişin boğazına saldı. Çəküb kürsidən aşağa saldı. Abdülvəhhab söz dimədi, çıqub getdi. Ol Seyyid, Abdülvəhhabın yerinə oturdı. Kimsənün canı olmadı ki, söz deyə, cümləsi məlul olub başların aşağa saldılar. Qeysər baş qaldırub didi kim, «nə kişisən ki, mənim yanımda belə hərəkət eylədün?» Didi: «Bən Fəğfur Çinin elçisiyəm. Eşidüb ki, qızını bir [146[a]] özgə kişiyə vermişsən, bəni göndərdi ki, ana özümü bildürim. Gördü kim, halını necə eylədüm». Qeysər didi kim: «Nə fayda oldı? qızım qeyb oldu. Hanı oğlum Təqfur şah və dəxi munca oğlanlar və qızlar? Cümləsini Battal aldı deyüb ağladı». Seyyid yerindən durdı. Yenə gələrəm deyüb getdi. Həman dəm Abdülvəhhab içəri girdi. Qeysər didi: - Hey, sana nə oldı munca bəglər yanında sana belə eylədi, sən ana bir cavab verə bilmədin? Abdülvəhhab didi: - Şaha, şükr eylə kim, o sana qəsd eyləmədi. Qeysər didi ki, «məgər o kimdir». Abdülvəhhab didi: - Ol Battaldur. Tez buyurdı atlandılar, Seyyidün ardınca getdilər.

Çün Seyyid Musa yanına gəlüb Abdülvəhhabın hekayətin bildürdi. Bərabər şərh eylədi. İkisi dəxi bu halə bir-biri ilə ağlaşdılar. Andan durub bir arayə gəldilər. Musanı bir rəhbana əmanət qoydu, didi. Bu mənim qulumdur. Əgər bən gəlürsəm xoş, əgər gəlməzsəm, sənin olsun. Bu yerdə xidmət eyləsün. Rəhban qorqusundan razı oldı. Seyyid Musani anda qoyub özü çıqub getdi. Həman dəm toz qopdı. Qeysər gəlüb yetüşdi. Seyyidi ortayə aldılar. Fələqrat Firəng adlu bir yavuz məlun var idi, buyurdı Seyyidi tirba-

ran eylədilər. Seyyid nərə urub həmlə qıldı. Kafiri axşam olunca qayətdə qırdı. Axşam ki oldı, ləşkəri iki yarub çıqdı getdi. [147] Sabah vəqtində bir dəniz kənarına gəldi gördi kim, iki kişi oturur. Seyyidə didilər nə kişisən, Seyyid didi:

- Qeysər qullarındanam, adım Məhruzdur. Battalın üstünə gedirəm.

Anlar bir didi: - Biz dəxi anı istəyirük. Birisi didi: - Bir gecə gəlüb bir qız qarındaşımı oğurlayıb getdi, deyüb ətmək çıqarub yedilər. Anlar durub getdi. Seyyid anda qaldı, yatub yuxladı. Fəliqrat ləyin bir neçə adam ilə Seyyidün üzərinə çıqub gəldi. Gördi kim, Seyyidi yuxular dutub, bağladılar. Seyyid didi: - Bəni neçün bağlarsuz? Fəliqrat didi: - Sən Battalmısan. Nar-ı nur fürsətdir, didi. Bən dedügün kişi degiləm. Qeysərün qulıyam, adım Məhruzdur. Ləyin didi: «Sənin məkrün çoqdur, səna inanmazam. Həman dəm ol iki igidlər gördilər kim, Seyyidi dutmuşlar, didilər?» hay bu kişi Qeysərün qulu Məhruzdur. Qulunu neçün dutursan. Fəliqrat didi: «Bu Battaldur». Onlar didi: - Degildür, sözləri çəp düşdü. Qılıncı qılınca duşdadılar. Ol iki igidləri öldürdilər, Seyyidi alub getdilər, bir yerə düşdülər. Seyyid gətürüb didi: - Ey Battal, hanı mənim qız qarandaşım, bunca mal Rumdan apardun [147[a]] qandadur? Söylə səni azad eyləyim deyüb, çoxlu dögdülər, əzab verdilər. Seyyid didi: «Qız qarındaşını görmədim, ömrümdə mal cəm eyləmədim. Hər nə qəzavatdan əlimə düşdi dərvişlərə verdim. Mənim əhlim hər kəz, mal qəbul eyləmədi, bən dəxi eyləməzəm» və didi. Ol köydə bir dəgirman var idi. Seyyidi anda gətürdi. Anın daşına bağladı. Bir qul üstə qoydı ki, ana əzab verəli, bir qul Qeysərə göndərdi ki, Battalı dutdım, xəbər edə Qeysər gələ, özi gəlüb Seyyidə xəlvət didi: – Ya Battal, qız qarındaşımı neylədün, doğru söylə. Sən özün də gəl, Məhəmməd dinini tərk eylə, Məsih dininə gir. Yoxsa imdi Qeysər gavur sənə aman verməz, öldürər. Seyyid didi: - Duat qara mürəkkəb qarası, qələm gətür yazım ki, qandadur, sana ismarlayım. Dəxi sənin dininə girim, amma

ol şərtlə kim, qız qarındaşını bana verəsən. Fəliqrat didi: - Yaxşı dur, səni Qeysərə vermənim. Seyyid didi: - Əgər sən məni Qeysərə verməsən, mən dəxi səni Ruma padşah eylərəm. Xəlifəni dutub, əlinə verərəm, didi. Amma qız qarındaşımı bana verəsən. Qəbul eylədi. Ol ahmaq dəxi inanub şad oldı. Tez duat, qələm, kağız gətürdi. Seyyid didi: - Evi xəlvət elə, kimsə səsini [148] bilməsün. Fəliqrat dəgirman qapusun bağladı, Seyyidün əlin açdı. Duat, qələm, kağız əlinə verdi. Seyyid dəstaviz edüb, Fəliqratın boğazın bərk dutdı boğdı. Seyyid qüvvət edüb o biri əlini də açdı. Fəliqratı bağladı. Anın donların geydi. Anın surətinə girdi. Fəliqrata da öz əsvabların geydürdi. Ol qədər yüzünə gözünə dögdi ki, kimsə tanımazdı, deyərlərdi Battaldur. Seyyid didi: - Ay Battal, hanı qız qarındaşım, Qeysərün oğlu Təkfur şah, handadur. Fəliqrat didi: - Ey Battal, sən məni əfsun edüb bağladun, didi. Ey ləyin, çoq söyləmə, didi. Bir yumruq ağzına urdı, cümlə dişləri töküldi, yüzi batdı, Seyyid qapunı açdı. Qulların birinin əlinə bir ağac verdi, didi. Heç söyləmə həman dün ol qul dəxi dögülməkdə oldı. Ol çıqurub Fəliqratam, deyirdi. Kimsə qulaq asmazdı. Ancaq dögərlər idi. Ol qədər dögdi ki, canı ölüm həddinə gəldi. Ol dəmdə Qeysər çıqub gəldi. Seyyid Qeysərə qarşu gəldi didi: - Şaha, ol oğru əyyarı dutdum, üç gündür əzab edürəm. Qız qarındaşımı və ol oğlanları soruşuram, heç iqrar eyləməz. Qeysər bu xəbəri eşidüb şad oldu. Nə qədər donlar geymişdi, Seyyidə bağışladı. Andan dəgirmana gəldi. Fələqrat Qeysəri gördi fəryad eylədi: - Haqqı üçün nar-ı nurın bən [148[a]] Fəliqratam, ol Battaldur. Qeysər didi: - Ey Battal, hanı babalarım və bəglərim ki, bu qədər qırdun, hanı oğlum [148[a]] Təkfur şah və qızım, sənin məkrü namına inanmıram. Fəliqrat çağurdı ki, İsanın həqqiçün bən Fəliqrat, ol Battaldur. Seyyid didi qüla, «vur!» Ol qədər dögdilər kim, halı qalmadı. Seyyid didi:

- Görürmüsən, şəha, necə əyyardur, deyüb güldü. Bir qamçı urdı, başı yarıldu, qanı axdı didi: - Battal olduğun

iqrar et Fəliqrat gördü ki, kimsə sözünə qulaq asmır. Didi: - Bəli, Battalam, deyüb iqrar eylədi. Seyyid əlinə qamçı alub didi: - İmdi bil Şahın oğlun və qızın və mənim qız qarındaşımı munca malı bu iqlımdan aldun handa qoydun tez yerin de! Fəliqrat didi: - Şaha, bən Fəliqratam, Battal budur. Bən neylərim. Qeysər güldi didi: - Ay Battal, sənün məkrün çoqdur. Sənin qurtulmağa çarən yoqdur. Seyyid didi: - Şaha, siz buyurun bunun işin təmam eyləyin. Qeysər çıqdı. Seyyid buyurdu, odun gətürdilər. Odu yaqub, oda saldılar. Çıqıra-çıqıra canı cəhənnəmə getdi, yandı.

Seyyid gəlüb Qeysərə düa eylədi. Qeysər dəxi tacın Seyyidə verdi və qaftanladı. Ətraf aləmə avaz düşdi ki, filan yerdə Seyyidi oda yaqdılar.

Malatiyaya dəxi xəbər getdi, yaranlar eşidüb pərişan oldular didilər şayəd kim, yalan ola.

Bu tərəfdə Seyyid Qeysərə didi: - Şaha, Battal bu yerə yalquz gəlməz. Buyursan, yaranlarını bən dəxi tələb edəm, nar-ı nurun köməyilə əlimə düşərlər, didi. Yüz adam alub [149] rəvanə oldı.

Çün Qeysərdən ayrılınca Haqq-təalayə şükürlər eylədi, didi: - İlahi, bu işlərün cümləsi sənin inayətindür və dəxi bir müşkülüm qaldı iki oğlum və munca bəglərün oğlanları və qızları ki, bu iqlımdən itır. Cümləsi bana güman edirlər. Bu əhval bana bəllüdür, deyib minacat eylədi. Ol yüz kişi lə Musanı tapşurduğı köyə gəldi. Rəhbanə didi: «Gəl qapunı aç». Rəhban gəlüb qapunı açdı. Tışra çıqdı. Seyyid didi: - Bən Fələkrutam, Battalı oda yaqdım. Var, Musayı bağla gətür. Rəhban gedüb Musayı bağlu gətürüb Seyyidə verdi. Aldı getdi ol qazılar didilər, bunu öldürək. Seyyid didi: - Bən buna əzab verərüm, əhvalın billəm. Sonra Seyyid ol qulları məqsum buyurdu. Onlar getdilər. Seyyid Musanı alub, rəvanə oldı. Musa nəzər eylədi. Gördü kim, Seyyiddür ayağına düşdi. Seyyid Musanın əlin dutub, ginə ol köyə gəldi. Qapunı dögdi, rəhban tışra çıqdı. Seyyid didi: - Hanı ol qul kim, sana əmanət qodum.

Didi: - Fəliqrat aldı getdi. Seyyid didi:

- Bən sana əmanət qoymuşdum, niçün verdün?

Seyyid Əşqardan aşağa enüb rəhbanı dinə dəvət eylədi, qəbul eyləmədi. Qırq keşiş idilər, qırqını da boğazından asub qodu, rəvanə oldı didi: - Ay Musa, bin dərdə giriftar olmuşam. Bənim iki [149a] oğlum handadur. Munca bəglərün oğlanların və qızların kim aparur. Cümlə xaliq deyürlər, işləri Battal edir. Mən bu işdə aciz qalmışam, bu necə işdir? Bu iş divlər işidir. Mən belə bilürəm.

Andan bir dərya kənarına gəldi. Bir çeşmə gördi düşdilər, Abdəst alub namaz qıldılar. Seyyid gördi ki, bir div bir igidi bağlayub gəlür. Seyyid tez sıçrayub durdı. Div istədi ki, yerdən bir daş götürüb Seyyidə vursun, ol daşa yapuşunca Seyyid Xızır peyğəmbərün bir okun çıqarub divin gözünə urdı. Cadu yıkıldı, durunca Seyyid bir qılınc urdı, genə yıxılub başı qabağına düşdi. Canı cəhənnəmə vasil oldı. İgid gəlüb Seyyidün ayağına düşdi, əlin açdı.

Ol dəmdə dağdan bir sağər peyda oldı. Bir avaz gəldi kim, «Ey Battal, atamı, anamı öldürdün. Mən dəxi sənin iki oğlunu biryan edüb yedim. Sənin dəxi işini bitürrəm», didi. Seyyid çün bu avazı eşidüb dağa doğru rəvanə oldı, Musa andə qaldı. Seyyid dağ ətəginə gəldi. Qayətdə qaranluq idi. Bir yol tapub yuxaru çıqdı. Gördü aləm minəvvər olmuş. Bir dolu meydan ortasında bir gül, su üstündə bir daş yanından tütün [150] çıqar. Seyyid didi hər nə varsa ol daşdadur. Qılıncıyla yardı, su aşağa dərəyə getdi. İrəli vardı. Əl verüb ol daşı qopardı, yana atdı gördi bir cah içi qaranlıq göndən bir nərdiban asılmış tini çəkdi, ol gövhər işığı şölə urdı, qırq ayaq nərdibandan aşağa endi, gördi bir dəhliz min adam qədəri yeridi. Bir qapuya rast gəldi, bağlu. Əl urub qapunı açdı, andan bir saraya rast gəldi. Gördi kim, bir pərdə asılmış. Pərdəni qaldurdı, içəri girüb gördi dört saffa bir-birinə qarşu orta yerdə bir təxt Süleymani sarayın içi nəqş altun ilə yazılmış hər bir sofanın qırk hücrəsi var, hücrələr altun gümüş dolu, amma buralarda heç kimsəni

görmədi. Bir qapu içəri girdi gördi üç sofanın hər birində bir zəngin təxt qurulmuş, hər birində də bir qız üsti örtülü yatur. Seyyid irəliləyüb örtükləri aldı gördi qızlar ölmüşlər, örtükləri çürümüş. Sarayın orta yerində bir neçə sətr yazılmış. Seyyid o sətirləri oqudu:

«Əvvəl binam Xuda, sonra mən Zülqərneyn padşahı idim. [150[a]] Yeddi iqlimi musəxxər eylədim və dəxi bu məqamı düzləddüm. Bu üç qız mənim qızımdır. Bunlarun anaları qayətdə məhbub idi və qayətdə salih idi, anaların qız qarındaşı var idi, məni sevirdi. Onun yüzündən qızlarını azdırub dimişdim ki, görürsüz ananızı sizi ərə vermək istəməz kim, qaruyub evdə qalarsuz. Dünyanın dadı ərlə oğul uşaqladir. Anauza ağu verün. Bən sizi anauzdan xoş dutaram və dəxi sizi ərə verrəm. Qızlar bu sözlərümə inanurlar, gəlüb analarına ağu verirlər. Həlak olur. Bana didilər, bən dəxi varub bu şəhəri binyad edib və bu məqamı düzdüm. Hər birinə xidmətkarlar qoydum, xub cariyələr verdim. Əlli illik azuqə qoydum. Bu məqamı pinhan eylədim, tilsim ilə. Arastatales həkim yunanlı vəzirim idi. Andan sordum ki, heç cahanda adəmoğlanlarından kimsə bu yerə gəlürmi? Əsəturlab əlinə alub baxub didi: - Məhəmməd Peyğəmbərin evladından bir pəhləvan, Seyyid pəhləvan, Seyyid Battal qazi, gələcək. Bu məqam caduların əlində məskən olur. İki oğlun itirir. Anları istəyüb gəlür bu məqamə daxil olur. Bu məqamdə bir məskən salır. Caduların təamı padşahlar olacaqdır ol divi həlak edüb bu məqam anın şərrindən [151] əmin qılar. Ey Battal Qazi, imdi ki, bu yerə gəlürsən, bənim salamımı Həzrət Məhəmməd Əl-Mustafayə aparasan dəxi diyəsən ki, Zülqərineyn sana salavat gətürdi, səni gözləməgdə oldı. Ta kim qiyamət güni şəfaətindən məhrum olmayam. İmdi ey cavan, zinhar zor pazunla məğrur olma. Nəfsini yaxşı saxla, nəfs neçələrin fəsada verübdür və dəxi neçə nəsihət yazılmışdır. Seyyid anı oxudı, çoq ağladı, andan hücrələrə girüb gördi zərlər, cəvahirlər, qiymətlü daşlar ki bunda var, hessabı yoq. Bir qapu gördi dəxi açıb girdi

kim, bir nəqqaş səray qırq məhbub qızlar, oğlanlar Seyyidün səsin eşidüb qorqdılar. Çünki Seyyidi gördilər xoş gəldün qədəm gətürdün Battal qazi, didilər. Seyyid didi: - Sizlər bəni nə bilüb tanursuz? Qızlar didilər bu gecə çoq ağladuq, duşumuzda Fatimeyi Zəhranı gördük, varub ayağına düşdük dedük bu məlundan bizi qurtar. Bizə didi, qəm çəkməyin, sabahı Seyyid Battal gəlür sizi qurtarur. Amma aramuzdan iki qızı alurlar, varub kabab edərlər. Seyyid didi: - Qeysərin qızı hansınızdur? Birisi durub gəldi Seyyidin ayağına düşdi. Seyyid didi: - Ol divin məqamı handadur. [151a] Bana göstərün. Qeysər qızı durub bir qapu açdı, didi: - Budur. Seyyid andan tışra gəldi gördi bir səhra ortasında bir köşk qülləsi həva üzündə. Seyyid ol köşkə girüb gördü bir ifrit, əlli arşun qəddü-qaməti var. Önündə bir qoca od yaqmış, bir böyük şiş yanında, iki məhbub qızlar mah-tabanə bənzər, əlləri bağlı yaturlar. Seyyid tiği-səxxakı əlinə aldı, didi: - Ey məlun, necə bunun kibi işlər edirsən? Vəqt gəldi şərünü müsəlmanlardan dəf edim, didi: - Ey Battal, əlimdən can necə qurtaracaksan? Sütunu əlinə alub Seyyidə həvalə eylədi. Seyyid sıçradı, sütun yerə doqundı, yenə əlinə alınca Seyyid bir qılınc qoltuğu altından elə urdı ki, iki əli həvayə paran oldı. Ləyinin canı cəhənnəmə ismarladı. Seyyid ol qızlarun əllərin açdı. Qızlar Seyyidün ayağına düşdülər. Divin başını kəsdi. Nə qədər malı o məqamda varsa aldı.

Dört yüz at tapdılar. Ol gənci xəzinəni yüklədilər. Ol qızları atlara bənd vurdılar. Musa və İbrahimin yanına gəldilər. Bunlar dəxi Seyyidi görüb şad oldılar. İslambul yolunu dutub rəvən oldılar. Yolda gedərkən bir kişi gəldi didi: «kimsən?» Seyyidə.

Seyyid didi: - Bəni sən kimə bənzədirsən? Didi:

- Battala bənzədürəm. Seyyid didi: - Xub bildün. [156] Rəhban didi:

- Səni munca öldürürlər, yenə diri olursan, nə məhbubdur. Seyyid didi:

- Bəni Haqq-təala bu iş üçün yaradub tamam eyləməyincə durmazam. Rəhban dərhal müsəlman oldı. Seyyid Qeysərdən xəbər sordı. Rəhban didi: - Qeysər ləşkər cəm edüb Malatiya canibinə getdi, amma Abdülvəhhab getmədi. Mundadur. Hər gün gəlüb sizi oda yaqdıqları yerdə ağlayub gedir, didi. Bunlar bu sözdə ikən nagah bir ləşkər yıqub gəldi. Rəhban didi: - Bu gələn Abdülvəhhabdur. Məğər ol gün şikaridə idi. O önündən gögərçin uçdı. Abdülvəhhab əlindəki toğanı buraqdı. Seyyidün üstə gəldi. Seyyid bir oku ilə toğanı urub düşürdi. Abdülvəhhab gəlüb gördü toğanı ölmuş Seyyidin üstə at saldı didi: - Toğanı neçün öldürdün? Seyyid didi: - Sən dini niçün tərk eylədün? Abdülvəhhab didi: - Qəzai asimana yetüşdim. Seyyid didi: - Toğan da qəzayi-asimana yetişdi. Sonra Seyyid başladı xub avaz ilə sureyi Ərrəhman oqudı, çün Abdülvəhhab Seyyidün avazını eşitdi, özüni atdan aşağa saldı bixud oldı. Seyyid atından endi, Abdülvəhhabın başını dizinə aldı. Əqli başına gəldi, gözüni açdı didi: [156a]

- Ey pəhləvan, mübarək yüzün gördüm, duşumdur yoxsa, xəyalımdur. Seyyid didi: - Ya Abdülvəhhab, gözüni aç, duş degildir. Həman dəm Abdülvəhhab durdı xəncəri çıxardıb qurşağını kəsdi. İman tazələndi. Seyyidün ayağına düşdi, andan sonra gözü Qeysərin qızına irişdi, çün Abdülvəhhab Qeysərin qızın gördi, şad oldı. Seyyidə düalar eylədi. Andan şəhərə gəlüb qızdan hər nə ki varsa aldılar. Qız avaz eylədi ki, «Atama gedirəm» deyüb, çıqub getdilər. Seyyid Qeysərdən xəbər sordu. Abdülvəhhab didi:

- Dört yüz bin kişi cəm eyləyüb Malatiya üzərinə getdilər. Seyyid didi:

- Bəndə inşallah, oğlanlarımın xəbərin aldım. Qaf dağında, Cuzəndə oğlunun yanında imiş. Əvvəl ol müsəlmanların işini görüm andan sonra «Guhi Qafa» əzm-i eyləyim.

Bu tərəfdə Əsatur Qeysər Malatiya üzərinə gəldi deyü xəbər yaranlara yetüşdi. Xəlifəyə adam göndərdilər. Əmir dəxi otuz bin atlu, otuz bin piyada cəm eylədi. Xəlifəyə

əmirün bəgi yetüşdi. Seyyidün öldügini xəbər verdi. Xəlifə çox ağladı.

Yanında iki pəhləvan var idi. Birinün adı Hamiddü, birinün adı Haşim, yüz bin ər ilə əvvəl [157] bunları yola saldı. Əzm-i Malatiya qıldılar.

Bunlar gəldikdə bu tərəfdə Malatiya ləşkəri yetmiş meyil qüdrət şəhərdən tışra gəldilər. Bu gələn kafir ləşkərini qarşıladular.

Nagah toz qopdu toz yarıldı, Qeysər çıqub gəldi iki yüz bin ər öncə, iki yüz bin ardınca. Bu arada yetişdi sultan birbirinə qarşu səflər bağladılar axşam oldı. Düşdilər iki tərəfdən qaraul qoyuldu. Çün sabah oldı iki tərəfdən kos hərbi dögüldülər. Ləşkərlər suvar olub bir-birinə qarşu səf bağladılar. Gözlədilər ki, meydana kim girəcək.

Rum tərəfindən toz qopdu, içində bir saru ələm, dibində Seyyid Battal qazi Aşqara suvar olmuş Samsüvar gürzü çignində. Abdülvəhhab yanıca gəlür. Həman kim, müsəlmanlar iraqdan gördilər şad oldılar. Qarşu vardılar, piyadə olub Seyyidə baş yerə qoydular, görüşdülər. Bir ara ağlaşdılar. Andan sonra şadluq eylədilər.

Çün Qeysər Seyyidi gördü. Sərasimə oldı didi: - Dəriğa, necə edəlüm Battal budur yenə gəldi. Bu dəmdə bir kişi gəlüb xəbər gətirdi ki, Battal qızunı gətirdi. Abdülvəhhabı yenə müsəlman eylədi və dəxi İslambulda nə qədər xeyr nə varsa topladılar. Qız «babama gedirəm» deyüb, gətirübdür. [157[a]] Qeysər bu xəbəri eşidüb, ah eylədi. Ol gün cəng etmədi, iki ləşkər düşdilər. Seyyid sərgüzəştin yaranlara bir-bir hekayət eylədi. Cümlə təhsın edüb, düalar eylədilər.

Əmir buyurdı, Seyyidün hekayətün və gəlməgün xəlifəyə yazdılar və dəxi Seyyidə yazdı ki, sənə hizmət çəküb gəlmək hacət degildür. Həman bizə hidmət edün. İnşallah Qeysərün haqqından gələrüm.

Çün namə xəlifəyə gəldi, çox şad oldı.

Bu tərəfdə Qeysər pərişan oldı, didi: - Çah-cəhənnəmə saldum ölmədi, Ya nar-ı nur dövlətindən Fəliqrat oda saldı

ölmədi, Əqabə qazi zəhər verdi ginə ölmədi, deyüb ağladı.

Bir vəziri var idi, mürtəd idi. Yusif Həccacı oğlanlarından idi. Adına Hantula derlər idi. Yerindən durub didi: - Ey Əsatur, bana nə verərsən, Battalın şərrindən səni iman eyləsəm. Didi: - Əgər sən bu işi bacarsan, mülkümün yarısın sana verərüm. Mürtəd məlun donun dəgişüb həman dəm rəvanə oldı.

Bu tərəfdə iki yüz ərlə Hamid, Haşım qaraula çıqmışdı. Hantıla məlun Seyyidün dərgahına gəlüb bir yerdə oturdı, bir almasdan xəncər hazır eylədi. Seyyid tışra çıqınca ursun müsəlmanlar pərakəndə oldılar, hər kəs mənzilinə getdi. [158] Seyyid dəxi durub tışra çıqdı. Ol məlun bir qaranluq yerdə dururdı. Seyyid gəldi ki, gecsin ol kafirə tuş oldı. Məlunun Seyyidin qorqusundan əlindən xəncəri düşdi. Seyyid anı gördi, xəncəri əlindən aldı. Məlunu saqqalından dutub içərü gətürdi. Əhvalın sordı, ol dəxi doğrusın didi. Seyyid ləyini möhkəm bağladı, didiki sabah haqqından gələrəm. Seyyid durub kafir ləşkərinə rəvanə oldı. Qanatur on bin kişi ilə qaraolda idi. Ol gecə Seyyid Qənatura rast gəldi, bir qılınc vurdı. Qanaturu iki para eylədi. Kəffar ləşkərin tarümar eylədi. Qeysər ləşkərinə səs düşdi, ol əzim ləşkər qafil ikən buğubuğadan sərasim olub qılıncları çəküb bir-birin qırdılar. Sabah olunca igirmi bin kafir qılıncdan keçdi.

Çün sabah oldı, iki tərəfdən ləşkər bəndlər səflər bağladı. Seyyid buyurdı, meydanda bir dar ağacı tikdilər. Hantıla məlunı boğazından çəkdilər. Qeysər anı görüb çoq razılıq eylədi. Qeysərün qızı durub Seyyidün yanına gəldi didi:

- Xudavənda, buyurursan atama [158[a]] bir neçə söz vardur, yazub göndərüm. Bu mənim hekayətimdən xəbərdar olsun. Bən necə xilas olduğumu bilsün. Şayəd ki, ol dəxi müsəlman ola, didi. Seyyid zəhmət verdi. Qız atasına namə yazdı didi ki, «Ay ata, din Məhəmməd dinidür. Bu kişi hər nə eylərsə Məhəmməd dinin bərəkatından eylər. İmdi sən dəxi müsəlman ol, və ya xərac verməgi boynuna al yoxsa, həlak olursan. Bu kişi ilə barış» və daxili öz əhvalın yaz-

dı, xidmətkara verüb göndərdi.

Çün namə Qeysərə gəldi, mətləbi bilüb naməni para-para eylədi. Yemeliha adlu bir kafir var idi, qayət pəhləvan idi. Meydana girdi, ər dilədi. Müsəlmanlardan Möhsin meydana girdi, həlak eylədi. Bundan derlər igid bir mürtəd var idi. Dəməşq Şam bəginin oğlu idi Yəhyaya bərabər gəldi. Səhəri didi: «Ey kafir, vardun dini tərk eylədün tez yenə müsəlman ol, yoxsa sən bilürsən, həmlə qıldı bir qılınc urdı, kafiri iki para eylədi. Biri dəxi girdi. Anı da öldürdü. Bir pəhləvan var idi, Nistur nam meydana girdi. Yəhyanı bir zərblə yıxdı. Seyyid Həmzəvari [159] nərə urub meydana girdi. Kafir didi: - Ey əyyar, Battal, gör səni neylərəm, deyüb, qılınc çəküb Seyyidə həvalə qıldı. Seyyid məni eylədi. Növbət Seyyidə gəldi. Aşqarı Qatur üstə salüb Qaturı qurşağından dutdı. Yerə urdı tez buyurdı. Başın aşağa qoydılar. Diri ikən dərisin soyub oda saldılar, çıqıra-çıqıra canı cəhənnəmə vasil oldı. Kafir ləşkəri anı görüb kimsə meydana girmədi. Asatur buyurdı yerbəyerdən həmlə qaldılar. Seyyidlə müsəlmanlar təkbir gətürüb həmlə qıldılar. Hər biri bir əjdəha döndü. Ol dəm kafiri qırub qanını sel kibi axıtdılar. Gecə olunca və gecə səbahə kibi cəng eylədilər. Müsəlmanlar az idi. Çox cəfa çəkdilər.

Nagah sabah namazı vəqti Bağdad yolundan toz qopdu. Xəlifə yüz bin ləşkərlə çıqub gəldi özlərini ol kafir ləşkərinə urdılar. Seyyid çünki gördi xəlifə gəldi, Qeysərin sancağını gözlədi, gördilər yetüşür. Kafirlər nə qədər od yaqdırdılar, çarə olmadı. Seyid, Qeysərün təxtinə qəsd eylədi. Qeysəri özünün təxtindən salub bir yaxşı ərəb ata minüb, Urmiyəyə qaçdı. Seyyid ələmdarı öldürdi. Müsəlmanlarun hər biri əjdəha [159[a]] oldı. Kafirlərün kimisini qırdılar, kimisin əsir edüb, dutub döndərdilər. Xəlifə yanına gəldilər. Seyyid gəlmədi. Üç gün gəzdilər, tapulmadı. Çünki Qeysər üç gün idi qaçmışdı. Bir çeşmə üstə yetüşdi. Ol arada bir kilsə var idi. Gördi bir rəhban gəlür. Qeysər qabağına gəlüb düa eylədi didi: «Eylə kərəm, gəl kuyə, varalum.

Bir dəm rahət ol bir iki qədəh nuş eylə».

Əsatur anı gördü kim, baxub tanıdı. Ya Seyid dilədi ki tez qaçə, Battal atın bir kəs dutdı. İki əlin bağlayub ləşkərə rəvan oldı. Müsəlmanlar Seyyid üçün məlul olmuşdılar. Nagah Seyyid çıqub gəldi. Əsətur yanında bağlu, xəlifə yanına gəldi. Xəlifə Seyyidi gördi iki gözündən öpdü. Seyyid buyurdu, Əsaturı gətürün, tez gətürüb siyasətə buyurdılar. Cəlladlar hazır oldılar. Seyyid didi: - Ya Qeysər, gəl müsəlman ol, yoxsa sən bilürsən axırını Qızını div əlindən xilas eylədüm. Bu işlər kim, bən eylərəm, Məhəmməd Əl Mustafanın dinin bərəkatılə eylərəm, sən gəl dəxi müsəlman ol, səni öz məqamına göndərim. Qeysər didi: - Hər nə deyirsən doğrudur. Amma bən müsəlman olursam, cümlə vilayət bəndən yüz çevirər. Seyyid didi: - Hər kim sana müti olmazsa bana bildür, bən anın haqqından gələrüm. Əsatur didi: - Çoq yaxşı deyirsən. Əgər oğlum Təkfuri [160] əlimə versən, dəxi höccət etməyib müsəlman olarum. Seyyid didi:

- Dəst xətt ver əgər müsəlman olmazsan, bən dəxi sana aman verməyüb öldürrəm. Qeysər dəst-i xətt verdi ki, əgər oğlum yüzün dərhal görsəm, müsəlman olarum. Haman dəm Qeysərün əlin açdı xələtlədi. On bin əsiri azad edüb, Qeysərə tapşurdı. Sancaq ələm verüb göndərdi. Xəlifə Bağdada əzm-i eylədi. Seyyid dəxi yaranlar ilə vida edüb, Əsətur ilə İslambula gəldi. Dərya kənarınə gəlüb bir neçə gün andə qərar eylədi. Andan Seyyid didi:

- Ey Əsətur, bizə gəmiçi kişi gərək. Dənizin halın bilə minbər ilə yoldaş ola. Qeysərün bir usta gəmiçisi var idi. Qəntar nam onı gətürdi. İki illüq nəfaqla gəmiyə bindilər rəvanə oldılar. Hər yerdə bir xəbər varsa, oğlanların xəbərin sordular, heç bir xəbər bilmədilər. Altı ay bu hal üzrə gəzdilər. Bir gün ulu dağ göründü. Gəmini ol dağa sürdülər. Dağ kənarına gəlüb Seyyid gəmidən çıqdı. Bir çeşmə var idi, abdəst alub namaz qıldı. O gecə anda qaldılar. Qaranluq oldı, qarşudan bir od şöləsi göründi. Seyyid yoldaşlarına didi: - Siz gəmini saxlayun, mən varub görüm ol od

nədür. Seyyid yürüdü oda yaxun oldı. Gördi mağara var. [160a] Bu od ordan çıxır irəlü yeridi. Gördü qırq ifrit zəngi otururlar od yaqmışlar, donquz əti bişirüb, şərab içürlər. Sərxoş olmuşlar, aralarında biri didi: - Ey yaranlər, heç bilürmisüz bən bunda neçün gəlmişəm? Didilər bilmənüq.

Didi: «Bu dağın ardında bir şəhr vardur Seylan dirlər. Bir padşahı var, adına Əsced dirlər. Bir qızı Diləfruz adlu neçə ildür bən ona aşiqəm. Siz oturun bən budur gəldüm deyüb getdi. Qız handan sonra yenə gəldi. Bir qız qoltuqunda gətürdi. Əlinə şərab verdi, qız almadı, o ifritlər məst olub özlərindən getdilər. Ol məlun əlinin arxası ilə qızın ağzına urdı. Ağzı, burnı qan oldı. Əlin bağladı yanında qoyub yatdı məst olub.

Dərhal Seyyid içəri girdi. Qızun əlin açdı ol qırq zəngilərün başların kəsdi. Qız gəlüb Seyyidin ayağına düşdi kimsən, bəni bu kafir əlindən xilas eylədin. Qız didi: Bəs bir gəl səni aparım. İkisi belə rəvanə oldılar. Taki Siylanə gəldilər. Seyyid bürcə kəmənd atub yuqarı çıxdı. Qızı dəxi yuxarı çəkdi. Sarayına gətürüb qoydu, özü rəvanə olub şəhərdən tışra çıqdı. Bir çeşməyə gəldi. Abdəst alub namaz qıldı. Yuxu qalib olub yuxladı [161]. Nagah oyanub gördi qırq dərviş mərzi puş üzüni ortayə almışlar. Seyyid durub dərvişlərə salam verdi. Xidmət eylədi. Dərvişlər didi xoş gəldün, ya Seyyid sərdari din. Seyyid didi: - Ey dərvişlər, bən kiməm?

- Sən Seyyid Battalsan. Biz bu şəhərün dərvişiyüz bu gecə Həzrəti duşmuzda gördük. Bizə bu məqamı bildürdi kim, Seyyid filan yerdədür, varun görün. Biz Rəsul işarətilə gəlduk. Buyur imdi bizim məqamımıza gedin. Seyyid onlarla rəvanə oldı. Yeddi gün oturub söhbət eylədilər.

Andan sonra Seyyid didi: - Ey yaranlar, dəniz kənarında mənim dəxi yaranlarım vardur. İmdi onlar bana mənzurdur, didi. - Onlar didilər, Rəsul Həzrəti elə buyurdu ki, qırq gün munda bizimlə durasan. Seyyid didi: - Pəs mən sizə xidmət eyləyim. Çıqartdı bazubəndindən bir gövhər verdi, didi: - Satun, xərc eyləyin. Gövhəri alub sarrafə gəldilər

kim satalar. Bu halda iki xadim gəlib Seyyidə dua eylədilər, didilər: - Ey pəhləvan, gandasuz? Neçə gündür sizi [161a] istərük, tapmaruq. Kərəm eylə Diləfruz sizi istər. Seyyid didi: - Filan yerdə zaviyyədə dərvişlər yanında oluram.

Bunlar çün Seyyidin məqamin bilib ol dərvişlər ilə Seyyidi dəvət eylədi. Həman Diləfruzun otağina gətürdilər, qırq qaz başı bişirüb ol qazların hər birisin içində bir gövhər qoydilar. Ol qazlarin hər birisin bir dərvişə verdilər didilər: - Bu qazı o dənizə aparun, andan sonra yüz çevirüb odalarına getdilər. Seyyid qaldı, yeyüb içdilər. Diləfruz Seyyidün ayağına düşdi. Əlin ayağın öpdi, bin qızıl altun önündə qoydı. Çoq ərzlər edüb öz məqamına göndərdi. Dərvişlər gəlüb qazları yeyüb içdülər. İçindən ol gövhərlər buldular və Seyyid dəxi ol bin altunı dərvişlərə verdi. Dərvişin biri ol gövhəri bazarə apardı ki, sata, gətirüb bir sərrafə verdi. Sərraf gövhəri aldı didi: - Bir dəm otur munda mən gedüb altun gətürüm. Durub tez padşah yanına gəldi hekayəti bildirdi. Padşah acuqlandı qullarına buyurdı [162], tez dərvişləri gətürün mənim gövhərim anlarda neylər. Dərhal gəlüb dərvişləri alub, padşah yanına gətürdilər. Padşah didi: - Ey dərvişlər, bu gövhər sizə hardan olubdur. Dərviş didi: - Bizim bir ulumuz vardur, bana ol verdi. Bu hekayəti andan sorun. Tez bir adam göndərib Seyyidi və dərvişləri padşah yanına gətürdilər. Əscəd sordu ki, bu gövhəri haradan oğurladuz?

Seyyid didi: - Şaha, bən oğru degiləm, nəsli peyğəmbərəm. Yüz bin bunun kimi gövhərlər bağışlamışam. Tez Əscəd buyurdu. Cümlə şəhər xaliqatı cəm eylədilər. Didi: «Bu kişini bilürmüsünüz?» Aralarında bir kişi var idi, nəzər eylədi didi: «Şaha, sənün dövlətün bunı sana gətürdi. Bunun əyyalıqı zülmü aləmdə məşhurdur. Bənim adım Səthadur. Əqaba qazının qardaşıyam. Bu mənim qanlumdur. Neçə-neçə padşah öldürübdür. Tez buyur ki, bunı öldürsünlər».

Əscədin canına odlar düşdi. Tez işarət eylədi. Alub tışra çıqardılar. Qırq dar ağacı dikdilər. Dərvişləri dara çəkdi-

lər və yerbəyer əllərin bağladılar.

Seyyid heç dinmədi. Növbət Seyyidə gəldi. Bir cəllad gəldi ki, Seyyidi bağlasun, dirsəgi ilə urdi, ağzı burnı dağıldı məallaq yıxıldı. Bir kişi gəlüb Seyyidə bir qamçı urdı. Seyyid bir yumruq urdı ki, təpəsi üstə yıxulub beyni burnundan gəldi. Cümləsi [162[a]] Seyyidün üzərinə qələbə eylədi. Dəxi onlardan Seyyid çox kişi öldürdi.

Məgər Humayu Diləfruzın xadimi anda hazır idi. Bu halı görüb gəldi. Diləfruza, xəbər verdi tez atlanub Seyyidün yanına gəldi. Xaliqi yardı, atından aşağa enüb gəldi. Seyyidün ayağına baş qoydu didi: - Məzur dut, ey pəhləvan, bilmədim, ol qırq dərvişlərün əllərün açdı. Əscədə xəbər oldı. Ol dəxi atına minüb qızın yanına gəldi, didi: - Sana nə oldu ki, bunlara sən mədədlər etdün. Diləfruz didi: - Ey baba, bunlar oğru degil gövhəri bunlara bən verirdim deyüb, ol hekayətin gahməkan babasına şərh eylədi. Əscəd özünə gəldi. Tez adamlar göndərib ol maqarada kafirləri şişmiş gördilər. Hər birisi bir tuluğa dönmüş yaturlar.

Gəlüb Əscədə xəbər verdilər. Canına od düşdi. Piyadə olub gəlüb Seyyidün ayağına düşdilər. Ol dərvişləri saraya gətürdilər. Təxtə keçürdilər, oturdılar və dəxi bunlara qonaqluq eylədilər. Seyyidün vəsfin bu vilayətə nədən ötəri gəldügin bərabər təqrir eylədilər.

Əscəd dəxi Diləfruzı Seyyidə verdi. Əscəd on bin kişi ilə on iki gəmi hazır edüb Seyyidün gəmiçisinə xəbər eylədilər. Gəldi, Əscəd buyurdı gəmilərə minüb rəvanə oldılar. Yel qatı [163] əsdi. Seyyidün gəmisini bir dağə apardı, ol pir didi: - Xudavənda, sən gəmidə dur, bən görüm bu nə yerdür. Tışra çıqub bir az getdi, bir qələ gördi. Yaxun gedüb gördi ki, qələnün qapusunda üç zəngi otururlar, piri gördülər, qarşu gəlüb dutdılar didilər: - sən kimsən? Didi: - Battalın gəmiçisiyəm, didilər: - Battal kimdir? Ol kişidür ki, cəhanı əyyarluq ilə aldı. İmdi Siylana gəlüb Əscədün qızını aldı. Bunlar didilər: - Bizim sərdərımız ol qıza aşiq idi. Anı istəməgə getdi, heç andan xəbərün varmı? Pir didi: - Ol qırq

zəngiləri Battal öldürdi. Neyləyüm mənim də qanlumdur. Qardaşım Əqbayi öldürübdür. Bən dəxi fürsət istərəm ki, ələ gətürüm, siz gizlənin, bən varub anı munda gətürüm, yatub yuxulayanda başını kəsün. Dönüb Seyyidün yanına gəldi didi: - Ey xudavənda, bir qələ gördüm qorqdum irəlü varmağa. Seyyid didi: - Sən bunda dur, bən varub, görüm. Seyyid gəmidən çıqdı. Bir az gəzdi, zəngilər gəlüb gəmiləri alub pinhan eylədilər. Seyyid gerü gəldi, gəmini tapmadı didi: - Ey Sətha ləyin, hanı gəmi? Didi:

- Bir neçə kişi gəlüb bana qəsd eylədilər. Bən qorqub qaçdım. Onlar gəmini alub getdilər, Seyyid məlul oldı, yuqarı gəlüb yatdı. Yuxladı. Sətha ləyin durub zəngilərə [163[a]] xəbər eylədi. Zəngilər qılıncı çəküb yeridilər.

Seyyid düşünda Əmir-Əli Mömünün Əlini gördü didi: «Ey cigər guşəm, dur, imdi kafirlər sana qəsd edərlər. Seyyid oyanub bir nərə urdı. Zəngilərin üçünün də əqilləri getdi. Əllərindən qılıncları düşdü. Üçünün də başların kəsdi. Didi: - Ya pir, bana neçün xəbər eyləmədün? O məlun didi: - Xudavənda, həman bunları ki gördüm, əqlim getdi, özümi bilmədim, didi.

Bunlar bu sözdə ikən dəryadan bir sanduq axa-axa gəldi. Seyyid gəmini sürüb sanduqu dutub gətürdi. Qapağın açdı. Bir xub surətli igid çıqdı. Məlikanə donlar geymiş, amma bixud yatur. Yüzünə su urdı əqli başına gəldi, durdı. Seyyid bundan xəbər sordı ki, nə kişisən, halın nədür? Ol igid didi: «Bən müsəlmanam, şəhri Əsr bənim atamundur. Adı Ricaşdır. Atam kafir imiş. Oğlu və qızı olmaz imiş. Neçə-neçə qurban və sədəqə edüb, anam bana hamilə olub, bəni vücudə gətürmüş bir əlamət zahir olmuş, başı, ayağı bəlirsiz olmuş. Amma iki dəlik var birisindən nəfəs gəlür, birindən ifrazat gəlür, bana həkim gətürmüşlər, nəsnə hasil olmamuş. Bir neçə gündən sonra atam şikarda ikən dört dərviş bulunur. Xoş surət kim ola? Biri Musa, biri İsa, biri Davud və biri Məhəmməd. Atam bunları öz odasına gətürmüş. [164] Bunlara demiş hansı din yüksəkdir?

Dimişlər: - Əgər yüksək din dutarsın, ögrədərəm. Atam dimiş əgər mənim oğlumu bu bəladan qurtarasuz və düa edəsüz müstəcəb ola, ol dinə girdirərüm. Məhəmməd dərviş üç gün oruc dutar və namaz qılub düa eylər. Pərdə yarılur, bən tışra çıqıram, atam bu halı görəndə tum vilayətilə müsəlman olur. Mənim adımı Müin qoymuşlar.

Çün bənim atam vəfat eylədi. Bən təxtə keçdim. Atamın bir qarındaşı var idi. Yəhudi idi. Qafil ikən bəni dutdı. İstədü ki, öldürə, anam fəryad edüb qoymadı öldürə. Bəni sanduğa qoydular. Dəxi bilmədüm halım neçə oldı, deyüb Seyyidün ayağına düşdi. Seyyid alub gəmiyə qoydu. Rəvanə oldılar, nagah bir dağ göründi. Müin didi: «Ol görünən dağ bizim elimizdür». Gəmini ol dağa sürüb yaqışdı. Seyyid ol igidi gəmidə qoydu. Özi şəhərə gəldi. Sabah oldı, namaz qıldı. Cümlə xaliqə üzün bildürdi. Gəlüb Seyyidün ayağına düşdilər. Seyyid Müin hekayətin bunlara bildürdi və Seyyidi alub şəhrə gəldilər. Seyyid durub, saraya gəldi. Ol kafir Seyyidi görüb didi: - Nə kişisən? Seyyid didi: «sana, xəbərim var. Məxfi diyim». Bəglər sarayı xəlvət eylədi, didi, söylə. Seyyid didi: - Tez müsəlman ol, yoxsa sən bilürsən, [164[a]] mənəm Battal Qazi. Ol igid kim, qarındaşın oğludur, neçün dəryayə saldun? Kafir istədi ki, xidmətkar çağura, Seyyid boğazina yapuşdı. Canı cəhənnəmə vasil oldı. Seyyid tışra gəldi, bir kafir var idi ana didi: - Gəl səni padşah çağurur, gəldi. Didi: - tez müsəlman ol, olmadı. Başını kəsdi. Bir-birinün ardınca çağurub yetmiş ol kafiri öldürdi, andan sonra padşahın başın alub tışra çıqdı, bir nərə urdı, özün bildürdi. Ol şəhər içində qoğa qopdu. Dört yüz müsəlmanlar qəzavətlə məşqul oldular. Seyyid çoq adam qırdı. Qalanı «əhsən», didilər. Ol dəmdə Əscəd on bin kişi ilə çıqub gəldi Seyyidün fəthinə şad oldı. Seyyid Munisi taxta çığardı. Ol vilayət cümlə müsəlman oldu. Andan gəmiyə minüb yeddi gün getdilər. Əscəd didi: - Xudavənda, bundan belə adam zad yoqdur. Çoq xətirlü yerdir. Seyyid didi:

- Ya Əscəd, əgər sana zəhmət olursa, gerü dön, Allaha

sıqunub gedim gərək. Əscəd didi:

- Nə qədər canım vardur, səndən ayrılmazam. Nagah bir an dağ peyda oldı. Ol dağə çıqmaqa yol tapmadılar. Bir gəmiyə Əscəd mindi və birinə Seyyid minib yol axdardılar. Əscəd yol tapub ol ləşkəri dağa çıqardı, gördilər dağın başı yaşıldur. Çadırlar qurub, od yaqdılar. Əscəd nagah gördi bir neçə canavarlar it kibi ulaşırlar. [165] Bu dağ dopdolu canavarlar idi. Əscəd bunları görüb ah, eylədi. Ləşkər iraqlandı. Seyyid dağa yol tapub aşarkən uyqusı gəldi. Gəmidən tışra çıqub dərya kənarında uyquladı. Duşunda Şah Mərdanı gördi didi: - Ya pəhləvan, bu yerdə yüz əcayib əlamət görərsin. Sabah olanda oyanarsın, su yüzündə bir alma gəlür, onı alub yeyərsün, hər nəsnənin dilin bilüb və söylərsün.

Sabah oldı. Seyyid oyanıb gördi su yüzündə bir alma gəlür. Almanı alub yedi. Hər bir məxluqatın dilin bildi. Yeddi yol tapub ol dağa çıqdı gördü ki, Əscədin ləşkəri qonmuşlar. Cümləsi quruyub qalmışlar. İtlər qələbə etmişlər. Əscəd Seyyidə didi: - Ey pəhləvan, əjdəhalar ağzına düşdük. Seyyid didi: - Siz bunda durun, bən varıb görüm bu nə qövim. Seyyid gəlüb onların ulusunu çağurdı, didi: - Burada nə edərsiz? Onlar didi: - Siz kimlərsüz? Buraya adam oğlı gəlməz. Seyyid didi: - Bəni padşahız yanına aparun, xəbərim vardur. Padşahlarına Xərsan dirlərdi.

Seyyidü alub padşahları yanına apardılar. Xidmət eylədi didi: - Sən adamzadəsən bizüm dilimizi handa ögrəndün? Seyyid didi: - Bən dəxi sizdənəm, məni kiçik apardılar, adamzadə olmuşam, onlarun rənginə döndüm. [165[a]] Dəxi bu gələn Siylan padşahudur. İki oğlu Qıl Buraklar yanındadur. Padşahın bir məhbub qızı vardur. Sizə verər xatunluğa, bu şərtlə kim, siz ona kömək edəsüz. Xərsan çünki qızı eşidüb şad oldı didi: - Xoş ola qırq səksarlara didi: - Varub qızı görəlüm. Seyyid Əscəd yanına gəldi. Xərsanı bir barigahına gətürdilər, oturdı, yeyüb içdilər, bir oğlanı bəzəyüb göstərdilər. Seyyid Xərsanı xəlvət gördi, boğazına ya-

puşdı, canı cəhənnəmə vasil oldı. Seyyid Xərsanın dərisin bütün soydu, dəbbağluq eylədi. Şah Xərsanun dərisin geyüb saksarlara gəldi, onlara yüz göstərüb didi: - Əscəd bana qızın verdi. Dəxi lazım oldu ki, biz varub anın oğlanların xilas edəlim. Varun on bin kişi hazır olun, bən xatunum yanında bir neçə gün durum, siz iraq eyləyin. Vardılar on bin ər, on gəmi hazır edüb, gəlüb gəmiyə minüb rəvan oldılar. Gah-gah Seyyid Xərsan dərisin geyüb, çıqub bunlara istimalət edirdi. Bunla qırq gündən sonra Qıl Buraklara gəldilər. Gəmilərindən tışra çıqub qondular. Xərsanun dərisin geyüb saksarlara nuvaxat *(çalma surət - A.R.)* eylədi. [166] Qırq adam saksarlardan alub Qıl Buraklar yanına gəldi. Şahları qarşu gəlüb görüşdilər, didi:

- Ey qarındaş, xoş gəldün, nə məhbubsan, bu yerə gəldün.

Seyyid didi: «Bu gələn Siylan padşahıdur. Adı Əscəddür. İki oğlu əsir olmuşdur. Gilimguşlar yanındadur. Bənim yanıma gəldilər. Bir qız bana verdi. Bir qızı dəxi vardur kim, aləmdə anın kibi gözəl yoqdur. Ol qızı sana verur. İkimiz dəxi bir olub anın oğlanların xilas edəlüm». Anuq ki qızın xəbərin eşidüb şad oldı. Seyyid Anuqı alub Əscəd yanına gətürdi. Tez çadıra yetüşdülər. Yenə ol qızı bəzəyüb göstərdilər. O gecə onı dəxi öldürdi, dərisin çıqardı. Ənuqun dərisin səbahdan Seyyid geyüb çıqdı. Qıl Buraklar görüb şad oldılar. Seyyid didi: «Bəglər, Əscəd bana qızın verdi. Mən də qarındaşım Xərsan ilə bunda söhbət edərəm, tez iraq edün. Bunlar dəxi on bin adam, on gəmi hazır edub gəldilər, nə qissa dəraz edəlüm. Bunı eylə yetmiş iki tayfanı özünə müxtəs *(məxsus – A.R.)* eylədi. [166[a]]

Hər gün bir surətlə bunlara görünürdi.

Bir gün bir xoş çayır çəmənliyə gəldi. Otları sünbül və qərənfil, zəfəran, geyiklərini miskidən tutdular. Seyyid onları görüb şükür eylədi. Bir dəm təfərrüc eylədi. Bir təpəyə çıqub gördi bir xoş səhradadur. Ortasında bir ulu ağac budaqları asimanə yetmiş, ağacın altında bir ulu qübbə qızıl

altundan, bir qübbə zümrüddən və bir qübbə incidən. Seyyid təəccüb eylədi. Aşağa enüb gördi bir xoş çeşmə, abdəst alub namaz qıldı. Xub avaz ilə Quran oqudu. Nagah gördi ki, qubbələr yarılub içindən üç nəfər nuranı kişi çıqub, gəldi. Seyyidə salam verdilər. Seyyid bunların salamın aldı. Gəlüb yanında oturdılar. Seyyid nəzər edüb gördi yüzlərindən nur həvayə dirək olmuş, didilər: - Xoş gəldün. Ey Rəsulullah oğlu! müştaq idük yüzünə. Mübarək cəmalına Əlhəmduillah, didilər. Nagah hava yüzündən üç xunça gəldi, yedilər, içdilər, andan düa eylədilər. Xunçalar yenə həvayə getdi. Seyyid didi:

- [167] Bu nə məqam və bu nə yerdür? Didilər: - Bu məqama «Xürrəmabad», derlər. Kuhi qaf ətəgidür. Zulqərneyn daxmasıdır. Biz anın yaranlarıdan idik.

Bir gün bir avaz gəldiki «Gəlin tışra çıqın, Haqq-təala sizi istəyir» deyüb, gətürdilər və bu kübbəyə qoydular. Ol vəqtdən bu zamana beş yüz yildur. Bu gecə Rəsul Həzrəti duşumuzda gördük, sizün gəlməginizi bizə xəbər verdi. O, necə buyurursa siz anın əmrinə muti olun. Oğlanlarından ötrü bu canibə gəlübdür intiqamın alur. Ana sız deyün, tez işin bitürüb gerü dönsün kim, bir kafir peyda olub, müsəlman içində dinimə qəsd eyləmiş, batil yolı peyda eyləməkdədur.

Seyyid bunların adların sordu, didilər: - Birinin adı Nabil, birinin adı Natil və birinin də Kamil. Dəxi oğlanların sordü. Didilər: - Cadü munda gətürdi və dəxi bilmədük kim, neylədi. Andan sonra Seyyid bunlar ilə vida edüb, öz ləşkərinə getdi. Padşahın surətinə girüb istimalət eylədi, didi: - Hazır olun, sabaha cəng irağın edüb bu dağdan hər kişi gəlürsə [167a] aman verməyin, öldürün.

Çün sabah oldı. Ol əzəmət ləşkər dağa qarşu səf bağlayub durdı. Seyyid gəlüb ol pirə salam verdi. Onlar ləşkəri görüb əcaba qaldılar. Seyyid gördü ki, qarşudan tütünlər odlar yandı. Avazlar qopdu. Ol pirlər didilər: - «Hilal Cadu sizün gəlməginüzi bilibdür, bu qoğa anındur». Seyyid didi:

- İstəyirəm sizdən biriniz Hilalə gedüb oğlanlarımı diləyəsiz. Habil didi: - Xudavənda, mən biçarə varım, bilürəm ki öləröm başım hankı tərəfdən enirsə, sizlər o tərəfdən gəlün ol pirlər bir-birilə görüşdilər. Bir az ağlaşdılar, sonra Habil didi: - Ya Seyyid, bəni öz əlinlə dəfn edərsən və Məhəmməd Əl Mustafayə yetüşəndə səlamımı ona yetürəsən. Qiyamət güni bəni şəfaətindən unutmasın, deyüb rəvanə oldı.

Bir zamandan sonra gördülər məlulun başı qana qəltan olub. Endı Seyyid önündə kəlməyi şəhadət gətirdi. Seyyid öz əliylə o başı dəfn eylədi. Başın endigi yerdən ləşkər rəvanə oldı.

Çünki dağ başına gəldilər. Qaranluq gedüb rovşən oldı. Seyyid gördü [168] bir səhra ortasında bir xub şəhər mərmərdən mötəbər qülləsi astma asimana çıqmış. Şəhərün önündə Hilal cadu qırq bin ifrit cadu ilə təxt üstündə oturmuş.

Çün cadu Seyyidi gördü, qəhqəhə çəküb güldü didi: «Ey Battal, bən səni istəyüb gəzirdim, mənim dövlətim səni ayağıma gətürdi.

Seyyid didi saksarlara, qomayın, düşmən budur. Həmlə eylədilər. Anın ardınca Qıl Buraklar həvalə eylədi. Bu tayfalar cümləsi həmlə qıldılar. Cadularun avazlarından qulaqlar kar olurdı. Seyyid Əscəd yanına gəldi gördü ki, qorqudan taqəti qalmamış. Seyyid didi: - Ya Əscəd, qorqma Haqq-təala bizə inayət edər, sonra Seyyid, Xızır peyğəmbərin düasın oquyub ol cadular üstünə üfürdi, özü cəngə məşğul oldı. Qatı cəng oldı. Seyyid, Hilal üstə yerüdi. Hilal yerüdü, təxtini havaya götürdilər. Ləyin həva yüzündə təffərrüç eylərdi. Seyyid Hilalı görüb Xızır peyğəmbər düasın oquyub bir ox və qılınc atdı. Təxtə dəgüb bir qulağın yardı. Ol ləyin endı ki, [168a] Seyyidi qapub götürə, Seyyid Allah deyüb tiği-səxxak ilə qoltuğunun altından eylə çaldı ki, bir əli həvaya paran oldı. Ləyin əlin qapub qaçdı. Şəhərə döndi. Hadu ləşkəri anı görüb hizmət eylədilər. Seyyid dönüb bu ləşkəri öz padşahları surətində növahat qıldı

və istimalət Verdi.

Ol gecə sabah olunca Seyyid gəzdi, yol tapmadı. Zira ki, hər yerdə divlər cadular durmuşlar idi. Allah talayə minacat eylədi. Ol dəm Xızır peyğəmbər hazır oldı. Salam verdi didi: - Ey Battal, məlul olma, tez dur ki, bu vilayəti sən fəth edəsən.

Andan sonra Seyyidi atına mindirdü. Atın başın şəhərə döndərdi. Pərvaz urdı şəhərün üstə qondı. Seyyid atından aşağa enüb bir saraya yerüdü. Qarşudakı qapudan içəri girdi. Dört soffa gördi. Ortasında bir təxt Süleymani qızıl altundan. Üstündə Hilal cadu yatmış, kəsük əli dəxi üstündə Seyyid ki anı gördi, gəlüb dutdı. Əlin arxasına bağladı. Xızır düasın oqudu. Səhəri batil oldı. Məlun çaqırub didi: - Ey Battal, atamı, qarındaşımı öldürdin, bu mənim quş canımdan nə istəyirsən? Seyyid didi: - Məlun, hanı oğlanlarım. Hilal didi: - Munda gətürmüşdim, əlimdən pərilər aldılar. Amma Qeysər oğlu mundadur. Seyyid gördi bir igid təxt ayağına bağlu. Gedib əlin açdı, gəlüb Seyyidün ayağina düşdi didi: - [169] Qorqma, tez İshaq Peyğəmbərün kəmər bəndin çıqarub Hilalın boğazına saldı. Təkfurun əlinə verdi. Özü dalunca yeriyüb, şəhrin qapusuna gəldi. Seyyid Xızır qapuçısın qapuya qarşu dutdı. Qapu açıldı, çıqub Əscəd yanına gəldi. Seyyid buyurdı. Hilalı gətürdilər. Didi: - Ey məlun, hanı mənim oğullarım? didi: - Pərilər mundan alıb apardılar. Dəxi xəbərim yoqdur. Seyyid bir qılıncla məlunu iki parə eylədi. Bu halı görüb cümlə cadular darbadağın oldılar.

On bin ləşkər şəhərə girdilər. Götürə bildükcə mal aldılar. Seyyid ol şəhərdə bir qubbə gördi. Önündə bir kişi oturmuş. Seyyid səlam verdi. Əlin aldı didi: - Xoş gəldün. Ya Seyyid, bu iqlimi ol məlunun şərindən xilas eylədün. Seyyid didi: - Bu qapunı aç, girüb şəhəri təfərriç edim. Ol pir didi: - Üç bin yıldur bən bunda oluram, bunun içinə girmədim. Qapusın dəxi aça bilməzəm. Ol dəm Xızr peyğəmbər hazır oldı. Didi: «Ey pəhləvan, ğəzavətin mübarək ol-

sun. Bu vilayəti ol məlunun şərindən xilas eylədün». Ol qapunı açdı. didi: - Ya Seyyid, gir Zülqərneyni ziyarət eylə.

Seyyid içərü girib gördi ki, bir baxça içində bin dirlü yemiş cənnətə bənzər, ortasında bir qubbə məcundan, qapusı ləldən, içərü girdi. Gördi bir xalı altundan, gümüşdən dəxi dört sofa, (girəcək-xol) bir-birinə [169[a]] qarşu. Hər birində bir təxt və bir İsgəndər şah Aristotalis hakim sanki bir-biri ilə söyləşürlər. Seyyid heybətə düşdü. İrəlü yürüdi gördü önündə bir lövhə yazılmış. Dimiş ki, ey cavan, ey igid buraya gəlsən, Məhəmməd Əl Mustafa evladından olasın. Bən ki, İsgəndərəm, yeddi iqlimin padşahı idim. Divləri özümə müsəxxər eylədim. Bu mənim adi surətimdir. İçəri gir kim halımı görəsin. Seyyid andan içərü girdi, nəzər eylədi. Gördi yazılmış kim, əvvəli Nami - Xuda və Məhəmmədə salavat, dəxi ya Seyyid Battal, nə zaman munda gələsin, bəndən ibrət al. Bu dünyanı tamam dutdum. Dünyanın etibarı yoqdur. Əgər olsa bana olurdı. Ölümə dərman olmadı. Sən dəxi pəhləvanlığına məqrur olma nə eylərsən, Allahtala rzası içün və dəxi Həzrət Mustafayə bənim salamımı vasil eylə ki, qiyamət günü bəni şəfaqətindən məhrum etmiyə və dəxi başım yanında səninçin bir gövhər qomuşam. Al, gəl bəni düadan unutma».

Seyyid bir az ağladı. Şaha düa eylədi. Ol gövhəri aldı, bazusuna bağladı, tışra çıqdı. Qapu gerü yapuldı. Seyyid ləşkərə gəlüb didi: «Məlul oldum. Oğullarımdan xəbər bilmədüm» və didi: «Ey Təkfur şah, sizün halınız necə oldı?» Təkfur şah didi: - Bizi bu məqamə gətirdilər [170] sənün oğullarunla. Təndürə oda yaqdılar ki, bizi biryan edələr. Əlimüzi ayağımızı bağladılar. Nagah hava yüzündən bir qoğa qopdı qılınclar oynadı bizi qapdılar. Alub getdilər bəni aparan pəri gınə aldı. Gəldim bu yerə dəxi bilmədim necə oldı». Seyyid didi: - Gəl təndiri bana göstər. Təkfur Seyyidi alub gəldi. Ol yeri göstərdi, anda bir çeşmə var idi. Seyyid abdəst alub iki rükət namaz qıldı. Məhəmməd əl Mustafa-

yə şəfaət gətürüb Allaha minacat eylədi. Gördi ki, o qarucuq çıqub gəldi qiymətli donlar geymiş. Seyyidə səlam verdi didi:

– Ey pəhləvan, niçin məlulsan, əgər oğullarından ötərüdür, məlul olma, xoş sağdırlar. Hər biri, bir padşahdur. Seyyid didi: - Handadur? Qarucuq didi: - Tamus pəri yanındadur, müsəlmandur. Cümlə pərilərin soltanıdır, sənin oğullarına qızlarını veribdür. Yüz bin pəri sənin oğullarının hökmindədür. Bən hər ol qızlarun, xalasıyam. Çün sən ki Hilalı öldürdün, bu vilayəti əmin eylədün, bən varub Tamusi [170[a]] sənə gətürüm. İbrahim Xəlil Allahın yüzün görmüşdür. Hilal əzab ilə bu vilayəti andan alupdur. Çün sən bunun kibi ərlük eylədün. Tamusi sana gətürəyim deyüb həman dəm havayə getdi.

Bir azdan sonra Seyyid gördi gög yüzündə nəqarələr dögüldi. Pəri ləşkəri cümləsi gəldilər. Qabaqlarında bir düzün saqqallı yaşıl donlar geymiş bir pəri ardında bixud ləşkəri gəlüb düşdilər. Sayübanlar çadırlar qurdular. Ol pəri Seyyidin yanına gəlüb əgilüb səlam verdi, didi:

– Necəsən? Zəhmətlər çəkdün. İnan Allaha, bu iqlimi ol kafir əlindən xilas eylədün.

Nagah ol qarı, yenə gəldi. Seyyid ilə görüşdi, didi: - Ey pəhləvan, Tamus budur, vilayətin padşahıdur. Seyyid Tamusin əlin dutub didi: – Rəvamıdur, mənim oğullarım sənin yanında ola bana xəbər eyləmiyəsən? Bu qədər zəhmət çəkdim bana göstərmirsən.

Tamus didi: - Oğlanlaruna bən, qızlarımı verdim kim səbəb oldur ki, görüb alub gedirsən. Seyyid didi: - Ey Tamus, oğlanlarımı gətir, çoq söyləmə. Bunlar bu sözdə ikən, [171] Xızır Əliyəssəllam çıqub gəldi. Tamus Xızırün ayağına düşdi didi: - Xudavənda, bu kişinin oğlanlarını Hilalın əlindən qurtardum. Qızlarımı verüb, padşah eylədüm. İmdi bu gəlüb oğulların alub getmək istəyir. Bənim qızlarım ilə ünsiyət dutmuşlar. Əgər onlar getsə bənim qızlarım həlak olurlar.

Xızır didi:

- Ya pəhləvan, vəqt dardur, islam üzərində düşmən zahir olubdur. Səndən çarə gərək, bu ləşkəri göndər getsünlər. Seyyid Əscədə dəstur verdi getdi, hər köməgə hazır idi. Duz məqamına rəvan oldı və Qılbaraklara və Kəlimquşlara yer bə yer dəstur verdi, məqamlu məqamına rəvan oldı. Seyyidin oğlanları dəxi yüz min ər ilə çıqub gəldi. Seyyid oğullarını bağrına basdı. Yeddi gün oradə qalub səkkizinci gün İraqa yetdilər. Təxt bağlayub, Tamus pəri Seyyidin oğullarını İslambula gətürdi. Seyyid dəxi Tamus ilə görüşdi. Pərilər gerü dönüb getdilər.

Seyyid dəxi dərya kənarında namaz qıldı. Orada oturdı. Nagah öz qulu Bəşir, gəldi. Seyyidi görüb ayağına düşdi. Seyyid didi: - Munda neylərdin, didi [171[a]] ticarətə gəlmişdim. Yol bağlandı, bu səbəbdən ki Qeysər xəstədür. Bəşir Seyyidün oğulları ilə görüşdi. Malatiyadan xəbər sordu. Bəşir didi: - Eşitdüz, orda bir kişi peyda olmuş. İslam ləşkərinə çoq zəhmət verür. Seyyid bilüb məlul oldu. Bəşiri Qeysərə göndərdi varub muştluq aldı, didi:

- Seyyid oğlun Təkfurı gətürdi. Əsətur qatı xəstə idi. Buyurdı, cümlə bəglər qarşu gəlüb, Seyyidün ayağına düşdilər. Təkfur ilə görüşdilər. Bunları alub Əsatur yanına gəldilər. Əsaturun başı üstə oturdılar. Seyyid didi: - Ey şah, necəsən? «oğlumu görəndə müsəlman olarum» demişdün, İnşallah oğlunı gətürdim. Əsatur ki oğlunı gördi, oğlu atasının ayağına düşdi. Əsatur barmaq qaldurub şəhadət gətürüb, müsəlman oldı. Təkfur Seyyidün hekayətin bərabər bunlara şərh eylədi. Əcəbə qaldılar. Əsatur səkkizinci gün vəfat eylədi, Seyyid öz əlilə Qeysəri yudı. Namazın qıldı. Müsəlmanlar qəbr qazıb Şəmasın yanında dəfn eylədilər, qəzasın dutdılar. Andan sonra Təkfurı qeysər eylədi. Bəglər cümləsi biat eylədilər. Seyid istədi ki, gedə. Təkfur ağladı didi: - Bən bunda yalquz qorxuram. [172] Seyyid oğlu Bəşiri, anda qoydı. Nəzirlə özü rəvanə oldı. Seyyid Əscədin qızı Humayun Diləfruz ilə Malatiya yaxun gəlcək bir çeşmə ba-

şında düşdilər.

Nagah Bağdad tərəfdən bir karvan çıqub gəldi onlar da düşdilər. Seyyid bir qəribdən xəbər aldı ki, Bağdaddan nə xəbər var? O qoca, didi: - Mömin xəlifə dünyadan getdi. Oğlu Mütəsüm, xəlifə oldı. Amma bir kişi peyda olmuş, oq davasın edür. Oq batmaz, qılınc kəsməz, od yandırmaz. Donquz ətin həlal deyir. Hər kimsənin atasının və anasının adın bilür, hər yerdən mal çıqarur. Hər nə kim ol deyirsə, elə olur. Qızı atasına və qardaşına halaldır. İki dəfə varub Şamı yıxdı, xərab eylədi, cümlə ana yüz dutdı. Kimsə ana müqabil olmadı. Çoq qalalar yıxub xərab eylədi. Derlər Seyyid Battal dəxi itübdür, nə ölüsü və nə dirisi məlum degil. Çoq məlul oldılar. Ol məlunun adı Babəkdür. Təbriz vilayətini xərab eylədi. Acəm vilayətini təmam dutdı. Seyyid didi:

- Əsli hardandur? Didi atası Bağdada ğayətdə oğru imiş. Gəlüb müsəlmanlar xəlifəyə şikayət eyləmişlər. Şəhərdən qovmuşdur, gedüb bir köydə sığır otarmuş, ol köyin bəginin qız qarındaşı ilə başı [172[a]] xoş olmuş. Çarəyə hamilə olmuş. Andan vücudə gəlmiş. Bir nihan belə keçir, atası aparub köyün bəginə tapşurur, ana nökər olur. Anınla gecə-gündüz şərab içir. Çoq fəsadlar edir. Mümlan iki yüz ağac urub yanından qovur. Bir gün yalquz Mümlanı evdə görür, girüb öldürür. Bir neçə dövlətsiz yoldaşı olur, bunı eylə yüz kişi yanına cəm olur.

Bir gün tənha oturur, bir Pir gəlüb deyir:

- Nə kişisən, və nə yerdən gəlürsin? Didi:

- Mən Cəbrayılam, sən peyğəmbərsin.... Ol Babək deyir:

- Məndə bir möcüzat yoqdur. Necə peyğəmbərəm? Ol Pir didi: - Yoq, səni qılınc kəsməz, oq batmaz və deyir, ey Babək dur, filan yerdə bir daş var altında xəzinə var, anı alub xərc eylə. Varub dört yüz kişi cəm edüb ol malı anlara göstərmiş. Alub ləşkəri cəm edir. Bununla aləmi fəsadə verir və xəlifəyə elçi göndərib, anı dəxi azad edüb özünə vəzir

eyləyir.

Andan sonra igirmi bin kişi ilə Nəqtayə bərabər gəlüb, deyir: - Peyğəmbərim. Nəqtay demiş, sən möcüzat göstər. Babək deyir: - Gəl bəni qılıncla vur, əgər kəsərsə xub, əgər kəsməzsə əmrimə müta ol və dinimə gir. Qılınc urar kəsməz, oq urar batmaz. Heç iş ana kar eyləməz, axır adam gəlüb Babəkin ayağına düşər. Ləşkər ilə ana [173] müta olur.

İmdiki halda qırq bin ər ləşkəri hüzurundadur. Əqba qazı oğlı Vəlid qarındaşı Sətha yanındadur. Bağdad üzərinə gəldi. Xəlifəni qodu Şama getdi. Battalın oğlu adamları ilə əsirdədir.

Çün Seyyid bu xəbəri eşidüb canı başına çıqdı. Diləfruzu Malatiyaya göndərdi. Özü əzmi Bağdada eylədi. Gördi qarşudan bir suvar gəlür, yaxun gələndə atından aşağa endi. Gəlüb Seyyidün ayağına düşdi. Seyyid nəzər eylədi gördi ki, Məhəmməd bin Fallahdır. Seyyid xəbər aldı. Ol dəxi xəbər verdi. Seyyid Məhəmmədi bağrına basdı. Ol bazargan nə xəbər verdüsə, bu dəxi ol xəbəri verdi və dəxi didi: - Xəlifə bəni, əmirə göndərdi ki, ləşkəri cəm edüb gəlsün. Əmir dəxi bir duş görüb bana demişdi ki, «Ya Məhəmməd! məlul, olma kim, Battal gəlür Babəkin ölümü onun əlindədir. Var, gerü dön.

Xəlifəyə bənim gəldügim xəbəri ver, məlul olmasun. İnşallah ol kafürün haqqından gəlürəm. Muhamməd gerü döndi rəvan oldı.

Babək məlun yüz bin [173[a]] kişi ilə oturmuşdı. Dört məlik sağında, solunda dururlardı. Məlun birdən qəh-qəh çəküb güldi. Didilər: «Xudavənda, nə səbəbdən güldün. O nəfər didi: - Sabah Battal gəlür. Yanındakılar didilər: - O, ölübdür. Məlun didi:

- Zilqərneyn daxmasına varub neçə məxluqəti müsəlman eyləmişdir. Çoxlu divlər öldürübdür. Oğlanların alub gəlür, budur. Sabah yetüşər. Əgər gəlüb bana müta olursa cahan pəhləvanlığın verərüm. Yoxsa, başın kəsərəm.

Çün Seyyid bir çeşmə üstə gəlüb anda yatdı. Sabahdan durub namazın qılub, suvar olub, rəvan oldı. Gəlüb bir təpəyə çıqub aşağa nəzər eylədi. Gördi kim, bir ləşkər qonubdur kim, qiyasə gəlməz. İstədi ki, Babək gəlsün, şeytan gəlüb Babəkə xəbər verdi ki, neyçün durmusan? Budur Battal gəldi tez dur, qarşula. Babək buyurdı, ləşkər minub səf bağladılar durdılar.

Seyyid Əşqardan enüb qulayın bərkidüb meydana girdi, cövlan eylədi. Çağurdı ki, «Ey aqılsız qövm, Məhəmməd dinində nə gördünüz üz döndərüb şeytanə uymuşsuz. Mənəm [174] Battal, vardum qaf dağın dolaşdım. Hilal cadunı öldürdim. Hanı ol kafir, murdar, gəlsün. Meydanimə gəlsün.

Babək istədiki, meydana girə, Qənatur qoymayub özü meydana girdi didi: - Ey Battal, niçün bizim peyğəmbərimizə müta olmazsın. Seyyid atını təpələdi, Qanaturı qurşağından dutdı, yerə urdı. Götürüb həvayə atdı, enərkən qılıncı çalub iki para eylədi, andan sonra Sinbat girdi. Anıda iki para eylədi, bir-birinin ardınca yüz kafiri öldürdi. Babək məlun meydana girdi. Uzun boylu, böyük başlı, kərrə saqqallı Seyyidə bərabər gəlüb didi: - Ya Battal, günahsızları niçün həlak eylədün? Mənim peyğəmbərlügümə niçün müta olmazsan? Gəl qılınc ilə mənim boynumu ur. Əgər kəsməzsə, inan ki, peyğəmbərim. Seyyid didi: - Ey məlun, yüz bunun kibi iş göstərəsən, sənə etiqadım yoqdur. Sən bir oğru həramzadəsən, sana bunun kibi işlər nəlayiqdür. Ol məlün didi: - Məhəmməd dəxi bir yetim idi. Çün ana inayət yetüşdi. Peyğəmbər oldu, sən dəxi bir yetim idin, Allahdan inayət oldı, munca işlər eylədün. Anın içün cahanı dutdun, divləri müsəxxər eylədün *(zəbt etdin – A.R.)*. Əgər bana müta olursan, Məhəmməd yanında Əli necə idi, mənim yanımda sən dəxi eylə olarsan. Seyyid didi: - Ey məlun [174a]. Bizim peyğəmbərimizə Quran endı, əgər sən peyğəmbərsən, sənin kitabın hanı?

Ləyin didi: - O, yalan idi, hər nə didisə, öylə eyləmədi

nə olsa, söylər idi.

Seyyid acıqlanub cida həvalə qıldı. Məlun köksün qarşu dutdı. Cida heç kar eyləmədi. Tiği-səxxak ilə çaldı, əsər qılmadı. Budın qarşu dutdı, kəsmədi. Yeddi dəfə çaldı, əsər qılmadı. Şam suvar gürzin urdı. Heç kar eyləmədi. Babək ləyin didi: - Ey Battal, insafın yoxmuş ki, bu qədər qılınc, cida, gürz urdun, kar qılmadı. Seyyid dəmbəstə *(sakit, dinməz – A.R.)* qaldı, didi: «Ey məlun, imdi növbət sənündür. Odur görüm ol kafir cida həvalə qıldı. Seyyid məni eylədi. Qılınc havalə qıldı. Məni eylədi ta gecə olunca cəng eylədilər. Döndülər, Seyyid ol gəldügi yerə getdi və Babək gerü dönüb öz ləşkərinə gəldi. Seyyidün ərligun söylədi. Hər nə işlər eylədisə, bəgəndi. Seyyid dəxi bir çeşməyə gəldi. Abdəst alub namaz qıldı. Bunlar munda qaldı. Bu tərəfdən Məhəmməd bin fallah Xəlifə yanına gəldi.Xəlifə Məhəmmədi görüb didi:

- Niçün geri gəldün? Məhəmməd Seyyidin gəldigün xəlifəyə müştuluqladı. Xəlifə şad oldı. Məhəmməd didi «Seyyid Bağdada vardı. Sizə dəxi gəlsün, didi». Beş bin müsəlmanla xəlifə əzmi Bağdad eylədi.

Bunlar gəlməkdə, bu tərəfdə çün sabah oldı, Seyyid namaz qılub atına bindi, dağdan aşağa [175] endi çağırdı: «Hanı ol kafir? Gəlsün», didi. Babək suvar olub meydana gəldi, günortaya dəkin cəng eylədilər. Ləiyn didi: - Ey Battal, belə eyləmə, bir kişiyə ki heç iş kar eyləməz, bundan adlü möcüzat olurmu. Seyyid didi: - Ey məlun, bu sənin işin şeytanlıdır. Babək didi: - Ey Battal, oq, yayın çıqar bən sinəmi açım qarşu dutum. Doldur at, əgər əsər eyləməzsə, bənim dinimə gir. Seyyid acıqlanub bir oqu doldurdı ləyinə qarşu dutdı. Oq toqundı, dəmur iki buküldü, oq para-para oldı. Ləyin dəxi nə möcüzat gərək, imdi bana iman gətür. Seyyid didi:

Bən mömünəm, sana etiqadım yoqdur. Sən bir şeytan ləyinsən. Didi: - Ya Battal, əgər sənin dinin haqdursa, bən dəxi səni oqla, qılınc, cida ilə urum. Əgər əsər eyləməsə, də-

xi billəm ki, sənin dinin haqdır. Bunı deyəndə ağac yaprağı kibi əsdi, yenə ilham kölnünə düşdi. «Hərce badabad Allaha sığınuram». Rəsul Allah duasın oqudı didi: - «Gəl imdi ey məlun, nə eylərsən eylə». Ləyin almas həvalə qıldı. Seyyid bazusun açub qarşu dutdı. Allahın inayətindən zərrə xəta gəlmədi. Zira kim, peybəmbərün bir neçə saçları bazusuna bağlanmışdı. [175[a]] Ləyin peya-pey üç gürz urdı. Heç ələ gəlmədi, ləyin cida həvalə qıldı. Seyyid Xızır düasın oqudı. Köksün açdı durdı, bir zərrə xəta gəlmədi. Kafir sərasimə oldı. Taqəti qalmadı.

Bunlar cəngdə ikən nagah Şam yolundan toz qopdı. Beş min ər ilə xəlifə çıqub gəldi. Gördülər, Seyyidə düa eylədilər. Xəlifə Seyyidi görməmişdi, qarşu gəldi görüşdilər. Xəlifə Seyyidə düa eylədi. Seyyid şad oldu. Ol gecə xəlifə Seyyidlə müşərrəf oldı. Ol gün cəng olmadı. Xəlifə təxtə keçüb oturdı. Seyid, xəlifəyə qarşu yerdə oturmadı. Xəlifə Seyyidə dur, topraqda oturma deyüb, təklif eylədi, çarə olmadı. Seyyid didi: - Bizim yerimiz budur. Onun kibi kafir gəlüb, Məhəmməd dinin qaruşdurdı. Bana rahat nə gərək, bu işdə olmak yaxşıdur, didi.

Sabah ki oldı, nəqaralar dögüldi, iki ləşkər bir-biri ilə səf bağladılar. Babək ləyin bir köynək geymiş, meydana girdi. Didi: - Ey Battal, gəl cəng eyləyəlüm, amma sən dəxi mənim kibi yalınçuq gəl bir birimizi görəlüm.

Çün xəlifə Babəki gördi, bin tirəndaz qullara buyurdı. Tir-baran etdilar, nə qədər oq urdılar, toqundusa, geri sıçradı. Ləyinə heç kar eyləmədi. [176] Heyran qaldılar.

Babək çağurdu ki, ey Battal, qorqdunmı? meydana gəlməzsən, mənim bunun kibi işlərdən qorxum yoqdur. İmdi bu qədər möcüzat gördün. Genə inanmazsan. İtaət eyləməzsən. Dövrü Mustafa getdi. İmdi Babək dövrüdür. Ərsən, mənim kibi meydana gəl. Seyyid həman bir köynək ilə tiği-səxxak əlinə aldı. Xəlifəyə «gedürəm» deyüb, getdi. Xəlifəyə getmə, didi. Çarə olmayub, getdi. Babəkə bərabər gəldi. Kafir anı görüb heyran qaldı didi: - Ey Battal, bən sə-

ni istəməzəm həlak edəm, deyirəm ki, haq yola girəsən, səni cahan pəhləvanı edim. Seyyid didi: «Çoq söyləmə. Neçə sənin kibi itlərin haqqından gəlmişəm». Ginə Seyyid didi: «Əgər bən ölsəm cənnətə gedərəm. Əgər sən ölürsən, cəhənnəmə gedərsən deyüb, bir-birinə hərbə gəldilər». Gecə olunca cəng eylədilər, bir-birinə zəfər bulamadılar, gerü döndülər.

Xəlifə Seyyidə qarşu gəlüb dua eylədi. Aləm üləmalər çağurub dua eylədilər. Seyyidün donların geydirdilər. Seyyid ləşkərdən çıqub dağa getdi. Bir çeşməyə gəldi. Abdəst alub namazın qıldı. Allahtalaya minacat eylədi didi: - İlahi, bu kafir Məhəmməd dinini batil eyləmək istəyir. Bunun halın bən biçarə qula bəyan eylə.

Nagah uyqusu [176[a]] gəlüb yuxladı. Vaqiədə peyğəmbəri görüb ayağına düşdi. Həzrət Rəsul Seyyidün iki gözün öpdü didi: «Ey cigərguşəm! məlul olma. Anı şeytan yoldan çıxartdı. Hər vəqt kim, ol meydana girər, şeytan qılıncın ana bərabər dutar. Anı silahın kəsmədi, genə səbəb odur. İmdi sən silahına «la həvlə vəla qüvvətə illa billahil-əliyyul əzim» oku. Ol şeytan sən meydana girəndə qaçar. O ləyinə zəfər bularsın.

Seyyid yuxudan oyanub, tez durub gördü kim, nura qərq olmuş. Çün sabah oldı. İki ləşkər səf bağladılar.

Xəlifə deyir aydır ki, Seyyid necə oldu? Bu gecə gəlmədi. Seyyid peyğəmbəri yerinə yetürüb dərhal atın meydana sürdi. İslam ləşkəri Seyyidi görüb şad oldılar. Seyyid çağırdı ki, - ey kafir, niçün meydana gəlməzsən. Babək ləyin şeytanı yanında görmədi. Çübbə *(uzun ətəkli enli üst paltarı – A.R.)* geyib meydana girdi. Seyyid didi: - Ey kafir, niçün hər gündə ki, kibi meydana girmədün, ləyin bəgün Cəbrayıl gəlmədi. Seyyid didi: - Ey məlun, ol şeytandır həmlə eylə. Ləyin cida həvalə eylədi. Seyyid məni eylədi. Gəldi ki, gecə bir şiş paya ilə urdu ki, at [177] ağrısından mayallaq yıxıldı.

Müsəlmanlar təkpür gətürüb nida eylədilər. Babək ləş-

kəri cümləsi anı görüb həmlə qıldılar. Babək ləyini meydandan çıxartdılar. Baxub gördi şeytan dəxi gəlməz, qaçub səngərə getdi. Müsəlmanlar o ləşkəri qırdılar, malların yığdılar. Dönüb bərgahlarına gəldilər.

Seyyid xəlifə yanına gəldi. Xəlifə Seyyidün iki gözündən öpdi, andan Seyyid o ləşkəri qavdı. Babək ləyin dərya yüzinə düşdi. O yerdə bir qələ vardı. Anda gəldilər on gün o qələni həsar eylədilər, bir gecə Seyyid fürsət tapub kəmənd atub, qələyə çıxdı, Sətha məlun önündə idi. Babəkə xəbər eylədi. Babək ləyin oradan da qaçdı. Seyyid buyurdı, qələni yıxub xəraba eylədilər.

Andan əzm Zənqana eylədilər. Çün Babək Zənqana gəldi. Əsad bin Səid Zənqanın maliki idi. Seyyid yetüşdi. Babək ginə Seyyid ilə cəng eylədi. Aməd-i Kufi deyirlər idi, didi: «Ey Səid, peyğəmbərə qılınc çəkürsən? dövr Məhəmməd getdi, dövr Babəkdür» deyüb, hərzə söylədi. Said buyurdı, oq tökdülər. Əsad qorudu. [177[a]] Məlun qələdən getdi. Yeddi gün qələni həsar eylədilər. Ol hal idi ki, qələni alalar.

Muad çıqub gəldi. Ləqun adlı bir mürtədd var idi, Seyyidə bərabər gəldi. Seyyid bir zərb ilə iki para eylədi. Ləqun ləyinin ləşkəri sınub qaçdı. Babək andə yoq idi.

Gəlüb Babək ləyinə əhvalı bildürdilər. Seyyid Əs’ada didi: - Mənim gəldigümi Babəkə bildürməyin ki, şayəd ol məlun əlimə keçə.

Çün sabah oldı, Babək ləşkəri səf bağladı. Muad Seyyid qırq bin ər ilə Babəkə bərabər səf bağladular. Seyyid bir əcayib surəti ilə dağdan aşağa enüb meydana girdi. Hər kim anı gördi əcəbə qaldı didilər ki, bu nə məxluqdur. Dərhal Seyyid çağurdı ki, bən Qaf dağından gəlürəm, eşitdüm ki, tazə peyğəmbər gəlmiş imdi bizlər yüz bin kişi ilə gəldüg kim, hərgah doğru peyğəmbərsə, ana müta olaq, dostuna dost, düşməninə düşmən olam. O ləyin çün bu ləşkərlə bu sözləri eşidüb dərhal meydana girdi didi: - Eşitdün peyğəmbər mənəm. Seyyid didi: - möcüzat göstər görüm. Ləyin

baqdı, yanında şeytan görmədi. Naçar qaldı. Babək ləyin didi: - Eşitdün ola, bəni qılınc [178] kəsməz, oq batmaz, bundan yaxşı kəramət olurmı, didi. Amma aciz qaldı. Çün şeytan yoxuydı, didi. Bu gün Təkafil ilə sabah gəlüb sana möcüzat göstərim. Seyyid didi: - Ey həramzadə, eşitdün ki, Seyyid sənin sazını yüzübdür, bən anın yaranlarındanam sana işlər edim ki, aləmdə söylənə.

Məğər Babəkin yanında bir kafir var idi. Həramzadə qılınc ilə Seyyidə həvalə oldı. Qılınc inərkən Seyyid qoltuğun altından elə çaldı ki, bir əliylə başı həvayə pəran oldı. Əsəd Kufi deyirlər idi, ol meydana girdi, anı dəxi öldürdi. Babək ləyin didi ki, «Ey yigit, səbr eylə, sabah gəlürəm». Seyyid: «Yoq səni, qoymanam». Babək didi: - Bir səbr eylə, mən dəxi donlarımı geyim. Seyyid Aşqarı mindi Babəki qurşağından dutub götürdi yerə urdı. Enüb sinəsində oturub itin quyruğu kibi saqqalın dutdı, xəncəri boğazına qoydı. Babək didi: - Battal, öldürmə bəni Xəlifə yanına apar, müsəlman olum. Seyyid iki əlin bağladı, Muada verdi, özi atına mindi. Ləşkərə həmlə qıldı. Ləşkərdən bir qədər qırdı, dönüb gəldi. [178[a]] Seyyid Muada didi: - Ol məlunu gətür. Muad gedüb gördü ki, muhavizlərin başların kəsüb, Babək ləyin qaçmış, Muad qayıdub Seyyidə xəbər verdi. Seyyid didi: - Qəm çəkmə, mənim əlimdən nə yerə varur, deyüb ardınca vardı. Muad dəxi Seyyidün ardınca rəvan oldı. Seyyid yarım gecə də yetüşdi didi: - Ey hərəmzadə, budur gəldüm, əlimdən nə yerə gedəcəksən deyüb, nərə urdı. Ləşkər bərabərinə həmlə qıldılar, bir-birin qırdılar. Sabah vəqtində Muad qırq bin ər ilə yetüşdi, həmlə edüb çoq ləşkər qırdılar. Babəki şəhərdə tapmadılar. Bir laqını vardı, Babək bir neçə xadimlərlə ol laqına girüb qaçdı. Şəhər xəlqi nə qədər axdardılar, tapulmadı. Biri gəlüb didi: - Xudavənda, bu laqımdan ol kafir getdi. Seyyid Aşqara minüb laqıma girdi. Rəvan oldı bir səhrayə çıqub, gördi bir çoban qoyun otarur xəbər aldı.

Didi: - Babək buradan getdi. Çün Babək ləyin lağun-

dan çıqub gəldi. Şeytan Babəkə yüz göstərib didi: - Qaç ki, Battal yetüşdi. Ol ləyin əsbabın geyincə, Seyyid yetişdi, Babək atına minüb bərabər gəldi. Seyyid didi: - Ya məlun, canını əlimdən handa qurtarırsın. Babək ilə yüz igirmi kişi var idi Seyyidə bərabər gəldi.

Cəng edirkən Muad Abdülvəhhab yaranlar çıqub Babəkin adamından [179] qırxın öldürdülər, qırxın dutdılar, qırxı qaçdı. Seyyid Babəki bir zərb ilə yıxdı durdı. Arxasın bir ağaca verdi didi: - Ya Battal, bəndən nə istəyirsən, aman ver, dəxi ata minim. Seyyid didi: - Müsəlman ol, yaxud öldürrəm. Aman verməzəm, didi.

Nagah Seyyidün ardından bir pəri ağladı. Seyyid gerü nəzər edüb gördi bir Pir deyür: «Ey pəhləvan, öldür, aman vermə ki, Həsən, Hüseyni bünlar şəhid edübdür».

Çün övladi Əli, yad olanda, Seyyidün gözlərindən yaş rəvan oldı. Çün Seyyid dönüb baqdı. Babəki gördi, qayıdüb pirə baxdı yerində görmədi. Seyyid ah eylədi, didi: - O qoca, şeytan imiş. Ləyin Babəki, əlimdən alub getdi. Seyyid oğlanların Abdülvəhhabə tapşurdı didi:

«Sən bunları ləşkərə apar, mən Babəki bir yana etməyincə dönməzəm». Seyyid rəvan oldı.

Babək xəstə idi, bir köyə gəldi, bir rəhban qarşu gəlüb didi: - Kimsən? Babək didi: - Bir qərib dərvişəm. Rəhban bir evə gətirdi. Bir neçə gün anda yatdı.

Seyyid bir gün bir çeşməyə gəldi, namaz qıldı. Məgər Numan ova çıqmışdı. Seyyidi gördi alub şəhərə apardı. Seyyid Babəkün hekayətin şərh eylədi, didi: - [179a] Qorquram, bir fitnədür. Quzə Numan dört canibə adamlar saldı.

Çün Babək ləyin Seyyiddən qaçdı. Şeytan gəlüb didi: - Neçün durmusan? Babək şeytanı görüb ağladı didi: - Bəni qəzayə uğratdun deyüb ayağına düşdi. Şeytan qorqma, Seyyidün ölmü sənin əlindədür. Ol dağda xəzinə var, anı al. Özüni xəlifə bildür, mən dəxi səndən ayrulmazam deyüb qeyb oldı.

Nagah bir rəhban çıqub gəldi. Özüni bildürüb. Rəhba-

nı özünə müta eylədi. Andan ol dağa varub, ol xəzinəni çıqardılar, yetmiş bin kafiri özünə döndərdi.

Bir gün bir kişi Babəkə didi: - Xudavənda, mən bu dağda bir əcaib canavar gördim. Bir yüzi it, bir yüzi adam Yüzünə bənzər vücudı. Cümləsi qıl basmış. Babək həvəs edüb ol dağa ovlamağa getdi.

Nagah yoldaşları dağılmış ikən, Seyyidün üzünə çıqub gəldi. Seyyid bir nərə urub, didi: - Ey məlun, canını əlimdən handa qurtaracaqsın, budur gəldim. Ləyin qaçmağa çarə olmayub, naçar qarşu gəldi, cəng eylədi. Ləyin zəbun oldı. ləşkərinə xəbər olub, yüz bin [180] ər yetişdi. Seyyidi ortaya aldılar. Seyyid tiği-səxxak çəkdi. Birbirinə urdı, ikindiyə kibi cəng eylədi. Müsəlmanlardan tez Mümlan çıqub gəldi. Kafirlər anı görüb sındılar. Seyyid Babəki çoq axtardı, tapulmadı. Müsəlmanları geri döndərüb özü Babək ardınca rəvan oldı.

Bir gün bir çeşmə başına yetüşdi. Abdəst alub, namaz qılırikən Babək ləyin yetüşdi. «İyi fürsət buldum» deyüb, qılıncın əlinə alub Seyyidə çaldı. Kəsmədi. Zira Rəsulun saçı Seyyidün bazusinə bağlu idi. Anın bərəkatından əsər eyləmədi. Babək dağa doğru qaçdı. Seyyid namazı təmam edüb ata mindü. Ləyin ardınca rəvan oldı. Babək dəniz kənarına gəlüb gördi ki, gəmilər düzülmüş, ləngərlərin çəkürlər ki, gidələr ləyin fəryad edüb didi: - Bir düşmənim vardur. Malımı alub bəni belə qoydu ki, kim öldürə. Bənidə bu gəmiyə qoyun. Babəki gəmiyə qoydular.

Məgər Sətha ləyin o gəmidə idi. Babəki gözlədi, Seyyid dəxi ol dəm yetüşdi. Babəki xəbər aldı didilər, ol gedən gəmidədür. Seyyid didi: - Bəs bu gəmilər nərəyə gedir? Didilər: - Bu gəmilər, Cinə gedir. Seyyid ol gəmiyə minüb rəvanə oldı.

Sətha məlun Seyyidə bir danə beksimed verdi. Seyyid yedi [180a] əqli başından getdi. Babək məlun o gizlənmiş yerdən çıqdı. Ol qədər qılıncı Seyyidə urdı, kəsmədi, tez boynuna kəmənd taxub kəndir bağlayub dəryayə saldılar.

Allahın əmri ilə bir bəd müxalif əsdı. Gəmini bir qayaya urdı. Para-para eylədi. Babək Sətha ilə bir təxtə üstündə qaldılar. Seyyid dərya dibinə endi. Babək dərya kənarına gəlüb, ac idi bir qədər yemiş tapub yedilər. Durub bir şəhərə gəldilər ki, buna Cin derlər idi. Əlli bin ləşkəri var idi. Nagah şeytan orada hazır oldı. Babək şeytanı gördü, ağladı. Seyyiddən şikayət eylədi. Şeytan didi: - İmdi var şəhərün bəgini dəvət elə atasının və anasının adın söylə, əgər möcüzat istərsə göstər filan yerdə qırq xüsrəvanı küp altun Yunusdan qalan xəzinə var, anı göstər. Cümləsi sana müta olur, didi. Babək ləyin durub sarayın qapusına gəldi. Çağırdı: - Ey qövm, varun, padşaha söyləyin ki, peyğəmbər gəldi. Dəstur istər içərü girməgə. Varub Sultanə xəbər verdilər. Sultan buyurdı: - Varun gətürin, görüm. Neçə adam durunca peyğəmbəri varub gətürdilər. [181] Padşahın atasının və anasının adın didi. Hər kim duş görmüşsə anın peyğəmbəri budur didi. Babək didi: - Bəni qılınc kəsməz, od yandırmaz, oq batmaz. Qılınc urdılar kəsmədi, oq urdılar batmadı, oda atdılar yanmadı. Didimmi ey qövm əgər möcüzat istəyirsüz, filan yerdə qırq gün xüsrevani mal vardur. Gedün çıqarun, didi. Ol qövm varub açub çıxartdılar. Cümləsi Babək ləyinin ayağına düşdilər. Ana müta oldular.

Çün Seyyid dəryada gedirdi əqli başına gəldi. Gördi başı aşağa gedir. Nagah bir kişi gəlüb Seyyidi dutdı, kəndiri boğazından aldı. Dərya dibinə endi. Dərya üstündə mayallaq qaldı. O kişi qızıl yüzli idi. Boynuna bir qılınc həmayıl salmışdı. Aşağa enüb qucdı didi: - Ya Seyyid, ər olan kişinin başına bunun kibi işlər çoq gəlür və dəxi əcayiblər çox görərsin.

Andan gedüb şəhərə yetüşdilər. Yeddi qat bürc çəkilmiş.

Çün yaxun gəldilər. Şəhərün qövmi yaxun gəlüb, Seyyidi gördilər, ziyarət eylədilər. Seyyidi əğraz ilə, saraya apardılar. Gördi kim bir təxt qurulmuş, bir qoca, səbzpuş başında bir tac, təxt üzərində oturur. [181a] Bəglər sağında,

solunda otururlar. Həman kim Seyyidi gördilər, cümlə bəglər təxtından enüb Seyyidlə görüşdilər. Seyyid xəbər aldı ki bu nə məqamdur? Sultan didi: «Xüdavənda, bu məqama təxtü-s səra derlər, mən müsəlmanam. Əmir Əl Möminin önündə müsəlman olmuşam necə kim göglər yeddidür və dəxi yerlər də yeddidür. Əvvəl ündə adamlar olur, ikincidə pərilər olur, üçüncüdə kimsənə yoqdur, dördüncüdə canavarlar olur, beşinci divlər olur, altıncı qaranlıqdır, yeddinci dəryadur. Seyyid yeddi gün anda durdı. Səkkizinci gündə çıqmaq binası oldı. Seyyidə didilər: «Gözünü yum, yumdı və didilər aç, açdı. Özüni dərya kənarında gördü. Aşqar dəxi qarşusında otlar. Aşqar ki Seyyidi gördü, qarşı gəldi. Seyyid irağın geyüb suvar oldı, gəldi.

Bir rəhban qarşu çıxub Seyyidə salam verdi. «Xoş gəldün Ya Seyyid Battal, didi. Seyyid əcəbə qaldı. Rəhban didi: - Ya Seyyid, bu gecə Muhamməd Əl Mustafani duşumda gördüm. Ol sənin gəldügin xəbəri bana didi. Müsəlman ol, didi. Müsəlman oldum. Seyyid alub içərü girdi, yemək gətürüb yedilər. Seyyid Babəkdən xəbər sordı. Rəhban didi: - Munda bir şəhər var, Düpçin derlər, padşahlarunun adı Vəqqasdur, Babək anda gəlüb çoq fəsadluq eylədi, deyüb ağladı və dəxi Seyyid də ağladı. [182] Seyyid didi: - Bir namə verim ana aparasın. Bir namə yazdı Rəhbana verüb Vəqqas yanına göndərdi. Aparub naməni Vəqqasa verdi. Vəqqas oxudu. Yazmış əvvəli Allah ikinci Məhəmməd Əl Mustafa adı ki, mənəm, Battal Qazi. Babək ləyin qılıncımdan qorqub sənin yanına vardı. İmdi anı əlimə verəsən və əgər tutmazsan, budur gəldim hazır ol.

Çün naməni oqudı, buyurdı ki, rəhbanı öldürün. Babək ləyin «elçiyə ölüm yoqdur» didi. Vəqqas bir namə yazdı ki, Ey Battal, səni istəyirəm, atamın və qarındaşımın yanına göndərəm. Rəhban naməni götürüb Seyyidə verdi, oxudu heç dinmədi.

Çün sabah oldı atına minüb şəhərə doğru vardı. Bu canibdən Babək məlun iki yüz bin ər ilə ata minüb səf bağla-

dılar. Seyyid gördü ki, dərya kibi ləşkər, Seyyid bir nərə urdı. Eylə sandılar ki, gəlür geru. Vəqqas Babəkə didi: - Bu nə saiqədür *(ildırım – A.R.)*. Babək didi: - Battalın avazıdur. Vəqqas didi: - Belə ər olurmı ki bir belə avazı ola. Babək didi: - Nəziri yoqdur. Amma bu növbət ölümü bənim əlimdədür.

Seyyid dağdan enüb meydana girdi. Yetmiş iki dürlü hünərlər göstərdi. Vəqqas heyran qaldı. Seyyid çağurdı ki, «Ey Vəqqas, bənəm [182[a]] Battal ğazi, tez ol kafiri dut, bana göndər dəxi müsəlman olsun, yoxsa sən bilürsən…»

Vəqqasın bir ulu pəhləvanı var idi, meydana girdi. Seyyidə cida həvalə qıldı. Seyyid məni eylədi. Kafir gəldi ki, kecə, bir qılınc urdu ki, iki para oldı və dəxi nə qisseyi-dəraz edəlüm, yetmiş kafiri öldürdi. Ol quyuda vahimə oldı. Babək çağurdı ki, nə durursuz. Bən onun haqqından gələrim. Yüz bir kişi ilə Seyyidə həmlə eylədi. Qatı cəng oldı. Babək gördü ki, yüz bin atlı üç gün, üç gecə cəng eylədilər. Seyyid ğayətdə zəhimlü oldı, qanı çox axdı, aciz qaldı. Yüzün yuxarı dutub haqqa minacat eylədi.

Nagah gördü kim hava yüzindən Tamus Pəri yüz bin pəri ilə çıqub gəldi. Bir dəmdə üç bin ləşkəri qırdılar. Kafir ləşkəri sındılar. Yüz qaçmağa dutdılar. Çün Seyyid ol əhvalı gördi, cidasın yerə verüb cidayə dayanub durdı. Qanı çoq axub üç gün, üç gecə cəng edüb yorulmuşdü. Tamus pəri, Seyyidi dutub bir kənara çıqartdı. Seyyid gözin açub Tamusı gördi, şad oldı, aldı Barigahına gətürdi. Seyyidün donların çıqarub xub şərbət içirtdi [183]

Seyyid didi: - Babək necə oldı?

Tamus didi: - Şeytan alub Rumə apardı. Tamus Babəki ələ gətürmədügınə, Seyyid şad oldı.

Andan gəlüb Şəhərün üstə ələm sancaq nəqarələr döküb düşdülər. Seyyid Aşqara suvar olub Şəhərün dört tərəfin gəzdi. Çün Vəqqas Tamusı Seyyidün sağ tərəfində gördi və baxub pəri ləşkərin gördü kim bir əcayib qövm, Babəki görmədi. Ah eylədi. Taqəti qalmadı andan Seyyid bir nərə

urub çağırdı kim ey Vəqqas! Gəl, kafiri tərk eylə. Müsəlman ol, yoxsa imdi buyuraram pərilərə, şəhərini zirü-zəbər edər. Vəqqas qapunı açub gəldi. Seyyidün ayağına düşdi didi: - Ya pəhləvan, səhv eylədim, günahımı bağışla. Bir kafir gəlüb məni azdurdı deyüb, iman gətürdi. Müsəlman oldı. Vəqqas hökm eylədügi yerdə igirmi dört para şəhər, yetmiş para qala var idi. Cümləsi müsəlman oldılar, andan Tamusu, özü vilayətinə göndərdi.

Andan sonra Vəqqasa didi: - Bir gəmi hazır et ki, Ruma gedərüm. Vəqqas didi: - Bən dəxi səndən ayrılmazam. Seyyid qoymadı. Qırq kişi ilə gəmiyə mindi. Vəqqasdan vida edüb rəvanə oldı.

Bu tərəfdə çün Babək ləyin qaçdı dərya kənarında Şeytan əleyhi lə'nəhu-(lə'nət) gəldi. Babək ləyin onu gördi ağladı didi: - Qandasın, bəni bunun kibi bəlalərə uğratdun.

Məlun didi: - Yerü çoq söyləmə, mən səni bu qədər gəzdirdim. [183[a]] Babəki alub dəryanı keçürdi didi: - Yeri, İslambula var, kim Battalın canına odlar salırsın deyüb, rəvan etdi. Babək ləyin yeddi gün ac yeridi.

Bir gün gördü ki, qırq kişi çıqub gəlür, yetüb Babəkə səlam verdilər. Babək handan gəlirsüz? Didi. Didilər: - Biz Babəki istəyürük. Çün İslambulun bəginə xəbər oldı ki, «Babək, Battalı öldürdi. Bu tərəfə gəlür. Bir boqca paltar ilə bizləri göndərdi ki, ona verün», didi. Battalı öldürdim. Kim Babək mənəm. bunlar didilər: - Çıplaq ol boyuna baxalum. Ləyin gövdəsin açdı. Arxası bağa, arxası kibi, pulpul olmuş. Həman gördilər ayağına düşdilər ol donları ana geydürdilər. Alub İslambula gətirdilər.

Bir gün bəglər şikarda ikən fürsət bulub Təkfüru, Bəşiri şəhid eylədilər. Ol dəm Babək nərə urdı didi: - Mənim Babək, Battalı Cində öldürdüm və Təkfüru öldürdüm. Bən bir kişiyəm, bana ok batmaz, qılınc kəsməz, cida əsər eyləməz, od yandurmaz. Hər kim bana müta olsa qurtarur. Nə qədər Təkfura, Bəşirə təməllüq *(yaltaqlıq - A.R.)* müsəlmanlar varsa, qırdılar. Çoqların gerü döndərüb kafir eylə-

dilər. Babək ləyini təxtə keçürdilər. Dört yüz bin kişi cəm eylədilər. Otuz bir adu bəlli bəglər Babəkə səct eylədilər.

Andan sonra Babək ləyin ləşkəri [184] çəküb Malatiya gəldilər. Qırq dört adı bəlli pəhləvanları şəhid eylədilər. Əhməd Tarran və Abdüssələm, Cudə, Qasım, Nəsr, Həyat Mənsur. Babək Ləyin, Malatiyanı xərab eylədi.

Bu tərəfdən Seyyid bir gün dərya kənarına çıqdı. Tərsus malik eşitdi ki, Seyyid gəldi. Cümlə bəglər ilə Seyyidə qarşu çıqdılar. Seyyidi şəhərə gətürdilər, bir neçə gündən sonra bir bəg gəlüb Seyyidə səlam verüb, əlində bir namə verdi. Seyyid oquyub ağladı. Əmirün naməsi idi. Yazmış kim «Babək gəldi, İslambulda oğlun Bəşiri və Təkfür şahı öldürdi. Qırq dört yaranları şəhid eylədi. Şəhəri dəxi xərab eylədi. Biz, sənin oğullarin, bir Abdülvəhhab və Cudənin dört oğlu qaldı. Qamusun şəhid eylədilər. Seyyid matəm dutub Əmirə bir namə yazdı. Və dəxi Abdülvəhhab da xəlifəyə namə göndərdi.

Çün namə xəlifəyə gəldi, ol dəxi yas dutdı. Xəlifə Abdülvəhhabdan sordu ki, Seyyidi imdi handa eşidirsiz, didi: - Qayıtdı vilayətinə. Babək dəxi ol canibdən rəvan olub getmiş. Xəlifə Muadı və Qasımı Abdülvəhhabı qırq bin kişi ilə Seyyidə kömək üçün göndərdi.

Bir gün gəlüb Seyyidə yetüşdilər. Bir zəman ağlaşdılar. Seyyid əhvalatı xəbər aldı, necə ki, olmuşdı elə xəbər verdilər. Seyyidün oğlanları üçün ağlaşdılar. Abdülvəhhab didi: - Ömrüm üç yüz ildən artuq keçdi, Babək kibi yavuz kafir görmədim. [184[a]] Onu səhi dutmayın.

Seyyid didi: - Hər nə yazılıbdur, elə olur. Bir neçə gün bunun üzərinə keçdi. Seyyid Abdülvəhhabı sərləşkər edüb, o gecə rəvan oldı.

Günlərdə bir gün Babək ləyinə xəbər yetüşdi ki, Seyyid Battal gəldi. Bu kafir dəxi beş yüz bin ər ilə Seyyidə qarşu vardı. Babəkün Məzrəbhan adlu bir pəhləvanı var idi. Ol kafiri yüz bin ər ilə qabağa göndərdi. Gəlüb, Abdülvəhhabə uğradı. Həmlə qıldılar, Abdülvəhhab Məzrəbhanı bir

zərb ilə yıxdı. İstədi ki, başını kəsə, ləin aman dilədi didi ki, «bəni Seyyidə apar, müsəlman olum». Bu halda ləşkərə qarışdı. Babək ləyin dəxi yetüşdi. Məzrəbhanı aldı. Abdülvəhhab Haqq-təaladan murad dilədi.

Nagah Seyyid dəxi yetüşdi. Bir nərə urdı didi: - Canını əlimdən handa qurtararsın, deyüb həmlə qıldı. Zırnək ibn Əli yetüşüb həmlə qıldı. İslam ləşkəri yetüşdi. Dəxi ol iki ləşkər bir gün bir gecə qatı cəng eylədilər. Cəng içində Seyyid Abdulsalibə yetüşdi, gördi bir gurbuz kafirdir. Seyyidə didi: - Handasan, səni istəyirdim! Axır nar-ı nur fürsət verdi deyüb, həmlə qıldı. Seyyid qılıncın məni eylədi. Bir gürz urdı. Qalxanı dağıldı, köksünə dəydi. Məallaq yıxıldı. Seyyid atından aşağa endi, başın kəsdi, yenə atına mindi, nərə urdı, Babək qəlbinə uğradı. Ləşkəri tarü mar eylədi, qırdılar.

Babək ləyin üç gün qaçdı, varub bir yerə qondı, yanında ol Frəng bəgləri oturub [185] məşvərət eylədilər. Yenə ləşkər cəm edüb, «yerdə qalanı çağuralım», didilər.

Ol yerdə bir qələ var idi. Qandabad derlərdi. Malikanə Süheyl bin Sinbat derlərdi. Babək namə yazdı «ana kim, «Kərəm edüb, qələyə bizi qoyun». Süheyl didi: «Əgər yalquz gəlürsə gəlsün».

Babək səkkiz adlu bəlli bəglər ilə Qandabada gəldi. Süheyl əğraz ilə saraya gətürdi. Seyyidə xəbər oldı, ləşkəri köçürdi. Gəlüb qələyə qarşu bir su kənarında düşdü. Seyyid didi: «Suyu keçün. Bana saru qulaq dutun. Bənim avazımı eşidəndə gəlün. Bircə o kafiri ələ gətürüm» deyib, rəvanə oldı.

Gecə idi, bir bürcə gəlüb atın pünhan eylədi. Kəmənd atub bürcə çıxdı. Sərayın damına gəlüb pəncərədən nəzər edüb gördü ki, Babək ləyinin Süheyl yanında oturmuş və Vəlid bin Əqba və qarındaşı Səthə oturmuşlar. Şərab içüb məst olmuşlar. Seyyid ahəstə aşağa endi, bir qaranluq bucaqda durdı. Babək baş qaldurub didi: - Ya Süheyl, bu dəfə Battalın ölümü bənim əlimdədür. Dərhal Vəlid ləin Bağda-

dı istədi. Bağdadı ona verdi və Sathəyi vəzir eylədi. Səkkiz bəgləri var idi, hər birinə iqlim verdi. Seyyid nagahdan çıqdı. Babək istədi ki, qaça, Seyyid bir təpik urdu ki, məallaq yıxıldı. İki əlin dalısına bağladı. Vəlid və Səthə məlun istədilər kim qaçalar. Seyid [185a] bir-bir çaldı, ikisi də para-paralandı.

Süheyl bin Sinbat, Seyyidün ayağına düşdi. Müsəlman oldı. Tez qapunı açdı. Seyyid bir nərə urdı. Ləşkər hazır idi, eşidüb «ləbbeyk» didilər. Yetişüb Seyyid ilə sabah olunca nə qədər kafir bəglər varsa, aman verməyüb qırdılar. Babəklərdən kimsə qurtulmadı. Üç günlük yola qədər adam leşindən dolmuşdu. Babəki dəxi dəmirlədilər. Süheyl bin Sinbata tapşurdılar. Andan əzm Bağdad eylədilər. Gedərkən Babək ləyin didi: - Ya Süheyl, bənim dəmürimi al. Bən peyğəmbərəm.

Süheyl bu sözləri Seyyidə xəbər verdi didi: «Xüdavənda, Babək əfsun oqur, der məni xilas eylə». Seyyid gəlüb didi: - Ey məlun, iman gətür, müsəlman ol, canını ölümdən xilas eylə. Babək ləyin didi: - Bən peyğəmbərəm, bu zaman nəbimdür. Muhamməd əsri keçdi. Gəl bana bəyat eylə, ta qiyamətdə bən səni diləyim. Seyyid acıqlandı. Tez çəngəl ağzına salub dilin kəsdi. Seyyid didi: - Sana bu gərək. Bir qədər yol getdilər. Yenə Babək əlilə Süheylə isarət eylədi, məni xilas elə. Yenə bunı Seyyid didi. Seyyid gəlüb çox nəsihət eylədi. Didi: - Gəl müsəlman ol. Allahdan diləyim, dilin əvvəl ki, kibi olsun. Ləyin hərzə söylədi.

Seyidə namə yazdı ki «Babək əlimə girib nə edim?». Buyurdı, bir bəgə verüb xəlifəyə göndərdi.

Seyyid hər yerə ki uğradı, Babəkdən gəlüb şikayət eylədilər kim, qızımızı gəlib məxfi aparublar. Bilmərüz kim, nə haldur, hər yerə kim gəldi, belə didilər. [186] Çün bəg xəlifəyə gəldi, naməni verdi, oxudular, şad oldular. Şəhəri çırağban eylədi. Xəlifə Seyyidə qarşu gəldi, görüşdülər. Şəhərə gəlüb şadyanaluq eylədilər. Buyurdı, Babəki gətürdilər. Şəhərə qarşısunda oda yaqdılar. Seyyid bir neçə gün xəlifə

yanında qaldı.

Belə rəvayət edirlər kim, xəlifənün bir qızı var idi. Səfiyə banu ol dəxi itdı. Xəlifə ayətdə pərişan oldı. Seyyid dəxi əcəbə qaldı. Xəlifənün xatunu Səidə Banu zarluq edüb bir gecə bir bağçada yatmışdı.

Nagah iki yaşıl quş gəldilər. Bir ağaca qonub bir-birinə söylədilər. Biri didi: «Xəlifənün xatunı neçün ağlar», o biri didi: - «Rəd cadu, qızını aparubdur, anın üçün ağlar». Biri didi: - «Bəs o cadu nə yerdə olur». O biri didi: «Yeddi dəryanın o tərəfində Aynül-qıtır derlər. O yerdə olur. Bu vilayətdən yüz qırq qız aparubdur», belə deyüb uçub getdilər. Səidə xatun durub Xəlifə yanına gəlüb, hekayəti bildürdi. Xəlifə dəxi Seyyidə söylədi. Seyyid didi: - «Ginə bana səfər düşdi. Bana himmət edün» deyüb, rəvanə oldı.

Ta kim Umman kənarına gəldi gördi, Ümman kənarinda bir şəhər əzim. Bir qoca kişi bir büt götürüb gəzdirür. Deyir «Bunun kibi büt kimsənün yoqdur. Bən bunun ustadıyam, bənim kibi tanrı düzəldən yoxdur. [186[a]] Cümlə tanrı düzəlcilərün ustadıyam, hər kim bunı alur. Cümlə bəlalardan əmin olur».

Seyyid onu eşidüb qəzəbə gəldi. Didi: - Bu nə küfrdür söylərsən? Bir işi kim sənin kimi aciz düzəltmiş ola, ol necə tanrı olur və Tanrılığa nə ləyaqəti var? Tanrı oldur kim, on səkkiz min ələmi yaratdı. Kimsə anı yaratmadı.

Ol pir Seyyidə hərzə söylədi. Seyyid dəxi piri urdı. Yüzü üstə yıxıldı. Adamlar qələbə edüb, Seyyidi ortaya aldılar, hər kim Seyyidə yaxun gəldisə, urub yıxdı. On beş kişini öldürdi.

Şəhərün bəginə xəbər oldı. Atına minüb Seyyidə gəldi, səlam verdi, yüz yerə qoydu. Seyyidün üstündən xaliqı uzaqlaşdırdı. Seyyidi alub sarayina gətürdi. Təam yedürdi və təxtə keçürüb oturdılar. Şəhərün bəgi xəbər aldı ki, «Ey pəhləvan, necə oldu ki, sən bu vilayətə gəldün?» Seyyid didi: «Xəlifənün bir qızı itdi. Rəd cadu aparubdur». Əhvalatı hekayət eylədi. Ol bəg didi: «Mənim dəxi bir qızım itdi.

Hərgah mənim qızımı ələ gətürsən, bən dəxi müsəlman oluram».

Nagah şəhərdən bir qoğa qopdu. Seyyid didi: - Bu nə xəbərdir. Ol bəg didi: - Ay pəhləvan, Əmirəlmömüninin Əli bunda gəlüb, bu şəhərün yarsuna xərac gəsübdür, yarusun dəxi, müsəlman eyləmiş. İmdi andan ötrü bu nərəzənan edirlər. Bir adam göndərdilər. Onları gətürüb o xəracı aralarında səlah eylədilər.

Yeddi gün [187] Seyyid anda durdı. Bir gəmi hazır eylədi, qırq kişi ilə Seyyid rəvanə qıldılar. Üç gün getdilər. Nagah o yerə bəd müxalif nəf əsdi. Gəmini bir qayaya urdi, para-para eylədi. Həman dəm Seyyid Aşqar üstə bindi, ol heyvan suda yerüdi. Nagah, bir böyük gəmi çıqub gəldi. Əşqarı, Seyyidi o gəmiyə götürdi. Tez Seyyidi o gəmiyə aldılar, didilər: - Nə kişisən? Seyyid didi: - Rumdan gəlürəm, Şamə gedürəm. Bir düşmənim var idi. Bənimlə cəng eylədi. Axr zəbun olub qaçdı. Ardınca gedürdim gəmiyə minüb dəryayə girdüm. Bir az gedərkən bir bəd müxalif nəfh əsdi. Gəmi qərq oldı. Bu at bana səbəb oldı, qurtuldı. O gəmi içində bir bəg var idi. Adı Qanatardu. Xəbər aldı ki, sənin adın nədür? Seyyid didi: - Adım Cayildir. Ol bəg didi: - Mənim adım, Qənatardur. Atam Əraqil Qeysərdür. Qanstantin qeysərün qarındaşı oğluyam. Atamı Battal öldürdi. Bən Çin vilayətinə düşdüm. Anın bir bəgi var idi. Adına Qəstur derlərdi. Bən anda oldum. O kişi atamın vəziri idi. Bəni gəldi tapdı, xəbər eylədi kim, Babək Təkfürü öldürdi. Təxt yiyəsiz qalubdur. Bən dəxi gedürəm. Seyyid didi: «Nə qədər kim Battal andadur, sən oraya vara bilməzsən» deyüb, getdülər.

Bir dağa yetüşdilər. Gəmini qayaya bağladılar. Yuxarı çıqdılar. Gördülər bir xoşca mərğzar. Çadır qurdular. Təam bişirüb yedilər.

Ol dəm gördülər bir div çıqub gəldi. [187[a]] Qırq arşun qəddü-qaməti var. Quyruğundan odlar çıxar. Anı gördülər, bunlarun taqətləri qalmadı. Bir kəz nərə urub didi: - Mə-

nim Rəd cadu, ey kafirlər mənim şikarım yerinə neçün gəldiniz. Seyyid buyurdı:

«Tez bunı tir-baran edün». Məlun əlindəki kişini həlak eylədi. Bir sehir oqudı. Bu beş yüz kişidən dört yüzi oda yandı. Seyyid bir oxı yaya qoyub caduya atdı. Sağ gözündən dəgüb dalundan çıqdı. Rəd cadu ah edüb nabud oldı. Çün yüz kişi ki bunlardan qalmışdı. Seyyidi bilüb, cümləsi müsəlman oldı. Andan sonra gəmiyə bindilər, yenə rəvanə olub, bir ay təmam getdilər.

Sindəbara gəldilər. Seyyid doğru yol ilə şəhərə getdi. Şəhərə yaxun olub soruşdı. «Bu nə şəhərdur?» Didilər: «Buna Sindəbar derlər. Qəmər şahın təxtıdür». Tez gəlüb Qəmər şaha xəbər eylədilər. Qəmər şah adam göndərdi ki, «varun gətürün görüm nə qövümdur». Gəlüb sordılar. Seyyid didi: - Elçiyik, xəlifədən gəlürük. Gəlüb, şaha xəbər verdilər. Qəmər şah yetmiş [188] mötəbər kişi göndərdi. Gəldilər Seyyidi alub şah yanına gətürdilər. Seyyid gəlüb səlam verdi, yer göstərdilər. Oturdı. Qəmər şah didi: - Söylə görüm, xəbərün nədür. Seyyid didi: - xəlifənün qızı itübdür. Rəd cadu aparubdur. Andan ötrü gedürəm. Əgər anın yerin bilürsüz, bana deyün. Didilər: - Sən nə kişisən? Seyyid özün bildürdi. Məgər bunlar Seyyidün xəbərin eşitmüşlər idi. Tez taxtından endi. Seyyidlə görüşdi. Qəmər şah ağladı didi: - Xüdavənda, bənim dəxi bir qızım var idi. Gənci-Banu derlər idi. Div aparubdur. Münəccimlər baxub derlərdi, Rəd cadu Battal əlində həlak olur. Əlhəmdullah, mübarək cəmalın gördük. Yemək gətirdilər, Seyyid yemədi. Qəmər şah didi: - Neçün yeməzsən? Seyyid didi: - Müsəlman olsan yeyərəm. Şah didi: - Bən bütpərəstəm. Əgər qızım Gənci-Banunu görsəm, müsəlman oluram. Seyyid ilə şərt eylədilər. Andan sonra təam yedilər, bir neçə gündən sonra şikar eylədilər.

Bir xoş mərğzarə gəldilər. Qəmərşah didi: - Xüdavənda, qızımı bu yerdən apardılar. Dəxi bilmədim necə oldı deyirkən, bir mənquş ahu çıqub gəldi. Ahunı ortaya aldılar.

Ahu silkələnub aradan çıqub qaçdı. Seyyid qavdı. Geyik qaçardı. Seyyid kəmənd atar oldı. Ahunun boynuna düşərdi. Seyyid ki aşağa əyildi duta, ahu kəməndi boynundan çıxarub qaçardı. Bunu eylə altımış fərsəng yol qovdu. Axşam ki oldı geyik nabud oldı. [188a]

Seyyid bir çeşmə başına gəldi, abdəst alub namaz qıldı. Çoq yorulmuşdı, qüsul eyləyim deyüb, ol çeşməyə girüb qüsul edüb çıqdı. Donların tapmadı. Məlul oldı, yuxu qalıb olub, yatdı. Yuxladı, durdı atın iraqın tapmadı. Aşağı yuxarı gəzdi, heç şey zahir olmadı. Nə qədər dualar varsa, atla getdi. Həman Həzrət Rəsulun saçı bazusinda qaldı, didi: «Pərvərdigara, bana imdad eylə, yalquz qaldım. Mu-nisimdən ayrıldım. Sən bəni məhrum eyləmə. Muradımı ver» deyib, düalar eylədi. Fi əmhal xızır əleyhis-səlam çıqub gəldi. Seyyid qarşu varub ayağına düşdi. Xızır didi: - Necəsən? Dünya zəhmətindən ey cigər guşəm, neçün bunun kibi yerdə qafil yatırsan? Ol keyk, Rəd cadunun qızıdur. Gəldi səni aldatdı, fürsət tapmadı, atını donunu apardı. Sənə ziyan etmədügünün səbəbi oldur ki, Rəsulun saçıdur. Andan qurtuldun. Seyyid didi: - Pəs mən necə eyləyüm, atım yoqdur. Xızır didi: - Bənim munda işim vardur, Gəl bərü səni aparayım. Seyyidə didi: - Gözün yum! Yumdı. Aç, didi, açdı. Özüni adəm peyğəmbər türbəsində gördü. Xızır didi: - Varub Tamus pərini göndərim. Qeyb oldı. Seyyid Adəm peyğəmbəri ziyarət eylədi. Üç gün anda qaldı. Təfərrüc edirkən, nagah Tamus pəri çıqub gəldi. Seyyidlə görüşdi. Ey pəhləvan, necəsən? Seyyid dəxi [189] öz qisasın bəyan eylədi, didi: - İmdi Rəd Cadunun məqamına apar. Tamus didi: - Xüdavənda, ol ləyinin yolu çox bərkdür. Gərək yeddi dərya keçək. Seyyid didi: - Bana çox kömək etmisən. Bu dəfə dəxi mədad eylə. Tamus gördü ki, çarə yoqdur. Ləşkərinə dəstur verdi. Bin kişi dəbələdi. Seyyidi alub, həvayə qalqdı. Yeddi dəryadan keçüb, anda bir səhrayə gəldilər, xub mərğzar *(otlaq, çəmənlik – A.R.)* otları sünbül zəfəran və qərənfil. Toprağ müşk ənbər daşları, ləl yaqut. Tamus pəri

didi: - Əynü-l Qıtırdır. Rəd cadu mundadur.

Seyyid bir çeşməyə gəldi, namazın qıldı. Durub nəzər eylədi. Gördü bir şəhərdu ağ mərmərdən. Tamus pəri didi: «hazır ol! Rəd cadu gəlür», didi. Seyid: «Bir qılınc, bir yay və oq gətürün», didi. Götürüb yanında qoydular. Ol oqlara hoftnamə yazdı, yanında qoydı. Bir nihandan sonra cadu qələnin yanına gəlüb, ağzını açdı kim sehir oquya. Seyyid dəxi ism-əzəm oquyub, bir ox atdı, ya hökm Xüdanın adı deyub toqundı. Ox otayından keçdi. Həman dəm atından yıxıldı. Əlindən qılıncı düşdü. Seyyid yetişüb qılıncı alub ləyinin başın kəsdi. Qan rəvan oldı. Andan sonra yüz div boğazladı. Tamus anı görüb səcdəyi şükür eylədi. Seyyidün iki gözündən öpdü. Andan şəhərə gəlüb Cadunun sarayına girdilər. Gördülər [189[a]] bir təxt qurulmuş. Üstündə bir məhbub qız oturmuş, ağlar. Seyyid o qıza salam verdi. Qız salam aldı, didi: «İgid sən kimsən?» Didi: - Mən Battalam. Qız didi: - Mən bu gecə ağladım didim, İlahi ya mənim canımı al, ya bu kafir əlindən bəni xilas eylə. Gözümə yuxu gəlib yatdım. Duşumda Aişəni gördüm bana didi: - Sabah oğlum, Battal gəlür. Rəd Cadunı öldürər sizi xilas edər. Sabahdan nəmzər idim. Əlhəmdullah ki yüzini gördüm, bunlar bu sözdə ikən ol qızlar gəlüb Seyyidün ayağına düşdülər, ağladılar. Seyyid anlara təskinlik verdi, didi:

- Dəxi qəm çəkməyin. Cadunı öldürdüm, inşallah sizi vilayətinizə aparar um. Bunlar şad oldular.

O halda Tamus pirin ləşkəri gəldilər. Seyyidə dua eylədilər. Seyyid buyurdu, ol Cadunun malların cəm eylədilər. Bir parasın Tamusa verdi. O ləşkərə payladı. Cümləsi qane oldular. Sonra Seyyid qızlaru alub, rəvanə oldular. Dəryadan keçüb qondular. Seyyid didi: - Bu nə yerdür? Tamus pəri didi: - Bu yer, Qəmər şahə yaxundur. Seyyid bir adam tapdı. Sindebar, anı Qəmər şaha göndərdi, xəbər eylədi. Qəmər şah bəglərilə gəldilər, görüşdilər. Seyyid buyurdu, Qəmər şahın qızını gətürdilər. Qızını gördü, [190] həman saət müsəlman oldı. Ol vilayət cümləsi müsəlman oldılar.

Seyyid buyurdı kilsələrün yıkub, yerinə məscidlər tikdilər. Andan sonra Qəmər şah iylə vida edüb, Ummanə gəldilər. Dərhal Təfanuşin qızın göndərdi. Ol daxili ilə müsəlman oldı. Andan Misrə gəldilər. Qaravanə xəbər oldı. Məəi əl-qissə ol qızları yerlü-yerinə tapşurdı.

Andan Məkkəyə gəldilər. Ziyarət eylədilər. Seyyid çox ağladı, gözünə yuxu gəldi. Həzrət Rəsulu duşunda gördi və Həzrət iki gözündən öpdü didi: - Ay cigər guşəm, mən səndən xoşnudum, razıyam. İmdi tez dur, Bağdada var. Xəlifənün üstə, xavariclər hücum eylədilər. Seyyid oyanub duşunu Tamus pəriyə söylədi. Andan Bağdada rəvanə oldılar.

Hekayət böylədir kim, Əbu Müslüm Xorasanı rəhmətüllah xəvariclәri qırırdı. Anın soyundan bir haramzadə qalmışdı, adı Hakim idi. Xeyli bədbəxtləri cəm edüb, otuz bin kişi iylə Əntər yanına gəldi. Əntər didi: «Ya Hakim! Otuz bin kişi sənin var, igirmi min bənim var. Əlbir edüb varalum. Xəlifəni basdılar, Xəlifə qaçdı. Ləşkəri tar-mar eylədilər. Səkkizinci gün şəhəri alacaq oldular. Xəlifə dam üstə çıqdı, qibləyə qarşu yüzün [190[a]] topraqa qoyub, didi: - Allahı Məhəmməd Əl Mustafai, hörmətçün sən bana mehin ol. O dəm Seyyid çıqub gəldi. Tamus pəri yanına yetişüb gördülər kim, dəgişmişlər bir böyük ləşkərdür. Seyyid bir nərə urub didi: - Ey kafirlər meydanı hali gördünüz? Gəlün meydana görüm deyüb, həmlə eylədi. Ardınca pəri ləşkəri dəxi həmlə qıldılar. Qılınclar guruldayıb, başlar töküldü. Adamlar görünməz oldu. Cəng içində Seyyid Hakimə yetüşdi. didi: - Ey zarçı nabekar, haramzadəsən, imdi təxtə qəsd eylədün.

Hakim didi: - Ey Battal, öz mülkümdür, qəsd eylədüm. Təxt ol bizümdi. Əbu Müslüm qəzəb ilə bizdən aldı. Əgər müsəlmansın, haqqı nahaqqa yer vermə. Seyyid didi: - Ya haramzadə, sən xayin idün əlindən aldular, bunca illər onlarun mənsəbin dutdun. Qanlar yerə töküldü deyəndə, Hakim Seyyidə cida həvalə eylədi. Seyyid məne eylədi, gəldi

kim keçə, Seyyid qurşağından bərk dutdı, yerə urdı. Atından enüb iki əlin bağladı, verdı. Andan Əntəri bir zərb ilə yıxdı. Ol əlli bin zarçıdan biri qurtulmadı, qırdılar. Andan Seyyid xəlifə yanına gəldi, görüşdi. Andan Tamus pəri on bin adam ilə göründi. Sonra şəhərdən tışra çıqub çadırlar qurub, oturdular. Görənlər heybət eylədilər. Xəlifə qızın görüb şad oldı. Seyyidün hekayətin Tamusa bərabər [191] şərh eylədi. Sonra Seyyidə, dualar eylədilər. Üç gündən sonra Seyyid buyurdı. Hakimin, Əntərün dərilərin çıqartdılar.

Andan sonra Seyyid dəxi Tamus pərini mürəxxəs edüb, göndərdi.

Çün o tərəfdən xəbər gəldi ki, Əmir vəfat eylədi. Həman Həmayun Diləfruz, öldı. Seyyid çox məlul oldu. Yeddi gün yasın dutdı. Andan sonra xəlifənin qızın Seyyidə verdilər. Seyyidün oğlanları dəxi gəldilər, atasının qulluğunda oldular. Seyyid gerü göndəırdi, didi:

- Dəxi bəni neylərsüz, Əlhəmdülillah dəxi islamda düşmən qalmadı. Bu dəmdə Asaturun bir oğlu var idi, Qənatus adlu. Gəlüb Seyyidün ayağına düşdü didi:

- Xüdavənda, Rumi bana ver gəl, xəracı boynuma alayım. Hər il mübarək yüzüni görüm və Rumun xəracın gətürüm. Seyyid didi: - Müsəlman ol, Rumi sana verüm. Qənatus didi: - xəracı kəs, gəl xəracı kəsün. Qənatus Rumə Qeysər tikdi didi: - Dəxi imanlıq eyləmə, yoxsa sən bilürsən. Qənatus didi: - Haşa xidmətindən yüz döndərmərəm. Seyyid Qənatusı göndərdi.

Bir neçə gündən sonra Xəlifə qızı vəfat eylədi. Seyyid yalqız qaldı. Kəbəyə getdi. Mədinədə sakin oldı. Yeddi il mücavir oldı. Var islam məmuru oldı. Dört canibdən Seyyidə ərməğanlar, töhfələr gəlürdi. Cümləsin Seyyid [191[a]] alub dərvişlərə verürdi. Gecə gündüz ibadətə məşğul oldı.

Bir gün Seyyid oturmuşdı, Rumdən Osman adlu kişi gəldi. Seyyid xəbər alub didi: - Qeysər, nə işdədür? Osman didi: - Qeysər Rumə, Frəngə xəbər göndərdi. Namələr pə-

rakəndə edüb, kafir bəglərün cəm eylədi, didi: - Müsəlmanlar aciz olubdurlar. Qeysər ləşkəri ilə gəlüb Məmuriyyəni həsar içində qoydu. Özü Malatiya vardı. Seyyid ol gecə Rəsul Həzrəti duşunda gördü. Didi: - «Ya Seyyid, dur tez dayanma var kim, müsəlmanlar darluq içindədur. Mömünlərə mədad eylə», Seyyid oyanub gördü nurə qərq olmuş. Abdəst alub, namaz qıldı. Yüz yerə urdı didi: - İlahi, kərimsən rəhimsən, bən istəyirdim mənim toprağım munda ola. Yerindən durdı, rövziyə ziyarətə gələ, hər kim ki anı gördi, xoş gəldün ya Battal qazi, didi. Andan rovziyə gəldi, salam verdi. Rovzədən bir avaz çıqdı ki, Ey Battal qazi, hər yerdə olsan bən səndən ayrı degiləm. Bən səndən razıyam ki, çoq din yolunda qəzalar etdün. Savab çoq buldun. Bunu məssəb qəzalar elə kim, sonra bana gələsən. Bən sana müntəzirəm. Seyyid bu xəbəri eşidüb yüzün yerə qoydı, səcdeyi-şükür eylədi. Seyyid atına minüb, [192] rəvan oldı. Yolda gedərkən didi: - İllahi bir zəif biçarəyəm, cümlənin dəst giri sənsən. Səndən ğeyri mənim piş pənahım yoqdur, didi.

Bu tərəfdən Seyyidün oğlanları, Abdülvəhab oturmuşdılar. Xəbər gəldi ki, Qənatus Qeysər gəldi. Üç Frəng altı yüz bin ər ilə.

Çün bunı eşidüb, müsəlmanlar qırq qazi cəm eylədilər. Abdülvəhhab xəlifəyə namə ismarladı. Mütəsim xəlifə vəfat edüb, oğlu Bəxtiyar, xəlifə olmuşdı. Namə gəldi, namənin cavabın yazub bir bəgə verdi. Səs gəldikdə çün kafir ləşkəri yaxun gəldi. Əli məşvərət eylədilər. Ləşkərin dört bəxş edüb şəbxun eylədilər. Çoq kafir qırdılar. Abdülvəhhab, «ol Rəsul allahın mübarək yüzün görmüşəm» deyir idi. Kafirlərün alaylarun pozar idi. Nagah qəzai-asiman və təqdiri zidan yetişüb üç frəng Abdülvəhabın qafasından urdı, şəhid eylədi. At boynuna düşdü. At aldı ləşkərdən çıqardı, bir təpə üstə düşdü. İman ərzin qılub canın haqqa təslim eylədi.

Andan sabah oldu. İslam ləşkərin qırdılar, dağa qavdılar. Seyyidün oğlanları Abdülvəhhabın kövdəsin buldılar,

andan dəfn eylədilər. Kafir on yeddi gün dağı həsar eylədilər. [192a] Qırq bin müsəlmandan altı-yeddi min adam qaldı. Baqisi şəhid oldı. Malatiyanı yıxdılar, xərab eylədilər. Bir daş üzərində daş qalmamış.

Ol gündə Seyyid yetişdi. Gördü ki, müsəlmanlar dağa pənah gətürmüşlər. Əzim daməndə qalmışlardı. Seyyid soyundı. Abdəst alub, iki rükət namaz qıldı. Silahın geyüb, Əşqarı mindi. Yüzün Həzrətə dutub ayıtdı: - Xüdaya, əvvəl axır padşahsan ki, Nəmrud kafiri bir zəif sinəklə öldürdin. Sənin qəhrindən mən zəifə inayət qılasın. Ol qövm üzrə qalib edüb fürsət verəsin deyüb, üç kərə nərə urdı, didi: «Ey kafir məlun, hanı Qənatus?» Yetüşdim, hazır olun deyüb, tığ-səxxakı çəkub əlinə aldı. Ol ləşkərün içinə girdi. Hər kişi kim Seyyidün önünə gəldi, Seyyid iki para eylədi. Otuz qırq kafiri yıxdı. Seyyidün oğlanları Seyyidün avazın eşidüb şad oldılar. Onlar dəxi həmlə qıldılar.

Amma sabahı günü çaşət vəqti idi. Toz göründü. Bəxtiyar xəlifə üç yüz ər ilə çıqub gəldi, Seyyid anı görüb ah, eylədi. Üç Frəng Seyyidə bərabər gəldi. Bir gürz həvalə qıldı. Seyyid mane eylədi. Seyyid tiği-səxxakı çəküb eylə urdı təpəsindən arxasına kibi iki para eylədi. Qeysər anı görüb qaçdı. Seyyid Ələmdarı iki para eylədi. Həman dəm hava yüzündən Tamus pəri çıqub, gəldi. [199] Kafirləri eylə qırdılar kim, ol altı yüz bin kafirdən biri qurtulmadı. Seyyid, kafir ələmin xəlifəyə gətürdi. Xəlifə düa edüb təhsin qıldı. Seyyidün oğlanları gəlüb əlin öpdülər, yüz yerə qoydular. Seyyid cümlə xəlqlə görüşdi. Andan Seyyid buyurdı, kafir malın bir yerə cəm eylədilər. Ol mal ilə Malatiyanı memar eylədilər. Andan Abdülvəhhab üçün pərişan oldular. Cümə günü oldı, Seyyid minbərə çıqdı, xətbə oqudı, yenə minbərə çıqub, Quran oqudı, tövsiyə eylədi və dəxi çox nəsihətlər eylədi. Xaliq ağlaşdı.

Andan ayıtdı: «Ey cəmaət, beş xəlifəyə xidmət eylədim. Allahtala yolunda çox qılınc çaldım. Xəlifənün düşmənlərin başın aşağə eylədim. İmdi ömrüm axırə yetüşdi, imdi

geri getmək gərəkdür və dəxi ey cəmaət, həlal edün. Ətmək, duz yedük. Bən halal etdüm. Sizdə dəxi halal edün. Ol xaliq tamam ağlaşub zarlıq etdilər. Andan oğlanların xəlifəyə tapşurdı. Nəzərün üstlərindən əskük olmasun, didi. Andan sonra Tamus pəridən həlallıq dilədi. Bəni bu tərəfə çoq gətürdün. Dəryaları keçirdün. Çox xətalı yollarda yar oldun, deyirəm axirət haqqını həlal edəsin. Tamus ağladı, həlal etdi. [193a] Oğlanlarına didi: «Qiraət eləyün. Mən sizün atanızam. Məndən xeyr-düa alun. Ol qədər kim taqətim var idi, din yolunda döyüşdüm. Gah quruda, gah dəryada nə ki etdüm, nəfsim üçün etmədüm. Siz allah rizasını gözləyəsüz və dəxi qəzavəti səhil görməyəsüz, altuna gümüşə aldanmayasuz.

«Andan düa qıldı. Amin, didilər. Yeddi gün anda söhbət eylədilər. Andan Tamus vida qıldı və dəstur verdi. Xəlifə Seyyidlə görüşüb əzmi Bağdada qıldı.

Qisseyi axır həm vəfat Seyyid rəhmətullah Əliyə Çün Seyyid Malatiyada qaldı. Qeysərdən xəbər sordu, söylədilər. Seyyid didi: - Varım bu dəfə Qeysərün haqqından gəlüm, andan sonra nə qədər ömrüm olduqca Mədinədə durum. Suvar olub getdi, üç gündən sonra qalaya yetüşdi. Qeysər dəxi beş yüz ərlə önündə oturdı. Seyyid yetüşüb üç kəz nərə urdu, didi: - Ya qeysər, Məlun mənimlə əhdün var idi. Dəxi əhdüni pozdun, mən də gəldüm. İşlər qılum sana kim işin ya babanun ölümü bunun yanında halu ola, deyüb ol ləşkərə həmlə qıldı. Qeysər ah edüb didi ki, «mən miskin oldum». Battalın əlində aciz [194] qaldım. Seyyid qələdən tışarda cəng eylədilər. Qeysərün bir qızı var idi, anda olurdı. Seyyid dəxi qələnün dairəsin gəzüb, bir böyük daş tapdı. İsa peyğəmbərin zəncirin bəndin açdı, ol daşa bağladı, qələsünə gətürdi. Qələnün içinə atdı, dama doqundı adam öldürdi, andan genə atdı, çoq adamlar öldürdi. Qeysər qatı fəryad eylədi. Namaz vəqti yetüşdi. Seyyid gəlüb abdəst alub, namaz qıldı. Öz-özünə ayıdır: - Çoq yoruldum, bir az yatum rahət olum. Andan durum bu bürcü yıkım deyüb,

başı altında bir daş qoyub yatdı. Məgər Qeysərün qızı bürcə çıqdı. Baxub gözü Seyyidə tuş oldı. Gördi Seyyid yatur, ah eylədi didi: - Dəriğa, mənim soltanum, məşuqum yol üstə yatmış. İmdi adamlar gəlür, Seyyidi öldürər. Bən necə edəlüm, əgər çağursam eşidürlər biabur olarum. Bir daş əlinə alub ol qələdən didi: «Ya pəhləvan, çoq yatdun, imdi üstünə ləşkər gəlür. Dur ki, sana ziyan olmasun», deyüb ol daşı atdı. Təqdir, qəzanı gör kim, ol daş gedüb Seyyidün sinəsinə toqundı. [194[a]] Dar əlğəbrayi işğal etdi., Rəhmətullah, Əliyi Seyyidün ölməsinə səbəb ol daş imiş. Qəzai asimanı gör ki, Seyyidün ölməsinə səbəb ol daş imiş kim, Seyyidün boynuna ləngər bağlayub dəryayə saldılar ölmədi, Qeysər cah-cəhənnəmə saldı ölmədi, Ol qədər əjdəhalar içindəikən qüssə yemədi, qurtuldı. Əqaba qazı ağu verdi ölmədi. Vəda təmam oldı, bir para daş Seyyid qazinin canını təslim eylədi. Rəhmətullahi Əliyi çün qız gördü ki, bir kəz hərəkət eylədi, dəxi tərpənmədi. Didi ki, necə bir gör yuklamış, tez atası yanına gəldi, didi: - Ey baba, bana dəstur dur, tışra çıqarayım, Battal yatur, başın kəsüb yanına gətürüm və Qeysər ayıdır kim, ey cigər guşəm, qafil olma, Battal əyyardur. Sana ziyan degdirməsün. Qız didi: - Nar-ı nurun dövlətindən gözəlüm kim nə idərim ana. Qapunı açdılar. Qız çıqdı, Seyyidün yanına gəldi, gördü ki, canı haqqa təslim olmuş.

Qız ayıdır kim, «dəriğa bu dünyada bundan binəsib oldum. Bu dünya dəxi bana bunsız gərəkməz». Çıxartdı xəncərin Seyyidün [195] köksünə qoydu. Ucunı öz köksinə kəlmeyi-şəhadət gətürüb ol xəncərün üstünə düşdü. Canın haqqa təslim eylədi.

Andan sonra bir möhkəm yağmur yağdı, ildırım çaxdı. Möhkəm zülmət oldı. Ol vücudu pakları örtdü. Kimsə bilmədi ki, necə oldılar. Qeysər dəxi buralıqda fürsət tapub çıqdı. İstanbula qaçdı. Ol ləşkər ki, Qeysərün qızı görmüşdi, Seyyidün oğlanları imiş. Əlli bin kişi ilə Seyyidi basturıb, gəlirmüş.

Çünki gördilər bu halda yağmur yağdı, yellər əsüb zülmət dünyanı dutdı. Bir qədər səbr eylədilər. Yağmurlar sakin oldı. Andan qələyə gəldilər, içində əfradə *(fərdin cəmi – A.R.)* yoqdur. Axdardılar, bir kəs tapulmadı. O gecə anda sakin oldılar. Seyyidün oğlanları duşunda gördülər kim, Seyyid bir burağa minmiş gəldi. Başında tacı, alnında hilal tamamən, şəhidlər yanında. Seyyid irəli gəlüb didi: - «Ey canım oğlanlarım, bundan sonra bəni dünyada istəməyün. Bən Haqq həzrətinə ulaşdım. Amma bənim duam sizünlədür. [195[a]] İmdi, siz dəxi din yolunda möhkəm olun, qəzavəti tərk etməyün. Allah rizasını tələb edün, nəfsinizə tabe olmayun, igidliginizə dünyada məqrur olmayun. Nə ki, işlər edirsüz, allah rizasıçün edün. Dünyanı dost dutmayın, hər il Məkkəyə Mədinəyə ərmağan göndərün. Zəyiflərə əksüklərə kömək olun. Hər işdə təvəkkül edün. Dərvişlərə nəsnə verün». Bu sözləri oğlanlarına ögrətdi və nəsihət verdi. Onlar da qəbul eylədilər. Oğlanları didi: «Ey ata, hər nə kim dersən, xoşdur və gögçəkdülər». Amin Rəbbil aləmin. «Təmmət be oun-il-lillah-ül-mülk-əl-vəhab» kitab «Seyyid Battal», Abdülvəhhab Vələdi. Mir Mirzə Cəlili təmam şod. Mərhum Nuxavi sahibi kitab 1255.

Bunu yazdım yadigar olmaq üçün,
Oxuyanlar bir dua qılmaq üçün.
Həm Bu qissə burada oldı tamam,
Mustafanın ruhına yüz bin salam!